**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

# AZSAYLI XALQLARIN FOLKLORU

## VI KİTAB

**BAKI – 2024**

AMEA Folklor İnstitutu Elmi Şurasının 26 yanvar 2024-cü il tarixli qərarı (protokol № 2) ilə nəşr olunur.

**TOPLAYANLAR:** **İlkin RÜSTƏMZADƏ**
**Afaq RAMAZANOVA**
**Qalib SAYILOV**
**Mətanət YAQUBQIZI**
**Ləman VAQİFQIZI (SÜLEYMANOVA)**

**TƏRTİB EDƏNİ, ÖN SÖZÜN MÜƏLLİFİ:** **İlkin RÜSTƏMZADƏ**
**filologiya üzrə fəlsəfə doktoru**

**ELMİ REDAKTORU:** **Oruc ƏLİYEV**
**filologiya elmləri doktoru**

**Azsaylı xalqların folkloru, VI kitab.** Bakı, "Elm və təhsil", 2024, 331 səh.

"Azsaylı xalqların folkloru" seriyasının növbəti kitabına saxur, avar, talış və ləzgilərdən toplanmış folklor örnəkləri daxil edilmişdir. Materiallar Elmin İnkişafi Fondunun (indiki Azərbaycan Elm Fondunun) "Folklorda azərbaycançılıq və multikulturalizm" (EİF-KETPL-2015-1(25)) layihəsi çərçivəsində 2017-ci ildə Zaqatala, Balakən, Quba, Qusar, Masallı, Astara və Lerik rayonlarına təşkil olunmuş folklor ezamiyyələri zamanı toplanmışdır.

© Folklor İnstitutu, 2024

# ÖN SÖZ

Kitabda təqdim olunan folklor örnəkləri Elmin İnkişafı Fondunun (indiki Azərbaycan Elm Fondunun) maliyyə dəstəyi ilə 2017-2018-ci illərdə həyata keçirilən “Folklorda azərbaycançılıq və multikulturalizm” layihəsi çərçivəsində toplanmışdır. Layihədə əsas məqsəd azərbaycançılıq və multikulturalizmin folklor qaynaqlarını müəyyənləşdirmək, Azərbaycanda yaşayan xalqları birləşdirən ortaq mədəni dəyərləri tapıb üzə çıxartmaq idi. Bu məqsədlə Zaqatala, Balakən, Quba, Qusar, Lənkəran və Masallı rayonlarına ezamiyyələr təşkil olunmuş, həmin rayonlarda məskunlaşmış azsaylı xalqların nümayəndələri ilə görüşlər keçirilmişdir. Kitaba həmin ezamiyələr zamanı saxur, avar, talış və ləzgilərdən toplanmış folklor örnəkləri daxil edilmişdir.

Saxurlardan toplanmış folklor örnəkləri Zaqatala rayonunun Dağlı, Yeni Suvagil, Mişleş, Gözbarax, Mamrux və Sabunçu kəndlərindən yazıya alınmışdır. Kəndlərin yaşlı sakinləri ilə görüşlərin təşkilində kənd icra nümayəndələri bizə kömək etmişlər. Görüşlər kəndlərdə fəaliyyət göstərən folklor evlərində, icra nümayəndələrinin bizə məsləhət gördüyü yaşlı sakinlərin evində keçirilmişdir. Ünsiyyətdə olduğumuz informatorların böyük əksəriyyəti 60 və ondan yuxarı yaşda olan şəxslər idi. Ünsiyyət üçün yaşlı sakinləri seçməyimizin səbəbi onların qədim adət-ənənələrə, iməciliklərə, toy və yas mərasimlərinə, bayram mədəniyyətinə daha yaxşı bələd olmaları idi.

Bölgədən toplanmış materiallar arasında mifoloji personajlar haqqında məlumatlar xüsusilə diqqəti cəlb edir. Bunların içərisində Alnayet, Alıxaleka, Karçül, Şitbil kimi mifik

varlıqların adını çəkmək olar. Bu varlıqların adları saxurca ifadə olunsa da, onların əksəriyyəti Azərbaycan mifologiyasındakı Hal anası, Cin haqqında təsəvvürlərlə, demək olar ki, eynidir. Hətta bəzi mifik varlıqların adları Azərbaycan dilindəki qarşılığının saxurcaya tərcüməsindən ibarətdir. Məsələn, Azərbaycan türklərinin Al anası dediyi varlığa onlar Alnayet deyirlər ki, bu da saxurcadan tərcümədə Al anası anlamına gəlir. Tənbur havaları ilə oxunan henglərin (mahnı) sözləri saxurca olduğu halda, nəqərat hissəsi Azərbaycan dilindədir. Layihə çərçivəsində aparılan tədqiqatlar göstərir ki, Azərbaycanda vahid bir mədəniyyət mövcuddur. Burada yaşayan bütün xalqlar həmin mədəniyyəti mənimsəyərək onu özününküləşdirmiş, yeni çalarlar əlavə etməklə zənginləşdirmişlər.

Bölgədə müşahidə olunan multikultural dəyərlərdən biri də Azərbaycan və saxur dilində manilərin bir arada işlənməsidir. Bu, bölgədə fəaliyyət göstərən folklor kollektivlərinin repertuarında daha çox müşahidə olunur. Tənburda ifa olunan mahnının bir bəndi saxurca oxunursa, digər bəndi azərbaycanca söylənilir. Bu da bölgədə Azərbaycan türkü ilə saxurların bir arada yaşamasından qaynaqlanır və tənbur ifaçıları Azərbaycan türklərinin onların oxuduqlarını başa düşmələri üçün bir bəndi saxurca, digər bəndi Azərbaycan dilində söyləyirlər.

Bölgədə müşahidə olunan səciyyəvi folklor faktlarından biri saxurların bayram mədəniyyəti ilə Türkiyə türklərinin bayram mədəniyyəti arasında yaxınlığın olmasıdır. Saxurlar arasında axır çərşənbə anlayışı yoxdur, ümumiyyətlə, çərşənbələr keçirilmir, yalnız baharın gəlişi qeyd olunur. Bunun əksinə, dini bayramlar – Ramazan bayramı və Qurban bayramı

daha möhtəşəm keçirilir. Hətta yumurta boyamaq, yumurta döyüşdürmək, qapı gəzmək, pay yığmaq kimi Novruz bayramına məxsus adətlər Ramazan bayramında icra olunur. Dini bayramların daha möhtəşəm keçirilməsi bölgənin uzun müddət Osmanlının təsiri altında olmasından qaynaqlanır.

Ənənəvi folklorun yaşadığı məclislər – iməciliklər, gimlər, dədə-baba toyları artıq günümüzdə məişətdən çıxmışdır. Bu da folklor mətnlərinin auditoriyasının daralmasına, uzun müddət ifa olunmadığından onların dövriyyədən çıxmasına səbəb olmuşdur. Bölgədə ezamiyyədə olduğumuz zaman bu, açıq-aydın müşahidə olunurdu. Vaxtilə xına gecələrində oxunan "Salamməlik"lər bu gün yalnız folklor kollektivlərinin ifasında yaşamaqdadır. Vaxtilə hər evdə tənbur çalmağı bacaran şəxs vardısa, bu gün ancaq Dağlı və Suvagil kəndlərində tənbur ifaçıları qalmaqdadır, onlar da barmaqla sayılacaq qədər azdır.

Ezamiyyə zamanı gəldiyimiz qənaətlərdən biri də bölgədə nəqşibəndilik təriqətinin geniş yayılmasıdır. Bu təriqətdən gələn bir çox görüşlər bölgədə keçirilən mərasimlərdə, xüsusən də yas mərasimində daha aydın müşahidə olunur. Nəqşibəndilik zikr təriqəti kimi tanınır. Bununla əlaqədar, zikr etmək bölgə sakinlərinin həyatında mühüm yer tutur. Hər bir insan dünyasını dəyişəndə onun üçün 70000 zikr bağışlanır və yetmiş min zikr bir Qurana bərabər tutulur. Bölgədəki ziyarətgahların böyük əksəriyyəti nəqşibəndi müridlərinin – Şıxəmir baba, Ərətmə baba və digərlərinin qəbirləridir. Vaxtilə bölgədə dini fəaliyyət göstərmiş bu şəxslər dünyalarını dəyişdikdən sonra qəbirləri ziyarətgaha çevrilmişdir. Bununla əlaqədar, nəqşibəndi müridlərinin möcüzələri və kəramətləri haqqında rəvayətlər də bölgədə geniş yayılmışdır.

Toplanan materialların araşdırılması göstərir ki, ənənəvi mədəniyyətin müəyyən səbəblər üzündən unudulmuş, günümüzə gəlib çatmamış qədim halqaları bu gün azsaylı xalqlar arasında yaşamaqdadır. Bölgədən qeydə alınmış tənbur havaları, seyrana çıxmaq, suluqa girmək, döl bayramı kimi qədim etnoqrafik təsəvvürlər də bunu sübut edir. Vaxtilə müxtəlif bölgələr üçün xarakterik olan bu təsəvvürlər bu gün azsaylı xalqlar arasında yaşayır. Bu faktlar onu göstərir ki, azsaylı xalqların folklorunun öyrənilməsi həm də ümumazərbaycan foklorunun öyrənilməsinə, qaranlıq qalan bir çox məsələləri aydınlaşdırmağa kömək edir.

***

Avar folklor örnəkləri Balakən rayonunun Qabaqçöl ərazisindəki kəndlərdən – Xalatala, Meşə Şambul, Şambul, Yeni Şərif, həmçinin Katex, Mazımçay kəndlərində yaşayan avarlardan yazıya alınıb. Heravasov Nurməhəmməd Şəmsəddin oğlu (Katex kəndi), Hacıyeva Nərgiz Cəmil qızı (Katex kəndi), Hetayeva Cəvahir Tələt qızı (Xalatala kəndi), Muradova Möminat Ramazan qızı (Mahamalar kəndi) ilə görüşümüz xüsusilə məhsuldar oldu. Bu informatorlardan avar xalqının adət-ənənələri barədə qiymətli materiallar toplamağa müvəffəq olduq. Toplama zamanı müşahidə olunmuşdur ki, azsaylı xalqların kompakt yaşadığı ərazilərdə onlar etnik mədəniyyətlərini, özünəməxsus xüsusiyyətlərini daha yaxşı qoruyub saxlamş, amma qarışıq, pərakəndə halda məskunlaşdıqları ərazilərdə Azərbaycan türklərinə məxsus mədəniyyət elementlərini daha çox mənimsəmişlər.

Bölgə dağlıq ərazi olduğu üçün ovçuluq, meşə adamı haqqında təsəvvürlər burada geniş yayılmışdır. Quba-Qusar

bölgəsində Meşə gəlini adı ilə tanınan personaj bu bölgədə Meşə adamı kimi təqdim olunur.

Zaqatala-Balakən bölgəsi həm də Kəsikbaş haqqında əfsanələr və ziyarətgahlarla məşhurdur. Belə ziyarətgahlardan biri Zaqatala rayonunun Mişleş kəndində, digəri isə Balakən rayonunda yerləşir. Bu gün də insanlar havalar quraq keçəndə həmin yerləri ziyarət edir, üstündə qurban kəsib Allahdan yağış diləyirlər. Kitabda həmin ziyarətgahlar haqqında xalq arasında dolaşan əfsanələr də verilmişdir. Hadisələrin müxtəlif zaman və məkanlarda cərəyan etməsi, müxtəlif şəxslərə bağlanmasına baxmayaraq, bu əfsanələrin hamısı eyni süjet üzərində qurulmuşdur. İslamiyyəti yaymaq və qorumaq məqsədilə ilə düşmənlə savaşan şəxslərin savaşda başlarının kəsilməsi, başlarını qoltuqlarına alaraq müəyyən məsafəyə qədər hərəkət etmələri, kəsilmiş başın zikir etməsi, azan çəkməsi bu əfsanələrin ortaq motivləridir. Əfsanələrə diqqət yetirdikdə onların əsas iştirakçılarının dini və milli maraqlar uğrunda mübarizə aparmış şəxslər olduğunu görmək olar. Bir əfsanədə Şeyx Şamilin dəstəsində Çar Rusiyasına qarşı mübarizə aparan Molla Şərifdən, digərində din uğrunda vuruşan şeyxdən bəhs olunur. Kəsilmiş başlarını qoltuqlarına alaraq hərəkət etmələri, kəsilmiş başın azan çəkməsi, zikr etməsi onları fövqəltəbii şəxslərə çevirmişdir.

Əfsanələrin məzmunu qədər onların yerinə yetirdiyi funksiya da önəm kəsb edir. Bu əfsanələr İslam dininin ucalığını anlatmağa, din uğrunda vuruşmağın müqəddəs bir vəzifə olduğunu kütləyə aşılamağa xidmət edir. Türbələr və müəyyən şəxslər haqqında yaradılan bu əfsanələr həmin şəxslərin və ya məkanların müqəddəsləşdirilməsinə xidmət edir. Hadisələrin konkret

zaman və ya məkana bağlanması, başı kəsilənin konkret şəxslər olması bu tip mətnlərin gerçəkliyini, inandırıcılığını artıran əlamətlərdir.

İslam dininin qəbulundan sonra türk mədəniyyəti islam dəyərləri əsasında yenidən təşkil olunmağa başlamışdır. Bu dəyişiklik sosial-mədəni həyatın bütün sahələrini, o cümlədən sözlü və yazılı ənənəni də əhatə etmişdir. İslam dininin təsiri altında şifahi ənənəli mətnlər islami xarakter kəsb etməyə başlamış, ənənəvi türk personajları islam dini şəxslərinə transformasiya olunmuşdur. Kəsikbaş haqqında əfsanələr də məhz bu dövrdə ortaya çıxmışdır. Bu əfsanələr Orta Asiyadan Balkanlara qədər geniş bir ərazidə yayılmış və bu coğrafiyada yaşayan türk boylarının ortaq mirasına çevrilmişdir. Tədqiqatçılar bu əfsanələrin türklərin Anadoluda yerləşmələrindən sonrakı dövrdə ortaya çıxdığı qənaətindədirlər. XIV əsrdə bu əfsanələrin "Dastani-Kəsik baş" kimi yazılı örnəkləri meydana çıxmış, bu süjetlər XV-XVI əsrlərdən etibarən Orta Asiyadakı türk boyları arasında da yayılmışdır. Ahmet Yaşar Ocaq "Kəsikbaş" dastanının Anadolu türkləri arasında çox bəyənildiyini, Anadolunun bir çox yerlərindəki kəsikbaş türbələrinin onun təsiri ilə yarandığını qeyd edir[1].

***

Talış folklor örnəkləri Masallı rayonunun Türklər, Mahmudavar, Qızılavar, Miyanku, Astaranın Sım və Hamoşam kəndlərindən və Lerik rayonundan toplanmışdır. Türklər kəndində Həbibov Soltan Ağarazi oğlu, Məmmədov Rəvvaq Qubad oğlu, Mahmudavar kəndində Əliyeva Natavan Sabir qızı, Mirzəyev

[1] Ahmet Yaşar Ocak. Türk folklorunda kesik baş (Tarih-Folklor İlişkisinden Bir Kesit). Ankara: "Türk Kültürünü Araştırma Enstitüsü Yay.", 1989, 142 s.

Musarza Oğul oğlu, Qızılavar kəndində Ağayev Xanəli Şirəli oğlu, Miyanku kəndində Şabanov Vəliməmməd Əli oğlu və Həsənova Nisə Şirməmməd qızı ilə söhbətərimiz daha məhsuldar alınmışdır. Ezamiyyənin məhərrəm ayına təsadüf etməsi məhərrəmlik adət-ənənələrinə dair maraqlı materialların yazıya alınması ilə xarakterik oldu. Kərbəla hadisələrinin səhnələşdirildiyi şəbehlər bu gün bölgədə oynanılmır, amma teşt qurmaq, ələm gəzdirmək, imam ehsanları, şaxsey getmək kimi məhərrəmlik adətləri qorunub saxlanılır.

Talışların inanc sisteminə, mifoloji təsəvvürlərinə dair maraqlı məlumatlar yazıya alınmışdır. Belə təsəvvürlər arasından Xıdır Nəbini qeyd etmək olar. Azərbaycanın bir çox bölgələrində Xıdır Nəbi qış yarı olanda qeyd olunursa, talışlarda bu dövr Böyük çilənin son həftəsi və Kiçik çilənin əvvəlinə düşür. Yaşlı sakinlərin dediyinə görə, həmin müddətdə yerə oğru buğ gəldiyindən torpaqda hərarət yaranır və ondan sonra nə qədər qar yağsa da yerdə qalmır və tez əriyir. Xıdır Nəbi haqqında bölgədən yazıya alınmış məlumatlar və rəvayətlər bu bayram haqqında təsəvvürlərimizi daha da genişləndirir.

Azərbaycan mifologiyasında geniş yayılmış Hal anası haqqında təsəvvürlərə talışlar arasında təsadüf etmədik, amma Hal anası ilə eyni funksiyanı yerinə yetirən Şeşə haqqında təsəvvürlər bölgədə geniş yayılmışdır. Yaşlı sakinlərin dediyinə görə, uşaq doğulandan sonra altı gün ananı və uşağı qoruyurlar, onları tək buraxmırlar ki, Şeşə gəlib onlara xəsarət yetirər. Şeşə, əsasən, altıncı gün uşağın yanına gəlir. Ona görə də həmin gün nəzarəti daha da gücləndirir, düyünü və unu qovuraraq evin ətrafına səpirlər. Deyilənə görə, qovrulmuş düyünün iyi

Şeşənin diqqətini cəlb edir və Şeşə düyünü yedikdən sonra evə girmədən çıxıb gedirdi.

Talış folklorundan danışarkən, təbii ki, mahnılara toxunmadan keçmək mümkün deyildir. Yaşlı sakinlərin çəkdiyi bir məsəl "talışda düyünün sayı olar, mahnının sayı olmaz" ifadəsi, əslində, talışların mahnıya, sözə nə qədər bağlı olduğunu göstərir. Bu baxımdan, Mahmudavar kəndində fəaliyyət göstərən "Halay" folklor kollektivinin bədii rəhbəri Natəvan Əliyeva ilə görüşümüzü xüsusi vurğulamaq istərdik. Natəvan Əliyeva vaxtilə anasının qurucusu olduğu "Halay" folklor kollektivinin ənənələrini bu gün də uğurla davam etdirir. Bu kollektivin ifasında talış mahnıları ilə yanaşı, bir çox qədim Azərbaycan mahnıları da qorunub saxlanmışdır. Vaxtilə toylarda, iməcilərdə ifa olunan həmin mahnıları bu gün "Halay" kollektivinin üzvləri yaşadır. Həmin kollektivdən yazıya aldığımız insanların düyü və ya buğda sovurarkən və ya isti yay günlərində küləyi çağırmaq üçün oxuduqları "Heydər boy" nəqaratlı mahnı da külək tanrısı haqqında qədim təsəvvürlərin qalıqlarıdır.

Talış toyları ənənəvi Azərbaycan toyları ilə eynidir, lakin ənənəvi toylardan toyun müəyyən mərhələsində keçirilən ağsaqqal plovu, yengə aparmaq kimi adət-ənənələrinə görə seçilir. Azərbaycan toylarından fərqli olaraq, talış toyları bir qayda olaraq "A yordu-yordu" mahnısı ilə tamamlanır. Ezamiyyə zamanı vaxtilə talış toylarında qadınlar tərəfindən ifa olunan "Ay qırmızı nimtənə", "A yordu, yordu", "Kinəlim-kinəlim" kimi bir çox xalq mahnılarının mətnlərini yazıya almağa müəssər olduq.

Maraqlıdır ki, Azərbaycan mifologiyasına, folkloruna və etnoqrafiyasına məxsus bəzi təsəvvürlər Azərbaycan türkləri

arasında unudulub dövriyyədən çıxsa da, azsaylı xalqlar arasında qorunub saxlanmaqdadır. Masallı rayonuna folklor ezamiyyəsi də bu baxımdan məhsuldar keçdi. Bölgədən yazıya alınmış Şeşə obrazı, Xıdır Nəbi, Heydər boy haqqında təsəvvürlər Azərbaycan mifologiyası haqqında təsəvvürlərimizi genişləndirməklə yanaşı, bir çox mifoloji obrazların izahına kömək edə bilər.

***

Ləzgi folklor örnəkləri Quba rayonunun Üçgün, Küsnət, Qımılqışlaq, Qusar rayonunun Urva, Hil, Həzrə, Əniq və Yasab kəndlərindən toplanılıb. Quba rayonunda yaşayan ləzgilər azərbaycanlıların və tatların əhatəsində olduqlarından onlar ləzgi folkoruna dair çox az sayda nümunələri yadda saxlaya bilmişlər. Ləzgi folklorunun aparıcı janrlarından olan, toylarda, iməcilərdə (mel) qadınlar tərəfindən oxunan məliləri isə tamamilə unutmuşlar. Ona görə də Quba rayonuna ezamiyyətimiz, əsasən, etnoqrafik materialların, pirlər və ocaqlar haqqında məlumatların yazıya alınması ilə yadda qalmışdır. Qusar rayonunda yaşayan ləzgilər isə ana dilləri ilə yanaşı, folklor nümunələrini, ləzgi mahnılarını daha yaxşı qoruyub saxlamışlar. Rayonun Hil və Urva kəndlərində olduğumuz zaman "Nazani", "Ala gözlü", "Ninni yar", "Mahi dilbər" və sair ləzgi mahnılarını, həmçinin ləzgi dilində xeyli məli nümunəsi yazıya aldıq. Həmin mahnı nümunələrinin qorunub saxlanmasında Hil kəndində fəaliyyət göstərən "Mel" folklor kollektivinin əməyini xüsusilə qeyd etmək lazımdır. Vaxtilə yaşlı qadınların toylarda, mellərdə söylədikləri mahnı və məli nümunələri həmin kollektivin repertuarına daxil edilərək bu gün də yaşadılır.

Ləzgilərdən qeydə alınmış nümünələr arasında yağış yağdırmaq və Günəşi çağırmaqla bağlı mərasimlər xüsusilə diqqəti

cəlb edir. Ləzgilərdə yağış yağdırmaq üçün Vişapa tanrısının şərəfinə mərasim icra olunur. Bir nəfərin bədəninə yaşıl ağac budaqları bağlanılır, boynuna kəndir keçirilir, bir nəfər də həmin kəndiri əlinə alıb onu qapı-qapı gəzdirir. Hansı qapıya girirsə, onun üstünə su tökülür. Yağış tanrısının şərəfinə icra olunan bu mərasimin digər bir variantına avarlar arasında rast gəlmişdik. Orada da bir qadın yağış yağdırmaq üçün qollarına ağac budaqları bağlayaraq kəndi gəzir. Ləzgilərdən qeydə alınan variant daha arxaikliyi, qədim cizgiləri özündə qoruyub saxlaması ilə seçilir. Vişapa Altay türklərində əjdaha adıdır. Nəzərə alsaq ki, əjdaha su ilə bağlıdır, o zaman bu personajlar arasındakı müqayisə yeni-yeni araşdırmalara rəvac verəcəkdir.

Quba-Qusar rayonlarına səfərimiz həm də qədim ləzgi təqvimi haqqında məlumat əldə etməyimizlə əlamətdar oldu. Qədim ləzgi təqvimi ənənəvi təqvimlərdən fərqlənir, sırf praktik məqsədlərə xidmət edir. Ləzgi təqvimində yaz və yay səkkiz, payız yeddi, qış isə altı dövrə bölünür. Hər dövr isə günlərə ayrılır. Ən qısa dövr 4, ən uzun dövr isə 15 gün çəkir. Ləzgi təqvimi bir qədər əvvəl qeyd etdiyimiz kimi, praktik məqsədlərə xidmət etmiş və uzun illər aparılan müşahidələr əsasında formalaşmışdır. Təqvimin bir çox dövrləri bu gün unudulsa da, insanların gündəlik həyatında istifadə etdiyi dövrlər hələ də hafizələrdə qalmaqdadır. Biz də hafizələrdə yaşayan həmin dövrlər – qoğer (şum vaxtı), uruqun-duruqun (çiçək açan vaxt), çiq (qışın oğlan çağı) və sair haqqında məlumatlar topladıq. İnsanlar bu gün də gündəlik həyatlarında həmin təqvimə istinad edir, əkin və biçinlərini ona görə gerçəkləşdirir, havaların necə keçəcəyini onun əsasında müəyyən edirlər.

Ləzgilərdən yazıya aldığımız Albab haqqında təsəvvürlər Hal anası haqqında təsəvvürlərlə eyniyyət təşkil etsə də, Albabın zahiri görkəmi, kişilərin qəlbini çalaraq onları qayadan aşağı atması haqqında məlumatlar yeniliyi ilə seçilir.

Bundan əlavə, yaz bayramına, ləzgi toyuna dair bölgədən yazıya aldığımız materiallar da maraq doğurur. Qışdan çıxmaq münasibətilə yaşlı-cavan hamının çilədən çıxması, bu məqsədlə icra olunan mərasimə ilk dəfə bu bölgədə rast gəldik. Həmçinin, toylarda icra olunan bir çox adət-ənənələr bu bölgə üçün xarakterikdir. Bu nümunələr ləzgi folkloru haqqında daha dolğun təsəvvür yaratmaqla bərabər, digər bölgələrlə müqayisə aparmaq üçün də zəngin material verir.

Layihənin icrası nəticəsində aşağdakı qənaətlər əldə edilmişdir:

– Milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycanda yaşayan xalqları birləşdirən əsas amillər ortaq vətən, ortaq dil, ortaq tarix və ortaq mədəniyyət anlayışıdır. Bu anlayışlar həm də azərbaycançılıq məfkurəsinin əsasını təşkil edən elementlərdir. Azərbaycanda yaşayan xalqların hər birinin ortaq bir vətəni vardır ki, bu da Azərbaycan Respublikasıdır. Azərbaycan ərazisində yaşayan hər bir xalq bu ölkəni özünün doğma vətəni saymış, onun inkişafı üçün çalışmış, onun uğrunda vuruşmuş və şəhid vermişdir.

Eyni coğrafiyada yaşamaqla yanaşı tarixi qədərimiz də eyni olmuşdur. Burada yaşayan xalqlar coğrafiyanın gətirdiyi çətinliklərə qarşı birlikdə sinə gərmiş, sevincimiz, kədərimiz, dostumuz, düşmənimiz bir olmuşdur.

Azərbaycan ərazisində yaşayan xalqların hər birinin öz dili olsa da, onları birləşdirən ümumi bir dil vardır, o da Azər-

baycan dilidir. Azərbaycan dilinin dünyanın inkişaf etmiş dillərindən biri olması, bu dildə bədii, elmi və publisistik əsərlər ərsəyə gətirmək imkanı onun birləşdirici amil olmasında mühüm rol oynamışdır. Bu xalqlar Azərbaycan dilini öz doğma dilləri qədər mənimsəmiş, bu dildə yazıb-yaratmış, gözəl əsərlər ərsəyə gətirmişlər.

Ən nəhayət, mədəniyyət amili. Azərbaycan ərazisində dominant mədəniyyət türk mədəniyyət tipidir. Bu coğrafiyada yaşayan hər bir xalq bu mədəniyyəti mənimsəyərək özünküləşdirmiş, özündən müəyyən elementlər əlavə etməklə onu daha da zənginləşdirmişdir. Ona görə biz Azərbaycanın hansı bölgəsində olduqsa, orada ancaq özümüzü gördük. Bölgələr arasında müşahidə olunan fərqliliklər isə etnik və tarixi amillərdən qaynaqlanır.

– Azərbaycan folkloruna və etnoqrafiyasına məxsus bir çox qədim nümunələr, təsəvvürlər Azərbaycan türkləri arasında unudulub dövriyyədən çıxsa da, azsaylı xalqlar arasında qorunub saxlanmaqdadır. Bu baxımdan, azsaylı xalqlardan yazıya alınmış şeşə obrazı, yağış tanrısı Vişapa, Meşə adamı, Heydər boy, bayram mədəniyyəti haqqında təsəvvürlər, həmçinin iməcilərdə, toylarda ifa olunan mahnılar, nəğmələr Azərbaycan folkloru haqqında təsəvvürlərimizi genişləndirməklə yanaşı, bir çox mifoloji obrazların öyrənilməsinə kömək edəcəkdir. Bu mətnlərin bəziləri ortaq mənəvi dəyərlər və ortaq yaşayış tərzinin məhsulu kimi çıxış etsə də, onlar arasında kifayət qədər orijinal və təkrarlanmayan, həmin xalqa və ya etnik qrupa xas nümunələr də tapmaq mümkündür.

– Fərqli mədəniyyətlərin təmasda olduğu bölgələrdə ikidilli folklor örnəkləri geniş yayılmışdır. Azsaylı xalqların

gündəlik danışıqlarında həm Azərbaycan, həm də öz dillərindən istifadə etmələri ikidilli folklor nümunələrinin yaranmasına gətirib çıxarmışdır. Məsələn, tənburda ifa olunan mahnıların sözlərini öz dillərində söylədikləri halda, nəqarət hissəsini Azərbaycan dilində söyləyir, yaxud mahnının bir bəndini öz dillərində, digər bəndini Azərbaycan dilində ifa edirlər.

– Folklor fəaliyyətləri xalqın həyatı ilə sıx bağlıdır, ona görə etnik mədəniyyətdə baş verən dəyişikliklər folklordan yan keçmir. Şəhərləşmənin sürətlənməsi, radio, televiziya kimi informasiya vasitələrinin ortaya çıxması ənənəvi kənd həyatında ciddi dəyişiliklərə yol açmışdır. Nəticədə klassik folklor məclisləri – nağıl gecələri, dimgələr, dövranlar sıradan çıxmış, bu da peşəkar söyləyiciliyin sonunu gətirmiş, folklor mətnlərinin yaşlı nəsildən gənc nəslə ötürülməsinin axsamasına səbəb olmuşdur. Vaxtilə həmin məclislərdə söylənən folklor nümunələrinin böyük bir qismi unudulmuş, yalnız yaşlı nəslin hafizəsində qalmış nümunələr günümüzə gəlib çatmışdır. Bu tendensiya azsaylı xalqlarda da müşahidə olunur. Kolxozların dağılması ilə əlaqədar Sovet dövründə keçirilən tütün iməcilikləri sıradan çıxmış, ənənəvi toyların yerini müasir saray toyları tutmuş, bu da orada oxunan nəğmələrin, oynanan oyunların dövriyyədən çıxmasına səbəb olmuşdur.

İlkin Rüstəmzadə<br>filologiya üzrə fəlsəfə doktoru

# SAXURLARDAN TOPLANMIŞ FOLKLOR ÖRNƏKLƏRİ

## 1. YAZ BAYRAMI[2]

Saxurlarda qış böyük çilə, kiçik çilə və çilə beçələr deyilən üç dövrə bölünür. Dekabrın 22-dən fevralın birinə qədər olan dövr böyük çilə, fevralın birindən 20-nə qədər olan dövr kiçik çilə, ondan sonrakı dövr isə çilə beçələr adlanır. Çilə beçələrin neçə gün sürməsi, onların sayı barədə dəqiq məlumat verən olmadı, amma yaz girənə qədər davam etdiyini təxmin etmək olur. Çilə beçələrdə səhər hava bir cür, axşam başqa cür olursa, onda deyirlər ki, bir günə iki çilə düşüb. Zaqatala rayonu Mamrux kənd sakini Abakər Qurbanovun dediyinə görə, çilə beçələrin hər birinin öz adı var. Söyləyici onlardan yalnız birinin – Danaqıran beçənin adını xatırlaya bildi. Onun dediyinə görə, danaqıran beçə girəndə otların arasında sarı çiçəklər açır. Bir qarı danasını otarmaq üçün həyətə bağlayır. Həmin çiçəkdən yeyən dana köpüb ölür. Danaqıran beçə də öz adını buradan alır.

Çilə beçələr qurtarandan sonra qarının günləri başlayır. Rəvayətə görə, havaların isinməsinə aldanan qarı tayasını odlayır ki, artıq yaz gəlib, ota ehtiyac yoxdur. Bununla bağlı saxurlar arasında belə bir məsəl də var:

Mart çıxdı, dərd çıxdı
Qarının keçiləri yaza çıxdı.

---

[2] 1-8 saylı mətnlərdəki etnoqrafik təsvirlər söyləyici məlumatları əsasında tərtibçi tərəfindən verilib.

Ondan sonra güclü qar yağır, qarının keçiləri acından ölür. Qarının günləri aprelin ortalarına, bölgə sakinlərinin təbirincə desək, alça çiçək açana qədər davam edir. Hətta belə bir misal çəkilir: martın hamısı, aprelin yarısı. Yəni aprelin yarısına qədər olan dövr qış üstündə getdiyi üçün həmin müddətdə hava dəyişkən olur.

Saxurlarda İlaxır çərşənbə qeyd olunmur, ona məxsus bir çox atributlara – yumurta boyamaq, yumurta döyüşdürmək, qapı gəzmək və s. Ramazan və Qurban bayramlarında rast gəlinir. Son illərdə Novruzun müəyyən təmtəraqla qeyd olunması isə televiziyanın təsiri və təbliği ilə baş vermişdir. Saxurlarda bizim başa düşdüyümüz anlamda Novruz bayramına rast gəlinmir, özlərinin də qeyd etdiyinə görə onlar üçün dini bayramlar daha əzizdir. Amma yazın gəlişi bu gün də saxurlar arasında qeyd olunur. Onlar yazın gəlməsi münasibəti və bol məhsul diləyi ilə yaz qabağı *sadağalar* (sədəqə) verirlər. Yazın gəlişinin qeyd olunduğu həmin günlərə Zaqatala rayonunun Sabunçu kəndində *gül-çiçək bayramı* deyilir.

Sadağaların keçirilmə tarixi kənddən kəndə fərqlənir. Zaqatala rayonunun Dağlı kəndində sadağalar martın 20-22-si arası, Sabunçu kəndində isə aprelin 10-15-i arası keçirilir. Sabunçu sakini Çiçək Rəcəbovanın dediyinə görə, gül-çiçək bayramını aprelin 10-15-i arası qeyd edirlər. Qayınanası həmişə deyərdi ki, fındığın yarpağı kəsəyənin qulağı boyda olanda gül-çiçək bayramını qeyd etmək lazımdır. Onda Allaha xoş gedər, bol məhsul verər. Yeni Suvagil kəndində isə sadağalar martın 20-si başlayıb ayın axırına qədər davam edir.

Dağlı kəndində həmin günlər hərə evdən müəyyən ərzaqlardan götürüb meydança kimi geniş bir əraziyə və ya bir bağa

toplaşır. *Mətux* adlanan bu yığıncaqlarda ocaqlar qalanır, yaşlı qadınlar yığılan ərzaqdan sülhüllü, çint (əriştə), maxara (süd çörəyi) kimi yeməklər bişirir. Bişirilən yeməklərdən, ilk növbədə, imkansızlara, xəstə adamlara pay göndərilir, sonra süfrə açılıb yemək yeyilir. Yoldan keçən olanda onlar da yeməyə dəvət olunur, oturmadığı təqdirdə bişirilən yeməkdən pay verib yola salınır. Yemək bişirilməsinə, adətən, gündüz başlanılır, axşam isə şənlik olur. Dağlı kəndində mətuxlar oba-oba keçirilir. Bu gün bir oba qeyd edirsə, sabah başqa bir oba onu keçirir. Bu obanın adamları o biri obaya gedərək onların məclisində iştirak edir. Mamrux kəndində isə mətuxlar, əsasən, bəylər obasında keçirilir. Kənd sakini Gülpəri Paşayevanın verdiyi məlumata görə, bir qıraqda sac asılıb yemək bişirilir, bir qıraqda da yelləncək (sallancaq) qurulur. Oğlanlar, qızlar axşama kimi orada əylənir, dəf çalıb oynayırlar.

Zaqatala rayonunun Dağ Suvagil, Ağdam-Kələli kəndlərində yaz qabağı keçirilən maraqlı mərasimlərdən biri də *seyrana çıxmaqdır*. Seyrana, adətən, aprelin ortalarında – qoyunlar dağa çıxan vaxtı, başqa deyimlə, darı cücərib yarım qarış boy atanda çıxılırdı. Bu mərasimdə yetkinlik yaşına çatmış qızlar, oğlanlar iştirak edirdi. Musa Turacovun dediyinə görə Dağ Suvagil kəndi üç tabundan təşkil olunmuşdu: Aşağı tabun, Orta tabun və Yuxarı tabun. Hər tabunun öz seyran yolu var idi. Ən uzun seyran yolu Aşağı tabunun idi. Söyləyicinin dediyinə görə, Aşağı tabun dörd dağ, orta tabun iki dağ, yuxarı tabun isə bir dağ aşırdı. Aşağı tabun Qonbaş, Tinipi, Barsidan, Barqutan təpələrini dolaşırdı, Orta tabun Arnaydan çıxıb Kaçapiridən enirdi, Baş tabun isə Kaçapiri hərlənib kəndin qabağında seyranı tamamlayırdı.

Seyrana səhər tezdən çıxılırdı. Hər kəs evdən hazır yemək – fətir, yumurta, bişmiş ət, həmçinin çalıb-oymaq üçün nağara, zurna, tənbur kimi musiqi alətləri götürüb çıxırdı. Seyran yolu birbaşa gəzilmir, yolboyu düşərgələr salınırdı. Suvagil sakini Musa Turacovun dediyinə görə, seyran vaxtı düşərgələrini qoyun binələrinə yaxın yerdə salırdılar. Orada qızlar evdən gətirdikləri yeməkdən süfrə açır, çobanlardan pendir, qatıq alırdılar. Yeməklərini yeyib, çalıb-oynayıb yenə yola davam edirdilər. Növbəti yatağa çatanda bu dəfə orada düşərgə salırdılar. Mamrux kəndində seyrana bulaq üstünə gedilirdi. Qızlar mahnı oxuyur, oğlanlara tərif verir, oğlanlar da bir kənarda durub onları seyr edirdi. Seyran vaxtı "Salam-məlik", "Ceyranım", "Qara gözlüm" kimi mahnılar oxunurdu ki, həmin mahnıların sözləri də məhəbbət mövzusunda idi. Yeni Suvagildən yazıya aldığımız "Mənim gülüm" mahnısını da folklor evinin müdiri Qədir Qurbanovun dediyinə görə, qızlar seyran vaxtı oxuyurdular:

Ləngəridə üzüm var, mənim gülüm,
Üzüm, səndə gözüm var, lilay, liloy.
İki əmi qızının, mənim gülüm,
Kiçiyində gözüm var, lilay, liloy.

Dağlara çən düşəndə, mənim gülüm,
Sünbülə dən düşəndə, lilay, liloy
Ruhum bədəndə oynar, mənim gülüm
Yadıma sən düşəndə, lilay, liloy

Kələlidə seyrana çıxılanda *uçuncaq* (məmiley) qurulurdu. Kənd sakini Yusif Məmmədovun dediyinə görə, Qas deyilən ərazidə böyük armud ağacı vardı, orada keçi qəzilindən toxun-

muş sicimdən uçuncaq qururdular. Uçuncaqda oturaq, ya da ayaq üstə yellənirdilər. Oturanda bir nəfər onu yellədir, ayaq üstə durduqda isə əyilib qalxmaqla yelləncəyi hərəkətə gətirirdilər. Qızlar uçunan vaxtı oğlanlar kəmərlə onu vurub istədiyi oğlanın adını soruşur, həmçinin oğlanlar uçunan vaxtı qızlar kəmərlə onları vurub istədiyi qızın adını soruşurdu.

Dağ Suvagildə seyran axşama qədər davam edirdi. Söyləyicinin dediyinə görə, bəzən bir gündə eyni seyran yolunu üç dəfə fırlandıqları vaxt olurdu. Seyrandan axşam qayıdırdılar. Ondan sonra da kiminsə evində toplaşıb ya maxara, ya da aş bişirirdilər, oğlanlar, qızlar bir yerdə mahnılar oxuyub səhəri açırdılar. Səhər də hər kəs dağılışıb evinə gedirdi.

Seyran haqqında məlumatları verənlər dağ kəndlərinin yaşlı sakinləri idi, uşaqlıq dövrünün xatirələrini danışırdılar. Onların verdiyi məlumatdan məlum olur ki, bu adət keçən əsrin ortalarına qədər davam etmiş, ondan sonra unudulmuşdu.

## 2. DÖL BAYRAMI

Balakən-Zaqatala bölgəsində qış sərt keçdiyindən qoç sürüyə sentyabrda qatılır, döl isə fevral, mart aylarına düşürdü. Zaqatala rayonunun Mişleş kənd sakini Ramazan Məmmədovun dediyinə görə, kolxoz dövründə ən azı on-on iki nəfər döldə olurdu, onlar döl qurtarana qədər sürüdən ayrılmırdılar. Quzuları yaxşı tanıyan çobanlardan əmizçilər tutulur və yeni doğulan quzuların əmizdirilməsi onlara həvalə olunurdu. Döl qurtarandan sonra da onlara mükafat olaraq bir-iki qoyun verilirdi. Dölü başa vurduqdan sonra yaxşı bir qoç kəsirdilər, yaxud sürüdə qaçaq doğan qoyunlardan birinin balasını ayrıca bəsləyib döl qurtaran vaxtı onu kəsib bayram edirdilər.

Dölün yaxşı keçməsi, bərəkətli olması üçün döl ərəfəsində hədik bişirilirdi. Hədiyin hazırlanmasında istifadə olunan ərzaqlar bişən zaman şişdiyi, artdığı üçün insanlar bu vasitə ilə qoyunların daha çox bala vermələrini diləyirdilər. Döl hədiyi buğda, qarğıdalı, noxud, lobya və qoyun ayaqlarından hazırlanırdı. Bu ərzaqların tədarükünə hələ qabaqcadan başlanırdı. İl ərzində kəsilən qoyunların ayaqları qurudulub saxlanılmaqla hədik üçün ehtiyat yığılırdı. Həmin ərzaqların hər biri ayrı-ayrı qazanlarda bişirilib sonra yekə qazanda bir araya gətirilirdi. Həmin hədikdən həm qohum-əqrabaya paylanılır, həm də qışlaqdakı – Acnohurdakı çobanlara göndərilirdi. Paylananda da hədik kasaya çəkilir, üstünə də bir ayaq qoyulurdu. Hədik verilən boşqab boş geri qaytarılmır, mütləq içərisinə şirniyyat qoyulub geri qaytarılırdı.

Hədikdən əlavə, döl vaxtı həm də *qovut (uxuru)* hazırlanırdı. Uxurunu bişirmək üçün qarğıdalı ilə buğdanı öncə qovurur, sonra dəyirmanda üyüdürdülər. Üzərinə süd töküb qarışdırır, ovucun içində sıxıb sıxmalar halına salırdılar. Həmin sıxmalardan qışlaqdakı çobanlara pay göndərirdilər. Uxuru doyumlu olduğu üçün çobanları tox saxlayırdı.

Dölün uğurlu keçməsi üçün həm də ziyarətgahlara qurban deyilirdi. Zaqatala rayonunun Mişleş kənd sakini Qədir Davudovun dediyinə görə, döl qurtardıqdan sonra çobanlar Kəsikbaş ziyarətgahında qurban kəsirdilər.

Zaqatala rayonunun Dağlı kənd sakini Səriyyə Zəkəriyevanın dediyinə görə, dölün başlamasına on-on beş gün qalmış dolün yaxşı olması üçün *qodu-qodu* oynanılırdı. Bir nəfəri keçi kimi bəzəyirlər: dərini tərs üzünə çevirib onun əyninə geyindirirdilər, iki nəfər də onu müşayiət edirdi. Qodunu müşayiət

edənlər uşaqları keçiyə yaxına gəlməyə qoymur, uşaqlar keçinin dalına düşəndə isə onları qorxudub qaçırırdılar. Keçi mələyə-mələyə qapıları gəzir, pay yığırdı. Bu oyun Suvagildə "Bazbal" adı ilə tanınır. Yeni Suvagil sakini Musa Turacovun dediyinə görə, "Bazbal", əsasən, axşamlar oynanılırdı. İki nəfəri biri dişi, digəri erkək keçi formasında bəzəyib başına buynuz taxır, bədəninə keçə sarıyırdılar. Tanınmaması üçün başına keçədən maska taxırdılar. Keçilər dəstənin önündə hoppana-hoppana, dalaşa-dalaşa gedir, onların arxasınca sümsü, dəf çalanlar gəlirdi. "Bazbalına pay", "bazbalına pay" deyib qapılar gəzir, oxuyurdular:

Qodi, qodi, görmadi,
Qodiyə salam vermədi.
Xəppə evli xa evli (= Buğda unu çox ver)
Qılbi evli qık evli (= Qarğıdalı unu az ver).

Bazbal oynadanlar camaatı güldürmək üçün bəzən keçini yerə yıxıb bəyirdir, girdikləri qapıdan pay almamış çıxmırdılar. Onlara verilən pay da un, qaxac edilmiş ət və s. olurdu. Dəstənin içində verilən ətləri yığan xüsusi adam olurdu. O, fürsət gözləyir, ev yiyəsinin başı qarışan kimi doldurmadan qaxac edilmiş ət, lobya, un və s. ərzaqları oğurlayıb xurcunun gözünə atırdı. Sonra bir evdə yığışıb yığdıqları paydan xəngəl bişirib yeyirdilər.

## 3. RAMAZAN VƏ QURBAN BAYRAMLARI

Saxurlarda dini bayramlar daha möhtəşəm keçirilir. Azərbaycanın müxtəlif bölgələrində İlaxır çərşənbədə icra olunan bir çox adətlərin burada dini bayramlarda həyata

keçirilməsi onları adət-ənənə sarıdan daha da zənginləşdirmişdi. Məsələn, İlaxır çərşənbəyə məxsus yumurta boyamaq, yumurta döyüşdürmək, qapı gəzmək, su üstünə çıxmaq kimi bir çox adətlər Ramazan və Qurban bayramlarında yerinə yetirilir.

Ramazan bayramı iki gün qeyd olunur. Bayramdan əvvəlki günə, yəni bayram axşamına Xebna xem (Ulu gecə), bayram gününə isə Xedin yığ (Böyük gün) deyilir. Birinci gün səhər dan ağarmamış kişilər müəyyən bir yerdə toplaşıb qəbiristanlığa ziyarətə gedirlər. Qəbir üstünə ziyarətə *qulfuya getmək* deyilir. Kişilər qəbiristanlıqda "Yasin" oxutdurub qayıdırlar. Saxurlar qara bayramı ölünün qırxı çıxandan sonra araya hansı dini bayram düşürsə, həmin gün keçirirlər. Kişilər qəbiristanlıqdan qayıtdıqdan sonra hansı evdə qara bayramdırsa, həmin ailələrə baş çəkirlər. Qadınlar isə qəbir üstünə bayramın səhərisi gedir. Hər kəs öz ölüsünün qəbirini ziyarət edir, qəbirin üstünə çiy düyü tökür, evdən gətirdiyi şirniyyatı orada sadağa olaraq uşaqlara paylayırlar.

Bayram günü kişilər səhər namazına, namazdan sonra isə bayramlaşmağa çıxırlar. Uşaqlar isə əllərində dəf səhər tezdən qapıları gəzirlər. Həyətə girib *xedın yığ barakayda ixhan* (böyük günün mübarək) deyir, ev sahibi də x*etdi-xetdi bayrambışılqa qiğep`ç`amı* (çoxlu bayramlara çıxasan) deyib onların torbalarına qoz, fındıq, yumurta, meyvə qurusu və s. qoyur. Uşaqlar qapıları gəzəndən sonra bir evə yığışır, orada bir-iki saat *mərəkə* keçirib dağılışırlar. Mərəkədə yetkinlik yaşına çatmış oğlanlar, qızlar iştirak edirlər.

Ramazan bayramı üçün uşaqlara təzə paltar alınır, təzə paltar almağa imkan olmayan ailələr isə ən azından uşağın corabını yeniləyirlər. Bayram günü uşaqlar həmin paltarlarını

geyinib qapıları gəzir. Böyüklər nəsil ağsaqqallarının yanına bayramlaşmaya gedir, bayramın səhərisi isə həmin ağsaqqal övladlarına baş çəkib onların bayramını təbrik edir.

Qədr gecəsi 15 oruc gecəsi keçəndən sonrakı tək gün-lərdən birinə düşür. Həmin günlər camaat məscidə toplaşır, gecə səhərə qədər oyaq qalır, Quran oxuyub dualar edirlər. Yaşlı sakinlərin dediyinə görə, Qədr gecəsinin müəyyən əlamətləri vardır: həmin gecə ağaclar başını əyir, sular durur. İnama görə, bu əlamətləri görən şəxs kiməsə xəbər verməmə-lidir, xəbər verdiyi təqdirdə həmin əlamətlər qeybə çəkilir. Qədr gecəsini görən şəxs Allahdan üç dilək istəyə bilər. Bayramxatun Davudovanın dediyinə görə, Qədr gecəsi olanda Şeyxəmir babanın qəbirinin[3] üstündəki qoz ağacı yerə yatır. İnama görə, o ağacın yatdığını kim görsə, o, xoşbəxt olar. Ağacın yatdığını görə bilmək üçün kənd sakinləri səhərə qədər oyaq qalır, amma ağacın yerə yatdığını görmək hər adama nəsib olmur. Onu ancaq Allahın istədiyi, onun buyruqlarına əməl edən adamlar görə bilir. Bölgədə Qədr gecəsini görüb onu qaçıran insanlar haqqında rəvayətlər geniş yayılmışdır.

Qurban bayramında da qapı-qapı gəzilir, amma Ramazan bayramından fərqli olaraq gecə gəzilir. Qurban bayramında qapı gəzəndə deyirlər ki, Allahu-əkbər üçün çıxmışıq. Verilən pay da əsasən boyanmış yumurta olur. Qurban bayramında nəinki uşaqlar, böyük kişilər, yetkinlik yaşına çatmış oğlanlar da dəstə-dəstə qapılar gəzir, tanınmamaları üçün üzlərinə dəridən düzəldilmiş maska taxırlar. Oğlanlar qadın paltarı geyinib başlarına kəlağayı bağlayır, qadınlar isə kişi paltarı geyinirlər. Qapıya gəlib Allahu-əkbər oxuyub pay istəyirlər.

[3] Rusiya Federasiyası Dağıstan Respublikasının Mişleş kəndində yerləşir.

Zaqatala rayonunun Gözbarax kəndində oxunan Allahu-əkbərin mətni belədir:

Allahu-əkbər, Allahu-əkbər
La ilahə illallah, Allahu-əkbər.
Kəsirıx, küsürux,
Sabah qurban kəsirıx
Bir yumurta verməsəz,
Biz də sizdən küsurux.

Kənd sakini Əhməd Davudovun dediyinə görə, Əkbər gecəsində oxunan sözlər əvvəllər "Allahu-əkbər, Allahu əkbər, la iləha illəllah. Allahu əkbər, Allahu əkbər, vəliləm həmd" sözlərindən ibarət idi, digər misralar isə sonradan artırılıb. Bu sözləri oxuyub qurtarandan sonra uşaqlar torbalarını verir, ev yiyəsi onların torbalarına boyanmış yumurta, konfet, alma, qoz, fındıq, qaxac ət qoyub yola salır. Uşaqlar bir evə toplaşıb yığdıqları paydan yemək bişirib həmin gecəni bir yerdə keçirirlər.

Axşam tərəfi isə cavanlar məscidin qarşısına yığışıb yumurta döyüşdürür, yumurta yumaladırlar. Zaqatala rayonunun Gözbarax sakini Əhməd Qurbanovun dediyinə görə, uşaq vaxtı döyüşdürüləcək yumurtanı çardaqdan asıb onu buxarının tüstüsünə verirdilər. Tüstü yumurtanın qabığını bərkitdiyi üçün onu sındırmaq asan olmurdu. Onun hesabına bayram günü xeyli yumurta udurdular.

## 4. MÖVLUD

Saxurlarda ən geniş yayılmış dini mərasimlərdən biri də mövluddur. Saxurlar onu peyğəmbərin doğum günü keçirilən

mövluddan fərqləndirirlər. Peyğəmbərin doğum günü oxunan mövluda ata-baba mövludu deyirlər, amma bu mövludu niyyət edərək oxudurlar. Məsələn, oğlunu əsgərliyə yola salan ana oğlu sağ-salamat qayıtdıqda, təzə ev tikdirən evi başa çatdırdıqda, övladı ali məktəbə qəbul olunan ana məktəbi uğurla başa vurduqda mövlud oxutduracağını niyyət edir. Niyyətləri hasil olduqda isə mövlud oxutdururlar. Söyləyicilərin dediyinə görə, mövludu niyyətin hasil olduğu gün oxutmaq daha yaxşıdır. Mövlud oxutdurmağın isə müəyyən şərtləri vardır. Əvvəla mövlud oxutdurulan ərəfədə evə spirtli içki girməməlidir. İçki girərdisə, qırx gün gözləyib, ondan sonra mövlud oxutdurarlar. Mövluddan sonra yenə qırx gün gözlənilməli idi. Əgər şərt pozulardısa, həmin evi qırx basdığına inanılırdı.

Mövludda iştirak edən adamlar bir gün əvvəlcədən ora dəvət olunur. Söyləyicilərin dediyinə görə, mövluda ən azı 40-50 adam dəvət olunur. Mövludlar, əsasən, günorta keçirilir. Kişilər və qadınlar ayrı-ayrı otaqlarda əyləşirlər, bir otaqda əyləşdikləri zaman ortadan pərdə asılır, pərdənin bir üzündə kişilər, digər üzündə qadınlar oturur.

Mövludda bir molla, iki müəzzin olur. Molla dini söhbətlər edir, müəzzinlər isə mövludu oxuyurlar. Yaxşı səsi, avazı olan müəzzinə *mövludxan* deyilir. Məclisi birinci molla açır, islam dininin qayda-qanunlarından, Quranın nazil olmasından, islamın şərtlərindən bəhs edir, imamın altı şərtini – Allaha, peyğəmbərlərə, Allah tərəfindən göndərilmiş mələklərə, xeyrə və şərə, ölümə, kitaba, öləndən sonra yenidən dirilib həyata gələcəyinə inanmağı xatırladır. Bu məlumatları verdikdən sonra "Ey xudadan lütfi ehsan istəyən, mövludu-paki rəsulallaha gəl" beyti ilə başlayan "Mövluda dəvət" oxunur. Mövluda dəvət

qurtardıqdan sonra "Aminət xatun", ondan sonra da "Məhəmməd peyğəmbərin dünyaya gəlməsi" haqqında qissələr oxunur. "Mövluda dəvət", "Aminət xatun" qissəsi oxunanda camaat da yoldaşlıq edir, xorla oxunur. "Aminət xatun" qissəsi oxunanda peyğəmbərimizin dünyaya gəldiyi yerə çatanda hamı ayağa qalxır, əllərini düz şəkildə yana açırlar. Ayaq üstə durub "Ey cəddəl Hüseyn, mərhaba" misrası ilə başlayan beyti oxuyurlar. "Aminət xatun" qissəsində bir yerdə şərbətin adı çəkilir: "Susadı muğayəti hərarətdən qəti, sundular bir cam dolusu şərbəti". Fazil Balayevin dediyin görə, Dağ Suvagildə mövlud oxunanda həmin məqama çatdıqda məclisə şərbət paylanır, ondan sonra mövlud davam edirdi. İndiki mövludlarda isə şərbət məclisin axırında paylanır.

Mövludda oxunan qissələrin müəllifi bursalı Süleyman əfəndidir. Deyilənə görə, Bursada bir vaiz moizə edərkən Məhəmməd peyğəmbəri digər peyğəmbərlərə bərabər tutur. Bursa alimləri Qurandan "biz peyğəmbərlərin bəzisini bəzilərindən fəzilətli qıldıq" ayəsini misal gətirərək ona irad tuturlar, amma vaizi fikrindən döndərmək mümkün olmur. Bu hadisədən təsirlənən məscidin axundu Süleyman əfəndi sonralar Balkanlardan Qafqaza qədər geniş bir coğrafiyada oxunacaq "Vəsilətun-Nəcat" (Mövlud) əsərini yazır. Mövludun ana hissəsini Süleyman əfəndinin yazdığı qissələr təşkil edir. Bundan əlavə, burada Yunus Əmrənin, bəzi saxur şairlərinin Məhəmməd peyğəmbərin şəninə yazdığı beytlər (ilahilər) də oxunur. Sonda yenə "Mövluda dəvət" oxunmaqla məclisə yekun vurulur.

Ev yiyəsi mövlud üçün əvvəlcədən hazırlıq görür, heyvan kəsib onun ətindən yemək bişirir. Mövludlarda, əsasən, aş, dolma, soyutma kimi ehsan yeməkləri verilir. Ehsan məclisin

sonunda mövlud oxunub qurtardıqdan sonra verilir. Söyləyicilərin dediyinə görə, əvvəllər mövluda gələnlər özləri ilə yemək bişirib gətirirdilər. Həmin yeməklər ev sahibinin bişirdiyi yeməklə birlikdə süfrəyə düzülürdü. İndiki mövludlarda isə gələnlər ev yiyəsinə pul verir.

Ev yiyəsi mollanın haqqını pulla ödəyir, molla da ona verilmiş puldan müəzzinlərin haqqını verir.

## 5. YAĞIŞLA BAĞLI İNANCLAR

Saxurlarda yağış yağdırmaq üçün müxtəlif mərasimlər keçirilir ki, bunların arasında ən geniş yayılanı sadağa verilməsidir. Ümumiyyətlə, sadağa bölgədə geniş yayılmış mərasim formasıdır və təkcə yağış yağdırmaq üçün deyil, gələn qadabəlanı sovmaq, qarşısını almaq üçün də icra olunur. Zaqatala rayonunun Dağlı kənd sakini Yusif Şahmalıyevin verdiyi məlumata görə, bir bədbəxt hadisə gözlənildə hər evdən pul yığılır, həmin pula bir heyvan alınıb kəsilir. Həmin heyvanın ətindən ehsan bişirilib yeyilir, qalan ehsan da əlsiz-ayaqsızlara paylanır. Güclü qar gözləniləndə, uzun müddət yağış yağanda, zəlzələ olanda bu cür sadağalar verilir. Digər sadağalardan fərqli olaraq, yağış yağdırmaq üçün verilən sadağalarda sulu yeməklər, ən çox da çint (sülhüllüyə oxşar, lakin xamırı daha xırda olan yemək növü), bürcək (əriştə) bişirilir. Yusif Şahmalıyevin verdiyi məlumata görə, hava quraq keçəndə on-on beş ailə yığılır, hər kəs özü ilə müəyyən ərzaq götürüb açıq bir sahəyə və ya məscid həyətinə toplaşır və orada çint bişirir. Həmin yeməkdən xəstə, imkansız ailələrə pay verilir, yoldan ötənlər ehsandan yeməyə dəvət olunur. Zaqatala rayonunun

Sabunçu kəndində belə mətuxlar məscidin həyətində keçirilir. Hərə özü ilə müəyyən ərzaq götürüb məscidin həyətinə çıxır, həmin ərzaqlar qarışdırılıb onlardan sulu lobya, qaxac ətdən sulu yemək bişirilir, aş dəmlənib aşsüzəndən süzülür.

Sadağalardan əlavə, insanlar yağış yağdırmaq üçün həm də bir-birini sulayır. Ən çox da acıqlı, hirsli adamları sulamağa, onları daha da hirsləndirməyə çalışırlar. Zaqatala rayonunun Sabunçu kənd sakini Pəri Davudovanın dediyinə görə, kənddə Zibeydə, Xanza adlı çox acıqlı iki qadın vardı. Mətuxlar keçiriləndə oğlanlar arxdan quruşqa dolusu su götürüb qəfildən üstlərinə atıb onları daha da hirsləndirirdilər. Onları hirsləndirəndə yağış yağdırmaq üçün etdikləri duaların Allah tərəfindən daha tez eşidiləcəyinə inanırdılar. Zaqatala rayonunun Mamrux kəndində isə, yağış yağdırmaq üçün ailənin ilk uşağının üstünə qəfildən su atıb onu diksindirirlər.

Müəyyən ziyarətgahlardan yağış istənilməsi də bölgədə geniş yayılmışdı. Məsələn, Zaqatala rayonunun Mişleş kəndində havalar çox quraq keçəndə yağış istəmək məqsədilə Kəsikbaş ziyarətinə gedilir. Kənd camaatı yağış yağdırmaq üçün öncə kənd qəbiristanlığındakı ziyarətgaha üz tutur, qəbirin üstündən götürdükləri daşları aparıb çaya atırlar. Əgər yağış yağmırsa, o zaman Kəsikbaş ziyarətinə gedilir. Həmin ziyarətgaha gedəndə öncə aşağıda ziyarət sahibinin başının kəsildiyi yer ziyarət olunur. Həmin yerdə bir xoruz kəsib qanını ora buraxır, sonra yuxarı qalxıb qəbiri ziyarət edirlər. Evdən gətirilən ərzaqlardan yemək bişirib orada yeyirlər, qalan yeməkləri də kasıb, imkansız şəxslərə paylayırlar. Qurandan ayələr oxuyub zikrlər edirlər. Qəbirin üstündən götürdükləri daşları tütyə kimi çaya tökür, orada da bir-birini sulayıb evə qayıdırlar.

Zaqatala rayonunun Sabunçu kəndində Xalaxın deyilən müqəddəs bir göl var. Hava çox quraq keçəndə çobanlar yağış yağdırmaq üçün qurban kəsib onun qanını gölə axıdırlar. Bundan əlavə, həmin kənddə Şeytanqala adlanan ərazidə bir qadın qəbiri var. Kənd sakinlərinin dediyinə görə, orada selin gətirdiyi bir qadının meyidi dəfn olunub. Yağış yağmayanda onun üstünə qırx dənə daş qoyur, orada dua oxuyub yağış diləyirlər.

Zaqatala rayonunun Yeni Suvagil kəndində sacın içində qumu qovurduqda yağış yağacağına inanılır. Mamrux kəndində isə yağış yağdırmaq üçün Hüseyn əfəndinin çəliyi suda yuyulur. Ziyarət sahibinin acığına gedəcəyindən ehtiyat etdikləri üçün bu üsuldan çox az hallarda istifadə olunur.

Uzun müddət yağan yağışı kəsmək, günü çağırmaq üçün isə maxara bişirilir. Maxara süd, un və yumurtanın qarışığından hazırlanır. Onu bişirmək üçün lazım olan ərzaq hər evdən yığılır və bir yerə qatılaraq bişirilir. Maxara bişirilən zaman sacın üstü qurbanlıq qoyunun piyi ilə yağlanır, onda niyyətlərinin daha tez hasil olacağına inanılır. Sacın üstündə bişiriləndə onun qıraqları saçaq kimi süzülür və Günəşə bənzəyir.

Günü çağırmaq üçün *qodu gəzdirilir.* Sabunçu kənd sakinlərinin dediyinə görə, vaxtilə bu oyunu yetkinlik yaşına çatmış oğlanlar, kişilər oynayırdılar, indi isə uşaqlar icra edir. Dəstədə bir neçə nəfər olur, onun birinin əyninə qadın paltarı geyindirir, əlinə də çömçə verib qapıları gəzdirirlər. Çömçəni yaşıl rəngli yaylıqla bəzəyirlər. Ev yiyəsi onları oynatdıqdan sonra payını verir. Söyləyicilərin dediyinə görə, pay olaraq onlara yağ, un, ət və yumurta verilir. Dəstədə birinin çiynində xurcun

olur, verilən payı o xurcunun içinə yığırlar. Sabunçu kəndində qodu gəzdirəndə oxuyurlar:

Qodi-Qodi gördümü?
Qodiyə salam verdimi?
Arpa-buğda saçılsın,
Həmişə Günnər açılsın.
Çox verənə oğlan olsun,
Az verənə qız olsun.
Qızın adı Fatma olsun,
Özü də çatdıyıb ölsün.

Mişleş kəndində isə Qoduda oxunan mahnının sözləri belədir:

Qodi-Qodi görmədi,
Qodiyə salam vermədi.
Bu gün bizə un gərək,
Sabah sizə gün gərək.

Dəstə üzvləri pay yığdıqdan sonra kiçik uşaqların olmadığı bir evə yığışır, yığdıqları ərzaqdan yemək bişirib yeyirlər.

Bundan başqa, Mamrux kəndində Qurban bayramında kəsilən heyvanın dərisini, sümüyünü saxlayır, çox yağış yağanda ondan bir parça yandıranda yağışın səngiyəcəyinə inanılır. Dağlı kəndində isə yağışın kəsməsi üçün qırx keçəlin adını kağıza yazıb ağacdan asırlar.

Mişleş kəndində yağan dolunun qarşısını almaq üçün dolunu dişin arasında sındırıb atırlar, yaxud qapının arasına qoyub əzirlər. Mamrux kəndində isə dolu dənəsini üç dəfə qulfallah (İxlas surəsi) oxuyandan sonra sındırırlar. Yeni

Suvagildə isə yetim uşaq və ya ananın ilki olan uşaq dolunu götürüb dişinin arasında sındırır.

Yaşlı insanlar həm də müəyyən əlamətlərə görə havanın necə keçəcəyini təyin ediblər. Bölgədə gün çıxan tərəfdən əsən küləyə qara yel, günbatan tərəfdən əsən küləyə isə ağ yel deyilir. Zaqatala rayonunun Dağlı kənd sakini Yusif Şahmalıyevin dediyinə görə, ağ yel əsməyə başlayanda yağış kəsir, qara yel əsəndə isə hava buludlanır, qaralır, yağış yağır.

## 6. TOY ADƏTLƏRİ

Saxurlarda elçilikdən qabaq oğlanın bacısı və ya anası qızın anası ilə görüşüb onun ağzını arayır, yaxud da qonşuya filankəsin qızına elçi düşmək istədiklərini eşitdirirlər. Əgər onların da könlü varsa, ondan sonra elçiliyə gedilir. Elçilikdə birinci dəfədən razılıq verilmir, qızın əmisinin, dayısının, digər ailə böyüklərinin razılığı alınandan sonra qızın *həsi* verilir. Hamının razılığı olandan sonra söz kəsməyə gedilir. Söz kəsməyə gələndə oğlan tərəfi böyük bir boşqabda aş da gətirir. Söz kəsmədə hər iki ailənin böyükləri iştirak edir. Qız evi xüsusi hazırlıq görür, yemək bişirir. Qızın əmisi, dayısı da ora dəvət olunur. Söz kəsiləndən sonra oğlan evi qızın anasına süd pulu verir. Süd pulunun konkret məbləği yoxdur, hərə imkanına görə bir məbləğ verir. Həmin pul söz kəsiləndən sonra oğlanın atası və ya əmisi tərəfindən süfrənin altına qoyulur.

Zaqatala rayonunun Mamrux kəndində elçilikdən 15 gün sonra oğlan tərəf *gəlin görməyə* gedir. Gəlin eyni kənddən olsa belə, bu adət mütləq keçirilir. Gəlin görməyə oğlanın bacısı, cavan qızlar gedir, qız üçün xüsusi pay aparılır. Bir ay tamam

olduqda isə bu dəfə oğlanın ata-anası gəlinə bir badya aş bişirib aparırlar. Həmin aş badyasına *hörmət badyası* deyilir. Qız tərəfi də həmin gün üçün qabaqcadan hazırlığını görür, sülhüllü, müəyyən yeməklər bişirir. Növbəti ayın tamamında bu dəfə qız evinin adamları oğlan evinə gəlirlər. Toya qədər ortaya bayram düşürsə, qızla oğlan bir-birinə toxunma corab, əl yaylığı, ətirdən ibarət bayram boxçası düzəldir və xəlvəti bir yerdə görüşüb öz hədiyyələrini bir-birinə təqdim edirlər. Yaylaqda olan cavan çobanlar isə yaylaqdan qayıdanda nişanlıları üçün durkay deyilən pendir hazırlayıb gətirir. Durkayın hazırlanma qaydası belədir: Pendiri öncə qoyun dərisində acımağa qoyurlar, acıdıqdan sonra ondan maqaş qayırırlar. Maqaşı qaynar suya salır, sudan çıxardıqdan sonra onu əzib suyunu çıxarırlar. Durkay dairəvi formada, iki-üç santı qalınlıqda hazırlanır, bir müddət kölgədə quruduqdan sonra üstünə naxışlar işlənirdi. Durkaydan həm də qarın ağrısını kəsmək üçün dərman kimi istifadə olunurdu.

Zaqatala rayonunun Mişleş kəndində toya iki gün qalmış *çörək günü* keçirilir. Həmin gün kənddə nə qədər ev varsa, onun sayına uyğun lavaş bişirilir. Çörək bişirəcək adamlar qabaqcadan müəyyənləşdirilir və bir gün əvvəldən onlar çörək bişirməyə çağrılır. Söyləyicinin dediyinə görə, həmin gün ən azı altı-yeddi təndir lavaş bişirilir. Oğlanın yançıları və yengələri həmin lavaşları sininin içinə qoyub kəndin ayağından düşüb adamları toya dəvət edir, hər evə də həmin lavaşdan birini verir. Zaqatala rayonunun Mamrux kəndində isə toydan iki gün qabaq qohum-əqraba yığılıb külçə bişirir. Bir tiyan soğan qovrulur, həmin soğan lavaşların üstünə yaxılıb bükmələr hazılanır. Kənd sakini Hürü Davudovanın dediyinə görə,

həmin gün ən azı iyirmi dənə külçə bişirilir. Onun on ikisi xına günü qız evinə aparılır, qalanı isə toy axşamı camaata verilir. Toy axşamına *qohum-qardaş günü* və ya *məsləhət axşamı* deyilir.

Toya bir həftə, on gün qalmış qızın yaxın qohumları və ya rəfiqələri onu *qonaq çağırırlar*. Qonaqlığa gedən gün rəfiqələri gəlinin qoluna girib onu evdən çıxarırlar. Gəlin başına kəlağayı bağlayır və kəlağayının ucunu aşağı dartıb sifətini yarıya qədər örtür. Qonaqlıq verilən evdə axşam mərəkə təşkil olunur. Gəlin gedəcək qız bir küncdə oturur, rəfiqələri də cərgəylə onun qarşısında elə otururlar ki, o görünməsin. Gəlini görmək istəyən yuxarıdan boylanıb baxırdı. Çalğı olanda birisi gəlinin əlindən tutub oynamağa dəvət edir. Qonaqlıq harada verilirsə, qız həmin axşamı orada gecələyir, səhər isə başqa bir evə qonaq gedir. Xına gününə qədər gəlin hər gün bir evə qonaq çağrılır, yalnız xına günü ata evinə qayıdır. Eynilə bəyin dostları, qohum-əqrabaları da onu toy qabağı öz evlərinə qonaq çağırırdılar

Mərəkədə yetkinlik yaşına çatmış oğlanlar, qızlar iştirak edirdilər. Oğlanla qızın bir-biri ilə tanış olması, bir-birinə könül açması da mərəkədə olurdu. Mərəkələrdə, əsasən, "Salamməliklər" oxunurdu.

Ənənəvi saxur toyları, adətən, şənbə-bazara salınır və üç gün çəkir: birinci gün toy başlanan gün, ikinci gün gəlin gətirilən gün, üçüncü gün isə cehiz gətirilən gün idi. Birinci gün oğlan evində toy başlayır, ta günortaya qədər davam edir. Günortadan sonra oğlan tərəfin adamları çalğıçılarla birlikdə qız evinə yola düşür. Buna Suvagildə *qəəb aparmaq* deyilir. Həmin gün oğlan evindən qız evinə qoç, bir tay un, çay, qənd, yağ, gəlinlik paltarı, bir xurcun dolusu ərzaq, xonça (qəəb) aparılır. Qəəb iri bir siniyə çalınmış halva olur və üstü qırmızı

kəlağayı ilə örtülür. Bəzi yerlərdə halvanın üstünə iyirmi qəpiklər basdırılır. Oğlanın bacısı onu başı üstünə alıb oynaya-oynaya qız evinə aparır. Qız evinə aparılan qoçun buynuzuna qırmızı bağlanır, onu da bir nəfər boynuna alıb aparır. Xurcuna isə bal, konfet, düyü, qaxac edilmiş ət və müxtəlif şirniyyatlar qoyulur. Gəlinlik paltarı ayrıca bir boxçada qız evinə aparılır. Xurcunu, qoçu gətirənə qız evindən pay verilir. Həmin gün qız evində *xınayaxdı* keçirilir. Həmin gün gəlinin anası qızının rəfiqələrini də çağırır və *ayrılıq aşı* bişirir.

Xına günü həm də qızın nikahı kəsilir, Zaqatala rayonunun Dağlı kənində ona *dua vermək* deyilir. Həmin gün kişilər də çağrılır, qoç kəsilib süfrə açılır. Həmin günü dini kəbin kəsilir. Kəbin mərasimində iştirak edən şəxslər dəstəmazlarını aldıqdan sonra mərasimə qatılırdılar. Qız pərdənin arxasında oturur. Oğlan tərəfin şahidi ata tərəfindən olur, qız tərəfindən isə mümkün qədər ata tərəfindən, olmadığı təqdirdə isə ana tərəfdən olur. Oğlanın şahidləri ilə qızın şahidləri üz-üzə oturur, dizlərini bir-birinə söykəyir, baş barmaqlarını da üz-üzə tuturlar. Oğlan tərəfi təmsil edən şahidin barmağı bir qarış yuxarıda olur. Ondan sonra nikah mərasimi başlayır. Molla həm oğlandan, həm də qızdan müsəlmançılığın beş şərtini – namaz qılmaq, şəhadət gətirmək, oruc tutmaq, həccə getmək və zəkat verməyi soruşur. Hansısa şərti bilmirlərsə, molla həmin şərti orada başa salır, onlar da mollanın dediklərini təkrarlayırlar. Daha sonra qızın rəyi soruşulur. Çox vaxt qız birinci sorğuda cavab vermir, üçüncü dəfə soruşulandan sonra "hə" cavabı verir. Qızın razılığı alınandan sonra nikah kəsilir. Molla onlara möhürlü, imzalı sənəd verir, həmin sənəd yerli icra orqanında təsdiq edildikdən sonra qüvvəyə minir. Zaqatala

rayonunun Mişleş kəndində isə nikah kəsilən gün oğlan evindən qız evinə böyük bir qabda *nikah aşı* aparılır, o aşdan yeyən şəxs də qabın içinə pul, parça və s. qoyur.

Mamrux kəndində xına günü oğlan evindən qız evinə maxara, düyü halvası, tər halva və s. digər nemətlərdən ibarət 12 lənqəri (sini) gedir. Pəri Davudovanın dediyinə görə, halva bişirmək üçün ayrıca gün təyin edirlər. Həmin gün on iki kilo düyü döyülüb ondan halva bişirilir. Halva günü qız evindən iki nəfər gəlir, xəncəri dik sininin ortasına qoyub halvanı siniyə tökmələrini tələb edirlər. Halvanı o qədər qalın tökdürürlər ki, halva xəncəri dik ayaq üstə saxlasın. Səhəri gün həmin halvanın üstünə kəlağayı salınır, bir qızın başı üstündə qız evinə aparılır. Qabaqda çalğıçılar olur, digər adamlar isə arxada hədiyyələri qız evinə aparırlar.

Əvvəllər toya gələn şəxslər sinilərdə maxara, qoz halvası, adi halva və s. nemətlərdən gətirirdilər. Həmin nemətləri qəbul etmək üçün xüsusi adam tutulurdu, ona da *çardaqçı* deyilirdi. Bu vəzifəni hər adama həvalə etməzdilər, şəriştəli adam tutardılar ki, qabları tanıya bilsin, onları dəyişik salmasın. Çardaqçı toya gələn adamlardan həmin hədiyyələri qəbul edir, gətirilən ərzağı boşaldır, qabın içinə halva, konfet qoyub geri qaytarırdı.

Bəy üçün yançılar, yengələr və qulluqçu tutulur. Sağ yançı ata tərəfdən, sol yançı isə ana tərəfdən olur. Yengələr də biri ana, digəri ata tərəfi təmsil edir. Qulluqçu vəzifəsi isə çox vaxt yeznəyə həvalə olunur. Həmin gün bəy gəlinə təhvil verilənə qədər qulluqçu bəyə, onun hər bir əşyasına cavadeh idi. Əgər bəyin özü və ya onun hansısa bir əşyası oğurlanarsa, onun üçün tələb olunan məbləği qulluqçu verməli idi. Ona görə qulluqçu yad adamları bəyə yaxın gəlməyə qoymur, hətta

yeri gəldikdə kobud şəkildə onları bəydən uzaqlaşdırır. Söyləyicinin dediyinə görə, çardaqdan əl atıb bəyin başından papağı götürdükləri vaxtlar olub. Bəyin oğurlanmış əşyası həmin gün mütləq qayıtmalı idi. Suvagil kəndində isə qulluqçu olmazdı, bəyə sağdişlə soldiş cavabdeh idi, bəy oğurlandıqda tələb olunan məbləği də onlar ödəyirdi.

Toyun ikinci günü *səhər yeməyi* ilə başlayır. Səhər yeməyi bəyin ərə getmiş bacısı varsa, onun evində, ya da əmisi və ya dayısı evində təşkil olunur. Səhər yeməyi üçün adamlar dəvət olunur, ən azı iki-üç qoyun kəsilir, süfrə açılır. Səhər yeməyinin xərcini onu verən tərəf özü çəkir. Zaqatala rayonunun Gözbarax kəndində səhər yeməyinə *baş qırxma (buqur gəbəxa)* deyilir. Həmin gün bəyin başı, üzü qırxılır, hamamlanır, bəylik paltarını geyinib məclisə çıxır. Bəy dünən geyindiyi paltarı həmin gün geyinmir, corabına qədər hər şeyi yenilənir. Zaqatala rayonunun Mişleş kəndində səhər yeməyində bəy özü iştirak etmir, o, onun üçün təşkil olunmuş ayrıca bir evdə oturur. Bəy oturan evdə otaqdan kəndir asılır, palazın altına fındıq, qoz qabıqları tökülür. Qız evindən gələn adam əgər fındıq, qoz qabıqlarını tapdalayırsa, onu kəndirdən asırdılar. Həmin şəxsin yaxın adamı cəriməsini ödəyib onu azad edirdi.

İkinci gün qızın rəfiqələri oğlan evinə *adət istəməyə* gəlirlər. Oğlan evinin adamları onlar üçün xüsusi otaq hazırlatdırır. Qızlar süfrəyə ən azı yeddi nemət düzmələrini tələb edir. Oğlan tərəfin adamları da istəklərini yerinə yetirib onları razı salmağa çalışır. Onlar üçün ayrıca mahnı çaldırıb qız evindən gələn qonaqları oynamağa dəvət edirlər.

Səhər yeməyi günortaya qədər davam edir, günorta artıq *bəyçıxartma* (*bəy oturtma, bəy durğuzma)* mərasimi başlayır.

Bəy məclisin ortasında ayaq üstə durur, yanında yançıları, onlardan arxada isə bəyin yengələri durur. Suvagil kəndində bəyçıxartmada həyətə ayrıca stol-stul qoyulur, bəyə gətirilən xonçalar stolun üstünə düzülür. Xüsusi mahnının sədaları altında öncə bəyin atası, əmisi, dayısı və digər kişilər məclisə dəvət olunur, onlar bəyi, yançıları təbrik etdikdən sonra qadınlar dəvət olunur. Kişilər bəyə, yançılara pul verir, qadınlar isə bəyin və yançıların boynuna parça, kəlağayı salır. Pay verəndə bəylə yançılara fərq qoyulur. Məsələn, Yeni Suvagil sakini Turac Turacovun dediyinə görə, bəyə on manat verirlərsə, sağdişlə soldişə üç manat verirlər. Bəyin arxasında duran yengələr isə parça və kəlağayıları onların boynundan götürür, yalnız anasının bəyin boynuna saldığı kəlağayını saxlayırlar. Həmin kəlağayı və parçalardan iki boxça tutulur, həmin boxça yançılara, bəyə verilən pullar isə qulluqçuya çatır. Gözbarax kəndində bəy durğuzulan gün bəyin başına papaq qoyulur. Həmin papaq xüsusi bir sinidə saxlanılır. Sininin içində qoz-fındıq, şəkər, düyü, konfet, üstündə də papaq olur. Bəyi təbrik etmək üçün birinci ata məclisə daxil olur, papağı sinidən götürüb oğlunun başına qoyur, sininin içindəki şirniyyatı isə oğlunun başı üstüdən atır. Daha sonra papağın altına pul qoyub oğlunu təbrik edir, ona xeyir-dua verir. Bəy çıxartmada qohum-əqraba bəy üçün xonça tutur, bəyi təbrikə gələndə xonçanı stolun üstünə qoyub parçanı da götürüb bəyin boynuna salır.

Bəy oturtma qurtarandan sonra *gəlin gətirməyə* gedilir. Vaxtilə gəlini atla gətirirdilər. At oğlan tərəfindən təşkil edilir və xüsusi olaraq bəzədilir, üstünə xalça salınırdı. Yançılar hərəsi bir at minir, on-on beş nəfər yaxşı at sürən cavanlar da

onlara qoşulub gəlin gətirməyə gedirdilər. Qız evinə çatanda darvazanın önündə və gəlin olan otağın qapısında dəstənin önü kəsilir, pay verdikdən sonra içəri keçilir. Darvazada dəstənin qabağını kəsən cavanlar olur, onlara bir-iki kilodan ibarət bişmiş ət, pendir yumrusu, çörək və araq verilir. Mişleş kəndində isə qaxac edilmiş ət yabanın ucunda dəstənin önünü kəsənlərə verilir. Dağlı kəndində isə ət və araqdan ibarət xüsusi xonça düzəldilir, darvazanı kəsən şəxslərə həmin xonça verilir. Otağın qapısını qızın rəfiqələri kəsir, onlara da ətir, corab və ya pul verilir. Oğlan tərəfin adamlarının qız evindən müəyyən əşya oğurlaması adət idi. Söyləyicilərin dediyinə görə, çox vaxt qab oğurlanırdı. Qabı oğurlayanlar qız evindən qayıdanda əllərində qab oynaya-oynaya gəlirdilər.

Qız ata evindən çıxanda belinə qırmızı lent bağlanır. Qızı atası və ya əmisi ata mindirir. Gəlin öndə, yengəsi (güzgü tutan, xapılna) onun tərkində otururdu. Zaqatala rayonunun Dağlı, Mişleş kəndlərində cilovdar qız evindən olurdu. Dağlı kəndində cilovdar qızın ata tərəfdən qohumu, Mişleş kəndində isə ana tərəfdən qohumu, çox vaxt da dayısı olurdu.

Gəlin ata minəndən sonra atlılar atlarını çapır, oğlan evinə muştuluğa (sivəngi) gedirdilər. Oğlan evinə kim tez çatsa, ona pay verilir, atın boynuna da parça salınırdı. Oğlan evinin adamı əlində halva dolu teştlə muştuluqçunun qabağına çıxır, o da xançalla vurub teştin içinə iz salır. Sonra əlində həmin sini ilə gəlinin qabağına qayıdır. Suvagildə bu adət "boyun vurmaq", Mişleş, Gözbaraxda isə "gətur" adı ilə tanınır. Gözbarax, Mamrux kəndlərində gəlin oğlan evinə çatdıqdan sonra həyətə girməmişdən öncə bu mərasim icra olunur. Qız tərəfin adamları

siniyə halva, konfet, bir çappa[4] da çiy ət qoyub onların qarşısına çıxır, gəlini gətirən dəstə isə onlardan əlli metr aralıda düşür. Burada "gətur" deyilən adət keçirilir. Oğlan tərəfin adamları "gətur" deyə qız tərəfə müraciət edir, qız tərəf bir addım atıb, bu dəfə onlar "gətur" deyə oğlan evinə müraciət edir. Bu şəkildə addım-addım bir-birinə yaxınlaşıb salamlaşırlar. Oğlan tərəfin adamları onlara xoş gəldin deyir, sonra şərbət paylanır. Şərbət öncə cilovdara, qızın yengələrinə verilir, sonra digərlərinə paylanır. Qız tərəfdəki adamların birinin əlində xəncər olur, həmin xəncərlə vurub siniyə iz salmalı idi. Oğlan tərəfin adamları da sinini elə tutmalı idi ki, əllərindən salmasın. Qız tərəfin adamı siniyə iz salandan sonra əti xəncərin ucuna alıb oynayırdı.

Gəlin həyətə girdikdən sonra oğlanın atası bəyi gəlinin üstünə gətirirdi. Bəy yanında yançılarla eyvanın kənarında durub tüfəngdən üç dəfə güllə atırdı. Daha sonra içərisində konfet, düyü, qəpik pul olan şirniyyat boxçasını gəlinin başı üstündən boşaldırdı. Gəlinin başına şirniyyat tökəndə boxça əlindən çıxmasın deyə onun bir ucunu çeçələ barmağı ilə tutub saxlayırdı.

Gəlin ayağının altında boşqabı sındırdıqdan sonra onun üçün ayrılmış otağa keçir. Zaqatala rayonunun Dağlı kəndində gəlin otağa keçdikdən sonra qayınana ləmpəni üç dəfə gəlinin başına fırlayıb Allahdan ona bəxt istəyir, qoşa qarımalarını, oğullu-qızlı olmalarını diləyir. Mamrux kəndində isə qayınana gəlini üç dəfə ləmpənin başına dolandırdıqdan sonra bir kasa bal götürür, barmağını bala batırıb gəlinə və bəyə bal yedirir, eynilə gəlin də qayınanasına, həmçinin bəylə-gəlin bir-birinə bal yedirirlər. Mamrux kəndində bundan əlavə qayınana düyü

---

[4] çappa – şaqqa

halvasından hazırlanmış sıxmaları gəlinin başı üstündə sındırır, ondan bir tikə özünə götürüb qalanını paylayır. Bundan sonra gəlin keçib öz yerində oturur. Bəzən gəlinin yerində başqa birisi oturmuş olur, gəlin ona şirinlik verdikdən sonra o, yeri azad edir. Gəlin əyləşdikdən sonra qucağına oğlan uşağı qoyulur.

Toyun səhəri – üçüncü gün xonçalar günü keçirilir. Yeni Suvagil kəndində otaqda bir başda gəlin yengələri ilə, o biri başda isə bəy yançıları ilə oturur. Bəyə gətirilən xonçalardakı ərzaqlar bir araya gətirilib böyük bir xonça hazırlanır və bəy oturan stolun üstünə qoyulur. Bəyin xonçasını əlində çubuq divanbəyi qoruyur. Hər kəs bəy xonçasından bir şey götürə bilər, amma bu şərtlə ki, onu tuta bilməsinlər. Qapıdan çıxana qədər onu tuta bilsələr, götürdüyü ərzağı yerinə qoyub cəriməsini ödəməli idi. Həmin cərimədən yığılan pul da bəy məclisinə xərclənir. Musa Turacovun dediyinə görə, xonçalar günü canlı-cüssəli biri meydana çıxıb özünə qənim istəyir. Gücünə-qüvvəsinə güvənən kimsə meydana çıxıb onunla güləşir, qalib gələnə xonçadan istədiyi ərzağı verirlər. Belə xonçadan biri də gəlin oturan stolun üstündə olur. Bəyin yaxın qohumları gəlib xonçaya nəmərini atıb oradakı nemətlərdən birini götürür. Yaxın qohumlar mütləq burada iştirak etməli idi. Turac Turacovun dediyinə görə, yaxın qohumlarının toyunda bəyin əmisi, xalası xonçalar gününə gəlməmişdi, dalınca maşın göndərib onları məclisə gətirtmişlər. Gec gəldiklərinə görə də onları cərimələmişdilər. Mişleş kəndində isə gəlin yengələri ilə yerdə döşəyin üstündə oturur, qarşılarında isə bal, bəkməz, halva, qoyun pendirindən hazırlanmış böyük bir xonça olurdu. Kim istəsə haqqını verib həmin xonçadakı nemətlərdən götürür, yığılan pullar isə gəlinə və onun yengələrinə çatırdı.

Bəy xonçası saat 12-yə qədər davam edir, ondan sonra bəyin dostlarının iştirak etdiyi bəy məclisi başlayır. Bəy məclisi üçün ayrıca süfrə açılır, xonçalar günündə cərimədən yığılan pullar həmin süfrənin hazırlanmasına xərclənir.

Toy üçüncü gün günortaya – *üzaçdıya* qədər davam edir. Gəlinin üzünü əvvəllər bəy özü açırdı, sonralar isə bu vəzifəni bəyin atası və ya əmisi icra etməyə başlayır. Bəy duvağı gəlinin başından götürdükdən sonra onu oynamağa çıxarır. Söyləyicilərin dediyinə görə, bəyin duvağı gəlinin başından götürüb yaşlı bir qadının başına qoyduğu vaxtlar da olub. Duvağı götürən gəlinə *xabax* (nəmər) verir.

Üçüncü gün qız evindən oğlan evinə aş gəlir. Bəy həmin aşa qiymət təyin edir. Qız tərəfin adamlarından biri aş badyasını başına alıb məclisi fırlanır, birinci bəyin özü, yançıları, sonra məclis əhli nəmər verir. Tələb olunan məbləğ düzəlməzdisə, üstünü bəy özü düzəldirdi. Aş onlara baha gəldiyi üçün ona *zəhər aşı* deyilir.

Zaqatala rayonunun Gözbarax kəndində toyun səhəri hələ hava işıqlaşmamış gəlin həyət-bacanı süpürür, samovarı qaynadır. Günortadan sonra isə paltarını dəyişir, mətbəxə keçib elə bir aş bişirməli idi ki, yeyən onu tərifləsin. Həmin aşa *gəlin aşı* deyilir və üzaçdıya gələn qonaqlara həmin aşdan verirlər. Mamrux kəndində isə toyuqlar ağacdan tökülənə qədər gəlin durar, onunla gələn yengələr üçün aş bişirərdi. Bundan əlavə, üzaçdıya gələn qonaqlar gəlin çayı istəyərlərsə, gəlin samovarı qaynadıb çay dəmləyir. Həmin çayı stəkanlara süzüb ortalığa düzür. Çaydan içən şəxslər nəlbəkiyə pul qoyur, həmin pul da gəlinə çatır.

Qızın cehizi üçüncü gün axşam gətirilir. Mişleş kəndində hələ xına günü gəlinin cehizi ilə otaq bəzənir, cehizə baxmağa gələnlər ora öz nəmərini atır. Xınadan sonra həmin cehizlər bir sandığa yığılır və toyun üçüncü günü digər cehizlərlə birlikdə oğlan evinə gətirilir. Gəlin sandığının üstündə xüsusi adam gəlir ki, oğlan evi ona pay verir. Sandıqda toxunma corablar, yaylıqlar, dəsmal, sağdiş və soldiş üçün pay olur. Mişleş kəndində səhər yeməyini təşkil edən səxs gəlinin cehizini qabağına qoyub özü, yoldaşı, uşaqları üçün pay götürür, qalanları isə digər ailə üzvləri arasında paylanır. Zaqatala rayonunun Mamrux kəndində sandığa cehizlik əşyalardan əlavə, halva qazanı və çörək də qoyulur. İkinci gün axşam gəlin qazanı sandıqdan çıxarır. Oğlan çörəyi ortadan bölür və həmin gecə bəylə gəlin halva ilə çörəyi yeyirlər.

Zaqatala rayonunun Yeni Suvagil kəndində toydan sonra üç gün hər səhər qız evindən gəlin üçün yemək gəlir. Əsasən girs, aş, yayma kimi yeməklər bişirilib gətirilir və bir nəfər üçün deyil, bir ailəyə yetəcək qədər yemək qoyulur.

Toydan iki-üç gün sonra gəlin *bulaq üstünə çıxır*. Mişleş kəndində toydan bir-iki həftə sonra gəlin anası tərəfdən qonaq çağrılır, bulaq üstünə çıxmaq həmin gün keçirilir. Bəyin yengəsi səhəng, bir sini halva, sirniyyat götürüb gəlini bulaq üstünə çıxarır. Aparılan şirniyyatı gəlin bulaq üstündə olanlara paylayır, hamının səhəngini doldurur, oradan da anası evinə yola düşür. Bəy isə toydan sonra üç gün evə gəlməzdi, üçüncü gün ayrıca qonaqlıq verilir və gəlinlə bəy bir yerə yığışır.

## 7. YAS ADƏTLƏRİ

Saxurlarda hər cümə axşamı ruhların evə baş çəkdiyinə inanılır. Söyləyicinin dediyinə görə, babası rəhmətə getmişdi. Hər cümə axşamı yemək bişəndə nənəsi deyərdi ki, qocam gəlib, onun da adına yeməyə duz at.

Ölü dəfn olunandan sonra birinci adınaya (cümə axşamına) qədər hər gün, cümə axşamından sonra isə növbəti cümə axşamları kişilər qəbir üstünə gedir. Qadınlar isə ölünün qırxı çıxandan sonra qəbir üstünə gedir. Ona qədər qadınlara qəbir üstünə getmək qadağandır, yalnız heyi getmiş[5] qadınlara icazə verilir. Cümə axşamı qəbir ziyarətində iştirak edən şəxsləri ölü sahibi ehsan yeməyinə dəvət edir.

Ölü üçün üç, adına, qırx və əlli iki verilir. Əlli ikidə qəbirin üstündə Mülk surəsi, onun dalınca da Nəbə surələri oxunur. Vaxtilə ehsan ölü düşən gündən başlayaraq verilirdi, son zamanlar isə ancaq ölünün üçündə verilir.

Hər insan dünyasını dəyişəndə ona yetmiş min zikr bağışlanılır. Yetmiş min zikr bir Quranın xətm olunmasına bərabər tutulur. Zikrlər, adətən, ölünün üçündə oxunur. Molla qabaqcadan zikr ediləcək günü adamlara xəbər verir, həmin gün camaat yığışır. Molla öncə məclisdəki adamların sayını müəyyən eləyir. Yetmiş min zikri onlar arasında bölüşdürür, hər adama nə qədər düşürsə, o qədər də zikr edilir. Zikrə başlamazdan əvvəl molla niyyət eləyir ki, zikr elədik əvvəla Allah rizası üçün. Bu zikrdən hasil olan savabın mislini bağışlayıram peyğəmbərimiz səlavatullah əleyhsalamın ruhuna, əhlibeytin ruhuna, əshabənin ruhuna, onun davamçılarının ruhuna,

---

[5] heyi getmiş – yaşlı

onların vasitəsilə mərhumun ruhuna. Bu niyyət edildikdən sonra zikrə başlanır, qurtarandan sonra da ehsan verilir.

Ölü götürülməmişdən əvvəl ora gələn qadınlar özləri ilə yaşıl rəngli parçalar gətirir, həmin parçalar açılaraq ölünün üstünə sərilir. Ölü yuyulub kəfənləndikdən sonra həmin parçalar cənazənin üstündə qəbiristanlığa aparılır. Ölü qəbirə salınanda qəbirin hər küncündə bir adam oturub İxlas, Fələk və Nas surələrini oxuyur. Ölünün üstünə gətirilmiş parçalar da qəbirin künclərində dua edən həmin şəxslərə verilir.

Dünyasını dəyişən şəxs üçün Quran xətm olunur. Zaqatala rayonunun Dağ Suvagil kəndinin yaşlı sakinlərinin dediyinə görə, vaxtilə ölü yiyəsi molla tutur və o, qırx gün qaranlıq, kimsəsiz bir yerdə Quranı xətm eləyirdi. Buna *suluqa girmək* deyilir. Bu ifadə indi də saxurlar arasında işlədilir. Bir adama irad tutanda deyirlər: “Sən orada suluq elə”. Söyləyicinin dediyinə görə, Dağ Suvagildə suluq elənən yer vardı: qaranlıq yer idi, pilləkənlərlə aşağı düşülürdü. Molla qırx gün orada qalır, onun yeməyi-içməyi qapının ağzına qoyulurdu. Söyləyicinin dediyinə görə, qırx gündən sonra molla otaqdan çıxanda sapsarı saralmış vəziyyətdə olurdu. Ev yiyəsi mollanın haqqını nağd pulla yox, heyvan və ya taxılla ödəyirdi. Zaqatala rayonunun Mamrux kəndində bu gün də ölü üçün Quran xətm olunur, amma əvvəlki kimi qaranlıq bir otaqda deyil, qəbirin baş tərəfində çadır qurularaq orada xətm olunur. Ölü yiyəsi iki-üç molla tutur, onlar neçə gün həmin çadırın içində qalaraq Quran xətm eləyirlər. Onların yemək-içməyi də qəbiristanlığa gətirilir. Rayonun Gözbarax kəndində isə molla Quran oxuya bilən şəxsləri ölü yiyəsinin evinə yığır, onların yemək-içməyini

də ev sahibi təşkil edir. Otuz cüz Quran həmin şəxslər arasında bölünür və günortaya qədər oxunub xətm edilir.

Ölü üçün qəbir qazmaq savab iş hesab olunur, ona görə də Mamrux kəndində qəbir qazmaq üçün ayrıca adam tutulmur: qəbir qazmağı bacaran hər kəs qəbiristanlığa yığılır və qəbir birlikdə qazılır. Gözbarax kəndində isə qəbir pulla qazılır. Ölünün üçündə ev sahibi qəbir qazanları, ölü yuyanı ehsana dəvət edir, ehsandan sonra onlardan halallıq istəyib haqqlarını verir.

## 8. UŞAQLA BAĞLI İNANCLAR

Gözbarax kəndində ana uşağa yatanda Dibir Məhəmmədin qəbiri ziyarət edilir, üstünə yaylıq bağlanır, onda doğuşun asan keçəcəyinə inanılır. Həmçinin, övladı olmayan qadınlar Dibir Məhəmmədin qəbirini ziyarət edir, qəbirin üstündə "Yasin" oxutdurur, ora nəzir qoyurlar. Ziyarətgahda yüyrük qururlar. Evdən gətirdikləri ipin bir ucunu qəbirin yanındakı məftil hasara, digər ucunu da ağaca bağlayırlar. Yüyrüyün iplərini qurduqdan sonra üstünə parça atırlar, parçanın da üstünə uşağı təmsilən ağacdan bir çöp qoparıb qoyurlar. Niyyət tutan barmağını yüyrüyə bir balaca toxundurur. Əgər yüyrük yellənirsə, niyyətinin hasil olacağına inanırlar.

Uşağın kəsilən göbəyi atılmır. Mamrux kəndində uşağın düşən göbəyi divar deşiyinə qoyulur, mələklərin gəlib onu aparacağına inanılır. Sabunçu kəndində isə düşən göbək beşik yastığının içinə və ya kitabın arasına qoyulur ki, uşaq böyüyəndə savadlı olsun.

Yeni doğulmuş uşağı ilk dəfə evə gətirəndə onun ayaqlarını evdə başqa balaca uşaq varsa, onun gözünə, əlinə vurur-

lar. Onda balaca uşağın böyüyü döyməyəcəyinə, onu çox istəyəcəyinə inanılır.

Söyləyicilərin dediyinə görə, qırxı çıxana qədər həm anaya, həm də uşağa qorxu var: tək qoyduqda uşağı vurğun vurur və ya qorxu tutur. Ona görə də uşağın yastığının altına korş[6] bıçaq, qayçı, çörək tikəsi, kömür, beşiyinin böyrünə süpürgə qoyulur, köbərin qırağına iynə sancılır, otaqdan qıfıl asılır. Başqasının nəfsi, gözü uşağı basmasın deyə su dolu stəkanın içinə çiy yumurta salıb qapının arxasına qoyulur. Stəkan qırx gün orada qalır, uşağın qırxı çıxandan sonra atılır. Əgər stəkana salınan yumurta partlayırsa, uşağa göz dəydiyinə inanılırdı. Söyləyicinin dediyinə görə, kənddə bir nəfər qırxlı uşağı evdə tək qoyub çölə çıxır, qayıdanda qorxudan uşağın gözünün çəpləşdiyini görür. Qorxuluğu götürmək üçün Ayətül-kürs duası oxuyub qorxan uşağın üzünə üfürülür və ya onu halqanın içərisindən keçirirlər. Ya da suyun içinə köz salırlar, duza Qulfallah oxuyub uşağın başına hərləyib ocağa atırlar. Zaqatala rayonunun Mişleş kənd sakini Bayramxatun Davudo-vanın dediyinə görə, uşağı qorxu tutanda qayınanası qara şalı dairə şəklində əlində tuturdu, qorxu tutan uşağı dua oxuyub üç dəfə həmin dairənin içindən keçirirdi. Onunla da uşağın qorxuluğu götürülürdü.

Qırxlı uşaq olan otağa yad adam gəldikdə uşağı əlləri üstünə alıb havaya qaldırır, həmin adam içəri girdikdən sonra yerə qoyurlar. Qırxı çıxmayan qadının kəsilən dırnağı atılmır, saxlanılır, qırxı bitəndən sonra divar deşiyinə qoyulur.

Kəndlərdə müəyyən şəxslərdə içərisində dualar yazılmış qırxaçar camı olur. Uşağın qırxını tökmək üçün həmin cam

---

[6] korş – küt, kəsməyən

gətirilir, onun içərisinə su tökülür. Qulfallah oxuyub qırx dənə düyü və ya lobyanı camın içinə atır, həmin suyu da vedrədəki təmiz suyun üstünə boşaldırlar. Həmin su ilə ana və uşaq çimizdirilir. Çimib qurtardıqdan sonra həmin lobya və ya düyü dənələri təmiz bir yerdə basdırılır. Zaqatala rayonunun Sabunçu kəndində qırx tökmək üçün istifadə olunan cam Məkkədən gətirilmişdi. Camı yiyəsinə qaytardıqda onun içinə nəzir qoyulur.

Ana bətnində əmələ gələn tük mundar sayıldığı üçün uşağın qırxı çıxanda başının tükü qırxılır. Uşağın saçını qırxacaq adam mütləq kənardan dəvət olunur, ona ayrıca pul verilir. Qırx tükünü zibilli yerə atmaq günah sayılır, onu parçaya büküb köhnə hasarın arasına, ya uşağın yastığının altına qoyurlar. İli çıxana qədər orada qalır, bir yaşı tamam olduqdan sonra təmiz bir yerdə basdırılır. Mamrux kəndində uşağın başını qırxan adam mütləq ata tərəfdən olmalı idi. Ana tərəfdən olan adam uşağın başını qırxdıqda yaxşı tük bitməyəcəyinə inanılır.

Uşaq anadan olandan sonra bir neçə gün gözlənilir, ondan sonra ad qoyulur. Uşağa adı ailə böyükləri verir. Uşaqlara ən çox dini şəxslərin adı verilir. Məsələn, uşaq orucluq ayında doğulursa, həmin ayın şərəfinə ona Ramazan adı qoyulur. Yaxud Quran açdırıb uşağın adını oradan seçirlər. Molla Quran açır, oradan seçdiyi üç adı kağıza yazıb ailə böyüklərinə verir, onlar da həmin adlardan birini uşağa qoyurlar. Qız uşağı çox olanda sonuncu uşağa Qızyetər, Songül, Kifayət, Bəsti adı qoyulur. Söyləyicinin dediyinə görə, qonşularının səkkiz qızı vardı. Sonuncunun adını Bəsti qoyduqdan sonra ardınca doğulan uşaq oğlan olur. Söyləyicinin dediyinə görə, həyətlərində bir usta işlədirdilər. Həmin usta beş qızdan sonra dünyaya gəldiyindən valideynləri ona Sevindik adını qoymuşlar. Yaxud

Mişleşdə birinin altı qızdan sonra bir oğlu olur, onun adını Arzuman qoymuşdu.

Əgər uşaq tez-tez xəstələnir, əmələ gəlmirsə, adın ona düşmədiyinə inanılır və adı dəyişdirilir. Məsələn, Mişleşdə kənd mollasının ilk adı Tofiq olur, amma uşaq vaxtı tez-tez xəstələndiyindən adı dəyişdirilib Qasım qoyulur. Söyləyicinin dediyinə görə, böyük qardaşının adını Süleyman qoymuşlar, amma uşaq daim xəstə olduğu üçün valideynləri onun adını dəyişdirir. İndi uşaq rəsmi sənəddə Süleyman adı ilə gedir, amma ailə içində başqa adla çağrılır. Uşağa ölən şəxsin adını verdikdə isə Yasin surəsi oxunub ölüyə bağışlanır, ondan sonra onun adı uşağa qoyulur. Uşağa ad qoyduqda üç dəfə azan verib sonra adı qulağına deyilir. Ad verilən gün süfrə açılır, yaxın qohumlar dəvət olunur və şadyanalıq keçirilir.

Uşağın rahat diş çıxartması üçün çatlayan ərzaqlardan – buğda, lobya, qarğıdalıdan hədik bişirilir. Zaqatala rayonunun Mişleş kəndində hədiyə qaxac ət də qatılır. Qarğıdalı gec bişdiyi üçün öncə onu suya töküb qaynadır, sonra üstünə lobya və ət əlavə olunur. Hədiyi qablara çəkib qonşuya pay verirlər, evə gələnlərə həmin yeməkdən təklif olunur. Zaqatala rayonunun Sabunçu kəndində isə uşaq diş çıxardanda onu ayaq üstə tutub başından düyü tökürlər. Uşağın öncə üst dişləri çıxırsa, deyilir ki, uşağı diş basır, onun gec ayaq açacağına inanılır. Uşaq ilk dişini kənar adamlardan ilk dəfə kim görürsə, ona pay verilir. Uşağın düşən dişi isə "bismillahi rəhmani rəhim", – deyilib hasarın deşiyinə qoyulur.

Dil açmayan uşağa qaranquşun yumurtasında su içirdilir. Uşağın ağzından dayanmadan su axırsa, dayısının ayaqqabısı ilə ağzını silirlər.

Ayaq açan uşağın dizi üstündə kətə sındırılır, o zaman uşağın sümüklərinin möhkəm olacağına inanılır. Yeriməyən uşağı ələyin içinə qoyub ayaqlarını çarpaz şəkildə əski ilə bağlayırlar və ələyin içinə pul qoyub yola çıxarırlar. Qarşıya çıxan ilk şəxsə uşağın ayaq bağını kəsdirib pulu da ona verirlər. Sabunçu sakini Elmira Musayevanın dediyinə görə, həyətlərindəki qoz ağacı yıxılanda onun kökü halqa (muğli) şəklində qalmışdı. Yeriməyən uşaq olduqda dua oxuyub üç dəfə həmin halqanın içərisindən keçirirdilər.

Dünyaya gələn hər bir uşaq üçün on dörd yaşına çatana qədər həqiq qurbanı (haqıq) kəsilir. Söyləyicilərin dediyinə görə, haqıq kəsilməyən uşağa qurban düşmür. Kəsilən haqıqın ana və uşağı o dünyada qovuşduracağına inanılır. Haqıq kəsilən heyvanın ətindən yeddi qapıya pay verilir, ya da onun ətindən yemək bişirilib ehsan verilir. Haqıq kəsilən heyvanın sümükləri atılmır, onları toplayıb təmiz bir yerdə basdırırlar.

## 9-13. KARÇÜL (CİN, ALEXALEYKA)

Eşitdiyimə görə, karçül balacaboy, görünməz, əyilmiş vəziyyətdə, qapqara bir varlıqdı. Uşaqlar atın üsdünə yapışanda deyirdilər, baxsana, karçül kimi yapışıbdı.

Ağ atımız var idi. Bir gün səhər baxıram ki, at həyətə bağlanıb, amma suyun içindədi. Elə bil bunu harasa aparıb, çapıb gətiriblər. Çapılmaqdan qapqara olub. Atın yalını da dolaşdırıb, xırda-xırda hörüblər. Atamdan soruşdum ki, ata, biz bunu minməmişik. Bu niyə tərlidi? Dedi, bala, axşam onu karçül minib. Atam deyərdi ki, karçül daha çox yiyəsiz atdara, yaşlı, dindar adamlar otaqda tək yatardısa, onların üsdünə gəlirdi.

## 10.

Nənəm deyirdi ki, karçülün başında papaq var. Onun başındakı papağı kim ələ keçirə bilsə, o görünəcək. Ancaq indiyə qədər onun papağını ala bilən olmayıb.

## 11.

Karçül, əsasən, pişik cildində olur. Çox vaxdı kişilərin üsdünə gəlir, özü də ağzı yuxarı yatanda gəlir. Öncə ayaqdan başlayır. Ayağını ayağ üsdünə qoyur, qollarını qol üsdünə qoyur, bütün bədən üzvləri insanın bədən üzvləri ilə üst-üstə düşür. Ağız ağzın üsdünə düşür, burun burnun üsdünə düşür. Onun burnunun bir deşiyi var. Adamın burnunun bir deşiyini bağlayır, o biri açıq qalır. Ona görə boğulma hissi yaradır, adama ağırlıq verir, onu tərlədir, amma ölüm baş vermir. Caynaqlarını da yan tərəfdən qabırğaların altına salıb sıxmağa başlayır. Babamın üsdünə gəlib. Babam Ayətül-kürs oxuyub, onu tutub tullayıb. Deyirdi, qapının yanında balaca toxunma coraba döndü, durub gülə-gülə də getdi.

## 12.

Gecə yatan vaxtı sənin üsdünə ağırlıq çökür, elə bil kimsə üsdünə çıxıb səni boğur. Bağırmaq istəyirsən, amma səsin çıxmır. Onda deyərdilər ki, bu gecə mənim üstümə alexaleyka gəlib. Onun üstünə sancaq taxanda heç nə edə bilmirdi. Çox adam çalışıb ki, üstünə sancaq taxıb alexaleykanı tutsun, olmuyub.

Mənim dostum vardı, adı Nəbi idi. Bizim kəndçi olsa da, Balakəndə olurdu. O deyirdi ki, Balakəndə oxuyurdum, bir qarının evində qalırdım. Aşağıda mən yatırdım, yuxarıda o yatırdı. Dam tərəfdə də pəncərə vardı. Mən aşağıda yatdım taxtın üstündə,

qarı da yuxarıda. Bir vaxtı gördüm pəncərədən gözləri balaca bir qız girdi. Yuxuda da deyiləm. O qız mənə çataçatda elə bil mənim bədənimin üsdünə dağ yığıldı. Ha o tərəfə çevrilmək istədim, ha bu tərəfə çevrilmək istədim, tərpənə bilmədim. O gedincax tərliyif ayıldım. Səhər bunu qarıya danışdım. Qarı dedi, mən onun dərdindən aşağıda yatmıram.

## 13.

Karçül çox adamın üsdünə gəlib. Kimin üsdünə gəlirsə, onu ancaq həmin adam görür, özü də hələ həyətdə ikən onun gəldiyini hiss eliyir. Bizim gəlinin üsdünə gəlir o. Nələr eliyir, xeyri yoxdu, genə gəlir. Bircə qapının ağzına süpürgə qoyanda, deyir, gəlmir. O gələndə, deyir, özümü tərpədə bilmirəm, boğuluram, çığırıram, ev adamla dolu olsa da, biri səsimi eşitmir. Çıxıb gedəndən sonra baxıb görürəm ki, qan-tərin içindəyəm. Hər dəfə bir sifətdə gəlir. Elə vaxt olur adam sifətində, elə vaxt olur pişik sifətində gəlir. Deyir, qapı-pəncərəni bağlayıram, amma bir yer tapıb gəlir. Onun dediyinə görə, hətta iynənin deşiyindən də keçə bilir. Adamın üsdünə minəndə insanın əli açıqda qalır. Əlində sancaq, iynə olub onun alnına batırsa, onda qaçmır.

Əvvəllər bir adam tutmuşdu onu. Onu işlədib özünə yaxşı mal-dövlət yığmışdı. Axırda balaca uşağı aldadıb iynəni çıxardır, uşağı da öldürüb getmişdi.

Karçül ata da gəlir, amma atın hamısına gəlmir. Hansı atnan öcəşdisə, daha çox ona gəlir.

## 14-16. ALNAYET (ALINYET, HAL ANASI)

Qadın uşağa yatanda üç-dörd gün onun yanında keşik çəkərdilər, tək qoymazdılar. Guya Anna qari gələcək, gəlinin

bağırsağını çıxardacax. Belə rəvayət eliyirlər ki, bir çoban Ajnourdan gəlirdi. Çay da kəndin qabağından axırdı. Səhərə yaxın çaya çatanda baxır ki, bir şey kənd tərəfdən yügürə-yügürə gəlir. Baxır görür ki, əlində qaraciyər var. O da eşidibmiş qadın uşağa yatanda Anna qari əlini salıb onun ciyərlərini çıxardır. Aparıb onu suya salanda qadın burda can verir. Birdən yadına düşür ki, bu Al qarısı olar. “Kafir, neynirsən, salma onu suya” – deyib xançalı çıxardıb üsdünə yügürən kimi deyir:

– Salmıram suya, məni incitmə. Yeddi arxa dönəninə kimi sənə dəymiyəcəm, məni burax.

Guya aparıb yerinə qoyur, arvad ölmür. Al qarısının ən çox qorxduğu şey sancaxdı, iynədi. Bir qadın uşağa yatanda onun üsdünə gəlibmiş, onda üsdünə sancaq sancıb onu tutub-larmış. Həmin qadının bir qız uşağı olur. Bu qız uşağı böyüyür. Bir gün bu qıznan suya gedir. Suya gedəndə qıza deyir ki, bala, habı şeyi götürsənə burdan. Bu uşaq nə başa düşür. Sancağı açan kimi qızı vurur yerə, qaçıb gedir.

**15.**

Şiferdən su tökülən yerdə görünməzdər, cinlər olur. Kim onların üsdünə ayaq basırsa, onlara xəsarət yetirirsə, onlar da ondan öc alır, onun üsdünə gəlirlər. Onun da duası var, o duanı oxuyanda gələ bilmirlər.

İranənin uşağı olanı üç gün idi. Xəsdəxanada yatırdı, yanında heç kim olmuyub. Anası sifətində bir qadın gəlibdi. Diyifdi, İranə, mən sənin uşağını aparacağam. Bu da diyifdi, mənim uşağımı sən apara bilməzsən. Diyif, onda mən səni boğuf öldürəcəm. Alınyet yaxınlaşıbdı ki, bunu boğsun, bu çığıranda həkim qaçıb gəlibdi. Ondan sonra bu qız qorxur, tez-

tez özündən gedir. Səhərisi gün məni çağırdılar ki, dünən bu qızın üsdünə Alınyet gəlib, onnan qorxubdu, onun qorxuluğunu götür. Mən buna baxdım, gördüm bundakı qorxulux mən götürən qorxuluxdan deyil. Bunun canına cinnər sirayət eliyib. Dedim, Tala kəndində tas quran Şaban əfəndi var, bunu aparın onun yanına. Apardılar ora, oturdub Qurandan surələr oxuyannan sonra gəlin özünə gəldi. O cin onnan aralandı.

## 16.

Hal deyilənə görə uşağı olmuyan qadındı. Uşağı olmadığı üçün zahı qadınnardan qisas alır. Doğulan uşağ oğlan uşağı olanda o yaxın gələ bilmir, oğlan uşağından qorxur. Amma doğulan uşax qız olarsa, tək qalanda həmin qadın gəlib onu aparır.

Nüh obada Sofu baba deyilən kişi olubdu. Əsil adı Məhəmməd olub, dindar olduğu üçün Sofu deyillərmiş. Sofu baba dəyirman arxının yanında olanda görüb ki, suyun içində uzun bir arvad var, əlində qanlı cigərlər, bu cigərləri suya çəkmək isdiyir. Saçınnan tutub deyir ki, məlun, oları qaytar yerinə qoy. Həm də and içdirib ki, mənim yeddi arxa dönənimə dəymiyəcəksən. Kəndə qayıdanda eşidib ki, Mamruxda filan arvadı qan aparıb, ölüm ayağındadı. Cigərləri qayıdandan sonra həmin arvad sağalıb.

Hal uzun saçlı, gözləri aşağı dartılmış eybəcər bir qadın olur. Sallax döşdəri olur, sağı sol çiyninə, solu sağ çiyninə aşırır. Ayaqları da tərsinə olur: it ayağı kimi dabanı irəli, pəncəsi dala.

## 17. BAİN ANA

Sən yatmısan, bir adamın səsiylə səni çağırıllar. Durub baxırsan, heç kim yoxdu. Ona deyillər səni çağıran Bain anadı.

Mənim sinif yoldaşım vardı. Onun anasını gecə çağırıblar, bu da durub çıxıbdı. Çağırdıxca gedibdi. Bu adamın dalınca qəbirstanlığa girib. Bir vaxtı ayılıb görüb qəbirstannıxdadı. Pismillah deyəndə o yoxa çıxır.

## 18. ABDAL

Bizim yaylax sahəmiz var Tirlər dağında. Orda Əbdalın qəbiri deyilən qəbir var. Əbdal da yarı insan, yarı heyvandı. Onun haqqında da rəvayətlər var. Tüfəngi tuşluyursan, insana dönür, tüfəngi çəkən kimi heyvana dönür. Onun qəbrinin uzunluğu iki metrə kimidi. Helə hündür adam olub.

## 19-21. ŞEYTAN

Ağsakqallar deyirdi ki, zoğalın altına getməyin, gecələr orda şeytan olur. Deyilənə görə, ağacların içərisində ən tez zoğal çiçək açır. Şeytan da buna aldanır. Elə bilir ki, zoğal tez çiçək açıbsa, meyvəsi də tez yetişəcək. Ona görə zoğalın altında yatır ki, meyvəsi yetişəndə onu yesin. Şeytan ha gözləyir zoğal yetişəcək, ha yetişəcək, ona kimi armud yetişir. Ayı armudu yeyir, amma şeytan hələ gözləyir.

## 20.

Rəhmətdik Ramazan dayı Arandan gəlirmiş. Çardaxların qabağına çatanda qaş qaralır. Gürcüvan tərəfdən görür səs gəlir. Əməlli-başdı toy çalınır: nağara, zurna, oynuyan. Muxaxlılar, çardaxlılar, ələsgərlilər – ətraf kəndlərin camaatı burdadı. Öz-özünə deyir, əşi, mən yol gəlirdim, bu toy hardan çıxdı? Deyir, atı sürüb getmək istiyirdim ki, biri gəldi, atı saxladı. Dedi, düş. Dedim, əşi,

mən yol gedirəm, sağ olun, Allah mübarək eləsin. – Bizdə də adət var, toy olanda yoldan keçəni saxlıyıb yeməyə dəvət eliyərdilər. Hətta bəy də gəlirdi, onu getməyə qoymurdu ki, sən mənim qonağımsan. Sənnən bərəkət gələcax. Onu buraxmazdı. – Bu mənada bunun atını tutdular, dedilər düş. Mən, deyir, düşdüm. Atımı apardılar, bir qırağa bağladılar. Mənə dedi, keç. Keçdim. Hamı da "xoş gəldin, xoş gəldin" deyir. Baxıram sifətdən tanıdığım, tanımadığım adamlardı. Oturdum. Bir az oyna, bir az şənlən, bir az oynayanlara əl çal. Hindi keçdik yeməyə. Aş gətirdilər. Bismillah deyib elə aşı yeməyə başlayanda baxdım gördüm ki, nə toy? Oturmuşam yolun kənarında çaylaxda, qabağımda da böyük bir təzəh.

Bu hadisədən sonra Ramazan dayı qorxuya düşdü, neçə gün xəsdə yatdı.

### 21.

Bizdə Xalid deyilən kişi olub. O, Armataya qızıl axtarmağa gedib. Dağa çıxanda görüb ki, şeytan bir süfrə açıb qızıl qurudur. Bu da fikirrəşib ki, nə qayırım? Yavaş-yavaş yaxınnaşıb, atılıb qızılın üsdünə, bir ovuc ondan qapıb. Şeytan bunu götürüb nətər atıbsa, yalnız bir neçə saatdan sonra özünə gəlir. Gözünü açanda görüb ki, Dəvəboynundadı, həmin qızıllar da ovcunda qalıb.

### 22. ƏRDAVA

Kimsə tərsinə iş görəndə, deyillər Qasıman ərdava. Bunu nəyə görə deyillər? Belə rəvayət var ki, əvvəllər camaat divlərin üsdünə iynə taxıb onları işdədirmiş. Qasımgilin də bir Ərdavası varmış, amma hər şeyi tərsinə görürmüş. "Get meşədən odun gətir" demək isdiyirsə, onu tərsinə deməliydi: "Bu gün meşəyə getmə, odun gətirmə". O zaman qaça-qaça gedib meşədən

bir ağacı qırıb gətirirdi. Yaxud filan daşı bura gətir demək isdiyirsə, gərək tərsinə desin. Bu gün də həmin söz işlənir: “Qasıman ərdava kimi tərsinə iş görürsən”.

Belə rəvayət eliyillər ki, ərdavanı biri tutub işlədirmiş. Bütün işləri ona gördürür, hətta aparıb sahəni ona şumladır, yeri əkdirir. Elə mament yaranır ki, ev yiyəsi harasa getməli olur. Qız uşağı qalır ərdavaynan. Ərdava uşağa deyir ki, başım qaşınır, baxsana. Qız bunun başına baxanda deyir, Ərdava çoci[7], sənin başında iynə var. Diyir, çıxarsana. Qız da bilmiyib. İynəni çıxardan kimi qızı götürüb çırpıb yerə, özü də qaçıb meşəyə gedib. Belə bir rəvayət danışırlar.

## 23-25. XIZIR NƏBİ, XIZIR İLYAS

Xızır Nəbi, Xızır İlyas, Xızır Nas üç nəfərdi. Kim bir bəlaya düşəndə həmin övlüyaların üçünün də adını yadına salsa, o bəladan qurtarar. Onlar üç övlüya olub. Biri qəza olan vaxtı, biri tufan olan vaxtı, birisi yanğın olan vaxtı köməyə çatır. Hərəsinin bir funksiyası var. Üçünün də adını çəksən, biri də olsa, sənə köməyə çatır.

## 24.

Keşmişdə çaylaxdan keçib piyada şəhərə gedirdıx. Elə vaxt olurdu sel gəlirdi, çaydan keçmək olmurdu. Onda çağırırdıx ki, ay Xızır İlyas, kömək elə bizə. Sudan keçməyə imkan isdiyirik. O su elə bil dala çəkilirdi, bizə yol açılırdı. Biz o tərəfə keçəndən sonra yenə həmən gurultuynan axırdı. Xızır Nəbini isə od düşəndə çağırırıx. Kiminsə evinə od düşəndə bir əlhənd[8],

[7] çoci – qardaş
[8] əlhənd – Əlhəm duası

on bir qulfu oxuyub onu çağırsa, onda od sönməyə başlayır. Xızır Nəbi od üçündü, Xızır İlyas su üçündü.

Nənəmgildə yaşıyanda gecəyarı od düşmüşdü evimizə. Nənəm közləri peçdən götürüb vedrəyə yığmışdı, amma üsdünə qapax qoymağı unutmuşdu. Vedrəni də qapının ağzına qoymuşdu. Köz orda alışıb, döşəməyə od düşmüşdü. Bir vaxt gözümü aşdım ki, alov evin tavanına vurur. Nənəmi çağırdım. Nənəm duran kimi alovu görüb dedi: "ey Xızır Nəbi, kömək elə bizə. Bizi yanmağa qoyma". Ondan sonra mən odun üstündən atılıb ayvana çıxdım, su dolu vedrə var idi, onu odun üsdünə atıb nənəmi çölə çıxartdım. O vaxdı nənəm deyirdi ki, sənə Xızır Nəbi kömək elədi, sənə çölə çıxmağa imkan verdi.

**25.**

Rəhmətdik anam deyərdi ki, bala, səhər-səhər evdən çıxanda qapını açan kimi Xızır Nəbinin adını çək. Denən ki, mənə yaxşı yol qismət elə. Onun adını çəksən, sənin səfərin yaxşı olacaq.

## 26-27. QOYUNLA BAĞLI ƏFSANƏLƏR

Məhəmməd peyğəmbər namaz qılan vaxdı deyib:

– Dayan, a qoyun. Mən namazımı qılım, sonra yoluna davam edərsən.

Bu, namazını qılıb durunca qoyun nə qədər məsafə gedibdi. Peyğəmbər çətinnığnan bulara çatıbdı. Onda peyğəmbər qoyunun qarnına çomaq vurub ki, sənin qarnın heç vaxt doymasın. İndi qoyuna fikir versən, görərsən ki, qarnının bir tərəfi şiş, o biri tərəfi içəridədi. Deyilənə görə, o vaxdan qoyunun qarnının bir tərəfi helə batıq qalıb.

## 27.

Heyvanlar bir gün yığılıb Allahdan dilək istəyir. Hərəsi bir şeyi götürür. Qarışqa yer qazmağı, ayı qış yuxusuna getməyi götürür. Axıra qoyun qalır. Allah deyir, qoyun, bəs sən nə isdiyirsən? Qoyun da deyir ki, mənə elə ayaq ver ki, mən o ayaqlarnan özümü qışdan çıxardım. Habelə qar olsun, qoyun o ayaqlarıynan qarı eşir, ordan nəsə çıxardıb yeyir. Həm də ki, onda dayanmaq yoxdu, daim gəzir.

## 28. OVÇULUQ ADƏTLƏRİ, İNANCLAR VƏ YASAQLAR

1. Bizə böyüklər deyirdi ki, sürüdə ağ heyvan görəndə atmayın. Məsələn, təkənin içində ağ təkə varsa, cüyürün içində ağ cüyür varsa, atmayın. O abdaldı, yəni sürünü otarandı. Onu atan olarsa, o adam öləcəkdi.

2. *Söyləyiciyə ov hamiləri haqqında sual verdikdə bizə bu məlumatı verdi:* Yuxarı Axaxdərə deyilən kənd var, o tərəfin adamları bizim tərəfə ova çox gəlibdi. Həmin kənddə Dinəməhmə, Zevruxan deyilən mahir ovçular olub. Bizim meşələrdə Zevruxanın pusquda durduğu daş vardı, "Zevruxan oxna" deyirik ona. Zevruxan bir dəfə bizim tərəfə ova çıxanda həmin daşın altında oturub dincəlirdi. Ocaq qalayıb onun qırağında oturubdu. Gecə onun yanına sakqallı, yaşlı bir kişi gəlibdi. Deyibdi ki, bəs elə, bir də bura ova gəlmə. Axırı sənin üçün yaxşı olmayacaq. Ondan sonra o, bu tərəflərə ova gəlməyib.

3. Ova səhər tezdən çıxırdıx. Çünki heyvanlar bir səhər tezdən, bir də saat dörddən-beşdən sonra otduyur. Ona qədər

onlar qayaların kühüllərində gizlənirlər. Heyvanları çox vaxt izlə ovlayırdıx. İz olmayanda dağlarda duzlax çıxan yerlər vardı, həmin yerlərdə pusquda dururdux. Heyvanda o qədər güclü hissiyyat var ki, insan iyini aldıqda o dəqiqə qaçıb aradan çıxırdı. Ona görə ova gedəndə küləyin istiqamətini nəzərə alıb otururdux. Axşam üstü külək aşağı doğru əsir, biz də elə otururduq ki, külək iyi o tərəfə aparmasın.

4. Ova gedəndə hələ heyvan atmayıbsansa, sənin üstünə başqa ovçu gəlirsə, onunla yoldaş olurduq. Əgər dörd nəfər olurdusa, ikisi bir tərəfə, ikisi başqa tərəfə gedirdi, gələndə də vurulan ovu bərabər bölürdük. Əti hissələrə ayırırdıq, hər hissənin üstünə bıçaq qoyurduq. Biri üzünü çevirirdi. Əti bölüşdürdükdən sonra üzünü çevirib deyirdi, bu sənin, bu da sənin. Belə bölürdük. Heyvanın baş-ayağı onu vuran ovçuya çatırdı. Ovdan qayıdanda üstünə adam çıxırsa, vurulan heyvanın ətindən ona da verməlisən.

5. Elə adam var ki, gözə gəlir. Neçə dəfə ova gedir, heç bir heyvan vura bilmir. Onda deyirlər, ovun bağlanıbdı. Qaratikan ağacını ortadan yarıb oyuq şəklinə salırdılar, həmin adamın özünü də, tüfəngini də üç dəfə ordan keçirirdilər. Onda ov açılırdı.

6. Başaran qədər ana-balaya, balaca balaya güllə atmırdıq. Doğmayan bir illik şişəklər olur, onlara güllə atırdıq. Doğmayan şişəklərin buynuzları xırda olur, yaz ayları doğıum vaxtlarında tez tüklənirdi. Tükləri sığallı olurdu. Hər fəsilə uyğun tükləri dəyişirdi. Yazda da qıpqırmızı olurdu.

7. Deyilənə görə canavar bir saatın içində yeddi dağ aşır. O qədər sürətli heyvandı. Canavar Musa peyğəmbərin iti olubdu. Peyğəmbər görüb ki, canavar doğan qoyunun balasını yiyibdi. Orda deyibdi ki, haram olsun sana. Onnan onu qovufdu.

8. Ayı yağından yel xəstəliyinin müalicəsinə istifadə olunurdu. Maral ildə bir dəfə buynuzunu tökür. Onun təzə buynuzu qığırdax kimi yumşax olur. O, mədəyə dərmandı, həm də məhlədə çox ilan olanda dağ maralının buynuzunun qırığını yandırırdılar, onun iyi gələn yerdə ilan dayanmırdı.

9. Qatıq çalmaq üçün maya götürəndə qabın içində duz və ya şəkər aparırsan, onlar onu götürüb yerinə qatıq töküb verirlər.

10. Kimdənsə dərman alanda ona şəkər verib əvəzində dərman almalısan.

11.Uşaq başını aşağı əyib ayaqlarının arasından baxırsa, deyirdilər qonaq gələcək. Mənim balaca nəvəm var. Bir gün başını əyib ayaqlarının arasından baxırdı. Yoldaşıma dedim, bu gün qonaq gələcək. Axşam, həqiqətən də, qonaq gəldi.

12.Qonşuya süd verəndə südü boşaltdıqdan sonra kasanın içinə azacıq su əlavə edib qaytarırdılar. Malın südü kəsilməsin deyə həmin suyu gətirib həyətə tökürdülər.

13. Nişanlı qızın əlində səbəb olduğu üçün onun əli ilə xəsdəyə su içirdirlər, həyətə su səpirdilər. Xəsdə adam olanda nişanlı qız əlini xəsdənin üstünə çəkirdi. Deyirdilər, nişanlı qız əl çəkəndə tez sağalır. Əldə yara varsa, nişanlı qız əlini çəkəndə yara tez sağalır.

14. Sabunçu kəndində köçməyən, evlənməyən adamların ziyarət elədiyi yer var. Belə rəvayət eliyillər ki, bir oğlan bir qızı sevirmiş, amma qızı başqasına ərə verillər. Qızı gəlin aparanda onu istəyən oğlan onun başı üsdündən güllə atır. Gəlin ondan xəstə düşür, üç aydan sonra ölür. İndi ərə getməyən qızlar, oğlanlar bəxtlərinin açılması niyyəti ilə oranı ziyarət eləyirlər.

15. Sünnət eliyəndə qapıya qandal qoyurdular ki, ora gələn adam qandalın üsdünnən keçib gəlsin.

16. Ziyarətə gedəndə qəbirin üstündə bir əlhənd, üç qulfu oxunur. Deyilənə görə, insan onu görmür, amma ziyarət sahibi gəlib onun qabağında dayanır. Bir əlhənd üç qulfu isə bir Quran xətminə bərabər sayılırdı. Qəbirin üstündə bir əlhənd üç qulfu oxuduqda bir Quranın oxunub ziyarətə bağışlandığı hesab olunurdu.

17. Qapıya ilk dəfə gələn uşağa pay verilir. Pay verməsdikdə, böyüyəndə uşağın əliəyri, oğru olacağına inanılırdı.

## 29-33. QƏDİR GECƏSİ

Eşitdiyimə görə, bir deyirmançı olub. Dəni üyüdəndə birdən deyirman dayanıb. Yüyürübdü arxa, görüb su dayanıb. Bu isdiyib desin ki, ali təhsilli, yüksək adamlardan elə. Deyib ki, başı yekələrdən elə, başı yekələrdən elə. Başı o qədər böyüyüb ki, deyirmanın qapısından keçməyib. Sonra deyir, əstafirlax, başı balacalardan elə. Başı balacalaşıb olub bu boyda. O gecə nə dilək eləsən, Allahtala qəbul eliyir.

## 30.

Mənim bibim Qədir gecəsini görüb. Xəsdə vaxtı olub, gecəyarı həyətə düşüb. Qədir gecəsi olduğunu heç başa düşməyib. Qabağında bulax olubdu. Burğunu açıbdı, görür, su tökülmür. Bacısını çağırıb ki, bacı, bacı, görürsənmi, su tökülmür. Aftafadakı su qatılaşmışdı. Əldən gedəndən sora başa düşüb ki, Qədir gecəsi imiş.

## 31.

Keçmişdə bizim qonşuluxda bir arvad olubdu, rəhmətdik Zibeydə xala. Dəsdəmaz almağa çölə çıxıbdı. Görübdü həyətdəki ağaclar yıxılıbdı. Diyifdi, ay Allah, bu gecə küləkmi əsdi, nə oldu ağaclar yıxıldı? Gedim hələ buzovu bağlıyım. Bu gedib buzovu gətirincə ağaclar hamısı başını qaldırıb. Diyifdi, Allah, Qədir gecəsi idi, mən heç nə annamadım.

Şıxı kişi də görübdü Qədir gecəsini. Xaral meşoğuna bizim dildə balaq deyillər. Onda da iki xaral dolu buğdası olan adam qışdan sağ çıxırmış. Bu deyib, ay Allah, mən nə isdiyim? İki xaral dolusu buğda demək isdiyib, dili çaşıb "balaqey balaq", yəni xaral içində xaral deyib. Baxıb görüb yanında iç-içə iki xaral meşoğu var.

## 32.

Bizim kənddə bir yaşdı arvad olur. Bu çıxıb görür ki, ağac yıxılıbdı. Onda da bir yaxşı dilək tutmalısan, heç kimə deməməlisən. Bu da hamıya deyib ki, axşam ağac yıxılmışdı, dedim səhər durub yaxşıca bali[9] yiyacağam. Səhər durub baxır ki, ağac ayağ üsdədi. Əfəndi baba buna deyir, heləmi eliyərlər? Onu heş kimə deməzdər, bir yaxşı dilək tutarlar. Bu da onu bilmiyib.

---

[9] bali – gilas

## 33.

Qədir gecəsi orucluğun on beşindən sonrakı tək günə düşür. Qədir gecəsini görən gərək başqasına deməsin. Mən bir-iki dəfə dedim, ondan sonra görmədim. Meşədə qoz çırpırdıx. Meşənin ortasıdı, ətraf qarannıxdı. Yatmışıx, bir vaxdı gözümü açdım ki, qabaqdakı qoz ağacına işıq düşübdü. Mənim beynimə gəlmədi ki, bu, Qədir gecəsi olar, bundan bir dilək isdiyim. Tez böyrümdəkini durğuzdum. Onu durğuzan kimi işıxlar getdi. İkinci gecə durdum, gördüm çəmənnik bir yerdi, irəlidə bir təpə var, təpədən o yana keçən kimi elə bil cənnətdi. Orda iki ağac var: biri heyvadı, biri nardı. Mənim də əlimdə Quran kitabı vardı. Dedim o ağacların altında oturub Quran oxuyaram. Genə yanımdakı qızı durğuzdum. Onu durğuzan kimi baxdım ki, yerin içindəyəm.

## 34-35. KƏSİKBAŞ ZİYARƏTİ

İldə bir dəfə quraq düşəndə yağış istəmək üçün Kəsikbaş ziyarətgahına gedirik. Deyilənə görə, tək adamın dalına beş-altı nəfər düşüb, onu tutmağa çalışıblar. Dolamaya çatmağa bir az qalmış orda onu tutub başını kəsiblər. Dala qayıdanda bir nəfər çönüb baxır ki, o adam başını qoltuğuna vurub altdan yuxarı gedir. Çığırıb deyir:

– Ay qardaşlar, başını kəsdiyimiz adam başını götürüb gedir.

Bunlar da düşüb onun dalına ki, görək, bu hara gedir. Dağa qalxanda orda düz yer var, iki dənə cökə ağacı var, həmin ağaşların altında başını yer qoyub orda can verib. Ora Kəsikbaş ziyarətgahı deyilir. İl quraq keçəndə yağış yağdırmaq üçün ora ziyarətə gedirik. Səhər ağarınca evdən çıxırıx, günorta

namazına ora çatırıx. Əvvəlcə aşağıda başın kəsildiyi yeri ziyarət eliyirik, xoruz kəsib, qanını ora buraxıb ziyarətə qalxırıx. Apardığımız ərzaqdan orda yemək bişirir, yediyimizi yeyir, yeyilməyəni kasıba, imkansızlara paylıyırıq. Quran oxuyuruq, zikr edib Allahdan yağış isdiyirik. Çaydan ora su aparırıx, orda bir-birimizi sulayıb evə gəlirik. Həmişə də ordan dala qayıdanda, evə çatanda yağış yağıb.

### 35.

Kələli kəndində Molla Şərif olub. Şeyx Şamilin tərəfdarlarından olub. Hətta onun haqqında belə bir mahnı qoşmuşdular:

Aman, necə vurdular,
Car bazarı qurdular,
Kələli Molla Şərifi
Aman, necə vurdular?

Deməli, hökumət adamları aşağıda onun başını kəsiblər, camaatın gözünü qorxutmaq üçün onun başını cidanın ucuna keçirib atlarnan yolboyu gəzdiriblər. Həmin adamın cəsədini aparıb yuxarıda basdırıblar.

Başı ağrıyannar onun qəbrini ziyarət eliyir. Rəhmətdik qaynatam deyərdi ki, anamın başı ağrıyırdı. Hər dəfə mənə deyirdi ki, ay bala, o ziyarətdən mənə tütyə gətir. Mən də belə şeylərə inanmadığından ona əhəmiyyət vermirdim. Deyir, bir gün yolum həmin ziyarətgahın yanından düşmüşdü. Həmin qəbrin üsdündən bir az torpaq götürdüm, kağıza bükdüm, gətirdim. Arvad onu suya qatıb içdi, onunla da başı sağaldı. Deməli, əsas inamdı. Ora gedənlər inanırlar və şəfa tapırlar.

## 36-38. SULTAN ŞEYXƏMİR BABA

Abatdi Sultan yetim uşaq olub. Mıslax kəndinin cavanları deyir, bu nə sirdi görəsən? Bu bütün günü dağda olur, buna çörək hardan gəlir? Bunlar düşür bunun dalına. Dağlarda dağ keçiləri olur, onları abdallar sağır. O da keçiləri sağıb onların südünü içirmiş, ondan pendir, qatıq tuturmuş. Bunu pusanlar görür ki, bu yaxşı adamdı, abdallarnan oturub-durur. Cavanlar düşür bunun dalınca. Abatdi Sultan onlardan qaçanda obasına ağır atıbdı[10]. Deyib ki, sizdən axsax əskik olmasın. Ordan keçib gəlib Mişleşə. Mişleşdə onun şeyx olduğunu bilmiyiblər, göndəriblər mala. Yazbaşı olubdu. Samur deyilən çay var, o çay göynən gedirdi. Malı çayın o sahilində otarırdılar. Çıxıb dağa, baxıb görür ki, çay malı aparacaq. Özünü çayın qabağına verir, çay daldan keçib gedir, cığırın içindəki mal quruda qalır. Qocalar deyir, o yaxşı adamdı, onu mala göndərməyək. O gündən onu mala göndərməyiblər, qalıb Mişleşdə. Onlara deyib ki, sizdən qırx cavan əsgik olmasın. Müharibə dövründə o kənddən qırx cavan əsgik olmayıb.

### 37.

Mişleşdə mala gedəndə camaata deyif ki, ay cavanlar, bura eşşəyin üsdündə iki nurani dərviş gələcək. Nə məqsədiniz varsa, onlardan isdiyin. Bunun dediyi adamlar gələndə görüllər ki, şeyx deyirdi filan formada adamlar gələcək, amma gələnnər ayrı formadadı. Deyirlər, yəqin şeyx deyən adamlar bunlar döyül. Bunlardan heç bir dilək isdəmirlər. Şeyx gəlib soruşur ki, noldu, həmin adamlardan bir dilək isdədinizmi? Deyillər, baba, onlar sən deyən adamlar döyüldü.

---

[10] ağır atmaq – qarğış etmək

Növbəti gün gənə Abatdi Sultan bunlara deyir, habu rəngdə, eşşəkli, habu formada iki kişi gələcək. Şeyxin dediyi adamlar gəlib bunlarnan görüşür, amma bunlar genə başa düşmürlər. Şeyx bunlardan soruşur ki, noldu? Deyillər, baba, sən deyən adamlar gəlmədi. Üçüncü dəfə gənə şeyxin dediyi adamlar gəlillər. Dərvişlər sərhədi keçəndə cavanlar deyillər, ay kişilər, biz sizdən xeyir-dua isdəməyə gəlirik. Dərvişlər deyir, biz sizin torpaxdan çıxdıx, daha xeyri yoxdu.

Şeyxdə belə kəramət var idi.

## 38.

Dağıstanda Sultan Şeyxəmir Baba deyilən ziyarəgah var. Özü naxırçı olubdu. Qaynanam danışanda eşitmişəm ki, Mıslaxlılar onun naxırçı olmağını lağa qoyublar. Şeyxəmir baba diyitdi ki, daa mən sizə nə diyim. Sizin kənddən qırx axsax əsgik olmasın. İndi o kənddə axsaxlar çoxdu. Ordan keçib gəlibdi Dağıstandakı Mişleş kəndinə. Orda birinə naxırçılıx eliyifdi.

Mişleşdə tək qarı olubdu, bunu bacılığa götürübdü. Diyitdi, bacı, mən sağa şərayit yaradacağam, amma sən bir adama dimiyəsən. O vaxdı evin ortasında dirəklər olurdu. Diyitdi, ha bura mən barmax basacam, ha burdan yağ çıxacax, bu tərəfdən də bal çıxacax. Ondan istifadə eliyərsən, yiyərsən, amma heç kimə dimiyərsən.

Ha bir il, ha iki il, bu arvad bir az özünü tutub. Mənim kimi bir qonşu gəlib diyər ki, ay bala, bu qədər yağ, bal sağa hardan olur? Hələ satmağa da qalır. Kim verir sağa? Diyər, mən sağa diyəcağam, sən heç kimə dimə. Ondan sonra gedib barmağını dirəyə basar, nə yağ var, nə bal. Yağ da qurudu, bal da qurudu. Şeyxəmir baba gələndə soruşar ki, nə olub, bacı? Diyər, ha belə

şey olub. Diyər, olub olub da, fikir eləmə. Get mağa su gətir. Su gətirməyə gedər. Gələr diyər, vallah, qardaş, yol şaxnan dolu idi, keçə bilmədim. Qədir gecəsi olub, ağaclar yatıb, bu bilmiyib. Bir az keçmiş Şeyxəmir baba deyər ki, get bir də baxsana, ay bacı. Bu gedər, görər yol-iriz açıxdı, amma bulaxda su yoxdu. Gəlib diyər ki, vallah, yol-iriz təmiz idi, amma bulaxdan su gəlmirdi. – Yaxşı, – diyər, – səhər durub baxarsan. Səhər baxar ki, belinə bağladığı uzun tənzif bulağa gedəndə belindən düşmüşdü, ağacın təpəsindədi. Şeyxəmir baba diyər, bacı, mən sağa çox yol göstərdim, amma sağa qismət olmadı. O Qədir gecəsiydi, ağaclar yatmışdı, bulax da qurumuşdu, amma sən bilmədin. Deməl, sağa qismət deyilmiş.

## 39-40. DİBİR MƏHƏMMƏD

Əvvəllər maşın olmuyufdu, otu, odunu arabaynan gətirirmişdər. Qonşulardan biri ot gətirirmiş, gecəyə düşür. Arabanın qolu sınıf. İndi bunu necə düzəldəsən? Hava qaralıb, işıq yox. Ot gətirən adam çarəsiz qalıfdı. Dibir Məhəmməd babanın doqqazına çatanda bu çağırıfdı:

– Ay əfəndi, birköməyə gəlsənə, ha burda arabanın qolu sınıfdı. Hona kömək isdiyirəm.

Məhəmməd əfəndi gəlif diyifdi:

– İşıq salsam, sən onu düzəldə bilərsənmi?

Diyifdi:

– Hə, hə. Düzəldə bilərəm.

Məhəmməd əfəndi əlini qaldırıfdı, əlindən ona işıq düşüfdü. Onnan sonra ot gətirən başdıyıf arabanın qolunu düzəltməyə. Məhəmməd əfəndi diyifdi:

– Düzəltdinmi?

Diyif:

–Hə, düzəltdim.

Diyif:

– Hara kimi səni çatdırım?

Diyif:

– Bu körpüyə kimi çatdırsan yaxşı olardı. Qarannıxdı, bir az çəkinirəm.

– Hə, – diyifdi, – gəlirəm.

Məhəmməd əfəndi əlini irəli tutufdu, ot gətirən o əlin işığına körpüyə kimi çatıfdı. Təpədən yuxarı qalxanda diyifdi:

– Daha sənə işıq lazım deyil, yaxşı yol saa, get.

Dibir Məhəmməd baba ordan geri qayıdıfdı. Helə kəramətli adam idi.

## 40.

Qonşu Gözbaraxda bir əfəndi olar. O da Dağıstannan gəlmə imiş, Dibir Məhəmməd babanı da tanıyırmış. Onu sürgün elamağa gəliblər. Gəlib həyətə doluşublar. Bu deyifdi bir dəsdəmaz alım, sonra sizin maşına oturum. Dəsdəmaz alanda diyifdi:

– Ey Dibir Məhəmməd baba, o qədər sənin yanına gəlmişəm. Məni bu gün sürgün eliyillər. Niyə qoyursan məni aparsınlar? Mənə bir köməklik göstərsənə.

Dəsdəmaz almağa əyiləndə görübdü qabağında yekə bir işıq var. İşığı görüb qorxubdu. Diyifdi:

– Ay Allah, bu işıx nədi?

Diyifdi:

– Niyə qorxursan, mən Dibir Məhəmməd babayam. Tez ol burdan uç.

Diyifdi:

–Necə uçacam?

Diyifdi:

– Mən sənə qol-qanad verirəm, tez ol dəsdəmaz al, uç.

Bu dəsdəmaz alıfdı, Dibir Məhəmməd babaynan bir yerdə uçmağa başdıyıfdı. Maşındakı adamlar görüfdü ki, iki işıq uçub gedir. Olar diyifdi, o nə işıxdı, görəsən? Gözbaraxlılar diyifdi, biz bilmirıx. Diyiflər, bə o əfəndi hanı? Diyiflər, uçub gedən həmin əfəndi idi. Dibir əfəndi babanın helə güclü kəraməti var imiş.

## 41. HÜSEYN ƏFƏNDİ

Hüseyn əfəndi iyirmi beş il Buxara şəhərində oxuyubdu. Qonşu Mosul kəndində onnan bir yerdə oxuyan əfəndi vardı. O əfəndi, onnan bir yerdə başqa əfəndilər gələrdi bu əfəndinin yanına. Bir gün gələndə namazın vaxt çatır. Rəhmətdik Hüseyn əfəndi deyir ki, siz sünnətdəri qılın, mən dəsdəmaz alıb gəlirəm. Bular sünnəti qılıb Hüseyn əfəndini gözdüyürlər. Onun ayağında sarmuz olardı, çarıx kimi də ucları olardı. Bir də görüllər yayın ha bu vaxtı Hüseyn əfəndi baba ayaqlarının üsdündə qar gəlir. Əfəndilər sorşur ki, sən hara getmisən, biz səni gözdüyürük? Deyir, narahat olmuyun, mən getmişəm Dağıstana, Şalbruzda namaz qılıb gəlirəm. Sarmuzun üstündəki qarı kəramətini olara göstərməyə gətiribdi.

## 42. ƏFƏNDİ BABA

Balaca olanda qaşımın üstünə ağrı gələrdi, gün çıxan kimi də başlıyardı yatmağa. Rəhmətdik atam məni apardı Əfəndi babanın qəbrinin üsdünə. Orda babanın başının tükünü yandırdı, onu iylətdirdi, onun qəbrinin üsdündə yatırtdı, hoynan da ağrı kəsdi.

Atı nallayanda babanın çeçələ barmağı qopub. Həmin barmağı bu gün də saxlayırlar. Uşaqlar yara çıxardanda həmin barmağı yaranın üstünə basırlar, onnan da çəkilib gedir.

Mənim nənəm danışardı ki, vaxtilə burda vəba xəstəliyi yayılmışdı, ətraf kəndlərdə nə qədər adam qırılmışdı. Nənəm deyirdi ki, bizim dərəni baba saxlayıb. Tütyə deyirik, babanın qəbrinin torpağından götürüb suya salardılar, həmin suyu səpərdilər heyvana. Deyirdilər o xəstəlik qara keçi donunda gəldi, istədi çıxsın bizim dərəyə, çıxammadı. Ona görə vəba xəstəliyi bizim kəndə o qədər də təsir eləmiyib.

Babanın dağın başında arıları olubdu. Aran tərəfdən bir oğru bu arılara dadanıbdı. Bir vaxtı oğru gəlib, arılar buna yovuşub. Bu, babaya ayan olub. Oğluna deyib ki, get, arılar bir adamı necə götürübsə, elə də duruttu. Oğlu gedib baxıb ki, doğrudan da, şələnin üsdündə arı pətəyi var. Baba da oğluna tapşırıb ki, şələni qoy, onun özünü bizə gətir. Oğrunu gətirib, yaxşı baldan da yedirtdirib, deyib bu günnən sonra belə şey eləmə. Bal da verib yola salıb.

## 43. HACI HƏTƏM BABA

Nikolay dövrü olub. Hacı Hətəm baba hakqında şikayətlər gedib. Axırda bir-iki milisoner də qoşub bunu aparıblar. Xeyli gedəndən sonra qarannıx qarışır, faytonun təkəri çıxır. Nə qədər eliyirlər, təkəri yerinə sala bilmirlər. Deyillər, qarannıxdı, bir şey düzəltmək olmur. O kişi iki barmağını çıxardıb, barmağı lampışka kimi işıx veribdi. Deyib, faytonu düzəldin. Həmin adamlar çox pərt olublar. Faytonu düzəldənnən sonra kişini qaytarıb kəndə gətiriblər. Deyiblər ki, daha sənlə işimiz yoxdu. Qarannıxda barmağınla işıq verdin bizə.

## 44.

Hacı Hətəm babanın yanına iki arvad gəlibdi. Deyiblər, Hətəm baba, pis yuxular görürük, bir kitaba baxsana. Deyib, uşaqların varmı sənin? Arvadın biri deyib, yeddi oğlum var. Hacı Hətəm baba deyib, çox döyül. O biri qadın da deyir ki, bir oğlum var. Buna da deyir, az döyül. Çox oğlu olanın oğlannarı qırılıb biri qalıbdı, bu birinki də axıra kimi yaşıyıbdı.

Onun qəbrinin üsdündə heyvan kəsirik, torpağından, daşından götürüb tütyə kimi istifadə eliyirik, daşını da suya salıb ayətlər oxuya-oxuya xəsdəyə içirdirik.

## 45. BABA RƏHİ

Baba Rəhi cin piri sayılır. Cin vuran, qorxu tutan adamları onun üsdünə aparırlar. Üç dəfə "bismillah" eliyib qəbrin üsdündən üç çimdik torpaq – tütyə götürürlər, cin vuran şəxsin dilinin üstünə qoyurlar. Xəsdənin paltarından bir parça kəsib götürürlər, yaxud da yaylığını qəbrin üstünə qoyub deyirlər ki, mənim xəstəliyim burda qalsın.

## 46. XALAXIN GÖLÜ

Mənim ulu babamın adı Abuç Məhəmməd olub, Haja getdiyi üçün ona Hajı Didey deyiblər. Rəhmətdik anam danışırdı ki, babamın uşağı yox idi, Xalıxverdi addı yetim bir oğlanı yanında saxlıyırdı. Babam hər il Haja gedirdi. Nööbəti dəfə ziyarətə gedəndə bu oğlan bunun qarısıynan qalır. Nənəm hər axşam yemək bişirəndə deyirmiş ki, qocam burda olsaydı, o da yiyərdi. Bu uşaq diyər ki, ay nənə, sən yeməyi qaba tök, mən aparıb çatdırım. Nənəm elə bilir yetim oğlandı, bir qab yeməknən qarnı

doymur, yəqin özünə isdiyir. Ona görə birini də artıq çəkirmiş. Bu uşaq da qabı götürüb gedirmiş. Hacı Dideyin dediyinə görə, Məkkədə namaz qılanda bu uşaq qabı gətirib onun böyrünə qoyurmuş, "bunu qarın göndərib" deyib qeyb olurmuş.

Vaxt gəlir kişi Hajdan gələsi olur. Kəndin ayağına dəvə karvanı yaxınnaşanda arvad da təndirə od salırmış ki, çörək bişirsin. Oğlan bilir ki, kişi Hajdan qayıdannan sonra bunun sirri açılacaxdı. Dəhrə, kəndir götürür, meşədən çırpı gətirmək bəhanəsiynən evdən qaçır. Babam gəlib cəm dolu meşoğu boşaldar qarının qabağına. Nənəm diyər ki, bu nədi? Diyər, sənin mənə göndərdiyin xörəklərin qabıdı. Nənəmdən soruşar ki, bəs uşaq hanı? Nənəm diyər, meşəyə oduna gedibdi. Ha gözdüyərlər, uşaq qayıtmaz. Axşam tərəfi camaat yığışar ki, onu axtarsınnar. Kəndin ayağında dik yer var, bunlar ora çatanda oğlanın evdən çıxanda götürdüyü kəndiri tapırlar, ondan bir az yuxarıda dəhrənin gürzünü, gölün yanında isə köynəyini tapırlar. Rəhmətdik qaynatam deyərdi ki, orda tarixən su olmazdı. Oğlan qaçanda dəsdəmaz almaq isdiyirmiş, ətrafda da su yox idi. Onda dəsdəmaz almaq üçün Allahdan su isdiyib ayağını yerə vurub, dabanını basdığı yerdən su çıxıbdı. Xalaxın gölü ondan yaranıb. Həmin uşağın adı Xalıxverdi olub, müqəddəsliyi bilinəndən sonra ona Abatdi Xalıxverdi deyiblər. Xalaxın gölü də onun adı ilə bağlıdı.

Deyilənə görə, o gölnən Suvagilin ayağındakı Dakka bulağın əlaqəsi var. Rəvayətə görə, bir çoban üsdünə adını yazdığı çomağını o gölə atıb, həmin çomax Suvagilin böyründəki Dakka bulaxdan çıxıbdı.

## 47. PƏRİ QALASI

Pəri qalasının sahibi bir xanım olub. Çox incə gəlin olub. Nənəm danışırdı ki, Armatay qalasıynan oranın əlaqəsi olub. Armataya hücum eliyəndə qaçıb Pəri qalasında gizlənib, Pəri qalasına hücum eliyəndə isə Armatayda gizlənib. Qaçanda da atların nallarını sökdürüb tərsinə vurdururdu ki, iznən gəlib onu tapa bilməsinlər.

Pəri xanım incə, nərmənazik xanım olub. Deyilənə görə, onun böyük bacısı Şah Abbasda olub. Bir gün bunun bacısı Şah Abbasın əlinə su tökəndə şah fikir verib ki, bunun əlləri o qədər incədir ki, bu üzdən baxanda o üzü görünür. Şah Abbas buna diyib ki, görəsən səndən də gözəl adam varmı dünyada? Bu, bajısının gözəlliyini gizli saxlıyırmış. Birdən ağzından qaçırıb ki, sən hələ mənim bajımı görməmisən. Belə deyən kimi Şah Abbas beynəmaz[11] durub ki, bunun əlinin bu üzünnən baxanda o üzü görünür. Özü belə olanda bunun bajısı necə olar? Arvadınnan soruşub ki, sənin bajın hansı tərəfdə olur? Diyif ki, şimaldadı. Şah Abbas fikirrəşib ki, şimalda qalayçılar çox olur. – Doğrudan da, o vaxdı çoxlu mis qablar olub. Son vaxtlara qədər də qalayçı ən möhtəbər insan olub. – Qalayçı paltarını geyinib, körüyü də götürüb, özüynən bir nəfər də götürüb tərpəniblər. Soruşa-soruşa gəlib çıxıblar bura. Pəri xanım yaşayan qalanı buna nişan veriblər. Bu öz-özünə fikirrəşib ki, bura necə girsin. Nəsə bir oyun çıxarıblar. Pəri xanıma xəbər göndəriblər ki, qab-qacaq qalaylayan usda gəlib. Pəri xanımda da mis qablar olub. Diyif, gətirin bizim qabları da ağartsınlar. Şah Abbas qabları ağardanda gözünün

[11] beynəmaz – qəfildən

altıynan baxıb, məhətdəl qalıb. Diyir, arvadım düz deyirmiş, bu necə incə xanımdı. Qabları qalaylayıb qutaranda hörmət əlaməti olaraq Pəri xanım bunnarın qabağına plov qoyur, üsdündə də ət. Şah Abbas da həmişə xörəyə başdıyanda ortadan başdıyardı. Pəri xanım deyib ki, ay usdalar, yeməyə başdıyın. Şah Abbas qalayçı olduğunu yadınnan çıxarar, qaşığı götürən kimi düz ortaya salıb yeməyə başdıyar. Pəri xanım da hər şeyə fikir verərmiş. Bunu görən kimi başa düşür ki, bu qalayçı deyil. Deyir, usda, Şah Abbas kimi yiyirsən. Belə diyən kimi Şah Abbas cumub bunun üsdünə. Pəri xanım başqa yol tapmıyıb, pəncərədən özünü atıb, aşağı düşüb ölüb.

## 48. ŞAH ABBAS

Kimsə sahənin ortasından ot çalmağa başlasa, ona deyirdilər ki, nə Şah Abbas kimi ortadan başdıyırsan. Belə rəvayət eliyillər ki, o vaxdı şahlar libasını dəyişib əyaləti gəzirdilər. Şah Abbas da dərviş kimi gəlir bir qapını döyür. Bu evdə də bir qoja qarı olur. Bunu qonax eliyir. Qarı da yayma bişiribmiş. Bir boşqab da bunun qarşısına qoyur. Şah Abbas qaşığı atıb boşqabın tam ortasınnan başdıyır yeməyə. Qarı diyir:

– Nə Şah Abbas kimi ortadan başdıyırsan?

Şah Abbas pərt olur. Diyir:

– Niyə ki, Şah Abbas ortadanmı başdıyır?

– Hə, – diyir, – həmişə düşmənnən vuruşanda ortaya girir, mühasirəyə düşüb uduzur.

Ondan sonra Şah Abbas döyüş taktikasını dəyişir.

## 49. QAN DƏYİRMANI

Car-Balakən camaatlığı dövründə kəndi ağsakqallar idarə edib. Bizim kəndin bir cavanı cınıxlını[12] öldürüb. O vaxdın qanunlarına görə ölənin qohumları da gəlib bulardan kimisə öldürməli idi. Bu qan davası yüz illərnən çəkirmiş. Bu hadisə baş verəndə bizim kəndin ağsakqalları yığışır ki, nətər eliyək bu qan davası böyüməsin. On-on beş ağsakqal yığışıb gedir Cınığa. Onların ağsakqalları ilə görüşür. Onlarnan razılaşırlar ki, kənddəki dəyirmanlardan birini qan əvəzinə iyirmi beş-otuz illiyinə o tərəfə icarəyə versinnər. Həmin müddət ərzində cınıxlılar dəyirmanı işdədib xeyrini özdərinə götürüblər. Onnan sora o dəyirman Qan dəyirmanı adlandırılıb.

## 50. QABAQ-TABAĞIN NAĞILI

Bir kişinin Qabağı olufdu. Qoz oğurramağa gedirmiş. Yolda buna bir öküz rast gəlir. Öküz diyir:

– Qabax-tabax, hara gedirsən?

Qabax-tabax diyir:

– Qabax da sənsən, tabax da! Mənim adım qırmızı paltar Mirzəxan babadı.

Öküz diyir:

– Qırmızı paltar Mirzəxan baba, hara gedirsən?

Qabax-tabax diyir:

– Qarı ilə qocanın qozunu oğurramağa gedirəm.

Öküz diyir:

– Məni də özünə yoldaş eləsənə.

---

[12] Dağıstan Muxtar Respublikasında kənd adı

Qabax-tabax diyir:

– Yoldaş yox, qardaş olax, gəl sən də.

Öküz də buna qoşulur. Öndə qabax, arxada öküz az gedillər, çox gedillər, yolda bir xoruza rast gəlillər. Xoruz diyir:

– Qabax-tabax, hara gedirsən?

Qabax-tabax diyir:

– Qabax da sənsən, tabax da! Mənim adım qırmızı paltar Mirzəxan babadı.

Xoruz diyir:

– Ey qırmızı paltar Mirzəxan baba, hara gedirsən?

Qabax diyir:

– Qarıynan qocanın qozlarını oğurlamağa.

Xoruz deyir:

–Məni də özünüzə yoldaş elə.

Qabax diyir:

–Yoldaş yox, lap belə qardaş olaq.

Xoruz da ona qoşulur, yola düşüllər. Öndə Qabax, ardınca xoruz az gedillər, çox gedillər, yolda bir iynəyə rast gəlillər. İynə soruşur:

– Qabax-tabax, hara gedirsən?

Qabax özündən çıxır:

– Qabax da sənsən, tabax da!

– Bəs sənə nə deyək?

Qabax deyir:

– Qırmızı paltar Mirzəxan baba deyə çağır.

– Ey qırmızı paltar Mirzəxan baba, hara gedirsən? – deyə iynə soruşur.

Qabax deyir:

– Qarı ilə qocagilə qoz oğurramağa.

– Məni də özünüzə yoldaş eləyin.

– Yoldaş yox, qardaşsan.

Qabaxda Qabax, sonra öküz, onun dalınca xoruz, onun dalınca iynə gedillər, gedillər, yolda toxmağa rast gəlillər. Toxmax Qabaxdan soruşur:

– Qabax-tabax, hara gedirsən?

Qabax deyir:

– Bura bax, Qabax da sənsən, tabax da!

Toxmax deyir:

– Bəs səni necə çağırax?

Qabax diyir:

– Qırmızı paltar Mirzəxan baba.

Toxmax diyir:

– Qırmızı paltar Mirzəxan baba, hara gedirsən?

Qabax diyir:

– Qarı və qocagildən qoz oğurramağa.

Toxmax diyir:

– Məni də özünüzə yoldaş elə.

Qabax diyir:

– Yoldaş yox, lap belə qardaşsan.

Hindi bular yığılıf gedillər. O vaxdı qozu evin çardağında yayıb saxlıyırlarmış. Qabax nərdivan qoyuf çıxır çardağa. Evin ortasında buxarı olurdu, orda ocax qalıyırdılar. Xoruz külün içində gizlənib. İynə palazın üsdünə sancılıb, toxmax qapının üsdündə, öküz də buxarıdan asılıbdı. Qarıynan qoca da aşağıda yatıflar. Qarı kişinin dümsükləyir ki, qoca, qoca, vallah, çardaxdan səs gəlir. Qozu oğurrayırlar.

Qoca deyir:

– Əşi, kim gələcaxdı bizim çardağa? Tək adamıx.

Deyir:

– Vallah, qoz səsi gəlir, kimsə orda eşələnir.

Kişi durub buxarının yanına gəlir ki, buxarının içərisindən yuxarı baxsın. Yuxarı baxanda öküz bunun sifətinə batırıbdı. Kişi palazın üsdündə oturanda iynə arxasına batıbdı. "Qoy burdan qaçım", – deyib qapını açanda toxmax başına düşübdü. Arvad da durub ocağı yandırmaq istəyir ki, içəri işıq düşsün. Odunları eşəliyəndə xoruz qanadlarını çırpır, kül arvadın gözünə dolur. Arvad da yıxılır ora. Qabax buxarıdan yumalanır, aşağı düşüb gedir.

Bizim ev kəndin yuxarısında idi. Kənddə də Gülüm deyilən bir arvad vardı, ayağı axsıyırdı. Atam deyirdi, o Qabax burdan yumalana-yumlana gedəndə həmin arvadın dizinin üsdünə düşübdü. O arvadın ayağı ondan axsayır. Atam belə danışırdı, biz də inanırdıx.

## 51. MUSTAFA BƏY

Bir atanın kor qızı olub. Arvadı rəhmətə gedəndən sonra ata başqa qadınla evlənir. Ögey ana qızla dolanmır. Ərinə diyir:

– Mən bu qızla dolana bilmirəm. Ya bu qızı seç, ya da məni.

Ata qızı səbətə qoyub meşəyə aparır. Qız soruşur:

– Ata, məni hara aparırsan?

Atası diyir:

– Səni aparıram meşəyə gəzdirməyə.

Aparıb qızı qoyur ayının mağarasına. Qız sorşur:

– Ata, bə bura haradı?

Diyir:

– Səni ərə vermişəm, kişinin adı Musdafa bəydi. Kişi oduna gedib, qayıdacax. Sən burda otur, səhər gəlib səni yoxluyacam.

Qız oturur burda gözdüyür. Axşamçağı ayı qayıdıb gəlir mağarasına. Hava yağışlı olub, ayının kürkü isdanıb. Ayı qızı iyniyir. Qız əlini ayının üsdünə sürtür, görür bunun kürkü höyüşdü. Diyir:

Musdafa bəy,
Yağan yağışdı,
Kürkün höyüşdü.

Ayı başdıyır qızı yalamağa, sonra da dişdəməyə. Qız deyir:

Öpməh öpməhdi,
Bu dişdamax nədəəndi?

Ayı orda qızı yiyir.

## 52. MƏNİLƏR

1. Reyxanı əkdim düzə,
Göyərib çıxdı üzə.
Qaraqaşlı ay oğlan,
Bir qonaq gəlsənə bizə.
= Aman qardaş, can qardaş,
Niyə gəlmirsən bizə?

2. Sarı tütün bükümü,
Saxla könlündəkini.
Mənim könlüm nə bilsin
Sənin könlündəkini.

3. Dağlar duman oldu, gəl.
Halım yaman oldu, gəl.
Bir də səni görəydim,
Ay günüm qara oldu, gəl.

4. Dağlar, dağlar, du məni,
Zəncir bağlar du məni.
Elə qərib olmuşam,
Görən ağlar du məni.

5. Bakılıyam bakılı,
Başında var kəkili.
Mən o qızı sevirdim
Kimdir onun vəkili?

6. Ay ana, ölmüyəsən,
Yaman gün görmüyəsən.

Yerin cənnətdik olsun,
Cəhənnəm görmüyəsən.

7. Qardaşım, qara daşım,
İyirmi beşdir yaşım.
Axtarım hardan tapım
Şimal boylu[13] qardaşım.

8. Bacım cannə olubdu,
Nə deyir, nə olubdu?
Xəcalətmi çəkirsən,
Üzün rəngi solubdu?

9. Qum başında duraydım,
Gül-çiçəyi dərəydim.
Köhnə ata yurdunda,
Təzədən doğulaydım[14].

10. Dünya mənə dar gəlir,
Yaşamağım ar gəlir.
Qəlbimi sıxır kədər,
Gözlərimdən yaş gəlir.

11. Saralmışam, solmuşam,
Bulud kimi dolmuşam.
Küsübdü bəxdim məndən,
Belə tənha qalmışam.

12. Döşəyi salanım yox,
Yastığı verənim yox.
Elə qəmgin olmuşam,
Qeydimə qalanım yox.

13. Alma atana qurban,
Atıb tutana qurban.
Məxmər döşək, gül yastıq,
Yalqız yatana qurban.

14. Əzizim, o xandan,
O paşadan, o xandan.
Olaydım bir dəstə gül,
Asılaydım yaxandan.

15. Yollar palçıqlı olsun,
Süfrəniz açıq olsun.
Toy tutan əziz bacım,
Bəxtiniz açıq olsun.

16. Elə sudan olaydı,
Şüşələrə dolaydı.
Yoldan keçən gözəl oğlan,
O oğlan mağa olaydı.

17. Çaya saldım qaşığı,
Mən oldum gül aşığı.
Qardaşsız bacıların,
Olmayır yaraşığı.

[13] şimal boylu – şümal boylu
[14] Söyləyici bu mənini köhnə kəndlərinin həsrəti ilə deyir.

18. Yuxarı bağ bizimdi,
Qara saxlım üzümdü.
Mahnı çoxdu, səs yoxdu,
İndi nööbə sizindi.

19. Gedirəm, yol üsdəyəm,
Bülbüləm, gül üsdəyəm.
Azrayıl, alma canımı,
Nişanam[15], toy üsdəyəm.

20. Gəl bacılar, başdıyaq,
Dərdimizi aşdıyaq.
Vətəndən kənar düşən
Qardaşımdan başdıyaq.

21. Gəl bacı, mahnı diyax,
Limonu soyub yiyax.
Bizə hamısı birdi,
Sizə hansınnan diyax?

22. Su səni, suda səni,
Saxlasın xuda səni.
Şaxmar ilan vurmasın
Şirin yuxuda səni.

23. Bu dağa dağ deməərəm,
Pendirə yağ demərəm.
Qardaş olmuyan yerə
Mən vətən demərəm.

---

[15] nişanam – nişanlıyam

24. Dağlarda, meşələrdə,
Şam yanır şüşələrdə.
Hamısı yar qoynunda
Mən qaldım meşələrdə[16].

25. Əyriplan aladı,
Qanadları qaradı.
Əyriplan şoferi
Nuriyeva Sonadı.

26. Qoyunu qatdım yatağa,
Çıxdım hündür otağa.
Baxdım balam yatıbdı,
Qıymadın oyatmağa.

27. Əsgərlər qatar-qatar,
Qatar belinə batar.
Vətənnən kənar düşən
Nə vaxt vətənə çatar?

28. Təndirdən çıxan yalav,
Ay yazda çıxan ilav[17].
Qızdara nə yaraşır
Qırmızı ipək şalav[18].

---

[16] Söyləyicinin dediyinə görə dağlarda qoyun otaranda yalnızlıqdan sıxılanda bu mənini deyərdi.
[17] ilav – sarıköynək quşu
[18] şalav – şal

29. Məhlənin gül ağacı,
Kəlağayın qıyqacı.
Toyun mübarək olsun,
İstəkli əziz bacım.

30. Qardaş demə qan olar,
Ay yel əsər, tufan olar.
Qardaş gəzən yollara
Ay bacılar qurban olar.

31. Qardaş, qoyun kimindir?
Sana gör neçə mindir.
Soruşmaq ayıb deyil,
Sən sevən qız kimindir?

32. Qızın adı Pərişan,
Dağlara düşdü nişan.
Yar verən o üzüyü
Barmağımdan salmışam.

33. Suvagil axın-axın,
Döşünə ulduz taxım.
Qardaş, səni görməyə
Hansı dağlardan baxım?

34. Suda ilanı gördüm,
Dərdi biləni gördüm.
Gecə şirin yuxuda
Balam gələni gördüm.

35. Bu yellər, əsən yellər,
Səbrimi kəsən yellər.
Sizə əmanət qalsın,
Biz ayaq basan yerlər.

36. Lampaların işığı,
Evlərin yaraşığı.
Qardaşsız bacıların
Olmayır yaraşığı.

37. Bildirçinin balabı
Yı`q`ın-yı`q`ın şalabı.
Ts`eleb q`eleb avxuba,
Çelebi babayn balabı.

*Tərcüməsi.*
Bildirçinin balaları,
Ağır-ağır şələlər.
Çılpaq qalıb,
Çələbi babanın balaları.

38. Mani oma kand
Deley ciziran ekel
Nesa mani heney
İştiraf kaley.

*Tərcüməsi:*
Yuxarıda palıd ağacı,
Üstündə var yarpağı.
Ya sən məni deginən,
Ya da iştirafını ver.

## 53. SALAMMƏLİK

“Salamməlik”lər əsasən qız toyunda (xınada), gəlin köçən gün, yun əyirmək, tütün sərmək üçün keçirilən iməciliklərdə oxunurdu. Xına gecəsində gəlin bir kənarda oturur, rəfiqələri beş-altı nəfərdən ibarət iki dəstəyə bölünüb üz-üzə durur və əl çala-çala oxuyurlar. Bir dəstə oxuya-oxuya o biri dəstəyə sarı gedir, ora çatdıqda baş əyib geri qayıdır. Bu dəstə qurtarandan sonra o biri dəstə başlayır. Gəlin köçən gün isə oğlan evinin adamları gəlini aparmağa gəlməmişdən qabaq və ya gəlin bəzənən zaman rəfiqələri oxuyur. “Salamməlik”lər qaval və tənburun müşayiəti ilə oxunur.

Salammalik, salammalik,
Ay lilay, lilay, lilay,
Toli Malik, Toli co.
Məhləyə at gəlibdi, salammalik, salammalik,
Calğaya bağlanıbdı, Toli Malik, Toli co.
Ağlasa, ağlamasa, salammalik, salammalik,
Aparmağa gəlibdi, Toli Malik, Toli co.

Hərkədə can, hərkədən, salammalik, salammalik,
Kimdir səni örgədən, Toli Malik, Toli co.
Aman baci, can baci, salammalik, salammalik,
Nə tez çıxdın cərgədən, Toli Malik, Toli co.

Yaylığım həşdi, hüşdü, salammalik, salammalik,
Bir ucu suya düşdü, Toli Malik, Toli co.
Ağla bacılar, ağla, salammalik, salammalik,
Ayrılıq bizə düşdü, Toli Malik, Toli co.

Çaylaqda qaraçılar, salammalik, salammalik,
Yazda çiçək açılar, Toli Malik, Toli co.
Oxu, bacılar, oxu, salammalik, salammalik,
Bəlkə könlüm açılar, Toli Malik, Toli co.

Qapı aşdım, qar gördüm, salammalik, salammalik,
Suya gedən yar gördüm, Toli Malik, Toli co.
Bir əlində şamama, salammalik, salammalik,
Bir əlində nar gördüm, Toli Malik, Toli co.

Bu dərənin uzunu, salammalik, salammalik,
Çoban, qaytar quzunu, Toli Malik, Toli co.
Get qonşuya deginən, salammalik, salammalik,
Mənə versin qızını, Toli Malik, Toli co.

Bu ayaz sərin ayaz, salammalik, salammalik,
Bulutdux, sərin ayaz, Toli Malik, Toli co.
Aman Allah, can Allah, salammalik, salammalik,
Sevəni sevənə yaz, Toli Malik, Toli co.

Samavar pakqıldayır, salammalik, salammalik,
Qənqırrar çakqıldayır, Toli Malik, Toli co.
Zəhləm gedir o yardan, salammalik, salammalik,
İş görmür, dıqqıldayır, Toli Malik, Toli co.

Bir ovucda kişmişsən, salammalik, salammalik,
Cibdən cibə düşmüşsən, Toli Malik, Toli co.
Sən haranın quşu idin, salammalik, salammalik,
Gedib hara düşmüsən, Toli Malik, Toli co.

## 54. ALA GÖZLÜM

Bu mahnı oğlan evinin adamları gəlini aparmağa gələndə oxunur. Qızın rəfiqələri gəlin qapıdan çıxan ərəfədə bu mahnını oxuyaraq onun ağladırlar.

At gəlib aparmağa, ay ala gözlüm, ala gözlüm,
Qapular qoparmağa, can qaragözlü yar.
Yığılın qohum-qardaş, ay ala gözlüm, ala gözlüm,
Qoymayın aparmağa, can qaragözlü yar.

Məhləmizdən qız gedir, ay ala gözlüm, ala gözlüm,
Qız gedir, ucuz gedir, can qaragözlü yar.
Yüz min manat versə də, ay ala gözlüm, ala gözlüm,
Yenə də ucuz gedir, can qaragözlü yar.

İstəkanın ağ olsun, ay ala gözlüm, ala gözlüm,
İçi dolu yağ olsun, can qaragözlü yar.
Bu qədər mahnı dedik, ay ala gözlüm, ala gözlüm,
Eşidənlər sağ olsun, can qaragözlü yar.

## 55. CEYRANIM (SABUNÇU VARİANTI)

"Ceyranım" mahnısının iki variantı vardır: "Yalınqat ceyranım", "Cütqat ceyranım". "Yalınqat ceyranım"da ceyranım sözü bir dəfə, cütqatda isə iki dəfə təkrarlanır.

Məhlədə kələm kimi,
Yar verən salam kimi.
Bizi necə ayrıtdın,

Əsliynən Kərəm kimi.
Ay ceyranım, ceyranım,
Can ceyranım, ceyranım.

Qastunum bozdu, neynim?
Düyməsi azdı, neynim?
Sevdin ala bilmədin,
Vijdanın azdı, neynim?
Ay ceyranım, ceyranım,
Can ceyranım, ceyranım.

Quzu gəlir yatağa,
Qalxdım hündür otağa.
Balamı yuxuda gördüm,
Qıymadım oyatmağa.
Ay ceyranım, ceyranım,
Can ceyranım, ceyranım.

Qanıx qırağındayam,
Çeşmə çırağındayam.
İtirmişəm balamı,
Onun sorağındayam.
Ay ceyranım, ceyranım,
Can ceyranım, ceyranım.

## 56. MARAL XAYNA[19]

Su üstündə durarsan, lilay, lilay,
Dindirsəm, dinərsənmi, Maral xayna?
Yazıb kağız göndərsəm, lilay, lilay
Oxuya bilərsənmi, Maral xayna?

İkimiz əmi qızı, lilay, lilay,
Sən qoyun ol, mən quzu, Maral xayna.
Çıxarıq göy yaylağa, lilay, lilay,
Tökərik dərdimizi, Maral xayna.

Qardaşım qaladadır, lilay, lilay,
Kağızı taladadır, Maral xayna.
İsmarradım gəlmədi, lilay, lilay,
Bəylərin aradadır, Maral xayna.

Bu dağa dağ demərəm, lilay, lilay,
Pendirə yağ demərəm, Maral xayna.
Yarsız məclislərə lilay, lilay,
Mən məclislər demərəm, Maral xayna.

Yük üstündə yumurta, lilay, lilay,
Ana məni unutma, Maral xayna.
Unutsa da, unutsun, lilay, lilay,
Göz yaşını qurutma, Maral xayna.

---

[19] xayna – xanım

## 57. OX, CAN AMAN

Dağıstan dağ yeridi,
Gürcüstan gül yeridi.
Halal olsun Zaqatalamız
İgidlərin bol yeridi.
Ox, can aman, canastar man aman.

Məhlədə qoşa çinar,
Qoşa yanaşı çinar.
Yar məhləyə girəndə
Yarpağın döşə çinar.
Ox, can aman, canastar man aman.

Köynəyi yaşıl oğlan,
Əcəb yarışır oğlan.
Məhləmizdə dolaşma,
Atam savaşır, oğlan.
Ox, can aman, canastar man aman.

Ay qız adın Hürüdü,
Duman dağı bürüdü,
Gül üzünü deməkdən,
Cavan canım çürüdü.
Ox, can aman, canastar man aman.

## 58. LİLAYLAR

Ay lilay, lilay, lilay,
Lilay ha, lilay, lilay.
Kim gəlib xoş gəlibdi,
Bu yerlərə xoş gəlib.
Bakıdan gələn qonaq
Zaqatalaya xoş gəlib.
Ay lilay, lilay, lilay,
Lilay ha, lilay, lilay.

Dağıstan dağ yeridi,
Gürcüstan gül yeridi.
Halal olsun Suvagil,
Qızların bol yeridi.
Ay lilay, lilay, lilay
Lilay ha, lilay lilay.

Bulaxda buz qalmadı,
Daxqada duz qalmadı.
Yıxılmış Suvagildə,
Mənə ki qız qalmadı.
Ay lilay, lilay, lilay
Lilay ha, lilay lilay.

İreyxan əkdim düzə,
Cücərib çıxdı üzə.
İreyxan boylu anam,
Niyə gəlmirsən bizə?
Ay lilay, lilay, lilay
Lilay ha, lilay lilay.

# AVARLARDAN TOPLANMIŞ FOLKLOR ÖRNƏKLƏRİ

## 59. RAMAZAN BAYRAMI[20]

Ramazan ayının ilk gününə və ay təhvil olan günə avarlarda böyük gecə (kь*дав содро*) deyilir. Ramazan ayı yaya düşdükdə açıq havada, qışa düşdükdə isə evlərdə bu münasibətlə süfrə açılır, aş, ət yeməkləri bişirilir. Ramazanın gəlişi evlərdə qeyd olunan zaman divar boyu döşəklər düzülür, insanlar yerdə, döşəklərin üstündə oturur, böyük taxtların (liqini) üstündə yemək verilir. Kdav sodro günü hamı bir-birinin qapısına gedir, bişirilən təamdan dadır, bir-birinin bayramını təbrik edir. Həmin gün bişirilən yeməklərdən imkansızlara da pay göndərilir.

Ramazan ayının sonuncu günü hər evdən zəkat çıxarılır. Zəkat olaraq adam başına iki kiloqram yeddi yüz qram buğda və ya ona müqabil pul çıxarılır. Həmin zəkat kasıblara, ehtiyacı olan şəxslərə verilir. Avarlarda Ramazan ayında qəbiristanlığa gedilmir. Deyilənə görə, həmin müddət qəbiristanlığa cənnət havası buraxılmış olur. Ona görə qəbir üstünə ancaq bayram günü məsciddə bayram namazı qılındıqdan sonra gedilir. Saxurlardan fərqli olaraq, avarlarda qəbir üstünə kişi-qadın eyni vaxtda gedir. Hər kəs öz ölüsünün qəbirinin başına yığılır, *qulfu* oxutdurur. Qəbir üstünə gedənlər özü ilə şirniyyat aparır, qəbiristanlıqda ehsan verir. Söyləyicilərin dediyinə görə, əvvəllər qəbiristanlığa ehsan kimi bişmiş ət və çörək aparırdılar. *Xudul kesno (худул кесно)*, yəni ehsan yeməkləri – halva, maxara, ət qutabı (хIанал гуци), şor qutabı (мигшил гуци), balqabaq

[20] 59-63 saylı mətnlərdəki etnoqrafik təsvirlər söyləyici məlumatları əsasında tərtibçi tərəfindən verilib.

qutabı (гьибхил гуци), halva çörəyi (чуду бокок) aparmaq isə daha savab sayılır. Günortadan sonra hər kəs ailəsi ilə nəslin (*toxumun*) böyüyünü ziyarət edir. Uzaqda olan bacı-qardaş da həmin gün ata ocağına yığılır. Bayram günü hər adam ən azı yeddi qapıya bayramlaşmağa gedir, həmin evlərdə bişirilən təamlardan dadır.

Orucluq bayramının birinci gününə *xan buruj (*хьан буруж*)* deyilir. Həmin gün uşaqlar əllərinə parçadan hazırlanmış çantalar götürüb qapı-qapı gəzir, pay yığırlar. "Кьдав содро хьан буруж, баркай гье дий цо хIоно"[21] – deyib ev yiyəsindən pay istəyirlər. Ev yiyəsi də "Allah qəbul eləsin" deyib onların çantalarına boyanmış yumurta, konfet, peçenye qoyur. Söyləyicilərin dediyinə görə, konfet, pençenyeni çox vaxt xoşlamazdılar, əsasən, yumurta istəyərdilər. Yumurtalar da ya soğan qabığında boyanmış, ya da çiy halda verilirdi.

Bayramın axırıncı günü səhər uşaqlar, axşam isə böyüklər qapı gəzirdi. Böyüklərin qapı gəzməsinə *min kuna* deyilir. Min kuna zamanı qadınlar kişi, kişilər isə qadın paltarı geyinir, tanınmamaları üçün üzlərinə maska taxır, başlarına kapron corab keçirir, yaxud sifətlərini kömürlə rəngləyirdilər. Yeni Şərif kəndində isə "min kuna" gəzənlər yaşlı qadınların paltarlarını geyinir, sifətlərini şalla bağlayır, əllərinə də dəyənək alırdılar. "Min kuna" zamanı hər obanın adamları dəstə halında qapıları gəzib oxuyurdular:

Min kuna amin!
Salixətin amin!
Mominətin amin!
Xədicətin amin!

---

[21] Tərcüməsi: Sadağa üçün konfet, bərəkət üçün bir yumurta.

Müsəlman adlarını sadalayıb ev yiyəsindən pay istəyirdilər. Söyləyicilərin dediyinə görə, min kuna gəzənlərə heç bir qadağa yox idi. Əgər ev yiyəsi onlara pay vermirdisə, onların qarşısına çıxmırdısa, əllərinə keçəni oğurlayır, qapı-bacanı dağıdır, darvazanı yerindən çıxardırdılar. Yaxud ev yiyəsi pay vermək üçün qapıya çıxdıqda onu oğurlayıb aparırdılar. Söyləyicinin dediyinə görə, bir dəfə min kuna gəzənlərin qorxusundan hamı qaçıb evə girir, uşaq yaddan çıxıb arabanın içində qalır. Ev yiyəsi onlara pay vermədiyinə görə min kuna gəzənlər həmin uşağı götürüb qaçırmışlar. Ayrı-ayrı dəstələr bir-biri ilə qarşılaşdıqda bəzən onlar arasında dava düşür, bir-birinə lax yumurta atırdılar. Lax yumurtanın iyindən bəzən onlara yaxın düşmək olmurdu. "Min kuna"da yığılan ərzağı hər kəs aparıb öz evində yeyirdi.

## 60. YAZ BAYRAMI

Yazın gəlişi ilə əlaqədar hədik bişirilirdi. Hədik yeddi növ ərzağın qarışığından hazırlanır: buğda, düyü, qarğıdalı, lobya, yağ, duz və quru ət. Qışda mal kəsəndə onun çənə əti qurudulub saxlanılır, hədik bişirəndə ondan istifadə edilirdi. Çənə əti xırda tikələrə bölünüb qaynadılır. Hədik bişirilən yerdə böyük ağaclardan yelləncək (*uçuncaq*) asıb yeniyetmə qızlar, oğlanlar uçunurdular. Uçuncaq şabalıd ağacının ən hündür budağından asılır və ən azı on metr hündürlüyü olurdu. Bir nəfər əlində çubuq uçunan şəxslərdən sevdiyi oğlanın adını soruşurdu. Kimsə adını deməyə çəkinirdisə, ayaqlarına çubuqla vurub istədiyi oğlanın adını deməyə məcbur edirdi. Bir tərəfdə də arvadlar maxara bişirirdilər.

## 61. AVAR TOYU

Qabaqçöl sakini Mədinə Mustafayevanın dediyinə görə, yetkinlik yaşına çatmış oğlanlar qız seçərkən böyüklərin məsləhəti ilə hərəkət edirdi. Oğlanları çox vaxt ailə böyükləri yönəldir, xoşlarına gələn qız olanda ona diqqət yetirməyi məsləhət görürlər. Böyüklər qız seçərkən qohum olacaqları ailənin imkanına, nüfuzuna diqqət yetirirlər. Oğlanın könlü varsa, o zaman oğlanın anası və ya bacısı qız tərəfə *dilaçdıya* gedirdi. Yaxud da etibarlı bir adam – qızın xalası, ya bibisi vasitəsilə onların könlünün olub-olmadığı öyrənilirdi. Bu iş üçün sirr saxlamağı bacaran adam seçilirdi.

Avarlarda *elçiliyə* daha çox önəm verilir, ona görə də elçiliklər uzun sürür. Söyləyicilərin dediyinə görə, hətta bir neçə il sürən elçiliklər olub. Mahamalar kənd sakini Rizvan Mehdiyevin dediyinə görə, nənəsinin iki gəlini olub: biri Balakənin Gərəkli kəndindən, digəri isə Dağıstandan. Dağıstanlı gəlinə bir dəfə elçi düşməklə qızın "hə"sini alıblar, amma ikinci gəlinə dəfələrlə elçi getdikdən sonra onun "hə"sini ala biliblər. Rizvan Mehdiyevin dediyinə görə, evdə söz düşəndə nənəsi həmişə birinci gəlini utandırırdı ki, səni bir dəfə ağız açmaqla verdilər, amma bu gəlinin dalınca mən neçə corab yırtıb, neçə ayaqqabı dağıtmışam. Yaşlı avar sakinlərinin "bir qıza ən azı beş dəfə elçi gəlinmədisə, o qız küçəyə tullanmış hesab olunur" fikri də elçiliyin əhəmiyyətini göz önünə sərir.

Avarlarda elçiliyə çox vaxt cümə günü gedilir. Üzü cüməyə açıldığına görə cümə axşamı da uğurlu gün hesab olunub, həmin gün də elçiliyə gedilirdi. İkinci gün isə ağır gün hesab olunduğuna görə həmin gün nəinki elçiliyə, ziyarətə də gedil-

məzdi. Elçiliyə kişilər gedirdi. Bölgə sakinlərinin dediyinə görə, bir qıza elçi düşəndə ev sahibi qızı vermirdisə, başqa adam o qapıya elçiliyə getməyə çəkinirdi. Ona görə də elçiliyə axşamlar – əl-ayaq yığışandan sonra xəlvəti gedilirdi ki, kənar adamlar bundan xəbər tutmasın. Söyləyicilərin dediyinə görə, hətta elə olub ki, ev sahibi qızına elçi düşdüklərini sezdirməmək üçün elçilərlə evdə deyil, kənarda görüşüb. Tino Şərifovun dediyinə görə, bacısına elçi gələndə atası elçiləri meşədə odun qırdığı yerdə qəbul etmişdi.

Ev sahibi elçini küçə qapısında qarşılayır. Elçi bu qapıya gəlməyinin səbəbini ev sahibinə çatdırır, Allahın əmri, peyğəmbərin şəriyyəti və bu evin adəti ilə onun qızını oğluna istəyir. Fikirləşmək üçün ev sahibinə bir neçə gün möhlət verib qapıdan da geri qayıdır. Növbəti dəfə gələndə qardaşı, yaxud ailə içindən bir ağsaqqalla gəlir. Ev sahibi qızın əmisinin, digər şəxslərin də fikrini öyrənmək üçün elçidən əlavə möhlət istəyir. Bu şəkildə elçini bir neçə dəfə qapıdan qaytarır. Bu müddət ərzində qızın atası yoldaşı vasitəsilə qızının, digər ailə üzvlərinin fikrini öyrənir, yalnız bundan sonra qohum olmaq niyyəti varsa, elçiləri içəri çay içməyə dəvət edir, niyyəti yoxdursa, qapıdan geri qaytarır.

Qızın "hə"si alınandan sonra növbəti dəfə artıq oğlanın atası qadınlarla – yoldaşı, bacısı, qızı və s. ilə birlikdə gəlirdi. Həmin günə *hə gecəsi* deyilir. "Hə gecəsi"ndə oğlan evindən qız evinə halva sinisi, boxça gətirilir, qızın ata-anasına pay qoyulur, qız tərəf də qonaqları yola salanda oğlanın ata-anasına köynək, parça, corab və s. pay qoyur. Kişilərlə qadınlar ayrı-ayrı otaqlarda əyləşir. Halva sinisi əvvəl kişilər oturan, sonra da qadınlar oturan otaqda gəzdirilir, hər kəs də onun üstünə nəmərini

atırdı. Həmin pul qız evinə çatır və ona uyğun gəlinə hədiyyə alınırdı.

Həmin gün qıza alınacaq əşyaların siyahısı oğlan evinə təqdim olunurdu, buna *həni sındırmaq* deyilir. Alınacaq əşyaların sayını kişilər öz aralarında müzakirə edib razılaşdırırdılar, qadınlar onlara müdaxilə etmirdi. Mədinə Mustafayevanın dediyinə görə, vaxtilə qız evi oğlan tərəfdən silsilə üzük (belə üzükləri Gürcüstanda zərgərlər kəsirdi), rezin qaloş, çust, şal, köynək, baş örpəyi və sair əşyaların alınmasını istəyirdi. Söyləyicinin dediyinə görə, elə vaxt olurdu ki, oğlan tərəfi qız tərəfin tələbləri ilə razılaşmırdı, onda toy baş tutmurdu. Oğlan tərəfi ilə danışıqları ya qızın atası aparırdı, ya da vəkilliyi qardaşına həvalə edirdi və qızın "hə"si onun ixtiyarında olurdu. Kişilər danışıb aralarında tam razılığa gəldikdən sonra süfrəyə xörək gətirilirdi. Cəvahir Hetayevanın dediyinə görə, qızın rəfiqələri uzun bir kağız götürürdü və qıza alınacaq əşyaların siyahısını tuturdular. Siyahıya qız üçün lazım olan əşyaların – sep, bilərzik, kofta, tufli və s. adını yazırdılar. Söyləyicinin dediyinə görə, xalası oğlunun toyunda qızın rəfiqələri 22 əşyanın adını yazmışlar. Həmin siyahı məclisdə hamının qarşısında oxunurdu, toya kimi də həmin əşyalar alınmalı idi. Toydan bir neçə gün qabaq oğlan tərəfi aldığı əşyaları qıza göstərir, onları bəyənib-bəyənmədiyini soruşur, üzüyü barmağına taxıb yoxlayır, alınmış paltarları əyninə geyindirirlər. Qızın bəyənmədiyi və ya əyninə gəlməyən paltarı dəyişdirib yenisini götürürdülər. Söyləyicilərin dediyinə görə, imkanlı ailələr bəzən gəlinə o qədər zinət əşyaları alırdı ki, gəlin onların ağırlığından ayağa dura bilmirdi. Üzük, sırğa, qızıl saat kimi zinət əşyaları sonralar dəbə minib, əvvəllər gəlin

üçün alınacaq zinət əşyalarının başında enli sarı kəmər yazılırdı. Həmin kəmər kifayət qədər baha idi və bir camışın qiymətinə başa gəlirdi. Həmin kəməri ərə getmiş qızlar taxırdı, bu da onların ərdə olduqlarının bir nişanəsi idi. Qız tərəfi oğlan evinə o qədər yük qoyurdu ki, oğlan tərəfin bəzən onları almağa imkanı çatmırdı. O zaman qız tərəfi müəyyən qədər güzəştə gedir, siyahıdan bəzi əşyaların adını çıxarırdı.

Elçilikdən sonra ailələr görüşüb toyun tarixini müəyyənləşdirirdilər. Avarlarda elçiliklə toy arasında uzun müddət olmazdı. Söyləyicilərin dediyinə görə, elçilik dövrü o qədər uzun çəkirdi ki, bu müddətdə tərəflər bir-birini yaxşı tanıdığından toyu uzatmağa lüzum qalmırdı. Toyun nə vaxt keçiriləcəyi oğlan tərəfin imkanına görə müəyyənləşirdi. Əgər oğlan tərəfin imkanı zəifdirsə, qız tərəfi onlara bir ay möhlət verir, ondan o tərəfə toyu qoymurdular. Qız toyunun xərcinin müəyyən hissəsini oğlan evi çəkir. Ona görə də toyun tarixi danışılanda qız tərəfi alınacaq əşyaların siyahısını oğlan evinə verir. Bu ənənə indi də davam etməkdədir. Sadəcə olaraq, əvvəllər oğlan evi toy üçün lazım olan ərzağı alıb qız evinə göndərirdisə, indi həmin ərzağın ancaq pulunu verir.

Söyləyicilərin dediyinə görə, lap əvəllər qız ərə verildiyindən toy günü xəbər tuturdu. Tino Şərifovun dediyinə görə, bibisi tarlada tütün alağı etdiyi zaman onu evə çağırırlar. Heç əlini də yumağa imkan vermirlər, elə qapıdaca kəl arabasına mindirib gəlin aparırlar.

Molla kəbini toydan qabaq ya məsciddə, ya da evdə kəsilirdi. Dini kəbində gəlinin özü, özü olmadıqda isə onun yerinə vəkalətlə atası və ya əmisi iştirak edirdi. Hər iki tərəfdən bir şahidin iştirakı ilə dini kəbin kəsilirdi. Şahidlər ata tərəfi təmsil

edirdi. Kəbində iştirak edənlər mütləq başı papaqlı və namaz qılan adamlar olmalı idi. Bəy, gəlin və şahidlər abdəst alaraq mərasimə qatılırdılar. Kəbin kəsilən zaman gəlin pərdənin arxasında oturar və oradan mollanın suallarına cavab verərdi. Molla qızın rəyini üç dəfə soruşar, qız yalnız üçüncüdə cavab verərdi. Kəbin zamanı mehr olaraq təyin olunan pul da gəlinə çatardı. Söyləyicilərin dediyinə görə, indiki dövrdə mehr pulu yüz manat olaraq müəyyənləşdirilib və kəbin kəsiləndə həmin məbləğ təyin olunur.

Toydan bir gün qabaq oğlan evi adamları toya dəvət etmək üçün bir *çapar* tuturdu. Çaparın mindiyi at qırmızı yaylıqla bəzənirdi: atın quyruğu düyünlənir, yalına qırmızı yaylıqlar bağlanırdı. Çapar hər qapıya çatanda evin böyüyünü səsləyir, "гъасал йагнаг, метер бетен" [22] – deyərək onu toya dəvət edirdi.

Qədim avar toyları üç gün çəkib. Birinci gün qız tərəfində çalğı olurdu, ikinci gün oğlan evində toy çalınırdı, üçüncü gün isə gəlinin cehizi gətirilirdi.

Toy oğlan evində beşinci gün günortadan sonra başlayıb iki-üç saat davam edirdi. Axşam zurna-nağarada *toya çağrış havası* çalınır, həmin havanın çalınması ilə camaat toyun başladığını bilirdi. Birinci gün toyda cavanlar, qohum-əqraba iştirak edir, rəqs edib hünərlərini göstərirdilər. Həyətin ortasında tonqal qalanır, tonqalın ətrafında çalıb-oynayırdılar. Gecəyarıdan sonra bu dəfə evdə toy davam edirdi ki, buna da *dairəvi toy (гергена бертен)* deyilir. Orada ancaq böyüklər, yaxın qohum-əqraba iştirak edirdi, bu məclisdə Qokoz, Hacı Abay, Katexli Şirin, Şikalov, Məxəm Dibir, Piləyi Bəşir, Ömər Ete, Karal Ali kimi tənbur ustaları tərəfindən *mahnılar (keçlər)* oxunur, qissələr söylənirdi.

---

[22] Tərcüməsi: Axşam toy başlayır, sabah gəlin gətirilir.

Səhərisi gün toyda ağsaqqallar iştirak etdiyindən, cavanlar onların yanında rəqs etməzdilər. Həmin gün bir dana kəsilir, vəzifə bölgüsü aparılırdı. Qız evində *paltarkəsdi* keçirilirdi. Bu günə həm də *hörmət günü* deyilir. Oğlan evinin adamları gəlinə alınmış əşyaları götürüb hörmət gününə gəlir, həmin əşyalar orada bir-bir nümayiş olunurdu. Oğlan evində kəsilən dananın bir budu, bir quru çay, iki kilo qənd, düyü, yağ növbəti gün qız evinə göndərilirdi. Ən yaxın adam onu aparıb qız evinə təhvil verir, həmin ətdən də qız evində yemək bişirilir, qız evinə yığışmış adamlar üçün süfrə açılırdı.

Avarlarda xınayaxdı olmur, amma hörmət aparılan günün axşamı qız evində *çantalar günü* keçirilirdi. Gəlinin rəfiqələri axşam onun başına yığışır, orda xırda parçaların üzərinə muncuqlar tikilir, sapla bəzək vurulurdu. Həmin tikmələr oğlan evindən gələn adamlara pay verilirdi.

Oğlan evinə toya gələnlər zənbil dolusu payla gəlirdilər. Çay, qənd, kartof, dəsmal və s. ərzaqlar gətirirdilər. Ev yiyəsi ilə görüşüb onu təbrik etdikdən sonra gətirdiyi payı bir qırağa qoyurdu. Yaxın bir nəfər həmin zənbilləri açır, gətirilən payları götürüb yerinə kağızın arasında halva qoyub toy qurtarandan sonra yiyəsinə qaytarırdı.

Şənbə günü günorta *"bəyçıxdı"* olurdu. "Bəyçıxdı"da xüsusi *şaxlar* düzəldilib üzəri konfet, peçenye, şirniyyat ilə bəzədilirdi. Zurnaçılar dəstəsinin önündə yeri oyub şaxı yerə sancırdılar. Bəy ortada durur, qohum-əqrəba gəlib onu təbrik edir, ona öz hədiyyələrini verirdi. Bəyin başında mütləq papaq olmalı idi. Bəyin yanında sağdiş, soldiş dururdu. Bəyi təbrik etməyə gələn kişilər onun papağının altına pul qoyur, qadınlar isə bəyin boynuna parça, şal salırdı. Bəyçıxarma mərasimi

qurtardıqdan sonra axşam tərəfi saat altı-yeddidən sonra gəlin gətirməyə gedilirdi. Dəstənin içində xüsusi bir adamın əlində xana-xürə *(şişə keçirilmiş çörək və soyutma ət)* olur. Gəlini aparmağa gələn dəstənin qız evinin darvazasında önü kəsildikdə həmin şiş onlara təqdim olunur. Balakən rayonunun Mahamalar kəndində gəlin gətirməyə gedəndə at belində aş (südlü aş/yayma) badyası aparılır. Kənd sakini Rizvan Mehdiyevin dediyinə görə, gəlin gətirməyə gedəndə aş badyasını aparmaq bir dəfə anasına həvalə olunur. Onda hələ cavan olan anası süfrəyə bükülmüş aş badyasını qucağına alıb atın belində gəlin evinə gedir. Pilləkənin ağzına çatanda at büdrəyir, badya anasının əlindən düşüb pilləkənə dağılır. Aş badyasının dağılması xeyirli əlamət hesab olunur və həmin gəlinin ayağının bərəkətli olacağı anlamına gəlir.

Gəlin olan otaqda ortadan pərdə çəkilir, oğlan evindən gələn qadınlar – bəyin bacısı, xalası və s. pərdənin arxasında gəlini geyindirir, gəlin üçün alınmış zinət əşyalarını taxırlar. Söyləyicilərin dediyinə görə, vaxtilə gəlinə mintənə kofta geyindirilir, başına üç qat örpək salınırdı. Gəlinin başına öncə çalma, çalmanın üstündən yaylıq bağlanırdı, gəlin qapıdan çıxandan yaylığın üstündən də *gülbəngi* (güllü kəlağayı) salınırdı. Yaylıq bağlandıqdan sonra gəlin pərdənin arxasından çıxarılır, üzüstə yerə uzadılır. Oğlan evinin yaxın adamı – bəyin bacısı və ya bibisi:

Кер нухIулай, бох кусулай,
Рикки къолай, къитIи бегьарай,
Кьуда васуй тIиней нусай[23],

---

[23] Tərcüməsi:
Əlləri yağlı, ayaqları yunlu,
Evdə sözü keçən, kənarda hörmətli,
Böyük oğlana balaca gəlin.

– deyib bütöv bir çörəyi üç dəfə gəlinin belində “sındırır.” Çörəyin bir hissəsi qız evində qalır, bir hissəsi isə oğlan evinə aparılır. Ərə getməyən qızlar həmin çörəkdən bir tikə götürüb yatanda yastıqlarının altına qoyur, o gecə nə yuxu görsələr, onun gerçək çıxacağına inanırdılar. Çörəyi “sındırandan” sonra yengələr gəlinin başına kəlağayı salaraq qapıdan çıxardırdılar. Gəlin pilləkəndən düşəndə oğlan evindən gələn cavan qızlar çiyin-çiyinə duraraq kövrək notda haylalar söyləyir, gəlini kövrəldirdilər.

Gəlin əvvəllər kəl arabasında, imkanlı ailələrdə isə faytonda gətirilib. Kəl arabası və ya faytonu oğlan evi təşkil edir, araba qırmızı kəlağayılarla bəzədilirdi. Kəlin başını tutan adama qızlar yundan toxunma tumanbağı, hörmə corablar hədiyyə edirdilər. Arabada gəlinin yanında yengələri otururdu. Yengənin biri ata, digəri isə ana tərəfdən seçilərdi. Gəlinin yengələri yaşlı adamlar olurdu, başlarına da qara şal bağlayırdılar. Boşanmış, dul qalmış, başı müsibət çəkmiş qadınları yengə seçməzdilər, onların ayağının düşərli olmayacağına inanılırdı. Ancaq ailəsi, uşağı olan qadınlar yengə ola bilərdi. Yengələrdən birinin əlində *ləmpə* (lampa) olurdu. Söyləyicilərin dediyinə görə, güzgü tutmaq sonradan meydana çıxıb, əvvəllər belə bir adət olmayıb. Gəlin atın üstündə irəlidə gedir, oğlan evindən gələn qızlar, gəlinlər isə piyada onu müşayiət edir, yol boyu mahnı oxuyurdular.

Да балай йихIина
Музун кьодукъи щала
Гьедул хIапи буго
Чодул данпи буго
РахIил гьаде

Бонче боге
На-на-нананай[24].

Qızların bu cür oxumasından bilinirdi ki, gəlin aparılır.

Atın başını çəkən – *atbaşı* qız evindən olurdu, oğlan evi ona bir toyuq hədiyyə edirdi. Oğlan evi toyuq vermədikdə o, seçib ən irisini oğurlayırdı.

Gəlin gələndə bəy qonşuda olardı. Kəl arabası darvazanın ağzında dayanandan sonra çalğıçılar zurna-nağarayla qonşudan bəyi gətirirdilər. Bəyi gətirən dəstə beş nəfərdən ibarət olurdu: öndə çalğıçılar, onun arxasınca bəy, bəyin arxasında sağdiş (berbuqa), sağdişin arxasında soldiş, soldişdən arxada bəyin dostu, ondan da arxada başında xonça balaca qız uşağı gəlirdi. Xonçanın içində üzəri yaylıqla örtülmüş çörək olurdu. Bəy başına kepka qoyurdu və kepkanın ucunu o qədər aşağı əyirdi ki, papaq burnunun ucuna kimi sifətini tuturdu. Bəy başaşağı gəlir və darvazının önündə dayanırdı. Bəy Vağzalı sədaları altında həyətə daxil olduqdan sonra kəl arabası pilləkənin yanına qədər sürülürdü. Qaynata və qaynana gəlinin əlinə pul verib onu arabadan düşürürlər. Gəlinin ayağı altında qoç kəsilirdi. Ondan sonra gəlinin ayağı altına boşqab qoyurdular. Gəlin boşqabı sındırıb pilləkənlə yuxarı qalxırdı. Gəlin pilləkəni çıxdıqda bəyin bacısı içində qəpik pullar olan noğulu

---

[24] *Tərcüməsi:*
Budur, gəlir,
Mazım körpüyə çatır.
İt hürməyi eşidilir,
At tappıldısı eşidilir.
Çölə çıxın,
Boxçanı götürün,
Na-na-nananay

onun başına səpirdi. Ondan sonra gəlin onun üçün ayrılmış otağa keçirdi. Otağın ortasına ləmpə qoyulur, gəlin üç dəfə ləmpənin başına dolandırıldıqdan sonra qaynana gəlinə, gəlin də öz növbəsində qaynanasına və oğlan evinin ən yaxın üç adamına – bəyin bacısı, bibisi, xalasına bal yedirdirdi. Birinci gecəni gəlin oğlan evində qalmırdı, bir müddət oturduqdan sonra qonşuya aparılır, səhər yenidən gətirilirdi.

Gəlin aparılanda qız evindən bir dəstə oğlan oğlan evinə *bal yeməyə* gedirdi. Gəlin oturan otaqda onlar üçün süfrə açılırdı. Gəlin bir küncdə oturur, sifəti görünmürdü, həmin adamlar isə süfrənin ətrafında dairəvi otururdular. Qız evindən gələn adamların qabağına yağ-bal qoyulurdu. Dəstənin öz başçısı olurdu, onun icazəsi olmadan kimsə əlini süfrəyə uzatmazdı. Dəstə başçısı nə əmr etsə, ev yiyəsi onu yerinə yetirirdi, yerinə yetirmədikdə isə bal yeməyə gələnlər əlini süfrəyə uzatmadan durub gedirdilər. Bu müddətdə çöldə toy davam edirdi. Tonqal qalanır, tonqalın ətrafında insanlar müxtəlif havalara rəqs edirdilər. Birinci “Tərəkəmə” havası çalınır, ondan sonra “Kazak”, “Yerli hava”ya oynayırdılar. Axırda isə kişilər meydana atılır, üç havadan təşkil olunmuş “Birinci, İkinci, Üçüncü” deyilən havalara rəqs edirdilər. Hər havanın özünəməxsus xüsusiyyəti vardır. “Birinci, İkinci, Üçüncü” adlandırılan havalara ancaq oğlanlar rəqs edirdilər, “Yerli hava”da oğlanlarla qızlar bərabər rəqs edirdilər. Axırda bal yeməyə gələnlər üçün də bir hava çalınır, onlar da rəqs etdikdən sonra toy dağılırdı.

Toyun üçüncü günü at arabası ilə gəlinin *cehizi*, *gəlin sandığı* gətirilirdi. Gəlin sandığının içinə qızın öz əli ilə toxuduğu corablar, qırağı tikməli süfrələr, əl dəsmalları, yengələrin sağdişlə soldiş üçün hazırladığı pay qoyulurdu. Bundan əlavə,

sandığın içində boxçanın arasında bəylə gəlin üçün bişirilmiş bir qazan aş olurdu. Gəlin sandığını gətirən adam əlində ucuna qırmızı yaylıq bağlanmış çubuq tutur, arabanın önündə gəlirdi. Sandıq gətirənə *corab aparan* deyilirdi, oğlan evi həmin şəxsə xüsusi pay verirdi.

Üçüncü gün keçirilən toya *qerqena berten* deyilir. Üçüncü gün saat 12-yə qədər çalıb-oynayırdılar. Saat 12-dən sonra qohum-əqrəba oynayırdı. Yengələr gəlini eyvana çıxarır. Gəlin ortada, yengələri isə sağında və solunda əyləşirdi. Bəyi musiqi sədaları altında həyətə gətirirdilər. Oğlan bir kənarda dayanırdı. Oğlanın atası, anası, əmisi, bibisi, xalaları, qız evindən cehizin üstündə gələnlər hamı oynayır, axırda da gəlini oynadırdılar. Bəyin qardaşı və ya evlənməmiş yaxın adamı kələğayını (чьрто) gəlinin başından götürür, boynuna salıb oynayırdı. Bir qədər oynadıqdan sonra yengə bəyə pul verib duvağı ondan alır, yenidən gəlinin başına salırdı. Yaxud gəlinin özündə ehtiyat üç-dörd əl yaylığı olurdu. Bəy yaylığı gəlinin üzündən aldıqda gəlin digər yaylıqla üzünü örtürdü. Bəylə gəlin 3-4 dəfə dairə vuraraq oynayır, ondan sonra onlar üçün hazırlanmış yerdə otururdular. Digər qohum-ərabalar da növbə ilə oynayırdılar. Axırda gəlini oynatdıqdan sonra toy dağılırdı.

Söyləyicilərin dediyinə görə, avar toylarının əksəriyyəti dava-dalaşla tamamlanıb. Qızı istəyib ala bilməyən şəxslər məhz bu məqamı gözləyirdilər, elə ki oğlanın ata-anası, yaxın adamları oynamağa başladı, çalğını saxlayıb toya dava salırdılar. Bəzən elə güclü davalar olurdu ki, bəylə gəlinə xəsarət toxunmaması üçün onları aradan çıxarırdılar. Söyəyicilərin dediyinə görə, vaxtilə əksər toylar dava-dalaş üstündə yarımçıq tamamlanırdı.

Qız evindən gələn şəxslər oğlan evindən oğurluq etməyə çalışırdılar. Əsasən də, toyuq, nəlbəki oğurlayırdılar. Oğurladıqları nəlbəkini oğlanın anasına verib həmin nəlbəki dolusu halva alırdılar.

Toy gecəsi bəylə gəlin görüşəndən sonra sağdiş tüfəng atırdı. Tüfəngin atılmasından bəyin "*dadaş*" olduğu bilinirdi. Həmin evdə bəylə gəlindən başqa oğlanın dostu ilə qızın yengəsi qalırdı. Onlardan başqa kimsənin o evə ayaq basmağa ixtiyarı yox idi. Tüfəng atıldıqdan sonra qız evinə muştuluğa gedirdilər. Toy dağıldıqdan sonra gəlin sandığı açır, qoyduğu payı qohum-əqrabaya paylayırdı, bəyin dostuna, sağdişə, soldişə də pay verirdi. Halva çalınanda yengələr üçün balaca boşqablarda halvalar hazırlanırdı. Toydan sonra oğlan evi həmin halvaları, həmçinin parça və digər şeylərdən pay verib yengələri yola salırdı. Zaqatala avarları arasında *halva çıxartma* deyilən bir adət vardı. Bəyin önündə sinidə düyü unundan bişirilmiş halva olurdu. Bəyin üstündə cib bıçağı olmalı idi. Bəy bıçaqla halvanı xırda-xırda hissələrə ayırır. Yaxın qohum-əqraba pul salıb halvadan götürür, halvanı barmaqlarının arasında tutub gəlini oynadırdılar. Orada yığılan pul gəlinə çatırdı.

Toyun səhərisi qohum-əqrəba *gəlin çayı* içmək üçün oğlan evinə yığılır. Gəlin səhər tezdən əyninə ev paltarını geyinib həyəti süpürür, qonaqlar gələnə qədər ata evindən gətirdiyi samovarda çay dəmləyir. Həmin gün həm qız evindən, həm də oğlan evindən qonaqlar gəlir, çox vaxt da qohum-əqraba yığılır. Gəlin məclisdə iştirak edənlərə çay süzür, qız evindən gələn halvalardan verirdi. Qonaqlar çayı içdikdən sonra nəlbəkiyə pul atır, həmin pullar da gəlinə çatırdı. Zaqatalada yaşayan

avarlarda toyun səhəri gəlin ətdən sulu *xinqal* (xəngəl) bişirir, gələn qonaqlara xəngəl verilirdi.

Toydan sonra qohum-əqraba növbəylə bəylə gəlini evlərinə qonaq çağırır. Qız evi isə elə vaxt olub bir il gözləyir, qız oğlan evinin havasını, xasiyyətini tam götürdükdən sonra onu qonaq çağırır.

Bölgəyə ezamiyyət zamanı aparılan müşahidələr göstərir ki, avarların kompakt yaşağıdı Qabaqçöl ərazisində toy adətləri kənar təsirlərə məruz qalmadan daha yaxşı mühafizə olunub saxlanmışdır. Avarlarla Azərbaycan türklərinin birgə yaşadığı Katexdə isə dəyişikliyə uğramışdır. Məsələn, avar toylarında nişan, gəlinin əlinə, ayağına xına qoyulması olmadığı halda, Katexdə yaşayan avarlar arasında bunlar müşahidə olunur.

## 62. YAS ADƏTLƏRİ

Avarlarda təzə qazılan qəbirin baş tərəfində çadır qurub üç gün onu qoruyurlar. Söyləyicilərin dediyinə görə, əvvəllər yeddi gün qəbirin keşiyini çəkərdilər, amma Sovet dövründə o qədər qalmağa icazə verilmədiyi üçün günlərin sayını azaltmışlar. Hazırda üç gün qəbirin keşiyi çəkilir. Bunun üçün bir dibir *(molla)* tutulur, ona xidmət etmək üçün evin yaxın adamlarından biri də qəbiristanlıqda qalır. Xidmətçi hər axşam dəyişir, onu başqası əvəz edir, amma molla üç gün qəbirin üstündə qalaraq orada Quran oxuyur.

Ölü yuyulub kəfənləndikdən sonra nərdivanın üstünə qoyulub kəndirlə sarınır. Həyətin ortasına qoyulur, insanlar dairəvi şəkildə ətrafında durur, molla camaatdan halallıq istəyir, ondan sonra ölünü götürüb zikrnən qəbiristanlığa aparırlar.

Ölü gedəndən sonra orada qalan camaata yarım çörək, bir tikə ət, bir qaşıq halva paylayırlar.

Avarlarda ölü basıdırılan günün səhərisi *qulfu çıxartmaq* üçün üç gün sübh tezdən və günorta ilkindi namazından sonra qəbir üstünə gedilir. Qulfu çıxartmaq üçün qəbir üstünə gedəndə qəbirin keşiyini çəkən mollaya və ona xidmət edən şəxsə yemək aparılır. Dördüncü gün çadırın açılması olur. Qəbir üstünə gedəndə qəbirin üstündə qalan mollanı və ona qulluq edən şəxsi də götürüb yas olan həyətə gəlir və həmin gün *böyük zikr* (*qudav zikr*) edilir. Böyük zikr günorta namazı qılınandan sonra edilir, zikr qurtardıqdan sonra da ehsan verilir. Zikr edildikdə molla zikrə başlayanda ölülərin rəhməti, dirilərin savabı üçün filankəsin ruhuna 70 min zikr niyyət elədiyini deyir və ondan sonra zikrə başlanılır. 70 min zikr məclisdə iştirak edən şəxslər arasında bölünür, kimə nə qədər düşürsə, o qədər də zikr edir. Zikrlər ritmlə oxunur və təsbeh dənələrini çevirməklə onların sayı müəyyənləşdirilir. Təsbehi olmayanlar isə barmaq bükümlərini sayır, iki əldəki barmaq bükümlərini axıra çıxdıqda otuz iki zikr tamam olurdu.

Zikr ölü üçün, onun ruhu üçün ən böyük savab hesab olunur. Bununla bağlı Zaqatala rayonundan qeydə alınmış bir rəvayətdə deyilir: "Deyilənə görə, keçmişdə bir dibirin həyat yoldaşı ölür. Gecə-gündüz bu dibir yata bilmir. Nə vaxt gözlərini yumursa, arvadı yuxusuna girir, səksənib oyanır. Bir neçə gün belə təkrar olunandan sonra özündən də savadlı başqa bir dibirin yanına gedir. Buna açıb danışır ki, hər gecə arvadım mənim yuxuma girir. Bu dibir deyir ki, yetmiş min dəfə "la illah" elə. Bu dibir yetmiş min dəfə "la illah" elədikdən sonra arvadı onun yuxusuna gəlmir. Bu kişi də öləndə vəsiyyət eliyir ki,

mənə yetmiş min zikr çalın. O vaxdan bizdə ölü öləndə yetmiş min zikr oxunur". Söyləyicinin dediyinə görə, zikr əvvəllər ölünü qapıdan çıxarınca oxunurdu, indi isə ölünün üçündə nə qədər adam yığılırsa, onlar arasında bölüşdürülüb oxunur.

Cənazə qapıdan çıxarıldıqdan sonra onun acılığı çıxsın deyə halva bişirilir. Yas halvasını adi halvalarla eyni qaydada bişirirlər. Ərinmiş yağı tiyana tökürlər, qaynar olduqdan sonra üstünə un əlavə edirlər. Unu tökdükcə qarışdırırlar, un yağı tam canına hopdurur. Qovrulmuş unun iyi gələndə sonra üstünə şəkər tozu əlavə edirlər və vam odda şəkər tozu əriyənə qədər qarışdırırlar. Şəkəri çox olanda bir az su əlavə edirlər ki, şirinliyini götürsün. Sonra halvanı sinilərə çəkib soyumağa qoyurlar. Soyuduqdan sonra da kiçik parçalar halında nəlbəkilərdə süfrələrə verirlər. Xeyir işlərdə bişirilən halvalar da eyni qayda ilə hazırlanır, sadəcə olaraq, toy halvasında halvanın üstü kişmişlə bəzədilir, üstünə kişmişlərlə üzüyə oxşar naxış salınır.

Cümə axşamına ölən şəxsin yaxın qohumları, yasa gələ bilməyənlər gəlir. Sonuncu cümə axşamından sonra növbəti cümə axşamlarında evin ən yaxın adamları sadağa ilə qəbir üstünə gedir. Ev adamları hər cümə ölünün qəbirini ziyarət edir. Söyləyicilərdən birinin yoldaşı 2006-cı ildə avtomobil qəzasında dünyasını dəyişmişdi, bu gün də hər cümə onun qəbirini ziyarət edir.

Ay tamamında və yaxud üçüncü həftənin tamamında ölüyə qırx verilir. Kimin tələsik işi varsa, qırxı ikinci həftənin tamamında da verə bilir. Deyilənə görə, sübh tezdən qəbirin ayaq tərəfindən yaxınlaşan birinci şəxsi ölü görür. Ona görə də ölünün qırxında sübh tezdən qəbir üstünə gedilir. Evdə bişən sac yeməklərindən – maxara, qutab, fəsəli və s. aparılır. Həmin sadağalar bir süfrənin üstünə qoyulur, orada olan şəxslərə paylanılır.

## 63. İMƏCİLİKLƏR

Bölgədə qarşılıqlı yardımlaşma formaları içərisinə ən geniş yayılanı iməciliklərdir. Tütün, barama, yun darama, qarğıdalı təmizləmə və s. iməciliklər vaxtilə bölgədə geniş yayılmışdır. Bu iməciliklərin bir qismi baramaçılıq, tütünçülük təsərrüfatlarının dağılması ilə sonralar məişətdən çıxsa da, bir qismi bu gün də davam edir. Bunlardan biri evin tikilməsi, *özülün* (*qajarın*) qoyulması ilə bağlı keçirilən iməciliklərdi. Qabaqçöl kənd sakini Mədinə Mustafayevanın dediyinə görə, vaxtilə ev tikəndə fəhlə tutmağa ehtiyac olmayıb. Kimsə ev tikəndə qohum-qonşu bundan xəbər tutub ona köməyə gəlirdi. Kişilər özülün tökülməsində, iri daşların daşınmasında iştirak edir, qadınlar isə çay qoyur, yemək bişirir, bir qismi də çay daşlarının arasını doldurmaq üçün istifadə olunan xırda daşları vedrələrə yığıb daşınmasına kömək edirdilər. Belə iməciliklər sayəsində bir günə evin özülü qoyulurdu, yaxud divarın hörgüsü yarıya qədər tamamlanırdı. Bir neçə gün fasilə verir, hörgü quruduqdan sonra yenə on-on beş adam yığışır, evi tikib başa çatdırırdılar. İməcilik günü ev yiyəsi qazan asır, iməciliyə gələnlər üçün yemək süfrəsi açırdı. Ev tikilib qurtardıqdan sonra da mövlud oxunur, ehsanlar verilirdi. Ramazan Xutrayevin dediyinə görə, ev yiyəsi qajar qoyulan zaman ən yaxın adamları, əsasən, kişi xeylağını iməciliyə çağırırdı. Həmin gün evin özülü qoyulur, iməcilikdə iştirak edən adamlar çörək yeyib dağılır, ardını usta özü davam etdirirdi.

Tütünü qıranda və ipə düzəndə, barama təmizlənəndə iməciliklər keçirilirdi. Tütün qıranda səhər tezdən sahələrə çıxılır, günortaya qədər tütün yarpaqları qırılır, bir maşına

yüklənərək tütün saraylarına gətirilirdi. Axşam qızlar, qadınlar saraylara yığılır, dairəvi oturub tütünləri ipə düzürdülər, oğlanlar isə dolmuş iplərin daşınmasına, sıraya düzülməsinə, tütün qurtadıqda qızların qabağına əlavə tütünlərin qoyulmasına kömək edirdilər.

Baramanın gün altında çox qalması ona ziyandır. Ona görə də baramanı çardaqdan düşürdükdən sonra kölgə bir yerə yığırdılar. Qızlar, gəlinlər eşidəndə ki, axşam filankəsin evində barama təmizlənəcək, axşam həmin evə toplaşır, dairəvi oturub barama təmizləyirdilər. Bu cür iməciliklər gecə saat ikiyə-üçə qədər davam edirdi.

Barama, yun iməcilikləri, adətən, evdə keçirilir və az adam iştirak edirdi. Saraylarda keçirilən iməciliklərə isə daha çox adam yığılır və daha təmtəraqlı keçirdi. Belə iməciliklərə çalğıçı dəvət olunur, bir tərəfdə iş görülürdüsə, digər tərəfdə tənbur, zurna-balabanın sədaları altında mahnı oxuyub rəqs edirdilər. Yaşlı sakinlərin dediyinə görə, evdə keçirilən iməcilərdə çox vaxt *nağıl (maxru)* söylənirdi, oynamaq, rəqs etmək isə saraylarda keçirilən iməciliklərdə olurdu. Qızla oğlanın bir-biri ilə tanış olması, bir-birinə könül açması da belə iməciliklərdə olurdu. Oğlanlar istədiyi qızı iməciliklərdə görüb bəyənir, sapa düzülmüş tütünləri götürəndə fürsət tapıb ürəyini ona açırdı. Hətta söyləyicilərin dediyinə görə, oğlanlar bəzən tütün yığılmış ipləri qəsdən dolaşdırırdılar ki, istədiyi qızla daha çox söhbət etmək imkanı olsun. İməciliyin bir qayda-qanunu var idi ki, evin böyüyünün iştirak etidiyi iməcilikdə kiçik iştirak etmirdi.

İməciliklər, adətən, axşamlar təşkil olunurdu. Evdə təşkil olunan iməcilikdə iştirak edənlərə yemək də verilirdi. Söyləyi-

cinin dediyinə görə, yun iməciliyi olanda qarğıdalı hədiyi, boranı bişirirdilər. Bişmiş boranını sininin içində süfrəyə verirdilər. Uzun qış gecələrində bir yerə yığışanda birinin üzüyü oğurlanırdı. Üzüyünü geri istəyəndə onu filankəsin damından alma, armud, əzgil oğurlamağa göndərir, yalnız bu şərtlə üzüyü qaytaracaqlarını bildirirdilər. Həmin adam da məcbur olub gedirdi.

İməciliklərdə qızlar yerdə dairəvi oturur, tütünləri ipə düzdükcə, baramanı açdıqca hayla deyirdilər. Tütün saraylarındakı iməciliklərdə isə müəyyən rəqs havalarına oynanılırdı. Əvvəlcə oğlanların rəqsi olurdu. Onlar "Birinci, İkinci, Üçüncü" deyilən rəqs havasına, həmçinin "Əkuş", "Serul" havalarına, gəlinlər isə "Nuşihul naku" (Gəlin dizi) havasına oynayırdılar. Kişilərin qrup halında oynadıqları havalar bunlardır: "Serulab", "Gilab", "Gebequlab", "Şəbilab", "Kurşolab". Qrup rəqslərində qrupun bir rəhbəri olur, onun icazəsi olmadan kimsə oyuna müdaxilə edə bilmirdi. Bir dəstə oynayırdısa, digər dəstə öz növbəsini gözləyirdi. Kişilər dairəvi durub əl çalırdı. Qrup rəqsində hava çalınanda birinci dəstənin rəhbəri oynayır, sonra onun işarəsi ilə dəstənin digər üzvü oyuna daxil olurdu. O, oynayıb qurtardıqdan sonra dəstənin başqa üzvü meydana girirdi. Hamı tək-tək oynayırdı. Üç dəfə dövrə vurduqdan sonra gəlib nağara-zurna çalanın qabağında rəqsinə davam edirdi. Söyləyicilərin dediyinə görə, avarlar oynayanda çiyin qalxıb-düşməzdi. Birinci qrup oynayıb qurtarandan sonra dəstə başçısı havanı saxladır, ondan sonra "Qebequlab" havası başlayırdı. "Qebequlab" havasına hər adam oynaya bilmirdi, xüsusi fərasət tələb edirdi. Oynaya bilməyən adama məsləhət görərdilər ki, öncə fındıq ağacından yapışıb oynamağı öyrənsin, sonra gəlsin. Zurnaçı hər kəsin ayağına, tərzinə görə onun

havasını çalardı. Bəzən elə olurdu ki, iki dost qabaq-qabağa oynayır, yaxud biri oynayır, digər dostları diz çöküb ona əl çalırdı. “Qebequlab” qurtarandan sonra “Kurşolab” havası başlayırdı. “Kurşolab” havasına iki-iki, üç-üç oynanılırdı.

Oğlanların rəqsi qurtarandan sonra qızlara yaylıq və ya gül uzadıb onları rəqsə dəvət edirdilər. Qız oğlanla rəqs edə-edə bir dəfə dövrə vururdu. Sonra kim kimi oynatmaq istəyirsə, onu rəqsə dəvət edirdi. Qızı rəqsə dəvət edəndə qız naz edib durmurdusa, məclis qurtarana qədər onu heç kim rəqsə dəvət etmirdi. Ona görə qızlar onları rəqsə dəvət edən olanda naz etməzdi, irəli atılıb oynayardı. Yaxud qız özünü naza qoyardısa, əlindən iynəni alıb onu məcburi oynadardılar. İməciliklərdə oğlan istədiyi qıza alma atırdı. Qız almanı özündə saxlayırdısa, demək, onun da oğlana könlü var.

## 64. QABAQÇÖL MAQAŞI VƏ ÇIĞIRTMASI

Qabaqçölə gələn Qabaqçöl maqaşı və Qabaqçöl çığırtması dadmasa, onda deyərdilər ki, o Qabaqçöldə olmayıb. Maqaş yerli şordur. Qabaqçöl maqaşını hazırlamaq üçün yağın içinə yumurta çırpılır, yumurtaya şor əlavə edilir. Bişdikdən sonra çoban salatı ilə süfrəyə verilir.

Qabaqçöl çığırtması isə Qabaqçöldə yetişdirilən xüsusi soğan növü ilə bişirilir. Soğan o qədər qovrulur ki, bir kilo soğan yumruq boyda qalır. Soğanın qovrulması bir saat çəkir. Yumruq boyda qalan vaxtı kəsilmiş çolpanı soğanın içinə töküb bişirirlər. Bu zaman soğan təzədən açılıb qazanı doldurur. Bişənə yaxın üstünə yumurta çırpılır.

## 65. HƏQİQ QURBANI

Həqiq qurbanı peyğəmbər əleyhsalamın sünnəti sayılır. Həddi-buluğa çatana qədər oğlan uşağına iki dəfə, qız uşağına bir dəfə həqiq kəsilməsi vacib sayılır. İmkanı olan həqiq qurbanını bir həftənin tamamında uşağa ad qoyulduğu zaman kəsir, imkanı olmayan isə həddi-buluğa çatana qədər kəsir. Yetkinlik yaşına çatana qədər kəsə bilmədikdə, sonradan qəza kimi kəsmək mümkündür.

Qurbanlıq üçün buyrulan hökmlər həqiq qurbanı üçün də keçərlidir. Həqiq qurbanında bir yaşını doldurmuş sağlam qoç kəsilir. Qoçu kəsərkən sümüyünü qırmaq olmaz. Uşağın sümüyü möhkəm, sağlam olsun deyə heyvan oynaqlarından ayrılır. Bişirəndə ona bir az kişmiş əlavə olunur ki, şirintəhər olsun. Onda uşağın əməlinin, əxlaqının yaxşı olacağına inanılır. Həqiq ətini ya bişirib paylayır, ya da qohum-əqrabanı çağırıb o ətdən hazırlanmış yeməyə qonaq edirlər. Mövluda məxsus davranışlar – qadınların məclisə başıörtülü getməsi, uzun geyinməsi və s. kimi şərtlər burada yoxdur. Həqiq qurbanı zamanı insanlar yığılır, mövlud oxudur, o ətdən yeyirlər. Həqiq qurbanının əti o qədər qaynadılır ki, ət sümükdən ayrılır. Həmin ət təmiz yeyilir, yeyildikdən sonra sümüklərini yığıb bir çalada basdırırlar ki, qurd-quş dağıtmasın.

## 66-74. YAĞIŞ YAĞDIRMAQ VƏ GÜNƏŞİ ÇAĞIRMAQ

Yağış yağdırmaq üçün mömin bir qadın xeylağını ağac budaqları ilə bəzəyərdilər. Həmin qadın:

Цо го чIахар баде,
Худро гойах гIиссин баде,

Шурум баде, шарам баде,
Емер баде чIахар баде[25].

– deyə-deyə küçə-küçə gəzirdi. Onun səsini eşidən adam mütləq küçəyə çıxardı, sadağa verərdi. Doğrudan da, sınanılmış bir vasitədi. Bir gün, iki gün keçməzdi, göydən leysan tökərdi. Azərbaycanlılarda ona "Qodu" deyilir, bizdə "Midavay" deyirlər. Uşaqlar qaça-qaça gəlib deyərdi ki, yağış istəyən arvad gəlir, yağış istəyən arvad gəlir. Həmin arvad əyninə cır-cındır paltar geyinər, özünü yaşıl ağac budaqları ilə bəzəyərdi. Küçə ilə tək gəzərdi, gur səslə də oxuyardı. Onun səsini eşidən adam sadağa verərdi. Həmin arvadın qapısı hal-hazırda övliya qapısı sayılır. Onun babası – Xutra Sofi bir gecədə Məkkəyə Həccə gedib geri qayıdıb. Həmin qadına verilən pay da onun özünə çatardı. Kimin evində nə varsa, ondan verərdilər. Qəribəsi o idi ki, bir gün, iki gün keçməzdi, doğrudan da, şıdırğı yağış yağardı.

**67.**

Hava quraq keçəndə kəndin ağsaqqalları, böyükləri camaatdan pul yığıb sadağa verirdi. Hər kəs imkanı çatan qədər kömək edirdi. Yığılan pula dana alınırdı. Ya su başına, ya gölməçə başına, ya da Şərif kəndində ziyarətgah var, ora yığışırdılar. Bizim evin yanında bulaq vardı, yadıma gəlir ki, mən uşaq olanda sadağa üçün ora yığışmışdılar. Orada heyvan kəsilirdi, onun ətindən *bozbaş (ətkaş)* bişirilirdi. Sadağalarda təbii fəlakətin qarşısını alan Quran ayələri oxunur, dua edilirdi. Uşaqlar gözləyərdi

[25] *Tərcüməsi:*
Birinci gün iri yağsın,
Sonra xırda-xırda gəlsin,
Rahat gəlsin, çox gəlsin,
Çox yağsın, iri yağsın.

ki, böyüklər Quran ayəsini oxuyub qurtaracaq, təmiz döşlüklərə doldurub əvvəl çörək, sonra da ət verəcəklər. Hər kəs ehsana əlində cam və ya banka ilə gəlir, ətin suyundan qaba töküb evə aparırdılar. Kənddə qoca, xəstə adam varsa, həmin sadağadan onlara da göndərilirdi. Evdə hamilə qadın varsa, orada bişirilən yeməkdən mütləq ona çatmalı idi. Orada bişirilən ehsanın elə gözəl qoxusu olurdu ki, onun ətri yeyənin üstündən iki-üç gün çəkilmirdi. Yağış yağması üçün dua eləyir, ehsan paylayıb mövlud oxudurdular, ondan sonra bir-birinin üstünə su atmağa başlayırdılar. Sənəm deyilən qoca bir arvad var idi. Yadıma gəlir ki, o arvadı bulağın gözünə atmışdılar. O gecə bir yağış gəldi, bir yağış gəldi, Allah rəhmini heç kimdən əsirgəməsin. Elə bir yağış gəldi.

**68.**

Yağış yağmayanda, hava quraq keçəndə aşağıda ziyarət yeri var, orda böyük bir qazanda əriştə bişirirlər, camaat da yığışır ora. Ora gedənlər biri yağ aparır, biri süd aparır, biri un aparır, hərə bir şey aparır, orda bişirib yeyirlər. Yeyib qutarandan sonra vedrə ilə bir-birinin üstünə su atırlar. Başdan ayağa hamısı su olur. Elə olurdu ki, həmin gecə yağış yağırdı.

**69.**

Havalar qurax keçəndə meçidin həyətində böyük yığıncaxlar olardı, ərişdə kəsərdilər. Pul yığılardı, çay kənarında böyük məclis təşkil olunardı. Yağış yağdırmağ üçün sığnağa gedərdilər. Sığnax dağlar görüşən yer idi, su qovuşan yer idi. Kəndin içində "la-ilahə-illallah, la-ilahə-illallah" oxuya-oxuya sığnağa gedərdilər, orada dana kəsib qanını çaya axıdardılar. Dananın ətini paylıyardılar. Hamı bir-birinin üstünə su atardı, bir-birini isladardı, suya girib yağış isdiyərdi. Hamı bir ağızdan

zikr edər, Quran ayələri oxuyub Allaha yalvarardılar. Duaları qurtarıb amin deyəndən sonra süfrələr açılardı. Kəsilən qurbanın ətindən orda ət yeməyi, əriştə bişirilər, boşqablara çəkib camaata verilərdi. Sadağanı yeyib, dua edib evə gələrdilər. Ordan iki addım irəli gələn kimi yağış başdıyardı. İndi də qalıb o adət. İndi görürsən ki, bir ay yağış yağmır, quraxdı, su gəlmir, sadağa paylıyıllar. Meçidin həyətində mövlud oxutdurullar, zikr çalıllar ki, yağış yağsın. Həqiqətən də, yağır.

**70.**

Bəzən görürsən ki, çay gəlir, kükrəyir. Onun qarşısını kəsməy üçün qan axıdıllar. Qurban kəsib qanın çaya axıdardılar. O məna verir ki, mən qan axıdıram, sən qan axıtma da.

**71.**

Çox yağış yağanda qırx keçalın adını bir kağıza yazıb yağışın altına qoymaq lazımdı.

**72.**

Yağış yağdırmağ üçün sınanılmış insanlar olub. Onlara deyiblər ki, sən bu gün dirriyini[26] sula, bəlkə Allah-taala yağış verdi. Fikir vermişik ki, sən dirriyi sulayanda Allah-taala yağış verir.

**73.**

Uzun müddət yağış yağdıxda maxara bişirərdilər. O vaxtı tütün sarayları vardı, həmin sarayların altında beş-altı yerdə sac asılır, sacın üstünnən maxara tökürdülər. Bundan iyirmi gün əvvəl ziyarət bulağının yanında sadağa vermişdilər. Kim niyyət edirsə ki, o ziyarətin üstündə mən sadağa veracağam, olar sadağa verirdi. Maxara süd, un, duz, yağ və yumurtadan hazılanırdı.

---

[26] dirrik – həyətyanı sahədə tərəvəz əkilən yer

## 74.

Yağışı kəsmək, günü çağırmaq üçün taxta çömçənin işinə daş qoyardıq, daşları da bir kalağayı ilə bağlıyardıq. Bir qızla bir oğlan çömçəni əllərinə alıb qapı-qapı gəzərdi[27].

Горди, Горди, Гордина,
Горди салам вардина.
Метер можой бакъ щайги,
Жекъа нижей няхI магащ.
НяхI кьураси вас щайги,
Магащ кьураси яс щайги[28].

Bu sözü oxuya-oxuya qapılara gələrdik. Ev yiyəsi bizə yağ, şor, yumurta verərdi. Oğlan isdiyən yağ, qız isdiyən şor verərdi. Yığdıqlarımızı evə aparıb yeyərdik. Evə çatanda da gün çıxardı.

## 75. İNANCLAR, TÜRKƏÇARƏLƏR

1. Adam özünü pis hiss eliyəndə andızı yandırıb üç dəfə "pismillahi-rəhmani-rəhim" deyib tüstünü qoxladanda o adam yaxşı olur.

---

[27] Gün çıxmayanda taxta çömçəni balaca gəlincik kimi bəzəyərdilər. Ərə getməyən qız həmin gəlinciyi əlinə alardı, digər qızlar da arxada oxuya-oxuya qapıları gəzərdilər. Kimi yağ, kimi bal, kimi un, kimi duz – hərə bir şey verir. Sonra qızlar bir yerə toplaşıb yığdıqları ərzaqdan maxara bişirər, səhərə qədər bayatı oxuyardılar. Düzəltdikləri qaşığın adına "xinbax" (çömçə) deyilir.

[28] *Tərcüməsi:*

Qordi, Qordi, Qordina,
Qordi salam verdimi?
Sabah sizə Günəş olsun,
Bu gün bizə yağ-maqaş.
Yağ verənin oğlu olsun,
Maqaş verənin qızı olsun.

2. Uşaq təzə-təzə ayaq açanda isti çörəyi dizlərinin üstündə sındırıb həmin çörəyi qonşulara paylıyardılar. Onda uşaq daha tez ayaq açırdı.

3. Bir uşaq iştahdan kəsilirsə, heç nə yemirsə, onda yeddi evdən bir şey yığırdılar. Uşağın anası, ya nənəsi əlinə qab götürüb bir kəlmə belə kəsmədən gəlir qonşunun qapısına. Qabı görən kimi qonşu başa düşürdü ki, bunun uşağı iştahdan kəsilib, pay yığmaq üçün qapıya gəlib. Bişmiş yumurta, maxara, yeməli nə olsa, ondan bir tikə gətirib boşqaba qoyur. Uşağın anası sonra keçir o biri qonşuya. Bu şəkildə yeddi qapıdan pay yığıb gətirib həmin iştahdan kəsilən uşağa yedirir. Beləliklə, uşağın iştahı düzəlir.

4. Kimsə süd istəməyə gəlsə, qazanın və ya bankanın içinə süd tökəndə ot və ya yarpaq qırıb atardılar. Süd istəməyə gələnə öz qabımda süd versəm, ona deyirdim ki, yumaq lazım deyil, özüm yuyaram.

5. Şödilcə[29] yara kimi olurdu. Kəbinli qızlar şödilcəni karandaşla, kömürlə dairəyə alsa, o gedərdi.

6. Balaca uşaqlarda təngnəfəslik olanda ekiz doğan ananı gətirərlərmiş, həmin arvad uşağın sinəsi üstünə yavaşca ayağını qoyub "pismillahi-rəhmani-rəhim" deyərmiş, o çəkilərmiş.

7. Gözqaytarmaq üçün bir az sarımsağı, sarımsaq qabığını, soğanın qabığını, inək tükünü bir əysinin arasına büküb yandırardılar, onun tüstüsündə oturardılar.

---

[29] şödilcə – ziyil

8. Gecələr həyətə qaynar su atmaq olmaz, onda adam stresə düşür, başı ağrıyır. Atası olsan, "pismillah" deyib atmaq lazımdı. İnsanın üzündə reçel (uçuq) olanda deyirlər, sən axşamlar pismillah deməyib su atmısan. Andızı yandırıb həmin adamı onun tüstüsünə verirdilər, onnan gedirdi.

9. Dəri xəstəliyi olur, insanın dərisi ağ-ağ xəritə kimi olur. Onda deyirdilər ki, səni kajmı yalıyıb?

10. Qara qarğa doxsan dokquz yaxşı söz bilir, bir dənə pis söz bilir. Doxsan dokquz sözün içində bircə pis sözü deyər.

11. Pəltək danışan uşağa gügə (bildirçin) quşunun ətini yedirərdilər. Çox danışan uşağa da deyərdilər, sən gügə əti yemisən?

12. Çörək bişirəndə təndirdən çıxarılan ilk çörəyi uşağın dizi üstündə sındırırlar. Uşağı üç dəfə təndirin başına fırlayıb xeyir-dua edirlər: "Кермохула бохгIаме, мачIхине чIабугат бу йеги Kermoxula buxqame, maçxinə cabuğət bu yeqi".[30]

13. Təzə uşaq doğan qadın dəhlizə çıxıb bir nöqtəyə baxırsa, xəyala gedirsə, ona deyirlər "halud qunubi", yəni "*hal aparıb.*"

14. Uşağa ad verəndə sağ qulağına azan verillər, sol qulağına qamət eliyillər. Uşaq sağlam olsun, pis əməllərdən hifz olsun diyə dua oxuyursan. "Yerdə siz, göydə mələklər şahidlik etsin" – deyib uşağın adını üç dəfə çəkirsən. Həftəsi tamam olanda uşağın başını qırxırlar, saçı ağırlığında pulu kasıb-kusuba paylıyırlar.

---

[30] Tərcüməsi: Ayağı təpərli, əli çörəkli, dili şirin olsun.

15. Uşağa göz dəyəndə üç dəfə "qulfu" oxuyub duzu uşağın başı üstündə hərləyib ocağa atırlar.

16. Gözdəymə olanda anam andız bitkisinin kökünü yandırıb tüstüsünü gözdəyən adama verərdi. Andız bitkisini yazın əvvəli, göy guruldamışdan yığardılar, o zaman o daha təsirli olur. Onun gövdəsinin suyundan da müəyyən xəstəliklərin müalicəsində istifadə olunurdu.

17. Bizdə keçmişdə gözqaytarmaq üçün qayçının deşiyindən kömür salırdılar. Qayçını aralayıb su dolu camın üsdünə tuturdular, qaynar kömürü qayçının ağzından suyun içinə salırdılar. Saldıqca da uşağa gözü dəyə bilən adamların adını çəkirlər. Hansı adamın adı çəkiləndə kömür suyun dibinə batırsa, onun gözü dəyib. Həmin sudan uşağa sürtüb qalanını alatoranlıq vaxtı dördyol ayrıcına tullayırlar, dala baxmadan gəlirlər. Suyu atandan sonra səs eşitməməlisən, suya baxmamalısan, düz evə gəlməlisən.

18. Bu adət Dağıstandan gələn bulxadarlarda[31] olub. Göz qaytarmaq üçün saç tükünü, zir-zibili və s. salafana büküb yola atırlar. Guya o, gözü götürür.

19. Bir uşağım vardı, onu hara aparırdım, xəstələnirdi. İnan, xeyrə gedəndə, şərə gedəndə bir həfdə mənim burnumnan gəlirdi. Uşaq xəstələnirdi, hara aparsaq da, xeyri yox idi. Nəysə, gunlərin bir günü bu uşağı Gərəkli kəndində bir molla yanına apardıq. Molla kitabı açan kimi qayıtdı didi ki, bunu siz

[31] Mazımqarada yaşayan avarlara verilən ad

niyə ora-bura aparırsız? Bu uşaq gözə gəlir, ona görə partdamaya düşür. Evdən çıxardanda bunun ya corabını tərs geyindirin, ya saçını səliqəsiz yığın, ya paltarı ləkəli olsun, onda gözə gəlməz. Ondan sonra hara getsək, uşağın corabını tərsinə geyindirib özümlə aparırdım.

20. Mənim buzeyim[32] oğurranmışdı. Nə qədər axtardıx, tapa bilmədıx. Mənim yoldaşım getdi Axta İsrafilin yanına. O da parçadan adam formasında bir kukla düzəltdi, üstünə dua oxuyub verdi ki, apar beş-altı adama göstər. Yoldaşım kuklanı gətirib mənə verdi, mən də bir neçə nəfərə göstərdim. Üsdünnən iki gün keçmişdi, gördüm buzeyin baş-əyağını dərinin içində gətirib qapıdan içəri tulluyuflar. Axşamüsdü yoldaşımnan getdıx mollanın yanına. Mollaya dedim, bizim buzey tapıldı. Mənə dedi ki, buzeyi oğurlayan adam sənin yanına gəlməmiş kuklanı qəbirstanlıqda basdır. Ho adam sənnən halallıx istəməsə, onu çıxartma ordan. Gəlməsə, o adam çox yaşamıyacaxdı, ölücaxdı. Ortadan ay keçmədi, buzeyi oğurlayan adam öldü.

21. Yaşlı adamlar bizə deyərdi ki, qızım, nə qədər tox olsan da, süfrə üsdə gəlib çıxıbsansa, süfrədə olan nemətlərin hərəsindən bir tikə də olsa dad. Öncə duzdan başla, sora pendiri və digər nemətləri... Bu həm çörəyə hörmətdi, həm də süfrədə olan nemətlər sənə dua eliyər ki, məni saydı, yedi, Allah səni tox eləsin. Əgər həmin nemətlərdən dadmasan, hamısından yeyib pendiri kəsməsən, pendir deyir ki, məni görməyən gözlərin kor olsun. Pendir həmişə küsəyən olur.

---

[32] buzey – buzov

22. Bir dəfə bizim uşaq qorxu keçirmişdi, mən bunu qonşu kənddə molla yanına apardım. Molla qurğuşunu qaşıqda əritdi. Bir nəfər cəmi qorxu keçirən uşağın başının üstünə tutdu, o da qaşıqda olan qurğuşunu qayçının arasından suya tökdü. Tökdükcə də qayçıynan qurğuşunu kəsdi. Qurğuşun suyun üstündə müəyyən forma aldı. Molla həmin formalara baxıb dedi ki, bu uşaq itdən qorxub, çünki burda itin şəkli var. Deme, uşaq qonşunun həyətinə oynamağa gedər. Qonşunun iti qəfildən bunun üsdünə atılar, ondan uşaq qorxuluq tapar. Bunu mən sonradan öyrəndim. Molla bir də dedi ki, burda əlində çubuq bir qadın var. Dedi, uşağı sən hədələmisən, ondan da qorxub. Uşağı üç dəfə onun yanına apardıqdan sonra qorxuluq çəkildi.

23. Bədəndə göz yarası çıxanda qara toyuğu kəsib evin üsdən atırsan. Onun gözünün yağını göz yarasının üsdə sürtürsən.

24. Qorxan adam varmı, axşam olanda hər şeydən vahimələnən, qorxan? Qorxan adam yatmalıdı bir yerdə. Birisi baş yaylığını götürür əlinə, dolça götürür, salavat çevirə-çevirə gedib krantdan su gətirir. Yolboyu danışmaq olmaz. Qorxan adam da ağzı yuxarı uzadılıb da. Dolçadakı suyu qorxan adamın alnına, qarnına qoyurlar, "Allahın məsəli, əla Məhəmməd və ali Məhəmməd" deyib üş dəfə fırladıb "mən bu adamın qorxuluğun götürdüm, suynan getsin" deyib quruşqanın içindəki suyu aparıb arxa tökürlər.

25. Mənim əlimdə bir şəfa var. Əlimi boğazı ağrıyan adamların boğazına çəksəm, sağalar. Mənim atam meşəbəyi idi. Meşəyə gedəndə çöl donuzunun yeni doğulmuş yeddi balasını tapıfdı.

Bunnan qabaq bir adam ona demişdi ki, yeni doğulmuş yeddi donuz balasını əlinlə boğub öldürsən, sizin yeddi nəsilinizin əlində səbəb olar. O da əliynən çöl donuzunun balalarını boğur. Kimin boğazında angina varsa, atam üç gün əlini onun boğazına sürtürdü, onunla şəfa tapırdı. Bu, yeddi nəsil davam eliyir.

26. Əvvələr evə gələn elçilər oxlovu isdiyərdi. Görək oxlovun üsdə un varmı, yoxsa yoxmu? Onun üsdündə un olarsa, o qız təmiz döyül diyərdi, olmasa, təmiz qız deyərdilər.

27. Gözündə olan adamın qara rəngdə olan paltarından bir parça kəsirik, həmin parçanı qırx dəfə iynəliyirik, yeddi dəfə qayçıynan kəsirik, onu yandırıf iylədirik. Onun külünü də təmiz yerdə, ağacın dibində basdırırıq.

28. Oğlan istəyənlər niyyət edir ki, oğlum olsa, haqıq kəsəcəm. Haqıq kəsilən heyvanın sümüyünü qırmaq olmaz. Oynaxlardan ayırıb böyük bir qazanda bişirib yeyirlər. Sümüklərini də götürüb təmiz bir yerdə basdırırlar.

29. Qurban kəsilən heyvana su da verirlər, duz da. Duzu hər bir heyvan yeyir. Duzu göstərsən, o saat yeməyə gəlcaxdı. Qiyamətdə qurban kəsdiyin o heyvan gələcax sənin yanına, onun üsdünə minib gedacaxsan.

30. Çörək yeyəndə "bismillahi rəhmani rəhim" demiyəndə şeytan oturub sənnən bərabər çörək yeyir. "Bismillahı" unudub axırda "əlhəmdüllah" deyirsənsə, o şeytan sənnən yediyini qusur. Yeyə bilmir. Ona görə çörəyə əl vuranda, pula əl vuranda "bismillahi rəhmani rəhim" desən, onun bərəkətini hiss eliyərsən.

31. Başqa kəndə gəlin köçən qızı külə basırlarmış. Bizim kəndin girəcəyində böyük ağac vardı. Kəndin cavanları külü torbalara doldurub ağacın arxasında gizlənərdi, qız kənddən çıxaçıxda onu külə basardılar.

32. Dul qadın köçəndə onun dalınca fal yumurta atırdılar.

33. Dağıstanda bizim kəndin qabağında Murat harinap deyilən yer var. Martın iyirmi ikisində Novruz bayramında qayanın içindən özbaşına bu yoğunnuxda su qaynıyıb çıxır, bir də dekabrın iyirmi ikisində o su kəsilir. Camaat ora gedir. O su o biri suya qarışana qədər sən Allahdan nə diləsən, sənin sözün qəbul olur.

34. Ev ilanını oldürmək olmaz. Mən əvvəl bunu bilmirdim. Ev ilanını öldürdüm, heç bir saat keçmədi böyrümdən elə bir ağrı tutdu ki, nəfəs ala bilmədim. Həyat yoldaşım qonşudan maşın gətirib apardı məni balinsiyaya. Bir ay qaldım balinsiyada, iynə-dərman ilə həkimlər məni sağaltdı. Ondan sora öyrəndim ki, ev ilanı öldurmağ olmaz. Öldürəndə ya ev yiyəsi rəhmətə gedər, ya da böyük fəlakət baş verər. Mən onnan sora ilan öldürmürəm.

## 76. ALLAHIN TORPAQ PAYLAMASI

Bizdə bir adət var ki, ev tikiləndə mütləq ayrıca bir qonaq otağı da tikilərdi. Mən bu evi tikəndə qonaq otağı nəzərdə tutmamışdım. Evi tikəndə kənd soveti gəldi bizə. Dedi, bunun qonaq otağı hansıdı? Onun bu sözündən sonra evi böyütməli

oldum, əlavə qonaq otağı tikdim. Yadıma gəlir ki, həmişə evdə yağ, pendir azalanda anam deyərdi, get pendir al, yağ al. Qaldırıb yağ küpəsinə baxırdım, deyirdim: "Ay ana, burda pendir də, yağ da var". Anam deyirdi ki, o qonağın payıdı, ona toxunmaq olmaz.

Allah-taala dünyanı yaratdı, canlıları yaratdı. İndi torpağı bölür. Elçiləri çağırır. Hər yerdən elçilər gəlir, torpax paylarını alıb gedillər. Azərbaycannan gəlib çıxan yoxdu. Allah rəhimlidi, mərhəmətlidi, güzəştə gedir. Bir saat gözdüyür, azərbaycannı gəlmir, iki saat gözdüyür, gəlmir. Hannan hana bizim elçi gəlib çıxır. Elçi diyir:

– Torpax üçün gəlmişəm.

Allah-taala diyir:

– Niyə gecikdin?

Diyir:

– Qonağım vardı.

– İnanmıram, – Allah-taala diyir. Necə oldu qonağ?

Azərbaycannı diyir:

– Çıxdı getdi.

Allah-taala diyir:

– Sən didin çıx get, yoxsa özü getdi?

Diyir:

– Özü getdi.

Allah-taala diyir:

– Sən onu yola saldınmı?

Diyir:

– Hə. Qapıya qədər ötürdüm, gözdən itənə qədər də gözümü üsdünnən çəhmədim.

İndi bizdə deyillər ki, qonağın payı ev sahibinin xəbəri olmadan evə girir. Gecikməyə görə Allah-taala onu bir az töh-

mətlədi, amma qonağa elədiyi hörmətə görə bağışladı. Allah-taala didi:

– Özümə cənnətmisal bir torpax saxlamışdım, amma qonağa elədiyin hörmətə görə o torpağı sənə verirəm.

İndi bu cənnət guşəsi Azərbaycanı Allah-taala bizə qonağın hesabına verib.

## 77. AĞACDƏLƏNLƏ BÜLBÜL

Allah-taala yer kürəsini yaratdı. Bütün heyvannarı, quşları, nə ki cannı var hamısını su bəndi götürmək üçün buyurdu. Bütün heyvannar, insannar gedir, bu ağacdələnnən bülbül getmir. Allah-taala onları cəzalandırır. Belə bir rəvayət söylənir ki, ağacdələn suyun üstündə dursa da, Allah-taala ona suyu görməyə imkan vermir. Ancaq yağış yağanda koğuşlara yığılan sudan içib dolanmalıdı. Görürsən, indi də ağacdələn qışqıranda deyillər, bax, yağış isdiyir, suyu çatmır. Bülbül də ən istədiyi gülün üsdündə durur, amma onu görə bilmir. İyini ala bilir, amma gülü görə bilmir. Onnan o məhrumdu.

## 78. DƏVƏNİN QUYRUĞU

Allah-taala heyvannarı yaradandan sonra tapşırır ki, bütün heyvannar getsin quyruğ alsın. Süleyman padşah da bütün heyvannarın dilini bilir. Qarışqanın da dilini bilifdi. Tülkü gəldi, quyruğ aldı getdi, it gəldi, aldı getdi, ev heyvannarı aldı getdi. Dəvə lap axırda gəlir. Dəvə gələndə görür, balaca bir quyrux qalıb. Narazılığ eliyir ki, siz tərəfkeşlik eləmisiz. Quyruxları dəyər-dəyməzə vermisiz. Allah-taala ən böyük heyvan kimi bizi yaradıf, ən böyük quyrux da bizə verilməlidi. Başqa

quyrux da qalmıyıf. Dəvə Süleyman peyğəmbərin verdiyi quyruğa razı olmur. Allah-taaladan Süleyman peyğəmbərə səda gəlir ki, nə edirsən et, ona bir quyrux ver. Dəvə küsüb gedirmiş, peyğəmbər quyruğu daldan atıf, gedib dəvənin dalına yapışıfdı. O vaxtdan dəvənin quyruğu bir qırıx şeydi.

## 79-82. KAJ

Kaj pişiy formasında gəlir, kişi formasında gəlir, qadın sifətində gəlir. Ona, deyir, iynə batırsan, o zaman gözə görükür. Amma buraxdın, təhlükəlidi. Mən də şahidiyəm. Çox gəlir mənim üsdümə. O, ömrü boyu məndən əl çəkmiyib. Üsdümə iynə saşdım, sancax saşdım, yasdığın altına bıçax qoydum, xeyri olmadı. Adamın üsdündə yatır. Onun burnunun bir deşiyi var. Ağzını insanın ağzına, burnunu insanın burnuna dirəyir, nəfəs ala bilmirsən. Bir gecə mən Katexin yarısını gəzmişəm. Çağırırdı məni, durub gedirdim.

Təzə gəlin gələn vaxdarım idi. Bir gün yatıram, yanımda babam da var, nənəm də var. Bir də gördüm, məni çağırdılar. Durdum ayağa, oturdum. Gördüm çağırıllar ki, çölə gəl. Görürəm bülbüllər cəh-cəh vurur, quşlar səs-səsə verib oxuyullar. Səhərə yaxındı, saat hardasa iki-üç olar. Mən çıxdım, getdim həyətimizdəki şabalıd ağacının yanına. Ora gedən kimi quş səsləri kəsildi. İndi pişiy miyoltusu kimi səs gəlir. Mən də ki, heyvan sevənəm, pişiy axtarıram. Səs bu yanımnan gəlir, əl atıram, heş nə yoxdu. Səs ordan gəlir, əl atıram, heş nə yoxdu. Məni tövlədən tutmuş qarannıx yerlərə qədər apardı. Mən gəzdim, gəzdim. Deyillər ki, hal aparanda adam gərək "əuzübillahiminə şeytanir rəcim, bismillahir rəhmanir rəhim" – diyə, onda hal qorxub qaçır. Möhkəm-

nən “bismillahi rəhmani rəhim” diyirəm, heç qulaq asmır mənə, məni dalınca aparır. Qayıtmışam gəlmişəm evə.

Nəysə, səhər açıldı. Bizim yanımız məktəb idi, oranın qaroulçusuna dedim ki, ay Bayram dayı, sən mənim pişiyimi görməmisənmi? Mən səhərə kimi pişiyimi axtarıram. O da elə bilir, mən dəli olmuşam, nədi? Diyir: “Heç nə olmaz, gələr, ay qızım”. O tərəfdən gəlirdim, evə girəndə gördüm ki, pişiy gəldi. Didim, həə, köpəy oğlu, məni gecə nə qədər gəzdirdin, hardeydın? Pişiyi əlimə götürəndə, pişiy əllərimi nətər cırdısa, qaşdı getdi. O gedən pişiy yoxa çıxdı.

**80.**

Qaybalıda Qəbləyevlər diyilən nəsil var, kajı keçmişdə olar tutublar. Deməli, atı minib sürürmüş. Bir günnəri bu kişi atın belinə qır yapışdırır. Hal axşam gəlib atın üstündə oturanda yapışıb qalır orda, qopa bilmir. Həmin kişi səhər gəlir tövlüyə, onu görür. Sancax batırıb tutur onu. O vaxdı bu dillənir ki, sən bircə məni öldürmə, nə istəsən mən eliyəcəm də. Sənin bütün işlərini görəcəm. Həmin kişi bunu tutannan sora bu, bununçun işdiyir. Kişinin bir dənə qəşəy qızı olur. Qız bulağ başında su dolduranda hal qızı tooluyur. Diyir, noolar, məni burax. Bu sancağı çıxar. Qız diyir, axı onu çıxara bilmərəm, babam məni öldürər. Diyir, yox. Çıxart bunu, qurban olum. Buna dil tökür. Qız diyir, əşi, day mənə heş nə eləməz. Qız sancağını çıxardan kimi hal onu boğub öldürür. Həmin nəslə qarğıyır, sonra qaçıb gedir də.

**81.**

Mənim uşaqlığım Mazımçayda keçib. Orada meşəyə gedəndə kol-kos olan yerlərdə qara oyuqlar var idi. Bizə deyir-

dilər o, kajın papağıdı. Əgər sən o papağı götürüb başına qoysan, gözə görünməzsən. Qorxudan ora getməzdik. Nənəm söhbət eliyərdi ki, kaj uzun saçları olan qara məxluqdu. Qadın cinsindəndi. Çaydan keçəndə körpüdə oturub ayaxlarını suya sallıyan görüblər. Döşləri göbəyinə çatırdı, birini sağ çiyninə, birini sol çiyninə atırdı. Nənəm deyərdi ki, bizim bir atımız olub. Hər gün bu at yorğun gəlirdi, elə tər axırmış atın üsdündən. Nənəmin dediyinə görə, onu kaj minirmiş. Özü də atın quyruğunu elə hörürdü ki, onu heç kəs aça bilmirdi. Onu yalnız kəsib atırdılar. İnsanın üzünə şapalaq vursa, üzünün ətini qopardı.

## 82.

Yatan vaxdı küçə qapısını bağlıyanda bu ifadəni işlədib bağlıyırıq: "Əuzübillahiminə şeytani rəcim, bismillahir rəhmanir rəhim". Adam yatanda "ilbis beqa" gəlir. O gejə evdə kimsə boğulmağa başlasa, yuxuda qışqırsa, ev əhli bir-birinin üstünə düşür ki, axırıncı kim "bismillah" demiyib qapını bağlıyıbdı. Yastığın altına qayçı qoyurlar. İlbis soyux məxluqdu, üsdü tüklü, qara məxluqdu. İnsanın sinəsi üstündə yatır. Onun pəncərədən sürüşərək getdiyini görən olub.

## 83. DATCAL

Datcal qiyamət qopanda gələcək. Hündürboylu, ziyankar olur. İnsanlar onun yanında göbələk kimi qalacaq. İnsanları əlinə alıb oynadacax. Onda da zurna kimi şey olasıdı. Onu çalasıdı İsrafilin zurnası kimi.

## 84-86. ŞEYTAN

Bir gecə bərk leysan yağışdar yağır. Sel olur, küləy əsir, qasırğa olur. Səhər camaat durub toyuğa-cücəsinə, mal-qarasına baxır, ziyan dəyib-dəyməyib. Birisi görür ki, səkkiz toyuğu ölüb. Birisi görür, dərvazanı su vurub açıb, eşşəh gedib kələmlikdə kələm otduyur. Şitbil də gəlib ki, görüm, camaata nə ziyan, nə zaval dəyibdi. Onunla bir yerdə nəvələri də gəlibdi. Eşşəyin sahibi eşşəyi söyür: "Ay səni şeytan vursun, ay səni ilbis vursun, ay səni cin vursun". Nəvələri deyir: "A baba, bizim nə taxsırımız var? Bax, orda bizi söyüllər". Şeytanın babası diyir ki, bura bax, biz haburda olsax da, hər yerdə barmağımız var.

## 85.

Cin-şeytan əsas alma, nar, zoğal, hayva, qoz, findığ ağacının altında olur. Axşam olanda elə ağacların altında oturmaq təhlükəlidi. Mən də bir dəfə qaynar suyu atdım alma ağacının dibinə. Səhər durdum gördüm ki, gözüm şişib, olub nə boyda. Bir qoca arvad mənə dedi, səni şeytan işi tutub. Sən şeytannarın böyüyünün uşağının ayağını yandırıbsan. Məni qonşudan birisi apardı Gərəkli kəndində bir mollanın yanına. Mən içəri girəndə kişi mənim qabağıma gəldi. Didi, gəl, gəl, vaxdında gəlmisən. Çoxlu kitablar var idi. Kitabı açdı, didi, sənə bir dənə dua yazacam. Gedirsən onu yaşıl bir parçaya tikirsən, qapının ağzında alma ağacından asırsan. Üç gün gözdə. Əyər üç günnən sora o duanı cinnər, şeytannar aparıbsa, sən sağalacaxsan. Aparmasa, sağalmıyacaxsan. Nəsə oxudu, üfürdü mənə. Mən qapıdan çıxıb taksiyə oturmuşdum. Belə baxdım gördüm üzümdəzadda heç nə yoxdu. Molla deyəni elədim. Duanı yaşıl parçaya tikib apardım alma ağacınnan asdım. Alma da çiçəy açan vaxdı.

İki gün keçmişdi üsdünnən, üçüncü gün idi, birdən yadıma düşdü ki, gedim o duaya baxım, görüm dururmu orda. Getdim gördüm yoxdu. Deməli, aparıb. Şeytan işi odu.

## 86.

Bizim həyətdə incil ağacı vardı. Mənim nənəm deyirdi şeytanların toyxanasıdı ora. "Bismillah" deməyib ora gedəndə ya üzümüz şişirdi, ya qıçımız ağrıyırdı. Cürbəcür xatalar əmələ gəlirdi.

## 87. CİN

Hənifə tərəfdə Musa deyilən bir kişi olur. Bu kişi ovçu imiş, dağa gedib gələrmiş. Dağa gedib gələn, ov eliyən kişiymiş. Bunun da bir dənə pişiyi varmış, ona da öz adını qoyubmuş, Musa diyirmiş pişiyə. Bir kişi olub evdə, bir də pişiy. Pişiy hər axşam gəlir, yemək yeyib gedirmiş, bir də növbəti axşam gəlirmiş. Kişi diyir ki, mənim bu pişiyim hara gedir, mən bunu güdəcəm. Axşam olur, çörək yiyəndən sonra pişiy yenə gedir. Kişi də durur gecə paltarında çıxır evdən. Bu gedir, o gedir. Nağıllarda deyilən kimi, az getdi, üz getdi, dərə-təpə düz getdi, bu kişi gedir bir dağa çatır. Görür, əşi, dağın böyründə bir məclis var, bir məclis var, çal-çağır göynən gedir. Diyir, ə, nə yaxşı toydu bu. Qoy mən də gedim ora. Bu da gedir. Görür ki, burdakı adamların gözdəri əyri-üyrüdü, pişiyin gözdəri kimi yamyaşıldı. – Şeytannarın gözdəri əyri olur. – Görür Balakənin muzukantdarı burdadı. Qarmonçalan Yaşar burda, nağara çalan burda. Cin oların surətindədi. Diyir, bir qarmon çalıllar, nağara çalıllar ki... Elə ki, bunun pişiyi ora çatdı, didilər:

– Musa, yallah, Musa, yallah.

Bununla görüşüllər. – Musa, yallah. – Musa, xoş gəldin. – Musa, keç oynamağa. Nə çalax sənə? Biri qayıtdı ki, Musanın havasın çalın. Bu kişi diyir, indi bir hava çalınır, bir hava çalınır ki, mənim də sümüyüm oynuyur. Pişiy ortuya düşüb bir oynuyur, bir oynuyur. Diyir, mən də həvəsə gəldim, düşdüm ortalığa, başdadım oynamağa. Oynuyub qutardıx. Dedilər, toyun böyüyü var, tamadası. O da tanınmış adamlardan birinin şəklindədi. Tamada dedi, indi də yemək süfrəsinə keçəy. Kişi diyir, yemək süfrəsinə keçdik, yemək süfrəsində nə yoxdu? Aş var, toyuxlar var, nələr var, nələr var. Toyun da sərpayısı İsadı. İsa müəllim diyir ki, ay Musa qardaş, keçin süfrə başına, amma bildiyinizi demiyin. Unutduğunuzu demiyin. Bu da başa düşmüyüb, "bismillahir rəhmanir rəhim" deyib əlini uzadanda görür dağın başı, qorxulu bir yer, qapqaranlıx. Nə pişik var, nə insan var. Qabaxlarında da mal təzəyi.

İndi kişinin başına nə gəlir? Kişi, diyir, mən qaldım burda. Gecə saat iki olar, üç olar. Mən hara gedim? Dağın başı, vəhşi heyvan ola bilər. Aşağıda görüb bir yerdən işıx gəlir. Çobannar qoyun sürülərinin yanında ocaq qalıyıb oturublar. Bu gedib həmən işığa doğru. İşığa doğru gedəndə çobanın biri o birinə deyir, qaraltı gəlir. İtlər cumufdu bunun üsdünə. – Ayə, mənəm, Musayam. Başıma iş gəlibdi. Məni vurmuyun, məni öldürmüyün. Bu kişi gəlir çobannarın yanına. Bu kişini tutub gətirillər. Diyillər, ay dayı, bu nə geyimdi, nə gecimdi? Deyir, danışsam, gülərsiz. Buna su verillər, özünə gəlir kişi. Diyir, mən Hənifədənəm, filankəsəm. Mən pişiyin zibilinə düşmüşəm. Cin, şeytan aparıb məni, mən bu kökə düşmüşəm. Kişi evə gəlib bir ay xəstə yatır.

Bir gün pişiy gəlir evə. İçəri girən kimi bu kişi deyir, Musa, yallah, gəlib çıxdınmı? Diyir, bunu demişdim, pişiy pis-pis miyoldadı, qapını açıb o gedən getdi.

Diyillər, pişiyləri cin, şeytan tez yoldan çıxardır. Biz görmürük, amma pişiylər cini, şeytanı görür.

## 88-89. MEŞƏ ADAMI

Balakənə gedən yolda Beşbulax deyilən bir yer var. Ora həmişə çobannarın oturduğu yer olub. Bakıdan qonaxlarım var idi, onları Bakıya yola salıram. Avtobus gözlüyürük ki, onları yola salım. Kimə əl eliyirik, saxlamır. Bular da gecikirlər. Mən dedim, növbəti gələn maşının qabağına keçəcəm. Gördüm bir dənə maşın gəlir. Yaxınnaşanda qaşdım qabağına ki, saxla, saxla. Saxlamadı, qabağa getdi bir az, dayandı. Sürücü düşdü gəldi. Didi, xala, mənə su ver, su ver. Oğlanın rəngi meyit kimi idi. Çox möhkəm qorxmuşdu. Su verdik, içdi. Soruşdux, ay bala, noolub? Didi, başıma bir əhvalat gəlib, kimə danışsam, inammaz. Dedi, zaqatalalıyam, taksi şoferiyəm. Yanımda yoldaşlarım var idi, onları Balakəndə düşürdüm. Geri qayıdıb gələndə Beşbulağın yanına çatanda gördüm, maşınım yavaşıdı, sürəti azaldı. Gördüm, bir dənə çılpağ, uzun saşdı, başında kəlağayı, tüklü-müklü bir qadın. Gəldi, diyir, maşının qabağında əlini kapotun üsünə qoyub dayandı. Nə danışmır, nə də qoymur getməyə. Mən də nə maşınnan düşə bilirəm, nə irəli gedə bilirəm, nə də geri gedə bilirəm. Yaşlı adamlar diyirdi ki, buralarda Meşə adamı var. Qorxudan rəngim olub meyit kimi. Üzümü əllərimlə tutdum, dayandım. Əlimi çəkəndə gördüm yoxdu, çıxıb gedib.

## 89.

Bizim kəntdə Bədəl kişi vardı, mənim babamnan bir yerdə qarğıdalı qoruyurdular. Bir axşam babam evə gəlir, amma Bədəl kişi sahədə qalır. Axşam çörək yiyirmiş. Bir də görür bədəni tüklü hündür bir qadın dayanıb. Əynində geyimi-gecimi yox, bircə başında kalağayı var. Sallax, iri döşdəri olur. Bədəl kişinin yanında iti də olub. Amma dediyinə görə, it qadına hürmür, heş ona yaxın da getmir. Qadın da eləcə yerində durub baxır, danışmır. Kişi ona qarpız verir, yemək verir, çörək verir. Həmin qadın sakitcə oları yidi, çıxdı getdi. Bu hadisədən sonra kişi bir həftə xəstə yatdı.

## 90-91. XIDIR NƏBİ

Mənim babamın babası – Hacı əmi piyada yeddi dəfə Məkkəyə gedən adam olub. Xıdır Nəbi də peyğəmbərlərdən birisidi. Anam diyir, mən uşaqdım, həyətdə əzgil ağacı vardı, onun altında oturmuşdum. Bir nurani kişi gəldi, mənə dedi ki, ay qızım, ay qızım, baban evdədi? Hacı baba hanı? Cuma günü idi. Dedim, Hacı baba namaza gedib. Dedi ki, ona deyərsən ki, Xıdır əleykəssalam gəlmişdi. O mənim dostumdu, onu görmək isdiyirəm. Anam diyif ki, gələn kimi xəbər verərəm. Mən, diyir, çevrildim ona deyim ki, ay əmi, evə gəl sənə çay verim, çörək verim, kişi qeyb oldu. Hardan gəldi, hara getdi mən bilmədim. Anam deyirdi, mən gözdərimnən o kişini gördüm. Ağsakqal, nurani bir kişi idi. Deməli, babamın babası onnan söhbət eliyimiş.

## 91.

Rəvayətə görə, İsgəndər dirilik suyu axdarıb ki, dünyada həmişəlik qalsın. Yuxuda buna diyiblər ki, sən suyu tapacaqsan, amma öz qılıncınla öləcəksən. Rəvayətə görə, Yəcuc-Məcuc

səddini də o çəkib. Yəcuc-məcuclar elə varlıqlardı ki, hər şey – ağac, ot, adam – əllərinə nə keçdi, yeyillər. İsgəndər guya sədd çəkib ki, onlar ziyanlıq vurmasınlar.

Nəsə, İsgəndər dirilik suyu dalınca gedəndə yolda bir qoca kişiyə rast gəlir. Bu kişi də Xıdır Nəbi olur. Xıdır Nəbi buna diyir ki, mən bilirəm sən hardan gəlib, hara gedirsən, amma sən o yeri mənsiz tapmayacaxsan. İsgəndər diyir:

– Sən yolu tanıyırsansa, gösdər də mənə.

Xıdır Nəbi də bulara qoşulur. Mağara olur. Qoşunu çöldə qoyub mağaranın içiynən xeyli gedillər. Bir də görüllər bir gur bulağ var, su fəvvarə vurur. Yanında da sakit qaynayan balaca su var. İsgəndər tez fəvvarə vuran suyun içinə girir, sudan içir, Xıdır Nəbi də böyürdəki sudan içir. Mağaradan çıxanda İsgəndər diyir:

– Daha maa ölüm yoxdu, elə döyülmü?

Xıdır Nəbi diyir:

– Yox. Sən öləcəysən, özü də öz qılıncınla.

Diyir:

– Nətəri? Dirilik suyunu içmişəm.

Diyir:

– Sən dirilik suyunu işmədin. O fəvvarə vuran şan-şöhrət suyu idi. Onu sən içdin, yanındakı dirilik suyunu mən içdim.

İsgəndər isdiyir geri qayıtsın. Geri dönəndə görür mağara nə gəzir, mağaranın ağzı qapanıb. Ordan kor-peşman gəlir.

Nəsə, Xıdır Nəbi bundan aralanır, gedir. İsgəndər bir xeyli gedənnən sora yorulur, isdiyir istirahət eliyə. Oturur, bunun qoşunu da nizələrini, qılınclarını yerə sancıb, üsdündən çadır atıb kölgəlik düzəldir. İsgəndər xeyli yatır, bir vaxdı yuxudan ayılanda başının üsdə özünün qılıncını görür. Elə tərpənməknən qılınc düşür boynuna. Deyilənə görə, elə ölür o. Yuxusu çin çıxır.

## 92. TEYMURLƏNG

Qullar kəndində bir qala var, hündürlüyü on beş metrədi. Pındıq boyda daşın olmadığı o yerdə həmin qalanı tikiblər. Ortada su hovuzu – ovdan da var. Deyilənə görə, Teymurləng gəlib çıxıb bura. Pəri qalası haqqında eşidib, gedibdi Balakənə. Pəri onnan vuruşub, amma məğlub olubdu. Zaqatala qalasında olan kanalın içi vaxdıynan su olub. Yəni xaricdən gələn yadlar suyu keçib qalaya hücum çəkməsin. Teymurləng Pəri qalasını almaq isdiyib. Pəri xanım görür məğlub olur, özünü suya atıbdı.

Deyilənə görə, Teymurləng gəlir, boş bir ərazidə qoşunu saxlıyır. Kəndə çapar göndərir ki, səhər dava olanda, qılınclar toqquşan zaman qadınnar, qarılar dözə bilməzdər, olar kənddən çıxsınnar. İcazə verir ki, qadınlar gedəndə ən əziz şeylərini özləri ilə götürüb aparsınlar. Gəlinnər, arvaddar ömür-gün yoldaşlarını yanına alıb kəndi tərk edirlər. Teymurləng isdiyir səhər hücum çəksin kəndi almağa. Qoşun atdara minibmiş kəndə hücum çəkmək üçün. Bir ağsakqal kişi gəlir çıxır Teymurləngin hüzuruna. Teymurləng bundan soruşur ki, kişilər hanı? Ağsakqal deyir:

– Siz buyurmadızmı qadınlar, qızlar isdədikləri şeyləri aparıb getsinlər. Qız qardaşını apardı, ondan əziz nə var ona? Arvad öz ərin apardı, onnan əziz nə var ona? Qoca qarılar ömür-gün yoldaşlarını apardılar. Kənddə ən yaramaz, ən dəyərsiz adam mənəm ki, qalmışam.

Qocanın bu sözündən sonra Teymurləng əyilib qoca kişinin ayağlarınnan öpür, öz səhvini başa düşür. Teymurun qoşunundan bir nəfər də olsun kəndə girmir. Kənd ağsaqqalının hesabına kənd əhli qılıncdan qutarır.

## 93-94. HURULEV ZİYARƏTİ

Hurulev ziyarəti bizim rayonda ən böyük ziyarətdi. Deməli, Maxaçqalanın Hurulev kəndinnən bir şeyx olubdu. Adı bilinmədiğına görə bu şeyxi kəndin adıynan çağırıllar. İmam Şamil necə din yolunda vuruşubdu, bu da din yolunda vuruşan adam olub. Vəsiyyət eliyibdi ki, mən qəzavətdə şəhid oliciyəm, mən harda basdırılsam, mənnən şəhid olmuşlar da orda basdırılsın. Gəlib dağlara çatanda bunun başını kəsillər. Kəsik baş Hüseynin başı kimi azan çəkifdi. Yeddi baş olublar bular. Gülüzanbinədəki ziyarət var ey, biri odu, biri də Katexdədi. Olar bir yerdə olubdu. O biriləri bilinmir hardadı. Nəysə, bu şeyxin bədəni qalıbdı dağlarda, başı gəlib su aşağı azan çəkə-çəkə. Bir daş var, ora çatanda dayanıbdı həmən baş. Kəsik başın azan çəkməsi düşmanlarına da təəccüblü gəlir. İsdiyirlər ki, bu başı aparıb böyüklərinə gösdərsinlər. Yağış yağıbdı, çay daşıbdı, sel gəlibdi. Allah-taala qoymuyubdu həmin baş oların əlinə keçsin. O başı ordan gətirib meşəlikdə daş anbarlarının arasında basdırıblar, hərrəməsinə də daş töküblər ki, düşmən axtaranda elə bilsin daş anbarıdı. Şeyxin kəsilən başını orda elə gizdədiblər.

### 94.

Mənim rəhmətdik nənəm danışırdı ki, – mən onda balaca uşax idim, – çay kəsilmiş bir baş gətirib. Baş indi ziyarətgahın olduğu yerdə bir daşın üstündə durub əvvəl azan çəkib, sonra zikir çalıbdı. Həmin ziyarətə Huruley ziyarətgahı deyilir. Sovet höküməti dövründə kənd sovetimiz vardı. Kənd soveti üş dəfə traxtırnan gedər o ziyaratı dağıtmağa. Neçə dəfə gedirsə, traxtır ora yaxın düşə bilmir, qırılıb gəlir. Kənd sovetinin bir oğlu varıydı. Bakıdan gələndə avariyaya düşübdü, qabaxda oturan ölməyib, onun oğlu arxada oturmuşdu, o ölmüşdü.

## 95. MAHAMA DİBİR

Bu tərəfdə Mahama dibir deyilən bir ziyarət var. O ziyaratın sahibi səhər-səhər qaynar[33] isdiyibdi. İnəyi də qısır olubdu. Xəsdə yatdığı yerdə diyibdi ki, mən qaynar isdiyirəm. Arvadı diyibdi, ay kişi, qaynar bişirmağa süd yoxdu. Kişi diyibdi, bu dəyqə inək gələcax, sən sağ, maa qaynar bişir. Bunun da inəyi qısırdı, sağılmıyan inəkdi. Bir də görür, inək qışqıra-qışqıra gəlir, yelini də dolu. İnəyi sağıb qaynar bişiribdi kişiyə.

Həmən kişinin xəncəri var. Həmin xəncər kəsən əl sağalmır. Hansısa inək dabax xəsdəliyinə düşsə, ayağı ağrısa, həmin xəncəri suya çəkib heyvana verirlər, o sağalır.

## 96. BÖYÜKDAŞ ZİYARƏTİ

Atam söylüyürdü ki, Əbucahal tayfasından olanlar bir mollanın başını kəsiblər. O baş “la ilahə illallah” deyə-deyə dağın ətəyinə qədər diyirlənib, bir düzənnikdə dayanıbdı. İndi də camaat ordan ötəndə balaca bir daş götürüb, “bismillah” deyib ora atır. Xırda daşlardan böyük bir dağ düzəlib. İndi ora Böyükdaş ziyarəti deyirlər.

## 97. YUNUS ƏFƏNDİ

Yunus əfəndi Laləli kəndindən olup. Alazan çayı oların evinin yanınnan axırdı. Çayın o üzündə işçiləri olupdu, olara yemək aparanda suyun üstüynən gedərdi, suda batmazdı. Elə kərəmətli adam olup, suyun üstündə quruda yürüyən kimi yeriyip.

Bir gün arvadı buna deyip:

– Ay Yunus əfəndi, sən habelə suyun üsdünnən keçib-gedirsən. O sənin hünərindimi, yoxsa mənim?

---

[33] qaynar – südlü aş

Deyir:

– Arvad, sənin nə hünər var? Mənim hünərimdi.

O günü işçilərinə yemək aparanda gej qayıdır, üsdü-başı yaş halda gəlir. Arvad deyir:

– Kişi, noldu, bu gün gejikdin, qabaxlar tez gəlirdin?

Deyir:

– Arvad, həmişə suyun üsdüynən yeriyib gedirdim, bu gün Allah qarşısında nə günahım, səyfim olubsa, suya batdım. Zorla çıxdım sudan. Körpüynən gedib-gəlməyim də çox çəkdi.

Arvad deyir:

– Axı sən deyirdin mənim burda bir zəhmətim, bir əməyim yoxdu?

Yunus əfəndi deyir:

– Arvad, de görüm, nə etmisən?

Arvad deyir:

– Bu günə kimi mən saa namaz qılıb, dəsdəmaz almamış xörək hazırrıyıp verməmişdim. Buyün, diyir, saa mən dəstamazsız çörək hazırradım.

Əfəndi başa düşür ki, onların bu məqama gəlib çatmasında qadınların da payı var.

## 98-99. MAHMUD ƏFƏNDİ

Mahmud əfəndi Qaxın Almalı kəndindəndi. Orda onun hücrəsi durur, indi də ora ziyarətə gedirik. Özünün qəbri Həştərxandadı. Mahmud əfəndinin çox möcüzəsi olub. Mahmud əfəndini Həştərxana aparan vaxdı onu tutmaq üçün evə gəliblər. Mahmud əfəndinin yanına Gürcüstandan, Dağıstandan – hər yerdən millət gəlir. Hökumət ondan qorxub sürgün eləmək isdiyir. İndi furqonnan gəliblər Mahmud əfəndini aparmağa.

Furqonda oturdublar. Nəkqədər döyüblər, atdar tərpənməyib yerindən. Axırda Mahmud əfəndi dillənib ki, ay Allahın heyvannarı, yazığınız gəlsin özünüzə, yeriyin. O icazə verənnən sonra atlar yeriyib. Həştərxana qədər xeyli yol var axı. Yol boyu atdarı dəyişirlər. Axırda bir yerdə furqon sınır, qarannıx gecə, heç işıx görünmür. Həmin yerdə Mahmud əfəndi özü furqonnan düşür. Sağ əlini irəli uzadır, onun əlinin işığına təkəri düzəldirlər. Onu Həştərxana aparıblar. Salıblar həbsxanaya, çöldə tapıflar onu.

## 99.

Almalı kəndində yaşayan əhali Mahmud əfəndiyə şikayət eliyir ki, sən Əhməd əfəndini bizdən çox sevirsən. Bizə ona baxdığın gözlə baxmırsan, ona hörmət eliyirsən. Diyif ki, o məndən asılı iş döyül. Bunlar inad eliyiflər. İnad eliyəndə deyib mən sizə isbat eliyəcəm. Gecənin bir vaxdında Əhməd əfəndini çağırıbdı. Atnan iki günnük yol var. Əhməd əfəndi çağırış səsini eşidən kimi durub çayda çimib, gedibdi şeyxin yanına. Çünki oların yanına dəsdəmazlı getməlisən. Ora çatanda Mahmud əfəndi deyib, niyə sən gejikdin? Deyib, çaya çimməyə getmişdim, ona görə gejikdim. İsbat eliyif ki, Əhməd əfəndi onlardan üsdündü.

## 100. PEYĞƏMBƏRİN MERACA GETMƏSİ

Cəbrayıl əleyhsalam bizim peyğəmbəri ərşə, meraca aparıpdı. Bizim peyğəmbər yuxarı qalxan vaxtı, diyir, yerə baxdı, gördü yer üzündə bir nur var. Dedi:

– Ya Cəbrayıl, yerdə görünən o nur nə nurdu?

O vaxt Cəbrayıl əleyhsalam dedi:

– Dağıstandan çıxacaq kamil şeyxlərin nurudu o. Ho Dağıstan xalqını islama gətirib şəhid olanların dərəcəsi digərlərindən on dəfə artıxdı.

Hələ islam dini yayılmayıb, Allahu-taala peyğəmbəri Meraca çağırıp beş vaxt namazı buyurup. Cəbrayıl əleyhsalam hələ o vaxt buyurub ki, Dağıstan xalqında belə şeyxlər olasıdı. Bizim peyğəmbər əleyhsalam da insanları islama dəvət eliyəndə, Dağıstana adam göndərəndə bu hak-hesabı onlara deyər. Deyilənə görə, o vaxdın əsabələrində böyük həvəs olar ki, Dağıstana qəzavata getsin, orda şəhid olsunlar. Çünki orda şəhid olanların dərəcəsi digərlərindən daha artıqdı.

Dağıstan xalqını islama gətirmək üçün birinci Əbu Müslim gəlib. Əvvəl gələndə Rutul rayonuna düşübdü, ordan başlıyıb islama dəvət eləməyə. O xalq hasand islama gəlibdi, müharibə etmədən islamı qəbul eliyibdi. Avar millətinə keçəndə avarlar qəbul etmək istəmiyib, çox çətinliknən qəbul eliyiblər. Onda Əbu Müslim deyib ki, tez götürən tez də islamdan qırağa çıxasıdı, amma çətin götürənlər elə burda da qalasıdı.

## 101. SAÇIYLA ÖYÜNƏN QIZ

Saçıyla öyünən, saçını müxtəlif formalarda yığan qız varmı? O öləndə onun saçını dartıb ayağının baş barmaqlarına bağlıyırlar. Ləzzətini indi gör deyirlər.

Deyir, bir bacı, bir qardaş olur. Qardaş həmisə bacısına pul verərdi ki, dar gün üçün saxlasın. Bacı da pulları paltarının cibində saxlıyardı. Heç kimin bundan xəbəri olmuyuf. Qardaşı da verdiyi pulları harda saxladığını soruşmayıb. Bacı dünyasını dəyişir, pullar da onunla gedir. Oğlana pul lazım olur. Öz-özünə deyir, bacım pulları cibinə qoyardı, özü ilə də apardı. Gedir mollaya:

– Ay molla, belə-belə iş olub, mən nağayrım?

Qızın da gözəl saçı olub, həmişə saçı ilə öyünərdi, başıaçıq gəzərdi. Molla diyir:

– Oğul, üç gün dayan. Üç gün sorğu-sual olacax, dördüncü gün get, qəbri açıb cibinnən pulu götür.

Üç gün gözləməyə oğlanın səbri çatmır. Gedib qəbrin üsdündən daşı götürür, görür bacısı oturub, saçını da ayaq barmaqlarına bağlıyıblar. Oğlan cibindən bıçağı çıxarıb saçı kəsir, bacısını qəbrə uzadır, cibindən pulu götürüb gəlir.

Evdə xörək yiyirdi, çöldən bir səs gəlir. Arvadı çıxır çölə, gəlib deyir:

– Məni deyil, səni çağırırlar.

Kimin çağırdığını görmür arvadı. Oğlan çölə çıxanda o gedən gedir. Bilmirlər hara getdi, kim apardı. Niyə? Çünki hesab-sualı ortadan kəsibdi. Hesab-sualı ortadan kəsmağ olmaz.

## 102. MƏNİ SAMOVAR ÇAYINA ÖYRƏTMƏ

Ataynan oğlu olur. Bunların bir qara çaydanları varmış, həmişə çayı onda qaynadıb içirlərmiş. Ata artıq qocalıb əldən düşübdü. Bir gün oğluna deyir ki, evə bir gəlin gətirək, bizə əl-ayaq tutsun. Nəysə, ata oğlunu evləndirir, evə bir gəlin gətirir. Gəlin qapıya gələn kimi başdıyır samovar qaynatmağa. Bir gün, iki gün, üç gün. Qara çaydana öyrəşən kişi görür neçə gündü evdə samovar çayı dəmlənir. Samovar çayı da adla tanınır axı. Üçüncü gün kişi dözə bilmir, gəlini çağırıb deyir ki, ay bala, sən bu çayı gəlin gəldiyin üçün süzürsən, yoxşa həmişə samovar çayı dəmləyəcəksən? Gəlin deyir ki, kəndin adəti belədi, onun üçün qaynadıram.

Kişi deyir:

– Get, ay bala, qara çaydanı qoy ocağın başına, məni samovar çayına örgətmə.

## 103. ATALAR SÖZLƏRİ, DEYİMLƏR

1. Alma ağacında armud bitməz.

2. Araba sınsa, odun, öküz ölsə, ət olar.

3. Atına baxıb dayça, anaya baxıb qızı alarlar.

4. Ayağa çıxan bit, başa da çıxar (yəni mədəniyyətsiz adama üz verəndə gəlib astar da istəyər).

5. Ayaqdan yıxılan durar, ağızdan yıxılan durmaz.

6. Başdakılara su, aşağıdakılara acıq verir.

7. Çoban itə, it də quyruğuna tapşırar.

8. Duz yeyən su içər.

9. Eşşəyə öz səsi xoş gələr.

10. Evi çox doldurmağ olar, qarnını normal doldur.

11. Əsirgədiyini verməsən, istədiyini ala bilmərsən.

12. Göz çıxannan sora əlnən onu qapatmağın xeyri nədi?

13. Kasıbın sacı axırdan-axıra qızar.

14. Kiçiklik etmiyənə böyüklük çatmaz.

15. Kömür yanır, dəmiri yandırır.

16. Qartalla uçan ələ qonar,
Qarğayla uçan zibilə qonar.

17. Qaynar dəmir də ayağ yandırır.

18. *Qız evinin adamları bal yeməyə gələndə oğlan evi onların qulluğundan durur, nə istəsələr yerinə yetirirlər. Bununla əlaqədar belə bir deyim işlədilir:*
Qız evi, xan evi.

19. Məsləhətnən kəsilən barmaq ağrımaz.

20. Oğruda bir günah, sahibində yüz günah.

21. Oturduğun yerin qədrini ayağa durmasan bilməssən.

22. Ölən vəsiyyət edər, diri bildiyini edər.

23. Simic adamdan nəsə uma bilərsən, qarınquludan heç nə uma bilməzsən (yəni simic əsirgəyib saxlayacaq, heç kəsə verməyəcək, ehtiyatı var da).

24. Verən əl bilər, yeyən qarın yox.

25. Vurmağa hünəri olmayan payanın yekəsini götürər.

## 104. TAPMACALAR

1. – Canlı çəpər, yaxına gedərsən səni çəkər,
– Üstünə baxsan, pişik peyini.
– Yeməyə nədi?
– Dadlı, ləzzətli qənd-şəkər.
(moruq, böyürtkən)

2. Gedən var, gələn yox,
Şəhər var, bazar yox.
(qəbiristanlıq)

3. Махьлану гьоро гIapa абай.
= *Həyətin ortasında kök arvad.*
(təndir)

4. Ох дун ворту гъччи гьодогу худри.
= *Oh, mən yıxıldım, papağım ağacda qaldı.*
(qoz)

5. Bağdan gəldim almayla,
Qapını açdım, içəri girdim,
Payladım altmış iki adama.
(salam)

5. Dörd lap,
Bir tap.
Əyri xiyar,
Xan baba.
(dərə)

6. Qənddən şirindi,
Zəhərdən acı.
Ay dayı, ay dayı,
Papağın ağacda qaldı.
(qoz)

7. İçi yanır qiyamət,
Yaş tökdüm, quru çıxdı.
Məhəmmədə salavat.
(təndir)

8. Ağacdan düşdü daş kimi,
İçi süddü aş kimi.
(qoz)

9. Qulağını buranda dilini çıxarar.
(ləmpə)

10. Dolu gedər, boş gələr.
(qaşıq)

11. Sarı-sarı sandıqlar,
İçi dolu fındıqlar.
(qabaq)

12. Yerə qoymağa oturacağı yox, ələ almağa tutacağı.
(yumurta)

13. Гъолхул горо рахси мальунли галади ца.
*= Gölün ortasında ilanın ağzında od.*
(zəncir)

14. Жиб цулали, раг хIанали.
*= Özü taxtadan, ürəyi ətdən.*
(beşik və uşaq)

15. Ayağı yoxdur, amma yeriyir.
(su)

16. Ağ anası, qara oğlu, qırmızı qızı.
(peç)

17. Hara getsə, evi belində gəzdirər.
(tısbağa)

## 105. HAYLALAR

1. Gülüm, aç pəncərəni,
Gözüm görsün gələni.
Qəbrə qoymaq olmaz,
Yar dərdindən öləni.

2. Kəkilə bax, kəkilə.
Kəkil gözə tökülə.
Qiyamət o gün qopar
Yar gözümdən çəkilə.

3. Yarını sən yaxırsan,
Çaylar kimi axırsan.
Niyə məni görəndə
Sən o yana baxırsan?

4. Gedirəm yolum Şirək[34],
Yollarda dəmir dirək.
Bir gün səni görməsəm,
Dözməyir çıxmış ürək.

5. Buxarı peçinə bax,
Gözümün yaşına bax.
Mən belə istəməzdim,
Sən Allahın işinə bax.

6. Su qırağı sərindi,
Girmə, içi dərindi.

[34] Alazan çayın yaxınlığında yer adı.

Məni Məcnun eyləyən
Qara gözlərindi.

7. Getmə, getmə, gəlirəm.
Sən getsən, mən qalıram.
Sən bulud ol, mən yağış,
Yağa-yağa gəlirəm.

8. Mahnı, mahnı eylərəm,
Üç mahnı borc eylərəm.
Dostların xatirinə
Canımı qurban eylərəm.

9. Damburun var beş bəndi[35],
Gəzərəm kəndi-kəndi.
Məni tapmaq istəsən,
Axtar Dardoqqaz kəndi.

10. Qaradı mənim qaşım,
Əllini keçib yaşım.
Yar yadıma düşəndə
Dambur olur sirdaşım.

11. Məclisi aşıraram,
Gülərəm, danışaram.
Yar yadıma düşəndə
Damburnan danışaram.

12. Damburun iki simi,
Qırar hər cür tilsimi.
Mənə öz yarım gərək
Neynirəm özgəsini.

13. Yandırırsan, yaxırsan,
Çaylar kimi axırsan.
Gözüm səni axtarır,
Sən yadlara baxırsan.

14. Su sonası göldədi,
Kəkilləri çöldədi,
Ən gözəl avar qızı,
Bizim Qabağçöldədi.

15. Biz burda Hayla deyək,
Limonu soyub yeyək.
Siz Bakıdan deyin, mən
Qabaxçöldən
Qoy ölsün paxıllarımız,
düşmənlərimiz.

16. Göyəmin meşəsi,
Ətirli bənövşəsi,
Sizə salam göndərir,
Şabanovlar ayiləsi.

17. Çit köynək yaxa-yaxa,
Qızıl qan axa-axa.

---

[35] 9-13-cü haylaları söyləyici tənbur üstə oxuyur.

Hacı Baxışı vurdular,
Camaat baxa-baxa[36].

18. Suda balıq yan gedər,
Açma yaram, qan gedər.
Doxtur, həkim neyləsin?
Acal gələr, can gedər[37].

19. Barıya qoydum daşı,
Töküldü gözümün yaşı.
Usdanı cuşa gətirib,
Filankəsin lobya aşı.

20. Çıxaram hündür dağa,
Baxaram, oğlum, sağa[38].
Baxıb gözü çatmasa,
Yazaram məktub sağa.

21. Məktub yazdım adına,
Sal Allahı yadına.
Niyə məktub yazmırsan?
Düşmürəmmi yadına?

22. Kağızın ağına bax,
Çevirib dalına bax.
Mən yadına düşəndə,
Qafqazın dağına bax.

23. Ay Havva, atlas Havva[39],
İynələr batmaz Havva.
Ayran-yağı görəndə,
Çobanı saymaz Havva.

24. Dağıstan dağ yeridi,
Gürcüstan bağ yeridi.
Anası ölmüş Balakən,
Qızdarın bol yeridi.

25. Bir yanı Balakən çay,
Bir yanı Alazan çay,
Allah verib səni pay,
Ay mənim Balakənim.

---

[36] Söyləyicinin dediyinə görə, Stalinin vaxtında müəyyən adamları camaatın gözü qabağında güllələyərlərmiş ki, digərlərinə görk olsun. Tülü kəndindən Hacı Baxış adlı kasıba əltutan bir şəxs olub. Onu Tabaksor (Tütün zavodu) deyilən ərazidə güllələyirlər. Bu ağını da Hacı Baxışın arvadı ərinin ölümü ilə əlaqədar söyləyib.

[37] Bu haylanı oğlan istədiyi qız başqasına ərə gedəndə deyərdi.

[38] sağa – sənə

[39] Söyləyicinin dediyinə görə, Havva adında bir qadın olur, onun bir sağınçısı, bir də çobanları olur. Sağınçıya çobanlara gündəlik nə qədər süd vermək lazım olduğunu tapşırır. Çobanlardan biri onun müəyyən etdiyi norma ilə razılaşmır, daha çox istəyir. Həvva da vermir. Onda həmin çoban ona bir şeir qoşubdu.

26. Bir yanında göy meşə,
İçi dolu bənööşə,
Fəxr edirəm həmişə,
Ay mənim Balakənim.

27. Pəncərənin qabağı,
Üsdü limon yarpağı,
Xəsdə adamın dərmanı,
Balakənin torpağı.

28. Samovar duran yerdə,
Puçunu buran yerdə,
Ət gedər, sümük qalar,
Qocalıq gələn yerdə.

29. Dambur çaldım sinəmdə,
Çox oturdum binədə,
Gənclikdə bir qız sevdim,
Qaldı saxlı sinəmdə.

30. Bir əldə beş barmaq,
Beşi də qızıl barmaq.
Hər kəsin işi döyül,
Damburu gözəl çalmax.

31. Mazım çayın qırağı,
Sərindi axşam çağı.
Qızlar, gəlinnər süzər
Dambur çalan qonağı.

32. Ağ sudan içməh olmaz,
Körpüdən keçməh olmaz.
Kökün bilən qızları
Qızıldan seçməh olmaz.

33. İstol üsdə fənərəm,
Əl dəyməsə, yanaram,
Sən ordan bir him eylə,
Mən usdayam, qanaram.

34. Ay qız, ay qız, ağlama,
Sarı kəmər bağlama,
Mən buralı deyiləm,
Mənə ümüd bağlama.

35. Ази бади бугу,
Цадь бад бугу.
Дунйал чIорон бугу,
Цадида бугу.

*Tərcüməsi:*
Qar yağır,
Buğda kimi narın yağır.
Nə qədər hava soyusa da,
Ürəyimdəki atəşdən mən yanıram.

36. ТIумпур кьадне кер бугу,
Каранда дир цар бугу,
Шахьрасов гьойал йассаде
Йо буба бер бугу.

*Tərcüməsi:*
Tənbur çalan əlim var,
Ürəyimdə yanğın var.
Küçədən keçən o qızda,
Ay ana, mənim gözüm var.

37. Габагьчоллу гудав вугу,
Берцинав гуйал вугу.
Дий вакIаров васусул,
Балконуду рог бугу,
Махьла цури хер бугу.

*Tərcüməsi:*
Qabaqçölün böyüyü var,
Gözəl yaraşığı var.
Mənim sevdiyim oğlanın
Balkonlu evi var,
Həyət dolusu otu var.

38. *Gəlin dağda qoyun otaran ərinə halya göndərib deyir:*
МагIарда гIи бугу
Ейахунусул чу бугу
Дур махI бохI будрей
Росло худрей дун йугу

*Tərcüməsi:*
Dağda qoyun var,
Qoyun otaran yoldaşım var.
Həsrətlə dalınca boylanan
Kənddə qalan mən varam.

39. Дир багIарал чодул,
Накби рекулби.
Накуйби чIазе
Мун йачун бицну.

*Tərcüməsi:*
Mənim qırmızı atım,
Çapmaqdan dizləri qırılıb.
Dizmi çöküm
Sən mənə gələsən deyə?

40. ТIумпур гаднагь рагь бохIна
Регену хабар бохIнай
Дий ваггарав йас буба
Чадай соготуну рагь бохIну.

*Tərcüməsi:*
Danbur çalar, ürək yanar,
Ürəkdə sözlərim yanar.
Mənim istədiyim oğlanın
Başqası aparsa, ürəyim yanar.

## 106. HAYLA ÜSTÜNDƏ OXUNAN ZİKRLƏR

La ilahə illallah,
Kim desə çala bilər,
Rəhməti ala bilər,
Cənnəti ala bilər,
La ilahə illallah.

Puçdu dünya sərvəti,
Ver mömінə cənnəti,
Dayim dilinə gətir,
La ilahə illallah.

Səsimizi qaldırax,
Səmalara çatdırax,
Yaradanı çağırax,
La ilahə illallah.

Yaradan razı qalar,
Həbibullah sevinər,
Oxuyanı şad edər,
La ilahə illallah.

Ol Muhammət ümməti,
Eyləyib ibadəti,
İsdə hakdan rəhməti,
La ilahə illallah.

Evimin ən əzizi,
Mominlərin xoş sözü,
Saxlayır oddan bizi,
La ilahə illallah.

Allah birdi deyənnər,
Peyğəmbəri sevənnər,
Gəlin birgə oxuyaq,
La ilahə illallah.

Ömrümüzü uzadax,
Nəfsimizi azaldax,
Cin-şeytanı azdırax,
La ilahə illallah.

Qaranlıq gecələrdə
Parıldayan ay kimi,
Qəlbimizdə parlayar
La ilahə illallah.

Salavat çevirəni
Cənnətə qovuşdurar
La ilahə illallah,
La ilahə illallah.
La ilahə illallah,
La ilahə illallah,
Muhəmməd Həbibullah.

## 107. BALAKƏNİM

Uzun yolu qısa oldu,
Yalan deyil, gerçək oldu.
Bizim gözəl Balakənə,
Ləman xanım qonağ oldu.

Bir yanı uca dağlar,
Bir yanı meyvə bağlar.
Gəlməsəm ürək ağlar,
Ay mənim Balakənim.

Xalab dağlara baxar,
Arasından çay axar.
Gözəlliyin nur saçar,
Ay mənim Balakənim.

Gözəldir təbiyəti,
Həm rayon, həm kəndləri.
İçməyə suyu sərin,
Ay mənim Balakənim.

## 108. YO ÇUXARAY

Йо чIухарай, чIухарай,
Би салареш дуда цар.
Йо чIухарай, чIухарай,
Абилареш цо царей.
Дай-дай лалай да лалай,
Вай да лалай да лалай,
Дай-дай лалай да лалай.

Йо берцинай, берцинай,
Бицу вареш дуда цар.
Йо чIухарай, чIухарай,
Абилареш цо царей.

Ay gözəl, ay gözəl,
Sənin adını qoydum.
Ay gözəl, ay gözəl,
Sənin adından bir dənədir.
Day-day lalay da lalay,
Vay da lalay da lalay,
Day-day lalay da lalay.

Ay gözəl, ay gözəl,
Sənin adını qoymuşuq.
Ay gözəl, ay gözəl,
Sənin adından bir dənədir.

| | |
|---|---|
| Дай-дай ла-лай да лалай, | Day-day lalay da lalay, |
| Вай да лалай да лалай, | Vay da lalay da lalay, |
| Далай-далай да лалай. | Day-day lalay da lalay. |
| | |
| Дур цар дир цар бицана, | Sənin adını, mənim adımı, |
| Цоги оли васта. | Bir dənə cavan oğlan deyir, |
| Дур цар раги гьуна оли васий, | Sənin adın cavan oğlanların ürəyindədir. |
| Вай да лалай да лалай, | Day-day lalay da lalay, |
| Дай-дай ла-лай да лалай, | Vay da lalay da lalay, |
| Вай да лалай да лалай, | Day-day lalay da lalay. |
| Далай-далай да лалай. | |

# TALIŞLARDAN TOPLANMIŞ FOLKLOR ÖRNƏKLƏRİ

## 109-111. XIDIR NƏBİ

Xızır Nəbi Böyük çilədən dörd gün götürür, Kiçik çilədən də üç gün, cəmi yeddi gündü. Bizdə "Xızırik kulok" deyillər, yəni Xızırın çovğunu. Deməli, Xızır gedir ova. Çovğuna düşür, üzü üstə yıxılıb qalır, qar da üsdünü örtür. Böyük çilənin bitməsinə dörd gün qalmış deyillər yerə gizdin isdilik, hərarət gəlir. Ona bizdə dızəraxan (oğru buğ) deyillər. Böyük çilənin qutarmasına dörd gün qalmış, axırıncı gecə saat on ikidə haman o gizdin hərarət yerə gəlir. O vaxtı kim çöldə olsa, Allah eləməsin, başına bir iş gəlsə, qəşş eləsə, ürəyi gedib qarın üstünə yıxılsa, o adam donmaz. O oğru buğ ona təsir eliyər, o ölümdən xilas ola bilər.

Xıdırın getdiyi üş gündü, ovdan hələ qayıtmayıb. Atası oturub hesablıyır ki, oğlum əgər oğru buğ yerə gələndən sonra torpağa düşübsə, o ölmüyəcəh. Yox, ona qədər torpağa düşübsə, ölüb. Sabah gedib onu axtarıllar. Qocalar söhbət eliyillər. Xızır Nəbinin əlində də – bizdərdə indi moddu, mən də əl ağacıynan gəzirəm, – əl ağacı olub. Axtarıblar, axtarıblar, uzaqdan görüblər ki, əl ağacının bir parçası çıxıb bayıra. Atası deyir, hə, bu mənim oğlumun əl ağacıdı. Gəlib görüllər ki, Xızır üzü üsdə yıxılıb yerə, qar da üsdünü örtüb, amma ölmüyüb, ürəyi döyünür. Gətirillər, onnan sora o ayılır. Xızırın salamat qalması, o gizdin isdiliyin, hərarətin nəticəsində olur.

Xıdır girəndə balqabağın dənələrini, şüyüd, noxud, lərgə, paxla, buğda, arpa – qovurulan şeyləri qovurullar. Qovurandan sonra onu əl dəyirmanında çəkib un eliyillər. Un eliyənnən sonra onu ələkdən keçirillər. Gecə camaat yığışır bir evə. Hər kəsin

qabağına da balaca camlar qoyullar, maskur deyillər. Böyük bir qaşıq qoyullar o kasanın üstünə. İki qaşıq, üç qaşıq, hər kəs öz istədiyi qədər tökür öz camına. Sonra da şərbət hazırrıyıllar. Şərbətləri də gətirillər, stəkanlarda düzüllər. Bu şərbətdən də götürüb bu qoudun üsdünə, məsələn, bir qaşıq, iki qaşıq, əlavə eliyirsən, qarışdırırsan, o bir az nəmlənir. Onu söhbət eliyə-eliyə yeyillər. Bəzən zarafata deyillər ki, ağzını doldur qovutnan. Doldurandan sonra deyillər deynən havuş[40]. Havuş deyəndə, qovut püskürür. Qovutu Xıdır Nəbi girənə qədər bişirillər, Xıdır Nəbi dövründə onu istifadə eliyillər. Qovut xarab olan şey deyil, bayrama qədər qalırdı. Hətta bayram süfrəsinə də gətirirdilər.

Kiçik çilənin beşinci gecəsi o hərarət daha aşkar gəlir. Görürsən ki, gün çıxan kimi bu güney tərəflərdə torpaxdan buğ çıxır. Bizdərdə otdar olur, xırda çiçəhlər açır. Yavaş-yavaş olar başdıyır çiçəh açmağa. Oğru buğ yerə gələndə qış yarı olur. Oğru buğ gələnnən sora yerə həyəcan gəlir, bitkilər, ağaclar yavaş-yavaş tumurcuğ götürüllər. Oğru buğdan sonra bizim camaat kartof əkir. Onun üsdə qar da yağsa, o çürümür. O vaxtı əkilən kartof yaxşı məhsul verir. Ondan sonra əkilən onun yarısı qədər verir. O vaxtı torpaq daha məhsuldardı, oyanış dövrüdü, daha çox qidalandırır.

Ondan sonra Boş qış gəlir. Boş qış da fevralın iyirmisindən başlıyır ta Novruz gününə qədər davam eliyir. Boş qış dövrü artıq tarlada işlərin başlanğıc dövrüdü. Təsadüf hallarda olur ki, Boş qış dövrü çöllər qarla örtülü olur, iş getməsin. Bizdə çay plantasiyaları varıydı, Boş qış dövründə çay budama olurdu. Budama qurtardı, sonra onun dibini yumşaldırdılar ki, yaxşı su tutsun, yaxşı cücərsin.

---

[40] havuş – dovşan

## 110.

Xıdır iki çilə arasında girir və yeddi gün çəkir. Xıdır Böyük çilədən dörd gün, Kiçik çilədən üç gün götürür. Deməli, Böyük çilənin qurtarmasına dörd gün qalmış Xıdır girir, Kiçik çilənin üçündə də qurtarır. Xıdırda deyillər yer istiləşir, yerə hərarət gəlir, otlar hərəkətə gəlir. Ona görə Xıdır girəndən sonra nə qədər qar yağsa da, o qar qalmır, əriyib gedir. Amma o vaxta qədər yağan qar ərimir, çünki torpaqda istilik olmur.

Xıdır Nəbidə buğdanı qovurardılar, noxud, qorğa, borani dənəsi – bunları yığardılar bir yerə, əl dəyirmanında onları üyüdərdilər, sonra onu doşabnan qarışdırardılar. "Pışt" deyirlər ona, halva kimi olurdu. Xıdır vaxtı onu yeyərdilər, qonum-qonşuya, imkanı olmayan adama pay verərdilər. Xıdır Böyük çilənin axırına düşür. Xıdır girəndə deyərdilər ki, dızarğan gəlir. Üç gün çəkir o. Onda deyirlər Xıdır Nəbi gəldi. Onda camaat bilirdi ki, torpaqda istilik var, kartof əkərdi.

## 111.

Xızır Nəbi yanvarın axırı, fevralın əvvəlinə düşür. Allah ölənnərinizə rəhmət eləsin, mənim nənəm qoorğa, qovut hazırlayardı. Deyərdi ki, bu Xızır bayramıdı. Bəzən doşab alardıq, ondan da tökürdilər üsdünə. Doşab olmayanda pesox töküb yeyərdik. Həmin dövrdə qar yağır. Belə danışıllar bizə ki, Xıdır cavan oğlan olur, segilisinin görüşünə gedir. Qız da olur dağda. Qızın görüşünə gedir, görüşür, evə qayıtmaq isdiyir. Buna deyillər, getmə, hava pisdi. Bu da deyir, nolacax. Bu gəlir, yolda qar bunu tutur. Dağdan gələn tez yorulur. Bu gəlir, hardasa bir yamacda yorulub əyləşir, bunu yuxu aparır. Qar yağır bunun üsdünə. Ata görür oğlu yoxdu. Bunu axtarıllar. Xülasə,

gedillər, görüllər ki, qarğalar bir yerin üsdündə uçur. Görüllər ki, həmin oğlandı, ölmüyüb. Deyillər, necə oldu donmadı? – Təqribən düşür fevralın əvvəlinə. – Bu deyir ki, gecənin bir aləmində gördüm ki, məni isdi buğ vurdi. – Torpağa oğru buğ gəlir ha, onu nəzərdə tutur. – O buğ ki məni vurdi, məni donmağa qoymadı. Sonra da siz gəlib çatdınız.

Qışın ortasında birinci çilə ilə ikinci çilə arasında – qırx günə çilə deyillər. Sonrakı iyirmi gün yarım çilədi, amma ona da ikinci çilə deyillər. Bizdə yola çıla, qara çıla deyillər.

Xıdırda boranı dənəsi qovurardılar, onu dəsturda çəkərdilər, un kimi eliyərdilər, ona kışt deyirdilər. Xıdır gələndə hökmən onu eliyərdilər. Biz onu ağzımıza atırdıq, atanda böyüklər deyirdilər "pıyar pin" de. P deyəndə hamısı çıxardı çölə. Maskur[41] deyərdik, onnan bir yeddi qapıya paylıyardıx. Şəlim adında bir bitki var, turpa oxşayır, ağdı. Onnan şalğam hazırrıyırdılar həmin dövrdə, onu da qonşulara paylıyırdılar.

## 112. SOYUQ GÜNLƏR

Dekabrın iyirmi biri Böyük çilə daxil olur. Bizdərdə vaxdilə qarpız az olub, amma borani olardı. Həmən gecə borani, pəxlə, noxud qaynadardılar, yığışardılar bir evə, nağıl söylüyərdilər. Böyük çilə qırx gündü, Kiçik çilə iyirmi gündü, otuz gün də boz aydı. Bizdə boz aya "sardə əvəsor" – soyuq yaz deyillər. Soyuq yazda bir neçə soyuq günlərin adları var. Birinci deyərdilər "çılkında", yəni bayramdan sonra qırx kötük yandırarsan. Ondan sonra "bobili" deyərdilər. Bizdərdə çəltih əkərdilər, o çəltiyin ştili cüyərəndə deyərdilər "bobili" soyuxluğudu. İkinci

[41] maskur – balaca kasa

"davodink". Babam deyərdi ki, "yek ki balo davodink, nəvinəv zamoson". Yəni bir gün davodink soyuğunun hökmi doxsan doqquz gün qışın hökmünə bərabərdi. Üçüncü "erməni soyuxluğu"du. Erməni soyuxluğu oların hansının da arasında olardi, çox sərt keçərdi. Qocələr erməni xaçına söyərdi ki, bu soyuxluğ oların soyuxluğudu. Birinci çılkındadı, qırx dənə kötük yandırırsan. Ondan sonra erməni soyuxluğudu, o neçə gündi deyə bilmərəm. Ondan sonra gəlir davodink, o bir gün çəkir. Ondan sonra gəlir bobili. Bir soyuq da yaz təhvil olanda olur. Bizdə buğdəni əvvəllər əlnən biçiblər axı. Qocalər deyərdilər ki, buğdəni biçən dövrdə o soyuq gələrdi.

## 113. ÇİLƏ QARPIZI

Əvəllər dekabrın iyirmi birində, fəsillər dəyişəndə bizim böyüklərimiz həmin gecə hökmən ortalığa bir qarpız çırpardı. Mənim yadıma gəlir, onda biz uşaq idik, oturmuşdux. Bir də gördüm anam girdi otağa, bir qarpız çırpdı ortalığa. O qarpız paralanıb səpələndi. Dedi, bu axşam çilə axşamıdı. Həmin gün üçün hökmən qarpız saxlanardı. Elə vaxt olub ortalığa podnus qoyular, qarpız podnusa çırpılardı, hər kəs yığılıb onu yeyərdi. Çilə qarpızından qohuma, qonşuya pay verilərdi. Evdə qarpız olmuyanda boranı götürərdi çırpardı evin ortasına, parçalanardı.

## 114-115. KÜLƏK NÖVLƏRİ

Bizdərdə dörd cür külək var: Gərmiç, Siyəvo, Teləvo, Giləvar. Gərmiç küləyi Böyük çiləynən Kiçik çilənin arasında əsir, özü də ay bütöv olan gecələrdə gəlir. İsti külək olduğu üçün ona həm də səhra küləyi deyillər. O ki gəldi, birbaşa qar

gələrdi, yağış da yox. Cənub-qərbdən, şimal-qərbdən gələrdi. O qədər güclü əsərdi ki, evi dağıdardı. Mən öz gözümnən görmüşəm, Hidayətin evin dağıdıb, bizim evimizi dağıdıb.

Teləvo şərqdən əsir, bayramdan sonra gəlir, amma adamın bədəninə işdiyir. Bizim babalarda həsir olardi. Həmin külək əsəndə düşərdik həyətə, həsiri tutardıx ki, o külək bizə dəyməsin. O da bayramdan sonra gələrdi.

Giləvar Kiçik çilə daxil olandan sonra başdıyır. Giləvar sərin küləkdi, amma qara dəyəndə qarı əridir. İnsana, əkinə xeyir verən küləkdi. Ona görə atalar deyərdi ki, giləvar kimə dəysə, o sağlam olar. Bəziləri deyədi ki, giləvar behiştdən gəlir, o hər şeyə xeyirdi.

Qara külək – Siyovo əkinə dəyəndə əkini zay eliyir. O, həmişə şimal tərəfdən gəlir. Özü də mülayim küləkdi. Buğda gilə bağlıyanda gələrdi, özü də ara-ara gələrdi. Məsələn, bizim kəndi tütərdisə, Hişkədərəni tütməzdi. Kübini tütərdisə, Nəzərobani tütməzdi. Buğdaya dəyərdisə, buğda yaxşı yetişməzdi, arığ olardı. Deyərdilər, buğdəyə siyovo dəyib.

**115.**

Bizim kəndimizin adı Qızluvu olub, yəni qızıl külək. Küləknən əlaqədar zonamızda dörd kənd var. Bizdə Qızluvu, Yardımlıda Teləvo, Lənkəranda Şiləvo, bir də var Siyavo. Sonradan adları dəyişib, eliyiblər Şiləvar, Siyəvar, Teləvar, bizim kəndin də adın eliyiblər Qızılavar. Bizim kəndin adının kökü olub qızıl külək. Burda bizim bir yerimiz var, o yer bondarva adlanır, yəni dağ yolu. Vaxtilə dağa yol burdan başdanırdı. Ora çıxanda yayın isdisində belə orda külək əsir. Qızıl küləyi yayda əsir. Onun əlaməti odur ki, o gələndə bitkilər dirçəlir. Həmin külək əsəndə adamlar da dirçəlir, bitkilər də dirçəlir. O şərq

tərəfdən gəlir, şərq küləyidi. Siyavo, yəni qara külək şimaldan əsir, əsasən yayda gəlir. Qara külək gələndə bitkilərin hamısı başdıyır solmağa, məhsuldarrıx aşağı düşür. Bizdə camaat noxud əkir. Qara külək əsənnən sonra mütləq sahəyə gərək su verəsən ki, bitkilər dirçəlsin. Çünki o külək hamısını soluşdurur. Şiləvar əyri küləkdi. Dağlar onun qabağını tutur, əyri gəlir. O külək gələndə birbaşa kəndə gəlmir, yandan əyilib keçir. Ona görə ona şiləvo deyirdilər. Teləvo isə acı külək deməkdi. O əsəndə acılığ gətirir, camaatda xəsdəlik yaranır. Ona görə ona teləvo deyiblər.

## 116-118. NOVRUZ ADƏTLƏRİ

Bizdə bircə Axır çərşənbə keçirilərdi, ona Kül çərşənbə, Küləşə çərşənbə deyərdilər. Haman gün evdən heş nə verməz-dər. Məsələn, qonşi gəldi, filan şey istədi, verməzdilər. Ona görə ki, zərər çəkərsən, xeyrün gəlməz. Tərs çərşənbədi, özü də ilin axırıncı çərşənbəsidi. Axırıncı çərşənbədə yandırılan ocağın külini səhər gətirib ağaşdarın dibinə tökərdilər ki, daha çox məhsul versin. Dəmirov olanda həmin küldən onun üsdünə tökərdilər, kül onun suyunu çəkib qurudardi. Quruyandan sonra südün qaymağını sürtərdilər, qaymağ yaranın üsdün yumuşağ eliyib təmizdiyərdi. Dəmirov oynan da gedərdi.

Kül çərşənbə günü səhər tezdən evin arvadı durur, saxsı bardağ olardı, onu doldurərdi axar süynən, gətirib evə uşax-lara səpərdilər. O, deməli, mehribançılıx gətirir.

Kül çərşənbəsində həyət-bacada işdiyərdilər. Kalxoz dövründə həmən güni kalxozçular işə gedərdilər. Bayram güni getməzdilər, hamma Axır çərşənbə güni kalxoz işinə gedər-dilər. Qocaların dediyinə görə, axırınci çərşənbə gecəsi insanın

ruzisi Allah tərəfindən paylanır. Sən də gedib işdəsən, Allah sənə ruzi verəcək. Haman gecə deyərdilər ki, yumurta da bişirmək olmaz. Bişirsən, Allahtala sənə yumurta qabığı həcmində ruzi verəcək. Toyux-cücə də kəsməzdilər ki, evin xeyir-bərəkəti uçəcək. Alınma ətdən istifadə edilərdi. Çərşənbə günü həyətdə ağac budiyəsən, əkinin varsa, əkin əkəsən, alağın vurasan, ağacın divin boşdiyəsən, Allah sənə ruzi payı verəcəh. Amma haman gün meşiyə gedib yaşıl bir şey kəsməy olmaz. Hətta adam olub haman güni gedib meşiyə, ayağın kəsib, qayıdıb gəlib. Ona deyiblər ki, sənə demədik, meşiyə getməy olmaz?

Sin hərfi ilə başdıyan yeddi yeməli şey süfrədə olardı: sarımsaq, səbzi, su, balıx. Balığın üsdündə pulcuxlara sim deyilir, ona görə süfrəyə mütləq balıx da qoyulardı.

Novruz bayramında qapı gəzilərdi. Hər kəs qabaqcadan hazırlığın görərdi, axşam çağı uşaqlar kışti[42] atardılar, yumurta, fındıq, qoz yığardılar. Bayram əvvəla sireyi-ərham adlanır. Anaya, bacıya, bibiyə, xalaya, qız evladına gərək gedib dəyəsən. Özü də gedəndə özünlə gərək bir şey aparasan. Ondan sonra qohumlara, qonşulara gedib onların bayramın təbrik edəsən. Bayram günü ölülər də yad edilirdi. Nənəm deyərdi ki, keçmişdə çörəynən halva bişirərdilər, gedərdilər qəbir üsdünə. Sürfəni sərərdilər qəbirin üsdünə, çörəyi doğriyib, halvanı də qoyardilər, yiyərdilər, dua da verərdilər, surfanı yığışdırərdilər. Qəbir üsdünə gedəndə uşaqlara kanfet, şakalad paylıyardılar. Qəbir üstündə süfrə açmaq sonralar ləğv olundu. Yeməyin artığı qəbrin üsdünə, ətrafına tökülürdü, itdər gəlib oların üsdündə boğuşardı, ona görə sonralar o adət yığışdırıldı.

[42] kıştı – qurşaq

## 117.

Fevral ayının beşi qış ortalanır. Ona "Kürdü oğlunun gecəsi" deyillər. Hökmən taxılı və yaxud da taxıldan hazırlanmış bir şeyi qaba qoyub qoyullar damda ki, bərəkətdi olsun. Kürdü oğlu həmin gecə gələcək, əlin qoyacaq onun üsdünə, gələcəkdə taxıl bolluğu olsun. Talışca "Kırdi zua şəv"[43] deyilir bu gecəyə.

Böyük çilə təqvimnən iyirmi bir dekabrdı. Həmin gecə qarpız kəsirlər, boranidən-zadan müəyyən yeməklər hazırrıyıllar.

Kiçik çilə iyirmi gün çəkir. Kiçik çilədən sora "çiləvəkə" deyillər. Çiləvəkə çilə çəpişi, yəni onun quyruğu. Sora çərşənbələri daha gözəl tuturlar. Ən təmtəraqlısı axırıncıda olur. Səhər-səhər durub suyun üstünnən tullanıb deyillər ki, mənim bütün dərdimi, xəstəliklərimi apar. Axır çərşənbədə mal-qaraya baş çəkirsən, mal-qaranın hərəsinə bir çubuq vurub deyirsən: "Ey, bərəkətdi ol ha". Baltaynan ağaca bir balaca vırıb deyirsən: "Bərəkətdi ol, bərəkət ver". Mən bunu görmüşəm, icra da eləmişəm. Çərşənbəyə iyirmi gün qalmış nurşid deyənnər gəlir. Öz kəndimizdən olur, qonşu kəntdən olur, geyinillər-gecinillər tanımasınlar onları. Axır çərşənbəyə iyirmi gün, bir ay qalmış gəlillər. Evbəev gəzillər, mahnı oxuyullar, bayatı diyillər, rəqs eliyillər, pay istiyillər. Onlara pul verillər, vaxdilə buğda, yumurta, qoz verən olurdu.

Bəzən elə olub ki, qəşəh sovqat hazırrıyıb aparıb atıblar qonşunun evinə. İndi eləmirlər, amma mən bunu böyüklərdən görmüşəm. O, həmin sovqatı açırdı, götürüb onu boşaldır, təzdən bir az da ondan artıq doldurub sənə qaytarır. Papaq atan adam gizdənir ki, tanımasın. Bəzən görürsən cavan uğlanlar qız kimi geyinib gəliblər, qızlar uğlan paltarında. Bəzən görürsən üş dənə, beş dənə dəsmal atıldı. Biz qabağcadan onların payın hazırrıyırıq.

---

[43] Kürdü oğlunun gecəsi

## 118.

Novruz bayramından sonra gələn dörd günə Dörd fəsil deyillər. Onun birinci günü bahar hesab olunur, həmin gün hava necə keçəcəksə, bahar da o cür keçəcək. İkinci gün yay, üçüncü gün payız, dördüncü gün qış hesab olunur. Ona Cahar fəsil deyillər. Qara yaz qutarandan sonra çırkında, yəni qırx kötük gəlir. Hər gecə bir kötük yandırardılar ki, ev isdi olsun.

## 119-120. TOY ADƏTLƏRİ

Əvvəllər təsadüf oğlannar qızı görərdi. Ata, ana razılaşardı, qızı görərdilər. Hətta bizim kənddə elə olub ki, qız evə girəndə bilib ki, bunun adaxlısı kimdi. Mən eşitmişəm ki, kimin evində qızı olardı, həyətdə bir dənə daş qoyardı. Oğlan adamı gəlib həmin daşın üsdündə oturardi. Evdə bilərdilər ki, bu elçidi. Daş həyətə girəndə girişdə qoyulardı. Üsdündə oturan olanda ata-ana bilərdi ki, bizə elçi gəlib. O daşa elçi daşı deyərdilər. Onda ata-ana gələn qonağa söz verərdi ki, mən bacımdan, qardaşımdan soruşaram, razılıq olsa, sənə sifariş göndərərəm, mənim qapımı açarsan. Sifariş göndərməsəm, qapımı açma. Məsləhətləşərdi, onlar da deyərdi qohum olmaq məsləhətdi. Ondan sonra sifariş göndərərdilər, elçilər gələrdi. “Hə”sin alanda nişan üziyin də taxardılar.

Elçiliyə gedilib razılıq ki alındı, iki qohum oturub razılaşardı ki, ağsakqal plovunu haçan yeyək. Bir həftə, on gün sonra ağsakqal plov olardı. Oğlan evindən beş nəfər, on nəfər gələrdi. Adamına baxırdı. Adam var elli-obalıdı, adamı çox olurdu. Oğlan evindən beş-on nəfər, qız evindən beş-on nəfər yığılardı,

həmin gecə üçün plov bişirilərdi. Ona deyərdilər ağsakqal plovu. Qızın imkanı varsa, deyirdi heç nə gətirmə. İmkanı yoxdursa, oğlan tərəfi on nəfər gətirəcəksə, on nəfərin tədarükün gətirərdi. Yemək yeyərdilər, bir-birinə xeyir-dua verərdilər. Baxmayaraq nişan üzüyi salınıb, hələ əl tutdi olmuyub. Ağsakqal plovu yeyən gejəsi əl tutdi olardi. Əl tutdi necə olub? Əsasən qızın dayısi, oğlanın əmisi – əl tutdini bunlar tutardı. Oğlanın atası ya qardaşına, ya qaynınamı beş manat, on manat, əlli manat verirdi. Həmin gecə ağsakqallar ki əl tutdi, əl tutanda gərək ələ pul dəyərdi. Həmin gün də əl tutdi olardı. Yeyərdilər, içərdilər, axşam da əl tutulardı, onnan da qohumluğun bünövrəsi qoyulardı. Ağsakqal pulunun konkret məbləği yox idi, hər kəs öz imkanına görə verərdi.

Birinci gecə ki ağsakqallar yığıldı ha, həmin gecə molla kəbini qutarardı. Adam var idi, ağsakqal plovuna gedəndə özüynən molla aparırdı. Həmin gecə razılıqdan sonra, məsələn, ata deyərdi qardaşına, səni vəkil tuturam, qızın da atası ya öz qardaşın, ya qaynını göndərirdi qızın vəkili kimi. Oğlan tərəfin, qız tərəfin vəkillərinin razılığı olandan sonra molla da kəbini kəsirdi. Mollanın haqqın da oğlan evi ödüyürdü.

Gəlini aparanda gələrdilər, adam var idi iki min, üç min, dörd min başlıq parasi verərdi. Mən iki il bundan öncə oğlumu evləndirdim. Oğlim Bakidə olduğu üçün qız adamı gətirdi mebelin pulun verdi ki, mən mebel almirəm. Onun üçün ayırdığım pulu verirəm, isdiyirsən ye, isdiyirsən gəlin üçün mebel al. Mən də həmin pulu gəlinin özünə verdim ki, könülləri nə isdiyir alsın. Başlıq parasın oğlan adamı verərdi qıza. O da baxırdı adamına. Böyüklərdə söz var, insan gərək yorğanına görə ayağını uzatsın.

Elçilikdən bir ay sonra toy olardı. Oğlan evi deyərdi, toyunu elə, nə lazımdı, sənin xərcini verərəm. Xərc də üş yüz-dörd yüz manat pul, bir qoyun, iyirmi kilo ət, bir tay un, bir tay kəllə qənd, kanfet-filan – hər şey alardı oğlan evi, qız evinə verərdilər. Məsələn, 11-ə qədər toyunu elə, 12-də mən gəlib gəlinimi aparıram. Gəlin gələndə də anaya süd puli verərdilər. Qızın qardaşı cilavdar gedir. Vaxdilə gəlin atının başını çəkərdi, indi gəlin maşınında lap qabaxda o oturur. Gəlinin ya qardaşı olur, ya əmisi oğlu olur. Gəlini o gətirir. Gəlini qaynatasına, qaynanasına təhvil verəndə olar də gərək ona pul verələr.

Əvvəllər üç gün, dörd gün toy çəkərdi, adam vardı həftələrnən toy edirdi. İndi bir gecə çəkir.

Cigər axşamı toydan bir gecə qabax olur. Cigər axşamında yengə aparardilər. Deməк, oğlan adamı bir dənə yengə göndərərdi qız evinə. Yengə qız üçün həna aparardı, müəyyən şeylər aparardı. O adət indi itib. İndi cöngə kəsdi axşamıdı, yengə aparmaq söhbəti yoxdu. Qırx-əlli il bunnan qabax həmin gecə yığışardılar, bu gün yengə aparırıx. Aşıxnan, çalğıynan aparıb yengəni qoyardılar qız evinə, gələrdilər. Səhər gedərdilər yengə qarışıx gəlini götürüb gələrdilər. Yengə, əsasən, oğlanın bacısı, qardaşı arvadı, bibisi, xalası olardı. Yengə qız evinə xına aparardı, gəlinlik paltarın aparardı, sabah toy olacaq, qızın əlinə pul verməк, qızı Quran altdan çıxartmaq – hamısı o yengəlik idi. Yengə gedən gecə qız evində xınayaxdı olardi, səhərisi də gəlini gətirərdilər. Qışnan, yaynan əlaqədar olaraq saat beşə mən toy dimişəmsə, saat dördə gəlin evdə olmalıdı. Çünki beşdə mən qonax qəbul etməliyəm. Dördə qədər gəlini gətirməliyəm evə. Bir saat, saat yarım gəlini tez gətirərdi. Gəlini kəl arabasıynan, at arabasıynan gətirərdilər.

Arabanın qabağı kəsmək indi də var. İndi yolun ortasına stol qoyullar, üsdünə bir az su, bir də duz-çörək. O vaxd isə qatmanın bir ucun ağaca bağlıyıb gəlin arabasın qabağın kəsərdilər. Beş manat, on manat verməyincə o qatmanı açmırdı.

Gəlini Quran altdan çıxarardılar, qaynı onun belini bağlıyardı.

Anam-bacım qız gəlin,
Əl-ayağı düz gəlin.
Səndən yeddi oğul isdərəm,
Bircə də xanım qız gəlin,

– gəlinin qaynı bunu oxuya-oxuya qızın belini bağlıyardı. Papağı da üç dəfə qoyardı qızın başına, sonra götürüb öz başına qoyardı. Öz papağı yoxdursa, bir kişinin papağın götürüb üç dəfə qızın başına qoyur, sonra öz başına. Gəlinin belini bağlayanda üç dəfə qatma eliyib buraxır, üçüncüdə isə bağlayır. Gəlini aparacaq araba da oğlan evindən gəlir.

Gəlini oğlan evinə gətirəndə həyətdə çalğı çalınır. Gəlinə şərbət içirdirlər, anası bir dənə xonça tutardı, xonçada olardi dügi, kanfet, qəpiklər. Belə bir podnus düzəldərdi, yengəmi, ya qeyrisi onu götürüb səpərdi gəlinin başına.

Həmin müddət bəy həyətdə görünməzdi, öz tay-tuşdariynən hamama gedərdi. Bizim kəntdə yaxşı hamam var idi, ondan başqa Boradigaha, Qızılavara, kimin imkanı vardı, maşını vardı Lənkərana hamama gedərdi. Əsasən biz bəy hamamına Boradigaha getmişik. Bəy hamamdan gələndə bacısı, bibisi çıxardı, əl nağarasıynan çalıb oxuyardı. "Hamamdan gəlir bala, qardaş oğli" mahnısını oxuya-oxuya bəyi qarşılayardı. Bəy hamama dəsdəynən gedirdi. On nəfər, iyirmi nəfər, adam var otuz nəfərnən gedərdi. Hamam pulu da bəyin boynuna idi.

Gəlin gəldi həyətə girdi, onu evə çıxardanda bir nimçəyə bal tökərdilər, bir dənə də çörək. Onun ən yaxın adami – qaynanası da ola bilərdi, baldızı da ola bilərdi. Çağırardı yeddi dənə uşaq, çörəyi gəlinin başı üsdündə bölərdi, batırardı bala, verərdi həmin yeddi oğlana. Evə girəndə bir dənə nimçəni gərək gəlin sındırardı. Evə girəndən sonra birinci qaynatanı çağırardılar ki, gəl, gəlinini oturt. Ta ki qaynata, qaynana gəlib ona icazə verməsəydi, gəlin oturmazdı, saatlarnan qalıb gözləməli idi. Qaynata gəlib "xoş gəldin" deyirdi, ya bir dənə ev, ya bir maşın boyun olurdu, ondan sonra gəlin otururdu.

Bəy hamamdan gələndən sonra qızın evinə gedən yengə şərbət tutardi, üç dənə qab qoyardı. Birinci şərbəti bəyoğlana verərdi, sora sağdışa, soldışa verərdi, qalanın da kim isdiyərdi, ona verərdi. Bəy də onun xələtin verərdi. Hamama gedən adamlar hamamdan qayıdannan sonra bəyin başına yığışardılar, ona bəybaşı deyillər. Bəybaşı oddelni yer idi. Bəyin taytuşdarı yığılırdı ora, onun yeməyi-içəyi oddelni idi. Ona deyirdilər bəybaşı. Bəybaşı üçün qız evində şirniyyatlar – bişi hazırlanırdı. Bişən bişidən həm gəlin üçün pay qoyardılar ki, üç gün qaynata, qaynana qarşısına çıxa bilməzsən, evdə arada yeyərsən. Anası ona bir dənə cücə də bişirib verərdi ki, ərinnən oturub yeyərsən. Bəybaşı üçün xüsusi şirniyyat hazırlayardılar. Həmin şirniyyat bəybaşına gətirilərdi, olar da onu yeyəndə şirniyyatı gətirən yengəyə xələt verərdilər. Həmin pul da yengəyə çatırdı. Əvvəllər qızın yengəsini oğlanın adamları yola salardı, oğlanın yengəsini isə qızın adamları. İndi qız evi qızın yengəsini yola salır, oğlan evi də oğlanın yengəsini. Bəybaşı üçün bişirilən şirniyyat gəlini gətirəndə gətirilərdi.

Bəyoğlan üçün bilirsən xüsusi nə gətirilərdi? Onda ki oğlan adamı qız adamına pul vermir? Qız adamı neynirdi? Bir dəst konstuyum, bir cüt ayakqabı, bir cüt corab, bir dənə neylon köynək alardı, yığardı çamadana. Həmin çamadanı da qızın yengəsi gətirərdi. Bəyə verəndə onun da xələti olardı. Bəyoğlan gedərdi hamama, paltarın dəyişərdi, qaynatasının aldığı paltarı geyərdi.

Üçgünnükdə bəzi gəlinnər yaşmaq bağlayardı. İndi də mənim yoldaşım yetmiş yaşındadı, bibim oğlunun yanında yaşmaq tutur.

## 120.

Çox zaman oğlanın anası qızı bəyənirdi. Oğluna deyirdi ki, filankəsin qızı. Oğlan razılıq verirdisə, birinci qadınlar gedirdi. Qadınlar qız evinin ağzını arıyırdı, görəsən verəcəklər, verməyəcəklər. Kişi getsin, əliboş qayıtsın, bu biyarbırçılıq idi. Razılıq olandan sonra kişilər gedirdi. Ağsakqal, onun qardaşı gedirdi. Sizin qızınızı oğlumuza almağ isdiyirik. Qız tərəfin razılığı olurdusa, şirinçay verirdilər.

Sonra ikinci mərasim başlayırdı. Buna "ağsaqqal plov" (sprişə plo) deyirdilər. Oğlan tərəfindən beş nəfər, altı nəfər filan günü axşam gəlirdilər. Nə bişiriləcəksə, çox qismin oğlan tərəfi gətirirdi, qız tərəfi də müəyyən hissə qoyurdu, həmin gecə ağsakqal plov verilirdi, mübarəkbaddıq edilirdi. Lap keşmişdə pul verirdilər. Mən qızımı verəndə qohumum mənim əlimə iyirmi beş manat pul vermişdi. Keçmişdə isə – indi o ləğv olunub, – kəsmət eliyiblər. Yəni nə qədər pul verəcəksən. Bizim dövrümüzdə min manat, iki min manat kömək adıynan veriblər. Bəziləri bundan sonra böyük şirni eliyirdi. Onda camaatdan əlli-

atmış nəfər yığırdı, böyük məclis açırdı. Bəziləri isə bunu eləmirdi. Böyük nişanda oğlan tərəfi xonça gətirirdi, qızın bəzi paltarların gətirirdi. Gətirib orda nümayiş də etdirirdilər. Bir də o vaxdı paltarkəsdi olurdu. Ona talışca olətə bırın deyiblər. Paltarkəsdi də böyük nişan kimi bir şey idi, Camaat xonça gətirirdi, parça gətirirdi. Paltarkəsdidə camaat pul da atırdı. Məsələn, gətirib mənim qabağıma nəlbəkini qoyurdu, nəlbəkinin içində kanfet, meyvə, noğul, ya meyvə olurdu. Mən onu götürürdüm, əvəzinə üç manat pul qoyurdum. O da götürüb aparırdı. Ağsaqqal xonçanın yanında əyləşibdi. Deyirdi ki, Xanəli üç manat. O da deyirdi ki, evi abadan. Daha orda siyahı yox idi, kim nə verdi, bilinmirdi. Siyahı 60-cı ildən sonra çıxıb.

Paltarkəsdidən sonra böyük toya hazırlıq gedirdi. Toy həyətdə keçirilərdi. O vaxdı həsir üsdə əyləşərdilər.

Qırx yeddinci ildə mənim əmimin toyu olub. Toydan əvvəl bizim kənddə zurna-balaban çalan kişi olub. Onun da bir dostu var, dəf çalırdı. Toya hazırrığ olanda hər gecə cavannar yığışırdı bizim həyətə, ləm[44] olan yerə. Stul düzəldərdilər, olar çalırdı, kəndin cavanları oynuyurdu. On gün, on beş gün belə davam eliyirdi. Həmin dövrdə qadınnar da gəlirdi. Qadınnar toy üçün düyi arıtdıyırdı, yorğan-döşək salırdı. Kişilər çalıb oxuyurdular. Qadınlar nə edirdilər? Qadınlar gələndə özləri ilə dəf gətirirdilər. Bu tərəfdən iki qız, qarşı tərəfdən də iki qız dururdu, başdıyırdılar mahnı oxumağa. Yorulanda o biri dəstə başlayırdı. Bəzi gecələr isə halay tuturdular. Halayda iki dəstə olurdu, hər dəstədə on-on iki nəfər olurdu. Bunlar oxuyurdular, camaat tamaşa eliyirdi. Başda duranda dəf olurdu, bunlar mahnının başdığın deyirdi, dəstə üzvləri onun nəqəratın gətirirdi. Halay

[44] ləm – yayda istidən qorunmaq və istirahət etmək üçün tikilmiş tikili.

gedəndə ən azı bir saat davam edirdi. Bütün toylarda toyun axırında mütləq halay tutulurdu, “Yordu-yordu” oxunurdu.

Toy günü gəlini gətirərdilər. Qaynar qazan üsdə gəlini gətirərdilər. Bu gün toydu, qazan qaynıyır, onun üsdünə gəlini gətirmək, adətən, dəb belə idi. Həmin gecə də aşıqlar çalğı eliyərdir. Gecə 12-dən sonra bəy gedib xanımı ilə görüşərdi.

Bəyin başına toplaşırdılar. Bəybaşı üçün plov hazırrıyırdılar. Bəyin başına toplaşanlar plovdan yeyirdilər, pul da qoyurdular. Gecəyarısına kimi həmin tədbir davam edirdi. Bəyin dosdarı bəzən orda komik səhnələr göstəriblər. Məsələn, “Məşdibad” səhnələrindən birini orda oynuyublar. Kişi qadın paltarı geyib Sənəm rolunu oynuyub.

Qız səhər köçəcəksə, axşam qızın rəfiqələri onun başına toplaşırdı. Gəlinin əllərinə xına yaxırdılar. Orda səhnəcik düzəldirdilər. Həmin gecə ora gələnlərin çoxu cehiz nümunələri gətirərdi – stəkan, nəlbəki, qrəfinkə, hədiyələr gətirərdilər gəlin üçün. Qızı aparanda bəyin atası qızın anasına südpulu verirdi. Qızın atası, qardaşı, ya cilovdar qızı gətirir, maşına salır, ondan sonra ata qayıdır xeyir-dua verir. Cilovdar əvəllər atın cilovundan tutardı, gəlini gətirib oğlanın atasına təhvil verərdi. Cilovdara da pul verərdilər. Cilovdar ya qızın qardaşı, ya da əmisi oğlu olurdu.

Üçüncü gün gəlini su üsdünə aparıllar. Toydan üç gün sonra yengə gəlini çıxardır evdən. Əgər həyətdə su quyusu varsa, suyu quyudan çıxardır, həyətin müxtəlif yerlərinə su səpir, evə su səpir. Üçüncü gün *üzəçıxdı* olur. Həmin gün qız adamları gəlir, üçşələ deyillər, qız evi özü bişirib gətirir. Qızın anası gəlmir, başqa uşaqlar gəlir. Qıznan görüşüllər, gəlini üzə çıxarıllar, onda gəlin əmisinə, qaynına çorab, araqçın, möhür hədiyyə edirdi. Keçmişdə gəlin yaşmaqnan olardı.

## 121. QIZILAVARDAKI OBALAR

Qızılavar bayaq dediyim kimi “qızıl külək” deməkdi. Qızılavardakı obalar bunlardı: Pensər (yuxarı baş), Leysar, Toyobə, Dəlləkoba. Leysar tayfası hardan gəlib? Leysar tayfası İran Astarasında bir tayfa olub, ordan gəliblər. O vaxdı müharibə olub, nə olub, onlar köçüb gəliblər. Bir hissəsi bura düşüb, bir hissəsi Sığdaş kəndinə düşüb. Leysar dediyim məhəllənin xasiyyəti belədi: Onlar çox sirr saxlıyan adamdılar. Uşaqları oldi, uşaq məktəbə gedənə kimi bilməzsən ki onun qızı olib, oğlu olib. Onu deməzdər. Onlar uzun zaman öz məhəllələrindən başqa məhəlləyə qız vermiyiblər, başqa məhəllədən qız almıyıblar. Hər bir işi də ehtiyatla görərlər. Mən bir dəfə ruşka satırdım, bir dəstə uşaq gəlmişdi. Hamısı aldı, həmin o məhəllədən də birisi aldı. Alan kimi bu sökdü ruşkanı. Gördüm baxır onun zapasına ki, bəlkə istifadə ediblər. Mən güldüm, bir söz demədim. Bu, o məhəllənin xüsusiyyətidi. Öz içərilərində hər hansı çatışmazlıqları da gizli saxlıyıllar. Məsələn, o məhəllədə içən daha çoxdu, amma camaat elə bilir ki, olar içki içmir. O qədər sirr saxlıyırlar. Toyobə sevinən, deyib-gülən obadı, çox güman ona görə Toyoba deyiblər. Pensərlilər həmişə çalışıblar ki, vəzifədə olsunlar. Nisbətən oxumuş adamlar bu məhəllədən çıxıb, kəndin ilk savadlıları da o məhəllədən olub. Bizim kəndin bir məhəlləsi də adlanır Dəlləkoba. Dəlləkoba üç yerə bölünür. Dəlləklərin olduğu yer olub. Molla Şamil, onun uşaqları var, vaxdilə orda dəllək çox olub. Sonradan bölünüb obalara: Eynəloba, Körçoba, Körçəşərşoy. Bizdə plov bişiriblər həmişə. Ümumiyyətlə, belə bir məsəl var: “Talış – plov, plov – talış”. Körçoba məhəlləsində xüsusi plov qızdıran qab düzəldiblər.

Onun tutacağı var, plov qazandan götürülür, qoyullar onun üsdünə, qoyullar ocağın qabağına, orda isti qalır. Ona körç deyillər. O məhəllə o işlə məşğul olub. Bir də orda Rəhim kişi olub. Ona deyiblər ki, bu qədər vergi verməlisən. Deyib, əşi, mən bilmirəm ey vergi pulu artıb, artmıyıb. Mən öz körçəşarşoyumu[45] verəcəm. O məhəllənin də adı onnan adlanıb.

## 122. TEŞT QURMAQ

Teşt nəyə deyirlər. Aşuranın birinci günü qaba təmiz su tökürlər. Onu hesablayırlar ki, bizim imamlarımız onda susuz ölüblər. O teşti qururlar, hər kəs gəlib ordan su içir, nəzir atırlar. Həmin pul təkyənin təşkilinə xərclənir, orda iştirak edən mollalara haqq verilir, artıq qalan pullar da məscidə xərclənir. Teştlər ancaq məsciddə, təkyə qurulan yerlərdə qurulur. Artıq qalan puldan məscidin işıq pulu, qaz pulu ödənilir. Teşt on gün qurulur, on birinci gün – imamlar şəhid olan gün o teşt götürülür. Çünki imamlar susuz şəhid olublar, həmin gün teşt qurmaq düz deyil. Teştdə ancaq adi su olur. Keçmişdə hansı evdə təkyə qurardılar, həmin ev qara paltarlarnan bəzənərdi, qara şal olardı, qara ədyal olardı. Hər şey qara olardı, evə girəndə adam qorxardı. Otaq qara bəzənirdi, hər şey qara olurdu, hətta molla üçün qara çaynikdə çay qoyurdular.

## 123. ŞAXSEY TUTMAQ

Əvvəllər təkyə keçirməyə qoymazdılar. Qadınlar həsiri pəncərələrə dayayardılar ki, kənardan görünməsin, gizlin tək-

---

[45] körçəşarşoy – altı şahı

yələrini keçirərdilər, mərsiyə deyərdilər. Lərnpə işığından saat on birə, on ikiyəcən mərsiyə deyərdilər. Mərsiyəxan qutarandan sonra biz "Şaxsöy" tutardıq. Özü də qoca kişilər şaxsöy vurardılar. On-on beş nəfərdən ibarət iki dəstə olardı, üz-üzə durardılar. Şaxsöyə başlayanda öncə təbərro deyərdilər.

Ey kərimi kərxəzoneyi ğeyb,
Ey bə çəş nıçiə xıdu,
Ey ğəbəbə bə xıdu,
Imun həromi-həloli hiç nıznə kəsoni
Tı bımunu şərayite yaratmiş kardə.
Tuki ba düşmənə nəzərdarən
Şaxsoy-vaxsoy[46].

Biri bu təbərronu deyərdi, hər iki dəstə deyərdi: Bəli, bəli. Təbərro bitəndən sonra şaxsey-vaxsey başdıyardı. Şaxseyin bir misrasını bir dəstə deyərdi, o biri dəstə ona cavab verərdi.

– Hüseyn şəhid!
– Bə Kərbəla.
– Huri Yəzid!
– Cəhənnəmə.
– Həsən, Hüseyn, ya Allah!
– Yezidə lənətullah.
– Həsən, Hüseyn, gül kimi!
– Yezid hürür it kimi.
– Həsən, Hüseyn məndurə[47]!
– Yezid düşsün təndirə!
– Həsən, Hüseyn ipəkdi,

---

[46] Tərcüməsi: Ey gözəgörünməyən Allah, bunlar halal-haramı bilməyənlərdir, sən bunlar üçün belə bir şərait yaratmısan.
[47] məndurə – mənim tərəfimdə.

– Yezid ona köpəkdi.
– Yezid mindi atına,
– Lənət onun zatına.
– Yezid girdi soğana,
– Lənət onu doğana.

Dəstənin qabağında gedənin əlində ağac olur. Dairəvi hərəkət edirlər. Şaxsey gedəndə körpə xəstə uşaqları şahsey-vahsey gedənlərinin qabağına atardılar, şaxsey gedənlər uşağı ayaqarı ilə dürtərdilər. İnanca görə, uşağın xəstəliyi gedir, ondan sonra şəfa tapır.

## 124. QARAÇUXA

Bizdərdə Hithoti Ağabala kişi olub, onun çoxlu malları olub. Özi də imkannı olub, o dövrdə çox adam onun çörəyinnən istifadə eliyib. Keçmiş kişilər söhbət eliyərdi ki, o, səhər çörəyini yeyərdi, heyvannarı çıxardardi, meşə ətrafına aparardı otar-mağa. Günorta namazı vaxtı gəlib evdə çörəyini yeyirdi, namazını qılıb gedirdi.

Bir gün günorta yeməyini yeyib gedəndə uzaqdan görür ki, hündürboy, başında qara əmmama bir kişi əlində ağac dayanıb heyvannarın qabağında. Bunin sifətin görmir axi. Bu yaxınnaşır, yaxınnaşır, ha yaxınnaşanda bir baxım deyəndə, görür, bu yoxa çıxdi. Bu gəlir məclisdəmi, ya evindəmi danışır. Deyillər ki, gərəh sən buni danışmıyeydin. Deyir ki, neyçün? Deyir, o sənin Qaraçuxan olub, sənin mallarını müdafiyə eliyib. Sən indi bunu danışdın, sənin malların hamısı əlinnən gedəcəh. Sənin Qaraçu-xan yatmamışdi, buninən də Qaraçuxan yatacax, sənin əmlakın, bu mallar hamısı sənin əlinnən çıxacəh. Elə də olub. Müəyyən dövirdən sora o qədər heyvannar hamısi əlinnən gedib.

## 125. ŞEŞƏ

Şəşə uşaq doğulannan sonra altıncı gün gəlir. Uşağı aparır, boğub öldürür, uşağa bir xətər yetirir. Mənim üç uşağım var, üçündə də uşaq doğulandan sonra altıncı günnəri gecə səhərə kimi yatmamışam ki, yataram, yuxuya qalaram, Şəşə gələr uşağa bir şey eliyər. Həmin gün zahını tək qoymullar. Altıncı gün evin hər küncünə düyü, buğda səpərdik ki, Şəşə uşağı aparmasın. Düyünü səpməyin mənası bilirsən nədir? Şəşə gəlir, düyünü yeyir, uşağı yaddan çıxardır. Yəni düyüdən keçə bilmir, undan keçə bilmir. Unu biz hətta qovurardıx ki, iyi çıxsın. Şəşə unun iyindən doyur, gəlmirdi. Bir adam bunu eləmiyib, gecə yuxuda görüb ki, Şəşə kölgə kimi gəlir. Durup hay-haray salıb. Tez-bazar düyü də götürüb, un da götürüb. Boşqabda un qoyub, düyü səpib. Ondan sonra, deyir, o qarannıx getdi, rahat yatdım.

Şəşə adam kimi bir şeydi. Əsasən çiləli, qırxlı uşağın üsdünə gəlir. Çiləli qadın qarannığ yerə getməsin, ağac divinə getməsin. Yani bu mağamlarda uşağa bir zərər yetirər. Deyirlər ki, qırx günə kimi uşağı gərəh gözdüyəsən. Uşağın paltarını həyətdə saxlamıyasan, məftildə saxlamıyasan. Axşam çağı uşağı həyətə düşürtməyəsən, ağac altına aparmayasan. Mənim uşaqlarım qırxlı olanda heç vaxt oların paltarın həyətdə saxlamamışam. Mən əhəmiyyət verməzdim, amma qaynanam deyərdi ki, uşağın paltarını həyətdə saxlamaq olmaz, get götür. Paltarları yığışdırtdırardı.

## 126. ALAJEN

Keçmiş zamannarda Xankişi adında bir adam olub. Bu Xankişi al arvadı – cin qadını tutub. Talış dilində Alajen deyillər, cinsi qadındı. Alamed isə kişi cinsindəndi. Xankişi Alajeni

tutubdu. “Get, tez gəl” deyəndə bu, gec gəlirmiş. “Get, gec gəl” deyəndə bu, tez gəlirmiş. Hər işi tərsinə görürmüş. Buna o qədər odun daşıtdırıblar, o qədər odun daşıtdırıblar, həyatbaca hamısı odunla dolu imiş. Ayaq qoymağa yer olmayıb. Sonra Alajen bu Xankişiyə deyib ki, sən məni burax, mən sənin yeddi nəsil övladına toxunmayacam. Xankişi də Alajeni buraxıb. Alajeni buraxandan sonra, doğrudan da, onun yeddi nəslində heç kəsə toxunmayıb.

## 127. YUSUF QUŞU

Bir quş var, may ayında oxuyur. Bir ana öz uşağını çimizdirərmiş. Uşaq susuz olub. Ana birdən hiss edir ki, uşaq su isdiyir. Uşağın susuzluğdan nəfəsi gəlir boğazına. Gedir su üçün. Gəlir görür ki, uşaq ölüb. Onda ana Allaha yalvarır ki, bu nə dərtdi mənə verdin? Məni quşa döndər. Allah onu döndərir quşa. O quş yazda gəlib oxuyar: “Yusif, dur, su iç. Yusif, dur, su iç” [48]. Uşağın adı Yusif olur.

## 128. VOƏCAN ZİYARƏTGAHI[49]

Voəcan deyilən ocaq var, yel ocaği. Yel xəsdəliyi olanda, gedillər ora, oynan da şəfa tapıllar. Yolum Lerikə düşəndə ağsakqal bir kişi vardı, ondan soruşmuşdum ki, niyə bu imamzadənin qəbri o tərəfdədi, amma ziyarətgahı Gohadan bu tərəfdədi. Dedi ki, o seyid dünyadan gedəndə evlatdarına vəsiyyət eliyir ki, mən ki dünyamı dəyişdim, mənim quslimi, kəfənimi eliyənnən sonra bir ağ dəvə gələcək. Onda indiki kimi tabut olmuyub, cənazəni

[48] Talışca: Pebi ov peşum, Yusif.

[49] Voəcan ziyarətgahı – Yel piri. Talış dilində voəcan külək vuran yer deməkdir.

adi nərdivanın üsdündə aparardılar. Mənim tabutimi qoyarsuz o dəvənin üsdünə. O dəvə harda oturdi, məni orda dəfn eliyərsüz. Dəfnimi qutarannan sonra o dəvə hara gedəcək, görməssüz siz oni dəxi. Ordan ki yola düşdi, siz də day dala baxmıyacəhsüz. Haman o adam dünyasın dəyişəndən sonra qoyurlar tabuti dəvənin üsdünə. Dəvə gəlib Mistandan bir az aşağıda oturub, onu orda dəfn eliyiblər. Bular dörd qadaş olublar. O qardaşlardan biri Mahmudavardan yuxarıdadı – Baba Seyidağa, biri Rüdəkərandadı – Baba Səmənd, biri də Baba Gilani.

## 129. ŞEYX BABA HƏMZƏ

Babalarımızın dediyinə görə, bizim nəslimiz Ərdəbil mahalındandı. Şeyx Səfiyəddin İsax dövrünün ağıllı, müdrik insanı olub. Öz ətrafına ağıllı insannar topluyubdu. Bizim ulu babamız Şeyx Baba Həmzənin qəbri İranın Ərdəbil mahalının Minavər kəndindədi. Digər bir babamız Şeyx Mirələmin də qəbri ordadı. Öz qızını Şeyx Baba Həmzəyə ərə verib. Şeyx Baba Həmzə onun nökəri olub. Yay dövründə mal-qaranı Talış dağlarına, Savalan ətrafı yaylağa göndərirmişlər. Bu da çobanlardan biri olub. Mənim ana babamın danışdığı söhbətdi, u da öz babasından eşidibdi. Həmin babamız Şeyx Şiri yüz ildən artıq yaşıyıb, 1985-ci ildə dünyasını dəyişib. Unun dediyini mən deyirəm. Diyir ki, Şeyx Baba Həmzə ağıllı kişi olub, Allah tərəfindən buna pay, zehin, hörmət bəxş olunub. Hər insana Allahtəala bunu vermir. Həm də unda bilicilik ulub, bacarığ ulub.

Diyir ki, danalar bir-biriynən yaylaqda vuruşanda bir dana vurur o biri dananın qabırğasın sındırır. Nökərlər çox təşvişə düşüllər ki, ağamız bizi incidəcək ki, biz heyvanlara yaxşı baxmamışıx. Babamız onnara qayıdıb diyib ki, narahat olmuyun. U

əlini sürtə-sürtə gön aralandı. Götürdü iki dənə yonqarı yondu, qoydu sınmış qabırğaların üsdünə, yenidən gönü bağladı. Danıya qulluğ elədilər, dana sağaldı. Sonra örüşdən qayıdanda bu söhbət çatır Ərdəbilə və maraqlanırlar. Biri diyir fantazıyadı, biri diyir zarafatdı. Şeyx Səfiyəddin İsax əmr verir ki, dananı kəssinnər. Dananı kəsirlər, dərisin soyurlar. Görürlər, doğrudan da, belə bir yonqar qoyulub. Deyilənnər həqiqət imiş. Şeyx onda başa düşür ki, bunda nəsə Allah vergisi var. Ona görə onu özünə kürəkən götürür.

Həmin nəsildən kimlər var? Bir neçəsin adın deyə bilərəm: Şeyx Mirələm, Şeyx Ehsan, Şeyx Müstəfi, Şeyx Molla baba, Şeyx Mirabbas, Şeyx Abbas, Şeyx Saleh, Şeyx Xaliq, mənim babam Balaca Saleh, atam Böyükağa, mən Nəbi.

## 130. ŞEYX SALEH

Bizim Ulu babalarımızdan biri Şeyx Abbas köçüb gəlib, burda kuma qurub. Onun mülkü aranda olub – Səlvədə. Səlvədə bizim böyük mülklərimiz var. Aran ora olub, qışlaq bura. Şeyx Abbasın dörd oğlu olub, indi Sımda olannar həmin dörd oğuldan törəmələrdi.

Bizim Şeyx Abbasın dörd oğlu olub. Böyük oğlu Şeyx Salehdi, ikinci oğlu Şeyx Məhəmməd, üçüncü oğlu Şeyx Sovqat, dördüncü oğlu Şeyx Molla Fərəc olub. Şeyx Molla Fərəc kiçik evladıdı, Sımda təhsilini başlayıb, İranda davam etdirib. İyirmi beş il təhsil alıb. Orda təhsil aldıqca, elmə, mərifətə yiyələndikcə arabir kəndə gəlib-gedərmiş. Ana babam diyərdi ki, o gec evlənib, saçı ağarmışdı o evlənəndə. Amma tez də öldü. Böyük qardaş Şeyx Saleh isə namaz qılan olub. Onun o biri kənddə ayrıca hücrəsi olub – balaca bir otağı. Orda həmişə ibadət eliyərmiş. Bunun

gəlinlərindən biri də İrandan gətirilib. Onun adı Gəlxanım olub, amma el arasında ona Xədicə deyərmişdər. Bu diyir ki, mən aparırdım onun şam yeməyin qoyurdum. Görürdüm ki, lampanın şamın yandırmıyıb. Deyirdim ki, qoy şamı yandırım da. Deyirdi ki, mənim işimə qarışma. Pəncərəsinin xırda-xırda deşikləri var idi. Mən otaxdan çıxanda orda yeddi rəngdə onun üçün şam yanırdı. Mən ona yimək gətirəndə qapını döyürdüm, içəri girəndə işıq yox olurdu. Ulu nənəmiz danışıb bunu.

Qardaşı Molla Fərəc gəlir. Kimsə buna deyir ki, sən gedib elm öyrənirsən, alim olmaq isdiyirsən, amma sənin böyük qardaşın namaz qılmağnan elmli olub. O, artıq çoxbilmişdi. Molla Fərəc böyük qardaşını sınağa çəkmək isdiyir. Deyir, qardaş, sənə işim düşüb. Bir şey sənnən isdiyirəm, sən tap görüm mən sənnən nə isdiyirəm? Deyir, mənə bir gün vaxt ver. Bir günnən sora gəlir deyir ki, istəyimi de də. Deyir, sən mənnən bir dənə onnux qızıl isdiyirsən, təəssüflər olsun ki, o pul məndə yoxdu. Bunun digər qardaşdarının, əmiuşaqlarının yanında bu söhbətlər olub ha. Şeyx Saleh bu hörmətə görə, bu izzətə görə, digər məsələlərə görə ildə bir neçə dəfə Məkkiyə gedib-gələrmiş. O vaxt da Məkkiyə gedib-gəlmək altı aya çəkərmiş. Bu kəndin ağsakqallığın, Nikolay dövründəki sənədləşmənin hamısın o eliyib. Təəssüflər olsun ki, sənədlər qalmıyıb. O, təxminən 1870-ci illərdə vəfat eliyib. U dövrdə də kənd camaatı onun qəbrinin üstündə balaca ağaşdan bir şey düzəldib. Biz – onun kötühcələri onun qəbrinin üstündə hücrə düzəltmişik. Bura Şeyx Saleh qəbirstanlığı adlanır. Bu gün də insanlar ondan kömək umurlar. Diş ağrıyanda mismarı dişə sürtüb onun qəbrinin torpağına vurursan. Əhd eliyib orda lampa yandırırlar.

## 131. ŞEYX NƏSRULLAH

Mənim bildiyimə görə, rəvayətlərdən eşitmişəm ki, Sım kəndinin adı Sım yox, Samdı. Sam da bilirsiz hansı Samdı? Nuh oğlu Sama gedir çıxır. Görmüsüz bu qayalıqları? Daşqın olub ki, bu qayalar çıxıb meydana. Bu bir. XVI-XVII əsrlərdə Şeyx Abbas gəlib Sıma. Şeyx Abbas kimdi? Şeyx Səfiyəddin adında şəxs olub, sufi təriqətinin banisi olub. Şah İsmayılın babası. Şeyx Nəsrullah Həmzənin nəvələrindəndi.

Rəvayət edirlər ki, Şeyx Nəsrullah hər cümə günü namaz qılarmış Məkkədə. O vaxtı bir il qalmalıydın hacda ki, hacılığın qəbul olunsun. Bu bədbaxt da qalır, sora bunun pulu qurtarır. Evə gəlmək isdiyəndə ərəbə diyir ki, xahiş eliyirəm, məni apar kəndə. Diyir, bəs mən səni tanımıram. Diyir, qurban olaram. Diyir, yaxşı. Ayağını qoy ayağımın üsdünə, gözüvü yumginan. Gözün yumur. Diyir, aç gözüvü. Diyir, buranı tanıyırsan? Diyir, bura mənim evimdi da. Belə baxır, görür bu adam yoxdu. Bu bunu çox gəzir, axtarır.

Şeyx Nəsrullah öz müridləriynən namaz qılır. Sufilər daş üsdə namaz qılıblar. Siz də bilirsiz ki, təlim elədi ki, namaz qılanda gərək səcdə yerinə baxasan. O tərəfə, bu tərəfə baxmaq olmaz. Şeyx namaz qılanda birdən əlin-ayağın qaldırır, deyir: "Ya Allah". Dalda oturan şagirdlər deyir, bu nə işdi? Bu bizə təlim verib ki, namazda artıq-əksik olmaz. Namaz qurtarandan sonra biri deyir ki, ya şeyx, bu nə məsələdi? Sən bizə təlim verirsən ki, namazda qırağa baxmaq olmaz. Nə məsələdi bu? Dedi, sənin xəbərin yoxdu. İndi bizə qonaq gəlir, iki dənə də qızılbalıq gətirillər. Onun bir tərəfin də yiyiblər. Diyiblər ki, bu Şeyxin ağzında təlx olar. Olar atını divara vuranda məni çağırdılar, dedilər ya Şeyx Nəsrullah. Mən də dedim ki, ya Allah.

Bular gəlib çıxıllar. Balığı qoyullar şeyxin qabağına. Şeyx deyir ki, ey heyvan, sən mənim ağzımda təlx olarsan. – Yəni mənim ağzımı təlx eliyərsən. – Ona görə də mən səni buraxıram. Allahı çağırır: "Ya Allah, sən buna şəfa ver, məni bularıın yanında xəcalət eləmə". Həmin balığı atır suya.

Molla Ramazan dəfələrnən mənə demişdi ki, mən gedərdim qızılbalığ tutmağa, həmin balığı orda görmüşəm. Nə qədər camaat balığ ovuna gedib, həmin qarnı yarığ balığı görüblər orda.

## 132. PİRBÜLƏN TÜRBƏSİ

Babamın dediyinə görə, Pibülən ağır xasiyyətdi insan olduğuna görə onun ehtiramını həmişə saxlıyıblar. Orda bir dənə daş var, təbii daşdı, onu cilalıyıblar. Ağaş budağınnan kəsib keçirdiblər, dəli olan insannarı gətirib ora bağlıyıllar.

Hacı Əfqan bizim Muxtar məəllimin, Zahirəddin məəllimin dədəsigilə gəlir. Muxtar görür ki, kişi çıxdı çölə. Muxtar da uşaq olur, yavaş-yavaş bunu izdiyir. Muxtarın didikləridi ha. Görür ki, Hacı Əfqan düşdü aşağı. O yannan da bir işığ göynən gəldi, göy işıq. Pirbılından gəlir işıq. Bular ikisi də döndülər oldular çıraq. Dayandılar, görüşdülər, sora o birisi çıxdı getdi, bu gəldi. Muxtar da görür bu işıq elə Hacı Əfqandı da. Heç kimə heş nə demir. Buna diyir ki, lərquş, lərquş, – lərquş dovşana diyillər, – sən, nə gördün? Diyir, heş nə görmədim. Boynuna almır da. Demək, bu qədər də qar var, göbəyə qədər qar var. Birdən diyir ki, mən qalxıram, getməliyəm. – Hara? – Bəs İranda Nəmun kəndi var. Nəmunda bir nəfər ölüb, mən getməliyəm, onu götürməliyəm. O da sufidi. Diyillər, əşi, sən nə danışırsan? Bu qədər qar var. Sən hara gedə bilərsən? Deyir, isdiyirsiz mən çarığı da çıxardım, yalın ayağnan gedim? Bu gedir, Anquni

diyillər, ora kimi bunun ayağ izi gedir. Ora kimi gedillər, görüllər ayaq izi var, onnan sora yoxdi. Soradan xəbər çıxdı ki, Hacı Əfqan gedib həmin adamın cənazəsin götürüb, basdırıb.

## 133. QIZYURDU[50]

İk qardaş olur. Qardaşdardan biri yoxsul, o biri imkannı imiş. Yoxsul qardaşın qızı hakim qardaşın oğluna nişannı imiş. Hakim qardaş ölənnən sora yoxsul qardaş taxta çıxır. Lakin o, qızını qardaşı oğluna vermək istəmir. Öz əhdini unudur. Oğlanı zindana saldırır və öldürtdürür. Qız bunu eşidəndə dəhşətə gəlir. O, atına minib pəhləvan libası geyinir, gecə ikən evdən qaçır. Gəlib bir düzənniyə çatır, orda özünə qala tikdirir. Həmin düzənnik İranla sərhəddi, indi ora Qızyurdu adlanır. Nəyə görə Qızyurdu adlanır?

Qonşu şahlardan biri əraziyə hücuma keçir. Qız bu vaxt yatıbmış. Qızın atı Koroğlunun atı kimi dil bilirmiş. O, qızı oyadır. Qız cəngavər libası geyinib vuruşur, düşmənə qalib gəlir. Qızın üsdünə hücum eliyənnərdən bir nəfər sağ qalır və qaçır. Təzə dəstə gəlir, o da məğlub olur. Üçüncü dəfə kəmənd atıb qızı tuturlar. Bilmillər axı bu qızdı, elə bilillər oğlandı. Qız oğlan paltarı geyibmiş. Şah ona bir sillə vurur, qızın papağı düşür, telləri səpələnir. Şah heyrətə gəlir və ona vurulur. Qız çox gözəl imiş. Qıza evlənməyi təklif edir. Qız isə deyir, qollarımı açın, sora danışarıx. Qızın qolları açılan kimi qız paltarının altında gizlətdiyi qılıncı əlinə alır, diyir:

– And içmişəm ki, sevgilimdən başqa heç kimə getmiyəcəm.

Qız bu sözdəri diyir, özünü öldürür.

---

[50] İranla sərhəddə yerləşir.

## 134. GƏLİN QAYA

Bizim kəndnən üzbəüz İmam deyilən kənd var çayın o tərəfində hündür qayalıqlar içində. Biz həmişə Çayyurd kəndinə toya gedəndə böyüklər bizə göstərərdi ki, diqqətnən uzağa baxın, orda İmam qayası var. Orda qabaqda gəlin, arxasında yengə at belində, onun da arxasında aşıxlar – hamı daşa dönüb. Bununla əlaqədar bir əfsanə var. Bu əfsanəyə görə, gəlin ər evinə köçərkən o, hamilə imiş. Gəlin görür ki, artıq rüsvay olacax. Oğlan evinə çatmağa az qalırmış. Allaha yalvarır. Deyir, İlahi, mən artıq biyabır olacam, sən mənə kömək ol, məni daşa döndər. O vaxtlar, deyilənə görə, inam var idi ki, dağ adamlarını Allahtala tez eşidir. Yəni dağlar hündürdü, dağlarda edilən duaları Allah tez eşidir. Ona görə gəlin də, onun arxasında yengə də, onun arxasında aşıxlar da daşa dönüllər. Həmin qaya İmam kəndinin yaxınnığında indi də qalır. O qaya uzaxdan baxanda da seçilir.

## 135. ALİ HUNİ

Lerikdə Ali huni ocağı var. Huni talış dilində bulaq deməkdi, Ali bulağı. Yəni sahibinin adı ilə bu cür adlandırılır. Sahibinin adı Ali imiş. Onun nəzərlənmiş bir öküzü var imiş. O, öküzün xurcununa lazım olan şeylərin siyahısını yazıb onu bazara göndərərmiş. O vaxtlar bizdə Lənkəran-Lerik yolu yox idi, dar cığır formasında idi. Yəni atnan, öküznən gedərdilər, maşın yolu yox idi. Bunu Masallıya, Lənkərana bazarrığa göndərərmiş, heç kim də bu öküzə dəyməzmiş. Yəni tanıyırmışlar. O, özü isə burda Lerikdə oturub öküzün harda olduğun bilirmiş.

Lerikdə olan bir tayfa öküzün hərəkətinə şəkk gətirir. Kirəvüd[51] kəndinin yaxınnığında öküzü öldürüllər. Öküzü kəsənlər üç gün, üç gecə əti qaynadırlar, lakin ət qaynamır ki, qaynamır. Görüllər ki, ət qaynıya-qaynıya qazan qannan dolur. Gəlib öküzün sahibinə deyillər ki, halallaşax. Ox atıllar, ox düşən ərazini öküzün haqqı kimi ona verillər. Öküz sahibi də heyvanı onlara halal eliyir, ondan sonra ət qaynıyır. Öküzün sahibi ona verilən torpağı qəbirstanlıx salmax üçün verir. Hal-hazırda Lerikdəki qəbirstanlıx həmin yerdə salınıb. Həmən ocaqda hər cümə günü işıx yanır. Sahibin qəbri məlum deyil, yəni bilmək olmur ki, qəbri hansıdı. O ocaqda yalnız əməli təmiz adamlar olmalıdı. Ağsakqal Əli məəllimin dediyinə görə, atamın babasının yuxusuna girib deyiblər ki, Məmişə deyin ki, bizim yurtdan köçüb getsin. Demək, o yurtda Məmiş addı bir kişi yaşıyırmış. Babamız üç dəfə yuxu görür. Hər dəfə ona deyillər ki, Məmiş bu yurtdan köçsün, getsin. Məmiş bunu eşitmir. Onda deyirlər ki, biz onun nəslini kəsərik. Elə də olur. Məmişin nəsli kəsilir, bir qızdan başqa. Yəni ki, bu yurdda ancaq əməlisaleh adamlar yaşıya bilər.

## 136. HƏZRƏT MUSA VƏ XIDIR PEYĞƏMBƏR

Günnərin bir güni Həzrəti Musa dedi ki, ya Rəbbim, mənnən də elmli var, yoxsa yox? Dedi, ya Musa, var. Dedi, harda? Mən ona rast gələ bilərəm? Dedi, sən ancaq orda rast gələ bilərsən ki, qurumuş balıq var ha, qurumuş balığı götür çörəknən, gedərsən bir yer var, orda qurumuş balıq həmin yeri tapar, sən o alimi orda görərsən. Bu da şagirdiynən gedir ora. Gəlillər, bir dənə yer var idi, ordan keşdilər. Bir az da keşdilər.

---

[51] Lerik rayonunda kənd

Musa başın dayadı daşa, guya yatır da, yuxu tutdi onu. Şagird də acınnan ölürdi. Süfrəni aşdi ki, bir az çörək yisin. Süfrəni açan kimi, deme, bura o yer imiş ki, iki dəniz... Quranda ayə var e... Diyir ki, biz yer altında iki dəniz yaratdıq. Onnar bir-birinin yanınnan axarlar. Amma buların arasında maneə yaratdıq ki, olar bir-birinə dəyməzlər. Amma töküldükləri yer nədi? Bərabərdi, şirinnən acı su. Demə, həmin yer imiş. Bu sürfəni açan kimi quru balığ tap tullandi ora, həmin yerə. Şagird gördü, ədə, bu nədi? Balığ dirildi. Tez süfrəni bağladi, səsin çıxartmadi. Day heş nə demədi. Musa peyğəmbər ayıldi. Didi, çörək gətir. Gətirdi. Şagird buni aşdı. Dedi ki, ya Musa, mən istədim ki, bir tikə çörək yeyim, ajınnan ölürdüm, elə açan kimi balığ tullandi həmin yerə, burdan təxminən on beş metrə o tərəfə. Musa dedi, hə, indi sən get, sənə yaxşı yol. Daha mənə lazım döyülsən. Mənə bura lazımdı.

Şagirdi yola saldi, özi gəldi. Balığ ki getməmişdi dərəyə, o tərəfdə gördü bir nəfər uzanıb. Bildi ki, həmin adamdı da. Dedi, əssalamu aleykum, ya elmli adam. O da dedi, aleykum əssalam, ya Musa. Dedi, bəs sən məni hardan tanıdın? Dedi, bəs sən hardan bildin ki, mən elmliyəm? Dedi, mənə deyən deyib. Dedi, mənə də deyən deyib də sən Musasan. İndi sən gəlmisən mənnən elm öyrənməyə? Sənnən bir dənə xayişim var. Mən nə elədim, sən dinmə. Dindin ha, sənə elm öyrətmiyəcəm. Dedi, yaxşı.

Bular oturdular bir gəmiyə, gedillər dəniznən. Bu elmli adam başdadı bu gəminin taxtaların sökməyə. Birin sökdi, ikisin sökdi, üçin sökdi, gəminin bir tərəfi getdi axı. Musa didi, kişi, sən neynirsən? Gəmini niyə sökürsən? Elmli adam didi, ay dad, mən sənə dimədim ki, danışma?! Sən uje elmi öyrənə bilmədin. Bir az da getdilər, düşdülər aşağı. Gedirdilər yolnan,

bir də gördülər ki, gözəl-göyçək bir oğlandi, nə diyim. Buna yaxınnaşanda elmli adam uşağı çəkdi bu tərəfə. Bir dənə daş götürdi, tarapp bunun başına. Öldürdi buni, basdırdı. Musa buna dözmədi. Dedi, axı sən neyçün belə eliyirsən? Elmli adam dedi, Musa, axırıncı kərə sənə diyirəm, bir də mənim işimə qarışsan, səni tərk eliyərəm.

Gəldilər çıxdılar bir dənə yəhudi məhəlləsinə, başdadılar burani gəzməyə. Heş kəs bulara dimədi ki, gəl evə. Elmli adam Musanı götürdi gəldi, gördülər burda dörd dənə nişanə var da, daş. Elmli adam başdadı burda kərpic kəsməyə. Dedi, Musa, sən mənə kömək elə. Musa didi, əşi, sən nə eliyirsən? Bu adamlar bizə bir qurtum su vermədi, sən olarçün bina tikirsən?! Dedi, ədə, sənin işin yoxdi, mən sənə diyirəm belə elə. Binanı tikənnən sora elmli adam dedi, ey Musa, sən elm öyrənə bilmərsən. Mən getdim. Mənnən sən əl çək. Musa dedi, onda sənnən xayiş eliyirəm, heç olmazsa buları mənə izah elə də. Niyə belə elədin? Dedi, əşi, bu gəmiynən biz gedirdik ha, qabaqda yolkəsənlər var, quldurlar. Olar gəmini neyniyərdilər? Zəbt eliyərdilər. Bu yazıxlar da yoxsul adamlardı, bir az pulları-zadı vardı, əllərinnən alardılar. Ona görə gəminin vidin xarab elədim ki, gəlməsinlər bizə yaxın. Soyardılar bizi. Bu oğlan var ha, bu gözəl oğlan. Ona görə öldürdüm ki oni, onin ata-anası imanlı idi, çox imanlı idilər, bu imansız olacəhdi, oların imanın zay eliyəcəhdi. Ona görə mən oni öldürdüm ki, oların zəhməti batmasın. Dedi, bəs bu? Dedi, hə. Burda bir xəzinə var, həmin bu yerdə, dörd dənə nişanəsi var. Mən buni tikdim ki... Ərəbistandan iki nəfər gəlir, ikisi də məəllim. Olar gələcək bura, bu nişanəni görəndə biləcəklər burda xəzinə var. Onlar azmasınlar deyə mən bu divarı düzəltdim ki, gəlsinlər, xəzinəni tapsınlar, burda məscid

tiksinlər, elm ocağı açsınlar və camaata elm öyrətsinlər. İndi, ay Musa, sən elmi öyrənə bilmədin.

Əssalamu aleykum və rəhmətullahi və bərəkatuh.

## 137. HƏZRƏT YUSİFİN DOĞULMASI

Bir çörəkçi həmişə çörək bişirərdi. Günnərin bir güni gördü ki, nədənsə çörəyi yoxdi. Neynim, neynim? Eşitdi ki, bir ölkə var, bir şah orani idarə edir, özi də gözəl səxavəti var. Diyir, mən gedim ora. Bu çıxır gedir ora. Köçür ora. Bir azdan sora burda varranır. Qonşular baxır görür qızıl külçələr var əlində. Tez bunu şaha çatdırıllar. Deyillər, ya şah, bilirsən nə var? Biri gəlirdi, acından ölürdi, çörəkçi idi, evində heç nə yox idi. Gəldi bizim məmləkətə, indi qızıl külçəsi var. Biz gözlərimizi yummuşuq. Bəlkə bu xəzinə tapıb. Hələ bunu çağır. Şah da əmr elədi, buni çağırdılar.

Çağırdılar, dedilər ki, sən bu külçəni hardan gətmisən? Dedi, ya şah, sənin sayəndə bu külçə mənə qismət olub. Dedi, necə yəni? Dedi, vallah, mən sizin ölkəyə köçəndə eşitdim ki, belə səxavətdi şah var. Sizin ölkəyə köçəndə mənim yoldaşım hamiləydi. Sizin ölkəyə çatmamış çadırda buni ağrı tutdi. Dedi, get mənimçün şorba gətir da, ölürəm axı. Gücə gəlim da. Tez çıxdım ora-bura, o qonşu, bu qonşu, heç kəsdə şorba yoxdi. Başımı götürüb qaçiram da ora-bura. Birdən ayağım sürüşdi, yıxılanda əlimi atdım yerə, bir də gördüm ki, bir şey keşdi əlimə. Baxdım gördüm qapı dəstəyidi. Qaldırdım, gördüm bura dik başaşağı zirzəmidi. Getdim aşağı. Getdim xeyli, gördüm, ədə, bir dənə zənci oturub, bir dodağı göydə, bir dodağı yerdə, şərab qabağında, şorba da qabağında. Vurur bundan, şorbadan içir. Birdən məni görəndə – böyük qılınci vardı, – dedi, ədə, mən oğri, sən də oğri? Məni soymağa gəlmisən? Əlin atdı qılınca.

Didim, əşi, mən bir yazığ bəndəyəm, mənim yoldaşım bu haldadi. Didi, otir. Orda rübab vardı, rübabı vurdu, didi çal. Didim, mən çalan döyüləm axı. Didi, ədə, sən çal. Mən də qorxudan simləri dingiltdətdim. Gördüm bu oyniyir. Dedi, maşallah, yaman çalırsan ha. Bu qutardı, dedi ki, bura gəl, sənə şorba da verim. İndi mənim bir dostim gəlir. O, mənnən də əjdahadı, bir dənə xəzinə gətirir, böyük bir xəzinə. Oni gətirəcək, atacaq bura. Mən oni öldürərəm, başin kəsərəm, bu xəzinəni bölərəm sənnən. Kef elə özünçün. Buni deyən kimi yıxıldi yatdi. Şərabi işdi, yıxıldi yatdi. Mən də gördüm qapı döyülür, gizdəndim. Gördüm bir dənə əjdaha gəldi, bədheybət, bundan da yekəsi. Gəldi gördü, ədə, bu şərab içib, dəmdi. Dedi, ədə, Allah buni vurub, elə ölüb də. Mən əziyyət çəkmişəm, bunu qazanmışam. Elə bunun başın kəsim, xəzinə qalsın mənə. – O axı bu fikirdə idi, gör Allahtala onu neynədi? – Vurdi bunu iki şaqqa elədi, bir dənə şaqqanı götürdü qoydi, çıxdı çölə. Xeyləm də getmişdi, bir-iki saat getdi, sora gəldi. İkinci şaqqanı götürəndə bildim ki, bu uzağa gedir. Bu o yana gedən kimi mən də əlimi atdım sandığa, şorbadan da bir az götürdüm, gəldim çatdım evə. Sandığı qoydum, arvadı oturtdum sandığın üstündə, şorbani verdim ona. Şorbani bu içən kimi güc gəldi, çağa düşdü sandığın üstünə. Şah dedi, uşağın adı nədi? Dedi Yusif. Dedi, münəccimləri çağırın. Çağırdılar münəccimləri. Dedi, baxın görün bu uşağın gələcəyi necə olacaq? Baxdılar, dedilər, ya şah, burda göstərir ki, Yusifin ayaqları xəzinə üstünə düşəcək. Yusif xəzinə üstündə doğulacək.

İndi bizim övladlarımız var ey, Allahtala verir qadınlara, olar gedir abort elətdirir. Da bilmillər ki, hər uşağın əlində, ayağında, dizində bərəkət var. Bax, söhbət budu. Əssalamu aleykum və rəhmətullahi və bərəkətuh.

## 138. KƏRBƏLA HADİSƏLƏRİ

Məhərrəmlikdən qabaq Qurban bayramı gəlir. İyirmi gün qabaq Qurban kəsillər. İmam Hüseyn əleyhsalam ayın onunu gözləmədi, səkgizində qurbanı Məkkədə kəsdi, yola düşdü. Namərd kufəlilər ikiüzlü millətdilər. Namə yazmışdılar İmam Hüseynə ki, Ya Hüseyn, bizi Yezidin zülmündən qurtarsa, sən qurtararsan. Yezid artıq hakimiyyəti almışdı ələ. İmam Hüseyn əmisi oğlu Müslüm İbn Əqli göndərdi. O da gedəndə iki dənə oğlu variydi – Məhəmməd və İbrahim. Bu balalar da olarnan getdilər. Müslüm İbn Əqli ora çatanda artıq Yezidin göndərdiyi vali İbn Ziyad Küfəni ələ almışdı və Müslüm İbn Əqlin orda başına min cür oyun açdılar. Onu orda şəhid elədilər. Birinci şəhid Müslüm İbn Əqli olub.

Haris adında bir nəfər onun anasını və balalarını evdə pünhan eləmişdi, saxlamışdı ki, gecə burda qalsınlar, səhər oları yola salacaq. Onun anası da İmam Hüseyn əleyhsalamı sevən adamlardanıydı, amma Haris, Allah ona lənət eləsin, İmam Hüseyn əleyhsalamın düşməniydi. O eşitmişdi ki, İbn Ziyad xəbər göndərib ki, Müslümün balalarını kim gətirsə, ona böyük hədiyyə veriləcək. Müslümün balalarının yerini öyrənəndən sonra Araz çayının sahilində o balaların başını bədənindən üzdü, Allah ona lənət eləsin. O, tarixdə qanla yazılmış bir səhnədi.

Məhərrəmliyin başlanğıcı elə Qurban bayramından başlıyır. Qurbandan sonra İmam Hüseynin müsibətli günləri başlıyır. İmam Hüseyn ki yola düşdü, Qurban ayının axırıncı günü gəldi çatdı Kufənin yaxınlığındakı Südabə çölünə. Yezidin dəstəsində güclü pəhlivan vardı, həm də sərkərdəydi – Hürr Əli Rəhmə. Hürrü göndərdilər. Hürr öz dəstəsinnən atları çapdı İmam Hüseynin qabağına. İmam Hüseyn elə bildi ki, bu gələnlər

onları qarşılamağa gəlir. Görəndə ki, atları bərk çapıllar, tozanaq qalxıb, bildi ki, burda bəd xəbər var. Hürr gəldi İmam Hüseynin bərabərinə, dedi:

– Ya Hüseyn, sən Kufə şəhərinə girmə.

İmam Hüseyn dedi, sən nə bədniyyət adamsan. Hürr dedi, yox, mən bədniyyət adam deyiləm. Mən bədniyyət adam olsaydım, mənə verilən tapşırığı yerinə yetirərdim. Mənə tapşırıq veriblər ki, get İmam Hüseyndən ya biyyət al, ya onun başını gətir. Mən sənə deyirəm bu şəhərə girmə.

Ondan sonra İmam Hüseyn yolunu döndərdi Kərbəla səmtinə. O Kərbala səmtinə ki, tarixdə bir neçə dəfə qeyd olunub ki, Kərbəla qanlı bir çöldü, bəlalı bir yerdi. Kərbəla sözünü eşidəndə İmam Hüseynin atı dayandı, getmədi. Bacısı Zeynəb soruşdu, atam bərabəri qardaşım, Kərbala adını eşidəndə sənin rəngin dəyişdi, noldu?

Dedi:

– Bacım Zeynəb, Kərbala elə bir bəlalı yerdi ki, burda mənim oğlanlarım əlimdən gedər, qardaşlarım əlimdən gedər. Düşmən mənim sinəmin üstündə at çapar.

Zeynəb başladı ağlamağa. Dedi, bacım Zeynəb, ağlama, ağlamağını sonraya saxla. Mən şəhid olandan sonra qalan əsirlərə, qadınlara sən rəhbərlik eliyərsən.

Bir gündə qocaldı Zeynəb. Kərbəlada çox adam şəhid olub. Deyilənlərə görə, yüz qırx dörd nəfər şəhid olub, amma orda yetmiş iki nəfərin başını kəsiblər. Yetmiş iki şühəda ordan meydana gəlib və hər əsirin yanında bir başı nizədə aparıblar ki, onlara görk olsun.

Birinci gün ki İmam Hüseyn o Kərbalaya valid oldu, orda öz dəstəsinə dedi ki, xeymələri qurun, ancaq çökək yerlərdə

qurun. Bacısı Zeynəb soruşdu, atam Həzrəti Əli əleyhsalam müharibəyə gedəndə həmişə xeymələri yuxarıda qurardı, sən niyə aşağıda qurdurdun? Dedi ki, bizi şəhid eliyəllər bu müharibədə. Bu balalar, bu arvadlar qoy o döyüş meydanını görməsinlər, ona görə onu çökəkdə qurdurdum.

Hürr ki İmam Hüseynin qabağına çıxdı, o yuxuda həmin gecə atasını gördü. Atası dedi:

– Hürr, sən ki peyğəmbərin nəvəsinin qabağına çıxdın, mən zəhmətimi sənə halal eləmiyəcəm. O peyğəmbərin nəvəsidi.

Hürr yuxudan oyandı, dedi:

– Mən nə böyük səhv eləmişəm.

Bir neçə adamnan sürünə-sürünə gəldi, İmam Hüseynin ayaxlarına düşdü. İmam Hüseynə yalvardı:

– Ya Hüseyn, sən məni bağışla.

İmam Hüseyn əlindən tutdu, qaldırdı, dedi:

– Dur ayağa. Sən o atnan gələndə bu əhli-əyal, o uşaxlar qorxuya düşdü. Sən get onlardan üzr istə.

Bir-bir üzr istədi, gəldi İmam Hüseyndən də üzr istədi. İmam Hüseyn dedi:

– Səni bağışladım, çıx get.

Dedi:

– Yox, sən mənə icazə ver, birinci mən meydana gedim.

Dedi ki, yox, bu meydan sənin üçün deyil. Nəhayət, icazə aldı, getdi meydana. Getməmişdən qabaq İmam Hüseyndən xahiş elədi ki, ya Hüseyn, mən gedirəm, onlardan heç kim mənə üstün gələ bilməz, ancaq onlar namərtdilər. Tək-tək gəlmiyəcəklər, qoşun hər tərəfdən hücum eliyəcək. Məni ki atdan saldılar, sən qoymuyasan mənim paltarımı soyundursunlar, məni rüsvay eləsinlər, məni doğrasınlar.

Həqiqətdə də belə olub. Hürrü atdan yıxanda qışqırdı:

– Ya Hüseyn, gəl mənim harayıma!

İmam Hüseyn getdi. Gördü ki, başından yaralıdı. Dəsmalını qoydu, onun qanı dayandı.

Şah İsmayıl Xətai bundan 750 il sonra hakimiyyətdə olub. Şah İsmayıl Xətainin də bir qolu gedib imam nəslinə çıxır. Şah İsmayıl Xətai bütün qoşununa başa salmışdı ki, şəhidlər çürümür. Gəldi Kərbəlaya. Dedi ki, mən İmam Hüseynin qəbrini açacam, şəhidlərin çürümədiyini qoy gözləri ilə görsünlər. Kərbəlaya çatanda öz fikrini dəyişdi. Dedi, birinci şəhid burda Hürr olub. Birinci Hürrün qəbrini açacam. Qoşunu saxladı uzaqda ki, birdən dediyi kimi olmaz, şəhid çürümüş olar. Qoşun mənə inanmaz, hamı dağılar. Beş nəfər rəyasət heyəti saxladı, onların iştirakı ilə qəbri açdırdı. Gördü ki, Hürr elə bil ki, bu gün ölüb. İmam Hüseynin dəsmalı da başındadı. Şah İsmayıl Xətai əyildi, dəsmalı götürdü. Dəsmalı götürəndə qan fəvvarə vurdu. Qan fəvvarə vuranda nə qoydular üstünə, qan dayanmadı. Dəsmalı götürüb özündə saxlamaq istiyirdi ki, İmam Hüseynin dəsmalıdı. Yenidən dəsmalı qoydu ora, dedi: "Mən nə böyük xətaya yol verdim". Xətai ləqəbi də ordan qalıb.

Və orda birinci şəhid Hürr olub. İkinci meydana gedən Əbəlfəzl Abbas oldu.

Əbəlfəz Abbas misli görünməmiş bir pəhlivan olub, uzun qolları olub, əyilməz vüqarı olub. Yəni düşmən qabağında əyilmiyən bir insan olub. Əbəlfəz Abbas xeymələri gəzirdi. İmam Hüseynin balaca qızı Səkinə susuzluqdan yanırdı. Əmisini görəndə dedi: "Əmi, mənə su!" Əbəlfəz Abbas o balanın susuzluk səsini eşitdi, Aşura günü ikinci o meydana getdi. O, ata süvar oldu, dedi: Gedirə,m su gətirəm.

Fəratın qolu var orda – Əl-Qəmə. O çaya girdi, suyu götürdü, ağzına yaxınlaşdırdı ki içsin, dedi: "Yox, bu su mənə haram olsun, o balalar orda yanır". O, məşqi[52] doldurdu. Düşməndən həl-hələ səsi qalxdı göyə, dedilər: "Qoymuyun, Həzrəti Əli əleyhsalamın oğlu Əbəlfəzl Abbas ora su aparsa, daha onlara üstün gəlmək olmaz, onun qabağını kəsin". Hər tərəfdən ona ox atdılar, nizə atdılar. Ox dəydi məşqə, su dağıldı. Ondan sonra orda ölüm-dirim mübarizəsi başladı. Əbəlfəzl Abbas gedəndə, ələmi də aparmışdı, bayrağı. Onun bayraq tutan qolunu vurdilər saldilər. O qolu düşəndə o biri əlini atdı, bayrağı göydə tutdu, qoymadı yerə düşsün. Onun o biri qolunu da vurdular saldılar. Uzaqdan nizə atdılar, onun gözünə girdi. Gözünnən nizəni çıxartmaq üçün dizlərini qaldırdı tutdu, onu çıxartdı. İkinci dəfə vurdular onun başına, atdan üzü üstə yıxıldı yerə. İmam Hüseyni çağırdı: Qardaş, gəl harayıma!

İmam Hüseyn getdi, gördü ki, Əbəlfəzl Abbasa okqədər ox dəyib, okqədər yara dəyib, qolları yox. İmam Hüseyn Əbəlfəzl Abbası götürdü qucağına, gördü Əbəlfəzl Abbas ağlıyır.

Dedi:

– Qardaş, Əbəlfəz, niyə ağlıyırsan? Ağlıyırsan ki, balaların yetim qalıb? Ağlıyırsan ki, anan oğulsuz qalıb?

Dedi:

– Yox, ya Hüseyn. Mən sənin qucağında canımı tapşırıram, səni şəhid eliyəndə sən kimin qucağında olacaxsan? Mən ona ağlıyıram.

Hürrdən sonra ikinci şəhid Əbəlfəzl Abbas oldu. Və həmin günün uzunnuğu tarixdə yazılmıyıb nə qədərdi. Və o meydanda

---

[52] məşqi – tuluq

yetmiş iki nəfər şəhid oldu. Axırıncı şəhiddən qabaq İmam Hüseyn öz altı aylıq körpəsi Əli Əsgəri götürdü qucağına, getdi.

Dedi:

– Siz deyirsiniz ki, bu qədər adamlar günahkardı. Bəs bu körpənin anasının döşündə bir qətrə süd yoxdu buna versin. Bir qətrə su yoxdu onun dodaqlarına çəkə. Bəs bunun günahı nədi?

Allah lənət eləsin Hərmala. Hərmala tarixdə deyillər ki, çox sərrast atıcı olub. Hərmalaya deyillər ki, Hərmala, yaxşı şikar düşüb əlinə, sən gör nə edirsən. Hərmala ikibaşlı oxu kamana qoydu, nişan aldı. O uşağın boğazından vurdu, onu tikdi İmam Hüseynin qoluna. İmam Hüseyn gördü ki, uşağın boğazından qan fəvvarə vurdu, əlini açdı, qoymadı ki, qan tökülsün yerə. Dedi, ilahi pərvərdigara, axırıncı körpəmi də sənin yolunda, Quranın yolunda qurban verdim. Ona görə də İmam Hüseynə "Sarallah" – "Allahın qanı" deyillər. Sonra İmam Hüseyn şəhid olur. Aşura gününün axırıncı şəhidiydi. Bu da olub günorta namazı vaxtı. O vaxta qədər günün uzunnuğu nə qədər olub onu Allah bilər. Orda yüz qırx dörd nəfər şəhid olub. Yetmiş iki nəfərin başını kəsiblər, nizədə aparıblar Şama. Yetmiş iki şühəda ordan meydana gəlib.

## 139. TÜLKÜ NƏĞIL

Qıla hesbe, qılə nıbe. Qıla piəjen hesbe. Pejini ilə kaq hesbe. İrüş şağul omada çey kaqi lounu pəğəttə bardə. Bardə şedə mandə roysə votdəki, ım kaq qılə sumuge, qılə dəriye. Çımi bədənədə hiçini. Ama, kənoku diəkardə ki, piəjen bə kaqi noz kardə:

A çımı, xosə kaq,
A, cımı nozə kaq.

Da kilo omə kaq, tıni ki bardə.
Ki, tıni qəte barde?!

De kardə bı tərəf, de kardə bə tərəf. Piəjen şit bəyə.

Im kaq qılə sümuge, qılə dəri. Imədə da kilo nibebe xo. Im ço bımi noz kardə. Diəro ku tülkü omədə.

Tülkü hiyləgər bedə, çoxbilmiş bedə. Rəsədə votdə ki:

– Şəğol çice, yıqo fikir kardəj tı.

Votdə:

– Heç, tülkü lələ, piəjeni qılə kaqım loniku peğətə, bəy noz kardə ki, a, çımı xosə kaq, nozə kaq, da kilo omə kaq. Axı ım kaq hiç i kilo nibəbe. Bımi da kilo votdə.

Tülkü votdə ki, tı hiç narahat məbi. Ə kaqi bıdə bəmı, az əy lap vis kilo vırədə bahardem.

Tülkü kaqi peğətdə, şedə diəroədə mandə və kaqi ğəşənq-ğəşənqi hardə. Şəğolən iyu dekarde-dekarde mandə.

***Tərcüməsi:***

## TÜKLÜNÜN NAĞILI

Bir qoca arvad olur. Bunun bircə toyuğu olur. Toyuq hində saxlanılır. Günlərin bir günü çaqqal gəlir hindən toyuğu götürüb aparır. Qarı görür ki, toyuq yoxdur hində. Başlayır ona naz eləməyə:

Ay mənim gözəl toyuğum,
Ay mənim nazlı toyuğum,
On kilo gələn toyuğum,
Səni kim apardı?

Çaqqal uzaqdan eşidir bunu. Deyir:

– Bu arvad dəli olubdur. Bu toyuq bir dəri, bir sümükdü. Bunda on kilo ət hardan ola bilər.

Gedir fikrə. Uzaqdan hiyləgər tülkü görür, gəlib deyir:

– Çaqqal, nə olub sənə, nə fikrə gedibsən?

Deyir:

– A tülkü lələ, o qoca qarının toyuğunu hindən götürmüşəm ki, gətirib yeyəm. Görürəm bir dəri, bir sümükdür. O deyir, mənim toyuğum on kilodur. Mən əsəbləşirəm axı. Bu toyuqda on kilo var?

Tülkü deyir:

– Çaqqal, sən narahat olma, onu ver mənə, mən onu iyirmi kilo dəyərində bilib yeyəcəm.

Tülkü lələ alır toyuğu, aparır ütür, yaxşı-yaxşı yeyir. Çaqqal baxa-baxa qalır.

## 140. XƏZİNƏ XƏZİNƏ ÇƏKƏR

Bir gün bir kişi gedirdi. Görür, bir tacir kitab oxuyur. Kitabda yazıblar ki, zəri zər, xəzinə xəzinə çəkər. Bunun da balaca bir zəri olur, aparır atır xəzinənin üsdünə. Qızıl gedir düşür xəzinənin üsdünə, xəzinə bir az da qalxır yuxarı. İndi kişi gözdüyür ki, zəri atdım xəzinənin üsdünə, xəzinəni çəkəcək də. Gördü ə, xəzinə yoxdu.

Bir nəfər görür bu ağlıyır. Diyir, niyə ağlıyırsan? Diyir, mənim bir dənə qızıl pulum var idi, bir nəfərin də qızıl püləsi[53]. Mən bir kitabda oxumuşdum ki, zəri zər, xəzinə xəzinə çəkər. Mən pulumi atdım ora, qaldi orda. Dedi, ədə, o kitabı yazan axmaq döyül e, alim oni yazıb. Zəri zər, xəzinə xəzinə çəkər. Sən görmürsən ki, bu kişinin çox qızılı var. Çox azı çəkir. Sənin bir dənə qızılın var idi, o da getdi ora. Çox azı çəkər də.

---

[53] pülə – piyalə, kasa

## 141. BƏHLUL DANƏNDƏ

Bəhlul Danandanın yoldaşı çox gözəl əyal olur. Bu, yoldaşına deyir ki, mən ölənnən sora sən çox soğan yeyərsən. Soğan da adamın rəngin dəyişir, çox yeyəndə adamı eybəcər edir.

Bəhlul Dananda ölüb gedib. Bunun tələbəsi bir dəfə gəlib görür Bəhlulun yoldaşı elə pis vəziyyətdədi. Deyir, ana, sən niyə bu dərdə düşmüsən? Həyatdı da, hamımız öləcəyik. – Elə bilir, arvad ərinin ölümünə üzüldüyü üçün bu vəziyyətə düşüb.

Deyir:

– Yox, onun fikrin etmirəm. Ölüb, ölüb da.

Deyir:

– Bəs neynirsən? Yeməyin nədi?

Deyir:

– Soğannan başqa heş nə yemirəm.

Deyir:

– Soğan yemə, soğandı səni bu dərdə salan. Kim deyib oni?

Deyir:

– Bəhlul Dananda.

Arvadı çox gözəl olur. Bəhlul deyir, mənnən sora buni alarlar, qoy buni alan olmasın. Soğan çox yi ki, qoy gözəlliyin itsin, heş kimin sənə gözü düşməsin.

## 142-146. QULAM KİŞİNİN LƏTİFƏLƏRİ

Bir dəfə Qulam kişi bir yoldaşıynən atnən gedir Lənkərana. Lənkəranda o vaxdı düyi əkərdilər, yığardilər, satərdilər. Bir evə girir. Kişi evdə olmur, arvad gətirir buna çörək verir. Deyir, nə üçün gəlmisiz? Baxır, on-on beş dənə düyü meşoğun ağzın bağlıyıb bir küncdən yığıblar. Deyir, biz düyi almağə gəlmişik. Ev

sahibi deyir, bizdə var də. Deyir, hə, sənnən alarıx. Çörəklərin yeyirlər. Deyir, neçə meşox düyüdü? Bular da iki dənə atnəndi. Deyir, dokquz dənə. Deyir, beş dənəsi əmanət qalsın, dörd dənəsin aparıram. O qalan beş dənəni də sora gəlib aparanda pulun verərəm. Arvad meşoğu yüklüyür, atları çapıb gedillər. Əri qaça-qaça gəlir. Deyir, arvad, düyini gətir, aparam bazarda satam. Bir dənə xam tapmışam, baha qiymətə ona verəcəm. Deyir, kişi, narahat olma, mən başqa xam tapmışam, hamısın da satmışam. Deyir, neçəsin aparıb? Deyir, beşin amanat qoyub, dördün aparıb. Deyir, arvad, pul verdi? Deyir, yox. Beş meşox amanatdı, gəlib aparacəh. Deyir, arvar, külü qoyum başına, olar səni aldadıb. Tanımadığın adama pul almadan düyi verəllər?

Bizdə Bioni kəndi var. İndi bular düşüllər axşamə, acınnan ölüllər. – Ədə, hara gedək? Meşənin içidi, getmək olmur. Onda ayı da var idi. Yoldaşına deyir, ədə, narahat olma. Bax, hansı evdə mal-heyvan çoxdu, ora dönək. Bəli, dönüllər bura. Bu kişinin də, demək, dokquz dənə qızi var imiş. Buların heç biri ərə getmiyib. Ev sahibi Qulam kişini tanıyir. Deyir, ədə, xoş gördük. Deyir, ədə, biz xeyir işə görə gəlmişik. Vəziyyət belədi. Mənim bir oğlum var, indi toy eliyə bimərəm, yazda toy eliyə bilərəm. Sənin qızdarın birdən gedər. Mən gəldim ki, səndən bir dənə qızın indidən hərisin alam. Kişi durur, dərhal bir qoyun kəsir, kabab eliyir. Oturub yeyillər, heyvanın yarısin də bunin üçün saxlıyıb. Deyir, ancaq mən yazda gələcəm.

Bu kişi gözdüyür. Yaz gəlir, uje payızdı, bu kişi gəlmədi. Yavaş-yavaş özü – yaxın kəntdi də, – gəlir bu kəndə. Deyir, ədə, bəs deyirdin yazda gələcəm qızı alacam, oğluma toy eliyəcəm. Deyir, ədə, oğlan öldi, indi gəlmisiz? Oğlan ölib, qırxı da çıxıb. Sənin baxdın yox imiş. Kişi on manat da pul atır orda, çıxır gedir evinə.

## 143.

Qulam kişi pitixana işlədirdi. Onda da keçi pula getməzdi, qoyun gedərdi. Pitixanada keçi ətinnən piti qoyur. Bir dəfə lotilər yeyəndə görüllər pitidən keçi tüki çıxdı. Çağırıllar: – Quləməli, gəl bura. Gəlir. – Bu nədi? Bu keçi tüküdü. Deyir, mən neynim? Onu mənə verənin atası belə-belə olsun. Qəssab da orda oturub. Qəssab da keçini kəsəndə deyib, Qulaməli, bu keçi ətidi ha, sora demə demədin. Qulam kişi deyəndə keçi kəsənin atasına nəhlət, qəssab deyir, üzün qara olsun, sən mənim atamı niyə söyürsən? Kəsəndə mən demədim bu keçidi?

## 144.

Bir dəfə də saldatdar gəzirlər, kim əsgər getmiyib tutub aparıllar. Qulam da əsgərrihdən yayınır. Çox axtarıllar, bunu tapa bilmillər. Bir gün duman olur, yaz olub. Kartof əkiblər, indi tərşələmə[54] vaxdıdı. Qulam gəlir evə. Agentdər xəbər verir ki, Qulam gəlib, evdədi. O vaxdı evin dalında bir dənə baca olurdu, bacanın ağzına şüşə qoyardılar, çərçivə olmazdı. Saldatdar evi akrujeniya eliyir. Qulam görür, əşi, qapıdan çıxmalı döyül, şüşəni sındırır, özünü bacadan atır çölə. Üzüaşağı aşağı kəntdərə tərəf qaçır. Aşağıda da kartof əkillər, yer belliyillər. İki qardaş burda yer belliyir, bu da qaçır. Gəlib bulara çatanda deyir, ədə, qaçın, saldatdar gəlir. Bu iki qardaş götürülür, bu özü başdıyır yer belləməyə. Bunu tanımırlar axı. Saldatdar görür iki nəfər qaçır, buların dalınca gedillər. Bu iki qardaş da gedib bir kolun divində gizdənir. Saldatdar fişəhdən buraxıllar kola. Bu qardaşlar sora Qulamı görəndə deyillər, sənin üzün qara olsun. Fişəngin isdisi hələ də qulağımızdan getmiyib.

---

[54] tərşələmə – dibini yumuşaltmaq

## 145.

Bir gün də mağazaya pol vurublar, Qulam kişi də mağaza işlədir, arif adamdı da. Bu görür mağaza iy verir... Pişik-zad girib içəri, iy verir. Ona görə adam girmir bura. Bir nəfər də varıfdı təzdən gəlir bura. Gəlir alver eləməyə. Qulam kişi buna deyir, əşi, mənim bir torba pulim düşüb. Kim o padvala düşüb o pulları çıxartsa, – cəmi iyirmi qəpik pul salıb ha, – yarısi onundu. Bu kişi bir dənə taxtanı sökür, pol da bu hündürrüydədi[55], girir buranı süpürür. Deyir, ədə, tapa bilmədim, cəmi iyirmi qəpik var. Deyir, ədə, süpür, ordadı. Padvalı tamam buna süpürtdürür, təmizdətdirir. Çıxanda deyir, ədə, sənin bəxdin yoxdu. Siçannar puli aparıb. İyirmi qəpiyi də götürüb, cəmi ona on qəpik verir.

## 146.

Lənkəranda Böyük məscidin yanında bunun pitixanası vardı. Talışdar buna lağ eliyir ki, dağdan çarıxnan gəldi, burda adam oldu. Qulam kişi qalır belə. Neyniyim, neynəmiyim? Talışdan hər gün səhər-səhər bunun üçün göy-göyərti gətirillər stalova üçün. Kişini çağırır. Deyir, ədə, bura gəl. Deyir, Qulama boli, nə işdi? Deyir, arvad xəsdədi. Deyir, dərdi nədi? Deyir, gözdəri xarabdı, kor olur. Deyir, həkimə aparmamısan? Deyir, həkimə aparmışam. Mənə dedilər ki, qurbağa gözi yesə, onun gözdəri düzələr. Qurbağa tuta bilərsən? Dedi, ha, Qulama boli, yazdı də, niyə tutmuram? Gedir, iki gündən sora gəlir. Başın salır içəri, görür həmən o lotilər oturub Qulamı doliyirlər. Deyir, Qulama boli, olar səni? Deyir, gəl, nə işdi? Deyir, bəs sənin amanatdarını gətirmişəm. Pitixananın qabağında da qanal var, içindən su axır. Qapının ağzında da bir az asfalt var. Onnarı

---

[55] Söyləyici əli ilə döşəmənin hündürlüyünü göstərir.

da çağırır, gəlin bura. Deyir, boşaltginən, sayginən, neçə dənədi mən onun pulin verim. Bu qurbağaları boşaldan kimi qaçanı qaçır, səkgiz dənəsin tutur verir. Səkgiz manat ona pul verir. Deyir, get, elə bu səkgiz dənə bəsdi. O gedənə deyir, siz bu deyilsiz bəyəm? Siz mənim nəyimə lağ eliyirsiz.

## 147. İNANCLAR VƏ YASAQLAR

1. Qırxlı uşağın başın altına bıçax qoyardılar. Qayçı qoymazdılar. Qayçı qoyanda deyilənə görə, uşax hərzə olur, yəni çox danışan, vasvası olar. Daş qoyardıx ki, uşax daş kimi olsun, az danışsın. Altı dənə daş olsun gərək. Altı dənə xırda daş beşiyin altına qoyardıx, uşağın başının altına qoyardıx.

Bir də ki, uşax qorxu keçirdərdi. Qorxunu götürmək üçün bir ovuc un götürərdik. Unu götürüb uşağı tutardım qucağımda, evin dörd küncünə deyərdim: "Bu uşağ Arazın belindən gəlib, bunun qorxusunu götürürəm". Uşağın qorxusun götürürəm deyib undan bir az küncə səpərdim. Növbəylə o biri künclərə də həmin sözləri deyib unu səpərdim. Dörd küncdə unlar qalardı, uşağın qorxusu gedərdi.

2. Uşağın çiləsini kəsmək üçün bir masquraya qırx qaşıx su tökürdülər. Sonra uşağın başının üstünü əskiynən örtürsən. Üstünü örtəndən sora "bunun çiləsini kəsirəm, uşağın üsdünə gəlib-gedənlərin ayağın kəsirəm" deyib o qırx qaşıq suyun hamısın səpirsən uşağın üstünə.

3. Anam deyirdi ki, uşağın beşiyi başında laylay çalanda nə ağlıyasan, nə də kədərlənəsən. Həmişə şirin-şirin laylay de, xoş sözlər de ki, uşağın gələcəyi yaxşı keşsin, onun qulağına yaxşı

sözlər getsin. Nəbadə, bir işin də olsa, rəhmətə gedənin də olsa, uşağın yanında heç vaxt kədərli söz demə. O söz uşağın qulağına gedəcək. İndi də belə məsəl var. Kimin işi düz getmir, ona deyirlər ki, sənin nənən sənin beşiyinin yanında bəd laylay çalıb. Həmişə gərək yaxşı söz deyəsən. Mən də uşaqların yanında həmişə belə laylay çalardım, kədərli söz deməzdim, qorxardım anamdan.

Laylay bəjem boşda bala,
Balam şirin-şirin bıhıto.
Çımı balə, şinə bala,
Yola balə bıboş tı.
Səvodliye bala, bıboş tı.
Balam laylay, balam laylay[56].

4. Babam deyərdi ki, meyit namazı, bir də kəbin üçün alinan pul haramdı, ona pul almaq olmaz. İnsan ki canın tapşırdi, onun namazı kəndin hamısının boynuna gəlir. Şəriyətin hökmüynəndi bu. Bir nəfər o namazı qılandan sonra kəndin hamısının üsdünnən o namaz götürülür. Ona görə deyərdi ki, meyit namazına pul almaq haramdı. Qaldı ki, əqd məsələsi. Deyir, əgər gedirsən mollanın yanına ki, bəs mənim qızımı filankəsin oğluna əqd elə. Molla desə ki, mənə filan qədər pul ver, o pul haramdı. Çünki peyğəmbərin şəriyətində var, bu şəri hökümdü, bunu gərək eliyəsən. Sən də məndən haqq isdiyirsənsə, mənim də gücüm çatmadı... Sən heç onu oxutdurma. Allah tərəfindən onların əqdi əqd hesab olunur. Amma o əqd oxuyan Allaha o baradə cavab verəcək.

---

[56] Laylay çalaram öz balama
Balam şirin-şirin yatsın.
Mənim balam, şirin bala,
Böyük bala olasan sən,
Savadlı bala olsan sən,
Balam laylay, balam laylay.

5. Çoxlu yağış yağanda istiot səpirik ocağa. Ya da yağışı kəsmək üçün sap götürürsən, 40 dənə keçəlin adını deyib düyün vurursan. Gün çıxanda 40 keçəlin başı ağrıyır.

6. Türbədən gətirilən torpağı yandırırdılar. Deyirdilər, günəş çıxacaq. Sonra onu isladırlar, yağış yağır.

7. Rəhmətdik anam deyərdi ki, nəyi bulaşıq saxlasan da, kəfkiri heç vaxt bulaşıq saxlama, qarğış edər. Bərəkət olmaz.

8. Süfrəni açıq saxlamaq olmaz. Əli süfrəsidir. İşin varsa, heç olmasa, qatla.

9. Masanın küncündə oturmaq olmaz. Otursan subay qalarsan.

10. Bir meyvənin nübarını yeyəndə gərək deyəsən "həzu suri nübari bıdəş". Yəni, min ilin barını verəsən.

11. Göy qurşağını görəndə deyərik: "Piəjeni hana etə" (Qoca nənə hana çəkib).

12. Pişik deyir ki, Allah mənim sahibimə yeddi kor qız qismət eləsin. İt deyir ki, yeddi oğlan qismət eləsin. Niyə belə? İt deyir, hər oğlan mənə bir tikə çörək atar, qarnım doyar. Pişik deyir ki, mən kor qızlardan oğurlayıb yeyərəm.

13. Uzun müddət yağış yağardısa, üzü qibləyə sarı yeddi addım atardılar. Yeddi addım atandan sonra yağış kəsərdi.

14. Böyük qasırğa olanda deyərdilər, fəlakət olacaq. Evin sonbeşiyi baltanı götürüb ağaca vurub yerə sancardı, qasırğa sakitləşərdi.

15. Toy ərəfəsində əncir ağacına qırmızı parça bağlasan, toyda yağış yağmaz.

16. Nişanlı qız gəlin köçdüyü günəcən qonşudan heç nə alıb yeməməlidi.

17. Nişanlı qız hava qaralandan sonra çöldə-bayırda, xüsusilə çayda, çeşmə başında qalmamalıdı. Bu vaxt şər qüvvələr ona xətər yetirə bilər. Nişanlı olan dövrdə qızın şər qüvvələrə qarşı müqaviməti zəyif olur.

18. Gəlin köçən qıza özü ilə aparmağa dibçək verməzlər.

19. Toy günü bir şirniyyatı qıza dişlədib, qalan yarısını oğlana yedizdirirlər ki, sözləri biri-birinə şirin gəlsin.

20. Toy olmuş ev həmin il həyətdə təndir qoymamalıdı.

21. Gəlin ölü aparılarkən onunla rastlaşarsa, gərək həmin ölünün qəbrindən bir az torpaq götürsün və geri baxmadan qəbirdən uzaqlaşsın, evinə qayıtsın. O, qəbir üstündən götürdüyü torpağı həyətində yerə atsın, atdığı yerə baxmadan evə girsin. Yoxsa çiləyə düşər.

22. Təzə doğmuş pişiyin, hər hansı balalı heyvanın, eləcə də cücəli toyuğun üstündən çiləli gəlin adlasa, ya həmin heyvan, ya da balası öləcək. Əgər gəlin artıq hamilədirsə, ya gəlin, ya uşağı tələf ola bilər.

23. Ramazanda kəsilən heyvanın ürəyini bişirib, onu çiləli gəlinin başı üstündə doğrayaraq ona yedirtsən, çiləsi götürülər və övladı olar. Yaxud da çiləli gəlin son çərşənbə

axşamı səmənini kəsib, onu axar suya verib: “Ey səməni, mən səni necə kəsmişəm, sən də çiləmi elə kəs!” – desə, sağalar.

24. Hamilə qadın çörək bişirilən təndirin yanından keçərkən çörəyin iyi ona dəyərsə, o çörəkdən mütləq ona yedirdirlər. Yeməsə, uşaq ölər.

25. Uşağın doğulduğu altıncı gün ad qoyulmalıdı. Adqoyma gecikdirilərsə, deyirlər, o uşaq yalançı olar.

26. Əgər bir qadının bir neçə uşağı olub ölübsə, ona pis bir adamın adını qoyurlar ki, yaşasın.

27. Uşağın çiləsi çıxan gün onu çimizdirmək lazımdı. Çilə suyu bir axşam uşağın beşiyinin altında saxlanmalı, sabahı gün atılmalıdı. Yoxsa, uşaq yatmaz.

28. Körpə uşağı pəncərədən keçirməzlər.

29. Körpə uşağın qundağını açarkən, o əlini açarsa, əliaçıq, yumarsa, xəsis olar.

30. Körpə uşağın əlinin içindəki kiri təmizləməzlər. Təmizləsən, uşaq yuxusuzluğa düçar olar.

31. Uşağın beşiyinin altında və ya uşağın üstündə pişik özü qalxıb yatarsa, uşağın xəstəliyini özünə çəkmiş olur.

32. Uşağın beşiyini boş tərpətsən, qulaqları ağrıyar.

33. Uşağın ağzının suyu daim axarsa, dayısının baş barmağını soorsa, ağzının suyu dayanar.

34. Hamilə qadının əvvəlki uşağı əlinə süpürgə götürübsə, qız, çubuq götürübsə, oğlan olacaq.

35. Uşaq üçün bir iş görmək istəyərkən səbr gələrsə, bu ona işarədir ki, uşağın başına bir iş gələcək. Bu vaxt uşağın köynəyinin yaxasını dartıb silkələməklə "yüngül keçsin" demək lazımdır.

36. Qorxmuş uşağın başına qapı ağzının külünü töksən, qorxusu keçər.

37. Qəbr qazılarkən qəbrin içinə yağış yağsa, ölünün ardı gələr deyərlər. Bəzən deyirlər, ölü sayı üç olacaq.

38. Yatmış və ya uzanmış insanın üstündən adlamazlar. Uşaqsa böyüməz, yaşlısa ölər.

39. Yaxınlıqda adam ölmüşsə, həmin gün qonşulara da çimmək olmaz. "Həmin gün su ölünündü" deyərlər.

40. Yuxuda ölü görmüş adam gərək sabahı gün qəbristanlığa getsin. Burada özü ilə gətirdiyi soğanı dişləyib, qəbristanlığa atsın və geri baxmadan evinə dönsün.

41. Şam yeməyindən sonra süfrədəki yemək və çörək qırıntılarını həyətə atmaq, süfrəni həyətə çırpmaq olmaz. Bu vaxt evin xeyir-bərəkəti də cırpılıb atılmış olar.

42. Qayçının ağzının da çox açıq qalması kimin isə dalınızca danışılması kimi yozulur. Bunun qarşısını almaq üçün qayçının ağzını bağlamaq lazımdı.

43. Evdə bir və ya iki qab sınarsa, deyərlər ki, mütləq üçə çatacaq.

44. Evdən qonşuya köz verməzlər. Öz ocağını söndürüb, onun ocağını yandırırsan, deyirlər.

45. Əl yaylığını (dəsmalı) birinə vermək, birindən almaq ayrılacaqları kimi yozulur.

46. Həyətdə, çəpərin bir yerindən ki, it özü üçün keçid düzəldər, buna "it keçidi" deyərlər. Qorxu keçirmiş uşağı üç dəfə belə it keçidindən keçirmək lazımdır ki, qorxusu keçsin.

47. Qorxan uşağı səbətə qoyub, yeddi köhnə qəbr üstə aparıb, sonra evə gətirsən, qorxusu keçər.

48. Saç kilkəsini ocağa, peçə atmazlar. Saç sahibinin başı ağrıyacaq.

49. Sağ qulağın qızarıbsa (istiləşmişsə), yaxşılığa, sol qulağın qızarıbsa, bədliyə yozulur.

50. Süfrə önündə çörək yeyən adamın qabağında qırıntı çox qalarsa, demək, o adamın dalınca bəd danışırlar.

51. Süfrənin üstündə su qoymazlar. Deyirlər ki, şeytan su içir.

52. Axşam vaxtı uşağı çölə çıxartmaq olmaz. Çıxardanda da gərək üstünə ağ örtük örtəsən ki, uşağın üzü görünməsin. Ya da uşağı çölə çıxardan əlində bıçaq tutsun gərək.

53. Son çərşənbə günü subay qız həyətdə, arxası evə tərəf qalıb, başmağını başının üstündən arxaya atdıqda, başmağın burnu həyət qapısına tərəf qalarsa, demək, o, bu il ərə gedəcək. Başmağın burnu evə tərəf qalarsa, demək, o, bu il də ərə getməyəcək, evdə qalacaq.

54. Əlinin içi tərləyirsə, demək, səni çox sevirlər.

55. Kim yemək yeyərkən boşqabındakını təmiz yeyib qurtarsa, gələcək adaxlısı təmizkar və gözəl, boşqabı təmizləməsə, adaxlısı çirkin olacaq.

56. Xalq arasında ölütutma inancı var. Hər adam yox, xüsusi bilən adam, duktona deyilən alət var, onu açır. Talış dilində dukaçma deyilir. Ələyin üstünə bir parça çörək, bir tikə də kömür qoyulur. Kömür də sənin öz ocağından olmalıdı, evin ocağından. Duktona deyilən xüsusi alət var, həmin alət onun üstündə fırladılır. Həmin alət fırlana-fırlana əgər kömür üstə gedərsə, demək, onu ölü tutub. Axşamüstü deyirlər ki, filankəsin qızdırması qalxır. Gündüz yaxşı olur, axşamlar qalxır. Həmişə eyni vaxtda xəstədə qızdırma qalxırsa, demək, onu ölü tutub. Həmən duktona ilə öyrənmək olur ki, rəhmətdik nə istiyir. Həmən alət kömür üsdə gedirsə, demək, onu ölü tutub. Onda "Yasin" oxutdururlar, salavat çevirirlər, və yaxud da cümə gecəsi ehsan verirlər. Bu vaxt istifadə olunan çörəknən kömürü yemək də olar, təmiz bir yerə qoymaq da olar. Kömür yiyilmir, amma onun üstünə su tökülür, onun suyu içilir. Bizim adətimizdi, bu günə qədər bundan istifadə eliyirik. İnanırıq. Dərhal da qızdırma düşür istər böyükdə, istər uşaqda.

57. Birinin bir lirə haqqını vermək, min lirə sədəqə verməkdən xeyirdi. Eşitdiyimə görə, yul adamına verilən yeməyin o biri dünyada hesabı yoxdu, suabı çoxdu.

58. Dovşan maşının qabağından keçəndə maşından pul atırdılar çölə. Dovşan diyillər pisdi.

59. Kim səhər-səhər eşşəyə rast gəlsə, işi uğurlu olar

## 148. ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

1. Bir dəfə çoxlu qar yağır. Qarğanın oturacaq yeri olmur. Allaha şikayət edir ki, ya rəbb, mənim üçün bir yer saxlayardın, mən orda oturardım da. Xəbər gəlir ki, sən hansı budağı zibilləməmisən, get, orda otur.

2. Qarğanın balası kor olur. Nə qədər həkimə gedir, xeyri olmur. Axırda bir həkim deyir ki, sən get bu meşəni gəzginən. Hansı budağı zibilləməmisən, onun mamırından gətir, gözünə sürt, sağalacaq. O da gəzir, görür bütün budaqlar zibillidi.

3. “Kəybəho dəşi pəncəku beşi”.
*Tərcüməsi: Qapıdan girdi, pəncərədən çıxdı. Xeyirsizlik olanda deyilir*.

4. Neçi bəzüzə, ışdə bala bəşdə sə qırd bəka.
*Tərcüməsi: Canavar ulayar, balalarını başına yığar.*

5. Ağa mülk bəşe, fəhlə con bəşe.
*Tərcüməsi: Ağanın mülkü gedər, fəhlənin isə canı.*

6. Həşi be bəşi, aləm bəvindi.
*Tərcüməsi: Günəş çıxar, aləm görər.*

7. Halasol omə, moy oməni.
*Tərcüməsi: Balığın hələ balası gəlir, özü gəlmir.*

8. Do iştən tele, meyvə şirin.
*Tərcüməsi: Ağac acıdır, meyvəsi şirindir.*

9. Guşi votşe az harüj qələ sıxan nimasum, az qalxan bəbim.
*Tər.: Qulaq deyir, hər gün bir söz eşitməsəm qalxan olaram.*

10. Zuvun be çımın sə bəloye.
*Tərcüməsi*: *Dil mənim başıma bəladır*.

11. Mə kü co kəsi kəyvə bəyköen ıştı kəyvə.
*Tərcüməsi*: *Döymə başqa qapını, döyərlər sənin qapını.*

12. Sıpə də sıpə dave qəti bə ru şe fırsət be.
*Tərcüməsi*: *İtlər bir-biriynən qapışdı, yola çıxmaq fürsət oldu.*

13. Zuvuni vote bə bədəni: – işto kef çoko?
*Tərcüməsi*: *Dil dedi bədənə, sənin kefin necədir?*

14. Iştəni məşt bənə təyfə livə, təmiz məkə**.**
*Tərcüməsi: Özünü yuyub tərtəmiz eləmə turp yarpağı kimi.*

15. Xalamın gəlini ilanın gəlinidi.

16. Pişiyin ağzı tuluğa çatmıyanda diyir, turşdu.

17. Də əğılmani sığ bikırın, də nodoni nun məhə.
*Tərcüməsi*: *Ağıllı adamla daş daşı, nadan adamla çörək yemə.*

18. Səfeh bə morə dümi xıynə bəno.
*Tərcüməsi*: *Səfeh adam siçanın quyruğuna xına qoyar.*

19. Asp eğandə pambəsə, hə eğandə zambəsə.
*Tərcüməsi*: *Atdan düşən pambıq üstə, eşşəkdən düşən daş üstə.*

20. Bə həşi-ovışım peqardə.
*Tərcüməsi*: *Aya, Günə dönüb.*

*21.* Veəzun ve bəkəşə. *Tərcüməsi*: *Çox bilən çox çəkər.*

22. Ve nıfınəkə dıvo əməsni.
*Tərcüməsi*: *Çox qarğış eləyənin duası eşidilməz.*

23. Cəfo bıkəş, səfo bıvınd.
*Tərcüməsi*: *Cəfa çək, səfasını gör.*

24. Bo küə aspı füştə bıkə çiftə baha.
*Tərcüməsi*: *Kor ata fişqırıq çalan təpik yeyər.*

25. Ku əve, bə i qılə çol dı kərə ebəginə.
*Tərcüməsi*: *Kor inək bir çalaya iki dəfə düşər.*

26. Lampə iştə bın ruşnə əkəni.
*Tərcüməsi*: *Lampa öz dibinə işıq saçmaz.*

27. Əmə oməmon bə vəvu vınde, vəvu şə bə torə çıne.
*Tərcüməsi*: *Biz gəlini görməyə gəlmişik, o da tərə yığmağa gedib.*

28. Bıgi və rışı pebəğanden.
*Tərcüməsi*: *Bığla saqqalı bir-birinə uyğunlaşdırıblar.*

29. Mollo votəy bikə, kardəy məkə.
*Tərcüməsi*: *Mollanın dediyini elə, əməlini eləmə.*

30. Qo marde, qoduş arşiyəy.
*Tərcüməsi*: *İnək öldü, inək sağılan qab da sındı.*

31. Səfe damə nıbu, əvən qıley şəxs bəbe.
*Tərcüməsi*: *Səfeh əgər dillənməsə, o da adam olacax.*

32. Sıxan hesfe xılxədə, sıxan heste xəlxədə.
*Tərcüməsi*: *Söz var hülqumdadır, söz var xalqdadır.*

33. Pışık canə fel zındə, morə əxtə hıl zındə.
*Tərcüməsi*: *Pişik nə qədər fənd bilir, siçan o qədər deşik bilmir.*

34. Potşo dəvən poəvo nəvdə.
*Tərcüməsi*: *Padşahın dəvəsi də piyada gəzir.*

35. Sədəş bıbu, kədəş bebə.
*Tərcüməsi*: *Başında olsa, evində də olar.*

## 149. BAYATILAR

1. Kağız yazdım biləsən,
Oxuyasan, güləsən.
Kağızın cavabın
Tez yazıb yolluyasan.

2. Lənkəranda işim var,
Bir cüt qızıl dişim var.
Uca boylar içində
İstəkli qardaşım var.

3. Dəsmalı ox saxlaram,
Yuyaram ox saxlaram.
Ay balam, ay mənim qardaş-
darım, əyər əlimə düşsəəz siz,
Gözüm üsdə saxlaram.

4. Muğanın yasdı yoli,
Su gəldi, basdi yoli.
İsdədim durum gəlim yanına,
Bala, Əzrayil kəsdi yolimi.

5. Muğanın göy çiməni,
Göyərir göy çiməni.
Ya gəzib taparam sizi,
Ya ovçu görər məni.

6. Bazarda üzüm qaldi,
Almadım, gözüm qaldi.
Zəhmət çəhdim, bala becərdim[57],
bala boya-başa çatdırdım,
Balaların üsdündə gözüm qaldı.

7. Bülbülün lal olubdu,
Dilim abdal olubdu.
Əzəl oxuyan bülbülüm,
İndi dilin lal olubdu.

8. Getmə-getmə amandı, ay qardaş,
Halım sənə ayandı.

[57] becərdim – böyütdüm

Gəlişivə bacilərin qurban,
Gedişin nə yamandı.

9. Üzərrih dəsdə-dəsdə,
Tutmuşam dəsdə-dəsdə.
Gedursuz, ürəyi yanan
anama deyuz,
Hər gün gəlsin qəbrimin üsdə.

10. Mən aşığ o gün eylər,
Dərd ürəydə dügün eylər.
Qardaşı ölən bacilər, bacisi
ölən nənələr,
Hər məclisdə deyib ağliyər.

11. Mən aşıx, bu gün burda,
Dərd burda, dügün burda.
Kimin cavanlari ölübdü,
kimin igiddəri ölübdü,
Ağlasın bu gün burda.

12. Getdi, görə bilmazsan,
Zülfün hörə bilmazsan.
Bu səfər ağır səfərdu,
Daa görə bilmazsan.

13. Səpəlan dağ oleydi,
Dörd yanı bağ oleydi.
Neyneydin dünya malın, ay bala,
Kaş canın sağ oleydi.

14. Almani almayıram,
Al yerə salmayıram.
Mən qardaş, bala ölmağı,
Boynima almayıram.

15. Sarı gilas rəngində,
Saat var biləyində.
Allah, məni öldürmə,
Arzum var ürəyimdə.

16. Bakıdan maşın gəlir,
Bilmirəm neyçin gəlir?
Qardaş bir qız sevibdi,
Ondan çox xoşum gəlir.

17. Dəyirman üsdü çiçəh,
Orax gətir, onu biçəh.
Qardaş bir qız sevibdi,
Şirin dil, qara birçəh.

18. Xalçəni bükə-bükə,
Bükdüm, dayadım yükə.
Sevdin, ala bilmədin,
Olasan tikə-tikə.

19. Çıxdım çəpər üsdinə,
Baxdım yarin yurdinə.
Əlində qızıl alma,
Atdi mənim üsdimə.

20. Gedirəm yuva arasi[58],
Tapdım maxmar parasi.
Qardaş bir qız sevübdü,
Üzündə Ay parasi.

21. Ağac başi şingilə,
Şingiləni kim bilə?
On iki mahnı qoşaram
Sənin kimi gözələ.

22. Oğlan, adın Yusufdu,
Gün dağlara düşüfdü.
Sənin verdiyin üzüh,
Barmağımnan düşüfdü.

23. *O biri də elə deyərdi:*
Oğlan, adın Yağubdu,
Gün dağlara doğubdu,
Sənin verdiyin üzüh,
Barmağımnan düşübdü.

24. Başımda ağ şalım var,
Ağ şala oxşarım var.
Özüm əsgər ayləsi,
Əsgərə oxşarım var.

25. Kağız yazdım, biləsən,
Oxuyandə güləsən.
Kağızımın cavabin
Tez yazıb yolliyəsən.

26. Çimənə çay deməRəm,
Ulduza ay demərəm.
Sənin kimi bacıma,
Ağzımda vay demərəm.

27. İsdikandə çayə bax,
Aynə götür, Ayə bax.
Mən səni çox sevirəm,
Gözəllığda çayə bax.

28. Usdula dayanırsan,
Nar kimi oyalıbsan.
Dərdini mən çəkirəm,
Sən niyə saralıbsan?

29. Evdən evə işığdu,
Mecmə doli qaşığdu.
Bizim oğlan neyləsin,
Sizin qızdar aşığdu.

30. Qızıldu dişun sənin,
Müşgüldi işun sənin.
Çox da tərif eyləmə,
Puşdu yeruşun sənin.

---

[58] Əsli Əliyeva və Qızılgül Əliyeva bayatıları üzbəüz ayaqüstə dayanaraq, təpsi çalaraq, irəli-geri hərəkət edərək avazla oxudular.

31. Pilləkənnən çıxginən,
Yarinən danışginən.
Bi isdekan çayim var,
Onu da sən işginən.

32. Gülü sulu dərməzlər,
Məni sana verməzlər.
Əgil, üzünnən öpüm,
Xəlvət yerdi, görməzlər.

33. Pəncərəsən, şüşəsən,
Sürüşəsən, düşəsən.
Məni kimlər qarğadi,
Sən bu dərdə düşəsən.

34. Qardaş oturən yerdə,
Dəsmal götürən yerdə.
Bacisi qurban olsun,
Adi tutulan yerdə.

35. Sən get, sona yolladım,
Sərin suya yolladım.
Özüm gələ bilmədim,
Çox-çox səninçün dua yolladım.

36. Lənkarən yollarində,
Bənd oldum küllərində.
Bir cüt sahat oleydim,
Qardaşin qollarində.

37. Uşdum, havadan uşdum,
Qanadım sındı, düşdüm.
Həmsinnən irəliydim,
Həmsinnən geri düşdüm.

38. Mənə baci diyəsən,
Xanım baci diyəsən.
Sənə baci diyərəm,
Mənə də doğma baci diyəsan.

39. Bacım, bacım olasan,
Doğma bacım olasan.
Oxutdurram Qurani,
Mənə bacı olasan.

40. Xırda-xırda nar kolları,
Narı nə qəşəhdi.
Qurban olum qardaşa,
Yarı nə qəşəhdi.

41. Aşıq gəzər hər yana,
Sözün deyər mərdanə.
İgidə ürək verər
Bərk ayaqda mərd ana.

42. Ağ dəvə düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Oğlanı dərd apardı,
Dərmanı qızda qaldı.

43. Bülbül uçdu qəfəsdən,
Gül açıldı həvəsdən,
Gözüm gözəldən doymaz,
Qulağım incə səsdən.

44. Əzizim, daşdı dağlar,
Çınqıllı, daşdı dağlar.
Obam sənnən köç etdi,
Ləzzətin qaşdı, dağlar.

45. Əzizim, sazlı dağlar,
Qartallı, qarlı dağlar.
Nə veribsiz baş-başa,
Bağçalı, barlı dağlar.

46. Əzizim, qoca dağlar,
Zirvəsi uca dağlar.
Düşdüm səndən aralı,
Ətəyi yonca dağlar.

47. Əzizim, hər gün ağlar,
Qaş-gözü süzgün ağlar.
Elinnən ayrı düşən
Bir gülsə, yüz gün ağlar.

48. Əzizinəm, keçmərəm,
Səfa suyun içmərəm.
Doğransam da qılıncla
Vətən, səndən köçmərəm.

49. Əzizinəm, gül əllər,
Bağban bağda gül əllər.
Yar vəfasız olanda
Ələ salıb güləllər.

50. Əzizim, bala dərdi,
Zülümdü bala dərdi.
Bütün dərdlər sağalsa,
Sağalmaz bala dərdi.

51. Əzizinəm, ay gözəl,
Yoxdur sənə tay, gözəl.
Mən yadına düşəndə
Sən günləri say, gözəl.

52. Əzizinəm, dağ üstə,
Maral gəzər dağ üstə.
Neyləmişəm mən sənə,
Dağ çəkirsən dağ üstə.

53. Əzizinəm, belə yaz,
Necə gördün, elə yaz.
Könül evi şad olar,
Bir də gəlsə, belə yaz.

54. Əzizinəm, dilimdi,
Alma dilim-dilimdi.
Dillərin ən şirini
Mənim ana dilimdi.

55. Əzizim, dilim-dilim,
Kəs qarpızı dilim-dilim.
Ürək səndən dönən deyil,
Doğransam da dilim-dilim.

56. Əzizim, olmuyaydı,
Bənövşə solmuyaydı.
Yaxşılıq pöhrə versin,
Pislik heç olmuyaydı.

57. Əzizim, ay əlindən,
Düşməsin yay əlindən.
Yaman günə düşmüşəm,
Dünyada zay əlindən.

58. Əzizim, bir gül oldum,
Bir gözələ qul oldum.
Dilbilməz bir quş idim,
Bağçada bülbül oldum.

59. Əzizim, tək sinədi,
Gördüyün tər sinədi.
Yaman yamansan, dünya,
Hər işin tərsinədi.

60. Əzizim, bir dənəyəm,
Bərq vuran pərvanəyəm.
Mən səni görməyəndə,
Bil, dəli-divanəyəm.

61. Əzizinəm, tac qalar,
Şah başında tac qalar.
Qarnı doymuş yetimin
Gözü doymaz, ac qalar.

62. Mən aşiq yana-yana,
Od düşüb şirin cana.
Dindirməyin, dərdliyəm,
Ağlaram yana-yana.

63. Yağaram yağış kimi,
Əsərəm qamış kimi.
Könlüm səni arzular
Bir nübar yemiş kimi.

64. Laylay çallam həmişə,
Dada Xudam yetişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

65. Bu yol ilə xan gedər,
Açma yaram, qan gedər.
Ona təbib neyləsin,
Əcəl gələr, can gedər.

66. Əli əlimdə deyil,
Şalım belimdə deyil,
İşləri Allah edir,
Mənim əlimdə deyil.

67. Gedərəm qoyuna mən,
Baxaram boyuna mən.
Böyütdüm zəhmət ilə,
Baxmadım toyuna mən.

68. Laylay çallam adına,
Əli çatsın dadına.
Əli dada çatanda
Məni sal sən yadına.

69. Dağları gəzdim, gəldim,
Daşdarı düzdüm, gəldim.
Sorağın ala bilmədim,
Ümidi üzdüm, gəldim.

70. Bağçada gülüm olsun,
Şeyda bülbülüm olsun.
Almağa yetim könlü
Bir şirin dilim olsun.

71. Mərdlərə quzu qurban,
Qoç qurban, quzu qurban.
El qeyrəti çəkənə
Namərdin yüzü qurban.

72. Qəribə at verəllər,
Əlinə daş verəllər.
Qəribin kasasını
Əlinə boş verəllər.

73. Bazara keçi gəldi,
Sanadım, üçü gəldi.
Yol açın, meydan açın,
Qəribin köçü gəldi.

74. Qızıl üzük firuzə,
Gedin deyin xoruza.
Bu gecə bannamasın,
Yar gələr qonşumuza.

75. Əlim əlimdə deyil,
Şalım belimdə deyil.
Mənə təənə vurma,
İxtiyar məndə deyil.

76. Gedirdim bu yola,
Tapdım məxmər porasi.
Bir qız gördüm əl dəyməmiş,
Üzündə var diş yarası.

77. Şaftalıyam, kalam mən,
Dilim yoxdu, lalam mən.
Qonşuda bir qız sevirəm,
Pulim yoxdu alam mən.

78. Sandıq üstə gəzərəm,
Sandığa gül bəzərəm.
Ağır elin qızıyam,
Qərib yerdə gəzərəm.

79. Masallı hacıları,
Başında tacıları.
Ağa qardaş toyunda
Oynasın bacıları.

80. Əzizim Fatma nənə,
Qaşları çatma nənə.
Sevəni sevənə ver
Günaha batma, nənə.

81. Bu evlər uzun evlər,
İçində olsun toylar.
Yar yara qurban olsun
Yaşıyaq uzin illər.

82. Yar bilər yarın qədrin,
Tar bilər tarın qədrin.
Cəfa çəkdiyin bülbül
Bilməz baharın qədrin.

83. Duman çalıb gələrəm,
İlham alıb gələrəm.
Yar məni dəvət etsə,
Qanad çalıb gələrəm.

84. Qızıl üzük laxladı,
Verdim anam saxladı.
Anama qurban olum,
Məni tez adaxladı.
= Qurban olum anama,
Məni əziz saxladı.

85. Əzizim güldən gözəl,
Oxur bülbül güldən gözəl.
Yar mənə bir gül verib,
Özü o güldən gözəl.

86. Yarım kənd gözəlidi,
Sevgimin əzəlidi.
Şirin dilinə qurban,
Özü də məzəlidi.

87. Yarımın yarı çoxdu,
Məndən əzizi yoxdu.
Dünyaya göz gəzdirirəm,
Yarımın tayı yoxdu.

88. Oğlan adın Balağa,
Saçın gəlməz darağa.
Yarı qonağ edərəm,
Maskovskiy arağa.

89. Oğlan adı Tahirdir,
Gül dağları mahirdir.
Yarın verdiyi üzük,
Barmağıma layikdir.

90. Bədəlon bəndə dəyər,
Kəklik kəməndə dəyər.
Fərasət bir qız sevib,
Bütün kəndə dəyər[59].

---

[59] Bu bayatı Fərasətin toyunda deyilib.

91. – Əf çiçe bə tırtıre?
– Çi kalxozi traxtore.
– Əf de çiçi kokarde
– İtkə nati xardedə.

– O nədir tırtır edir?
– Kolxozun tarxtorudur.
– O nəylə işləyir?
– Nöyütlə işləyir.

92. Ey Nozi, bu quş bıda,
Çı Buku xəbə düdə.
Jıqo kamança jedə
Odamin dıli bardə.

Ey Nozi, gəl qulaq as,
Bakının xəbərin verir.
Elə kamança çalır,
Adamın ürəyin aparır.

93. Kinə mədə bə tolişi,
Tolişin tükin kardə.
Kinə bıdə bə səkolu,
Bıniş bəxəm müftə plo.

Qızı vermə talışa,
Talışlar bicar eləyir.
Qızı ver qırmızı papaqlıya,
Otursun müftə plov yesin.

94. Boğım mande amadə,
Kolım çıni boğədə.
Im kom darde, mı vindıme,
Həmmə mande dılədə.

Bağımın gözü yolda,
Meyvəni kal dərdim bağda.
Bu nə dərddir mən düşdüm,
Hamısı qaldı ürəyimdə.

95. Bülbül nışdə vılisə,
Handedə ışdə sinəsə.
Çaxdə bəzək jədə əv,
Çə səvıli handesə.

Bülbül oturub gül üstə,
Oxuyur öz sinəsi üstə.
Nə qədər bəzək vurur o,
Gül üstdə oxuyanda.

96. Hovə-bıvə bəzəke,
Hərqılə vəyə bəzəke.
Hovə ğapu bıvə oka,
Bıvə hovə bəzəke.

Bacı-qardaş bəzəkdir,
Hər bir toya bəzəkdir.
Qardaş bacı qapısın açsa,
Qardaş bacıya bəzəkdir.

97. Dastədəm xınə ğəşənge,
Dastdə ğələm ğəşənge.
Xınə bınə bə dasi,
Əv həməysə ğəşənge.

Əlimdə xınam qəşəngdir,
Əlimdə qələmim qəşəngdir.
Xına qoy öz əlinə,
O hamıdan qəşəngdir.

98. Bıvə omədə de gəmi,
Karvan şıdə de ğəmi.
Bıvə omə bə ruyi,
Ğıbun bəşe huvə.

Qardaş gəlir gəmiylə,
Karvan gəlir qəm ilə.
Qardaş gələn yola,
Bacı qurban gedər.

99. Im bandədə do heste,
Hər bandisə vıl heste.
Zoə bə kinə dakardəsə,
Çəvon dılədə vıl heste.

Bu dağda ağac var,
Hər dağda gül var.
Oğlan qıza baxanda,
Onların ürəyində gül var.

100. Nənə dıl püre de dardi,
Kinə dılədə bə dardi.
Nənə bəpiyəşe ki, bıftu,
Bıftu də kinə dardi.

Ananın ürəyi doludur dərdlə,
Qızın ürəyindəki dərdlə.
Ana istəyər ki, desin,
Desin qızın ürəyindəki dərdlə.

101. Boğçə mande ukarde,
Bə vəyuyu boxçə tümokarde.
Çə vəyu bəzək əve,
Vəyuyu boxçə tümokarde.

Boxça qaldı açmağa,
Gəlinçün boxça tutmağa.
Gəlinin bəzəyi odur,
Gəlinçün boxça tutmaqdır.

102. Çımı dastə şol heste,
Bə şoli oxşar heste.
Valah, ıştı səy şuul,
Bəsmı şoli oxşar heste.

Mənim əlimdə şalım var,
Əlində olan şala oxşarı var.
Vallah, sənin başındakı şalın,
Mənim şalıma oxşarı var.

103. Şəvi şanbəye kinə,
Sə vılış bə çanbəye kinə.
Nənə bəştə kinə ğıbon,
İ şəvi ğonəğə kinə.

Gecənin şənbəsidir qız
Qızılgül çələngidir qız.
Nənə öz qızına qurban,
Bir gecəlik qonaqdır qız.

104. Voye-voye qınədə,
Nargilə[60] voye qınədə.
Bardedən çəmə kinə,
Həməyo çətin omedə

Külək-külək əsir,
Nargilə küləyi əsir.
Aparırlar bizim qızı,
Hamıya çətin gəlir.

## 150. ƏMƏK NƏĞMƏLƏRİ

Talış bölgəsində ən geniş yayılmış təsərrüfat sahələrindən biri çəltikçilikdir. Bu səbəbdən də çəltik əkini zamanı söylənən nəğmələr üstünlük təşkil edir. Bundan əlavə, buranın əhalisi həsir toxuma sənəti ilə də məşğul olduqları üçün həsir toxuyarkən oxunan nəğmələri də qeyd etmək mümkündür. Astara rayonunda qeydə aldığımız əmək nəğmələrinin təhlili onu göstərir ki, istər çəltik əkini, istərsə də həsir toxunan zaman eyni nəğmələrin ifasına rast gəlinir. Yəni bəzi talış nəğmələri əmək prosesinin növündən asılı olmayaraq universal səciyyə daşıyaraq xalq tərəfindən əməyi yüngülləşdirmək üçün istifadə edilir. Məsələn, aşağıdakı "Kinəlim, kinəlim" talış xalq mahnısının həm həsir toxuyanlar tərəfindən həsir toxuma prosesində, həm çəltik nəğməsi kimi çəltik əkən qızlar tərəfindən, həm də övladını dindirən ana tərəfindən ifa edildiyinin şahidi olduq.

[60] nargilə – mülayim əsən küləyə deyilir.

Kinəlim, kinəlim, tı nozəş məkə
Az bətı aşiğim, oşkorəş məkə.
Az bətı aşiğim, bılbıl bə boğorı,
Bə boğon bılbıli oşkorəş məkə.

Gözəlim, gözəlim, sən naz eyləmə,
Mən sənə aşiqəm aşkar eyləmə.
Mən sənə aşiqəm, bülbül də bağa,
Bağların bülbülünə aşkar eyləmə.

Kinəlim, kinəlim, ğəndiş bomono,
Bəsə bicori ro mandış bomono.
Mıni vindəcəğın çadra dədoni
Joğo zıname pəvəndiş bomono.

Gözəlim, gözəlim, şəkərsən mənə,
Bicar yollarında qaldın mənimçün.
Məni görən kimi çadranı açdın,
Elə bildim adaxlısan mənə.

## 151. BİCAR NƏĞMƏLƏRİ

*Çəltik əkəndə, adətən, geri-geri gedirlər. Əkə-əkə deyirlər:*

Əloləm nanay-nanay,
Zülfiyəm çımı balay.

Çiçəyim, nanay-nanay,
Zülfiyəm, mənim balam.

Əloləm barze-barze,
A boylim, baloş bərze.

Çiçəyim, uca boylu,
Qardaşımın balası uca boylu.

Əloləm viley-viley
Zülfiyyə çımi dile.

Çiçəyim gül-çiçəkdir,
Zülfiyyəm mənim ürəyimdir.

Əloləm pambəy-pambəy,
Züfiyəm şəvi lampəy.

Çiçəyim pambıq-pambıq,
Zülfiyəm gecə lampası.

A kinə məşi, azən omedəm,
Zanbili bınə, azən omedəm.

Ay qız, getmə, mən də gəlirəm,
Səbəti qoy yerə, mən də gəlirəm.

Bəmə ısə tı nozməkə
Tı bəmə boey nozməkə.

Bizə indi sən naz eləmə,
Sən indi bizə naz eləmə.

Dastədam dəpe, ağəm bə qape
Zangi yarim, əcəb Firəngiz.

Bişəm ələlə çıne,
Bicordə bə nənon qıne.
Şartükon rəsey vaxte,
Zarda huşon peçine.

Əlimdə dəfdir, ağam danışır,
Zəngi yarım, gözəl Firəngiz.

Gedək çiçək dərməyə,
Çəltikdə olan nənələrə dəyməyə.
Çəltiyin yetişən vaxtıdır,
Sarı sünbül yığmağa.

***

Biçin, çəltiyi, biçin,
Yığın çəltiyi çin-çin.
Biçini biçər gələr,
Sərin su içər, gələr.
Yar yadına düşəndə
Quş kimi uçar gələr.

Yarı gördüm biçində,
Sarı sünbül içində.
Bir də onu görəydim,
Təzə sünbül içində.
Bir də onu görəydim,
Təzə geyim içində.

Xırmanda vurdum taya,
Səs düşdü el-obaya,
Qoymayın əksik olsun,
Çəltik bizim xırmandan.

## 152. XIRMAN NƏĞMƏLƏRİ

Heydər boy, Heydər boy,
Bıjən gilə vo, bıjən giləvo.

Sütimun nənə, bıjən giləvo.
Sütimun dodo, bıjən giləvo.

*Tərcüməsi:*

Heydər gəl, Heydər gəl.
Əsdir gilavarı, Heydər gəl.

Yandıq biz, nənə, əsdir gilavarı
Yandıq biz, dodo[61], əsdir gilavarı.

## 153. SAĞIN NƏĞMƏLƏRİ

Zandəqom, a zandəqom,
Işdə lıngi məluvun,
Çımı dılı mətukun.
Bıdə bıdıüşüm tını,
Bəhəm ıştı şıti.

*Tərcüməsi:*

İnəyim, a inəyim,
Ayağını tərpətmə,
Mənim ürəyimi partdatma.
Qoy sağım səni,
Yeyim sənin südünü.

---

[61] Dodo böyük bacıya, yaşlı nənəyə verilən addır.

## 154. TOY NƏĞMƏLƏRİ

**1.**

Mübarək, ay mübarək,
Balam, toyun mübarək.

Bu həyat meyxanadır,
Üsdi bala xanadır.
Əyil üzinnən öpim
Əcəb xəlvətxanadır[62].

Mübarək, ay mübarək,
Balam, toyun mübarək.

Qardaş mənim qardaşım[63],
Qardaşa qurban başım.
Qardaşımın toyudu,
Dur ağaya yoldaşım.

Mübarək, ay mübarək,
Qardaş, toyun mübarək.

**2.**

*Qız üçün nişan üzüyü və qırmızı şal aparılanda oxunur.*

Ay qız, nişanın gəlir,
Qırmızı şalın gəlir.

Qardaş sənin canın üçün,
Tikdim yaylıq şalın üçün.

---

[62] Nənə bu bayatını nəvəsinin toyunda xörək bişirilən yerdə oxuyub.
[63] Mahnının bu bəndi Natavan Əliyevadan yazıya alınıb. Onun repertuarında bu mahnı qardaş haqqında söylənilir.

Gəzdim eli-obanı mən,
Tapdım gözəl sənin üçün.

### 3.

*Gəlinin əlinə xına yaxan zaman oxunur:*

Ağlama, qız, pəncərədən baxallar,
Ağ əllərə əlvan həna yaxallar.

Ay dəyirman üsdü çiçək,
Ağlama, qız, pəncərədən baxallar.
Ay çin gətir, onu biçək,
Ağlama, qız, pəncərədən baxallar.
Ay dəstəmizdə bir qız var,
Ağlama, qız, pəncərədən baxallar.
Ay uzun boy, qarabirçək,
Ağlama, qız, pəncərədən baxallar,
Ağ əllərə əlvan həna yaxallar.

Bacım, səni yola salım,
Ağlama, qız, pəncərədən baxallar.
Mən bacısız necə qalım?
Ağlama, qız, pəncərədən baxallar.
Anamın əziz balası,
Ağlama, qız, pəncərədən baxallar.
Əziz tutun qəribədir,
Ağlama, qız, pəncərədən baxallar,
Ağ əllərə əlvan xına yaxallar.

### 4.

Yaxşı bəzək vurun,

Bizim gəlinə, gəlinə[64].
Ay xırda mirvarilər
Düzün telinə, telinə.

Ay ağzında xalın ollam,
Ay kişmiri şalın ollam.
Ay Allaha yalvar, oğlan.
Mən sənin yarın ollam.

Yaxşı bəzək vurun,
Bizim gəlinə, gəlinə.
Xırda mirvarilər
Düzün telinə, telinə.

**5.**

*Gəlin aparanda oxunur:*
Verin bizim gəlini,
Qaynı bağlar belini.

Dəstə-dəstə bağlaram,
Gülü dəstə bağlaram.
Gəlin gələn yollara
Gülü dəstə bağlaram.

Nəqərat
Verin bizim gəlini,
Qaynı bağlar belini.

Əzizim sini-sini,
Sevmişəm özgəsini.

---

[64] Bu iki sətir hər misradan sonra təkrarlanır.

Cəllad boynumu vursa,
Deməræm özgəsini.

Nəqərat
Verin bizim gəlini,
Qaynı bağlar belini.

**6.**

*Qız tərəfi oxuyur:*
Ey güli-çaydan su gəlir,
Onu tutun, yar-yar.
Bizdən sizə gəlin gəlir,
Onu əziz tutun, yar-yar.

Əzizim, obadan oğlan,
Ay Günü yubadan oğlan.
Ay bizə xoş xəbər gəlsin
Sizin obadan oğlan.

Nəqərat
O güli-çaydan su gəlir,
Əziz tutun, yar-yar.
Bizdən sizə, gəlin gəlir,
Əziz tutun, yar-yar.

**7.**

*Gəlin həyətə girəndə oxunur:*
*Birinci dəstə:*
Yar, yol açın, gəlin gəlir,
Şahi-mərdanə gəlir.

Qiyməti on beş tümən,
Alagöz gəlin gəlir.

*İkinci dəstə:*

Yar, yol açın, gəlin gəlir,
Yollar açın, gəlin gəlir.
Özü xınalı kəklik,
Alagöz gəlin gəlir.

## 8.

*Gəlinə öyüd-nəsihət verilərkən oxunur:*

Ey güli-xaşxaşdı gəlin,
Əsli qızılbaşdı gəlin.
Evlisən, ev halı bil,
Ev sənə peşkəşdi, gəlin,
Ev sənə peşkəşdi, gəlin.

## 9. CAN GÜLÜM, CAN-CAN

Su ilanı olaydım,
Can gülüm, can-can,
Ləkdən ləkə dolaydım,
Can gülüm, can-can.
Burdan ötən oğlanın,
Can gülüm, can-can,
Nişannısı olaydım,
Gəl, gülüm, yar hey.

## 10. NANAY, NANAY

Nanay, nanay, a nanay,
Gülüm nanay, ay nanay.

Ağacı şirin narış,
Şirin deyəllər yarı.
Hamıdan şirin olur,
Kiçik qardaşın yarı.
Nanay, nanay, a nanay,
Gülüm nanay, ay nanay

Bağa girdim mən bir gün,
Bağda tapdım bir düyü.
Əmoğlu mənim nəyim,
Yadıma düşür hər gün.
Nanay, nanay, a nanay,
Gülüm nanay, ay nanay.

Masallının düz yolu,
Sel gəldi basdı yolu,
İstədim sizə gələm,
Can alan kəsdi yolu.
Nanay, nanay, a nanay,
Gülüm nanay, ay nanay.

Əzizim, əsmə, külək,
Səbrimi kəsmə, külək.
Sevgilim yol üstədir,

Yolunu kəsmə, külək.
Nanay, nanay, a nanay,
Gülüm nanay, ay naney.

Başımda ağ şalım,
Ağ şala oxşarım var.
Özüm talış balası,
Ceyrana oxşarım var.
Nanay, nanay, a nanay,
Gülüm nanay, ay nanay.

## 11. AY QIRMIZI NİMTƏNƏ

Məst eylər, gül eylər,
Ay qırmızı nimtənə[65].

O dağın bu üzündə,
Ceyran otlar düzündə.
Mən yarımı tanıram,
Qara xal var üzündə.
Məst eylər, gül eylər,
Ay qırmızı nimtənə.

Getmə, getmə, gecədir,
Eyvanımız ucadır.
Məktubunda yaz göndər,
Görüm xalın necədir?
Məst eylər, gül eylər,
Ay qırmızı nimtənə.

---

[65] Qadın geym növü

Köynəyi al-buxara,
Gözümün içi qara.
El bilir, aləm bilir,
Sevgiyə yoxdu çara.
Məst eylər, gül eylər,
Ay qırmızı nimtənə.

Ay çıxır mərdanə,
Mərdan düzüm gərdanə.
Sevdin ala bilmədin,
Niyə çıxdın meydana?
Məst eylər, gül eylər,
Ay qırmızı nimtənə.

Ey gülü-lalə vaxdıdı,
Doldur, piyalə vaxdıdı.
Çıx qırağa, bax ulduza,
Gör gecənin nə vaxdıdı?
Məst eylər, gül eylər,
Ay qırmızı nimtənə.

## 12. TOP QARABİRÇƏK OĞLANIN TOYUDUR

Top qarabirçək oğlanın toyudu,
Gözləri göyçək oğlanın toyudu.

Ay gülü atdım dənizə,
Ay batdı, çıxmadı üzə,
Ay nolar bizim baxçada,
Ay yar gələ bir gün bizə.

Nəqərat
Top qarabirçək oğlanın toyudu,
Gözləri göyçək oğlanın toyudu.

Ay sənə qurban, ay oğlan.
Ay mənə verəsən hay, oğlan.
Ay gəzdim eli-obanı,
Ay yoxdur sənə tay, oğlan.

Nəqərat
Top qarabirçək oğlanın toyudu,
Gözləri göyçək oğlanın toyudu.

Ay bir oğlan var biçində,
Ay sarı sünbül içində.
Ay nolar onu görəydim,
Ay bu həftənin içində.

Nəqərat
Top qarabirçək oğlanın toyudu,
Gözləri göyçək oğlanın toyudu.

Ay qaşların çatan oğlan,
Ay köynəyi kətan oğlan.
Ay nişannın apardılar,
Ay bixəbər yatan oğlan.

Nəqərat
Top qarabirçək oğlanın toyudu,
Gözləri göyçək oğlanın toyudu.

Ay dağlar başından ala,
Ay əlində var piyala.
Ay mən səninəm, ay oğlan,
Ay düşmə özgə xəyala.

Nəqərat
Top qarabirçək oğlanın toyudu,
Gözləri göyçək oğlanın toyudu.

Ay əzizim, aydın olsun,
Ay Ay doğsun, aydın olsun.
Ay iki həsrət qovuşsun,
Ay gözünüz aydın olsun.

Nəqərat
Top qarabirçək oğlanın toyudu,
Gözləri göyçək oğlanın toyudu.

Ay ağacın adamı var,
Ay evimizdə badamı var.
Ay hərə bir ağız desin,
Ay desinlər adamı var.

Nəqərat
Top qarabirçək oğlanın toyudu,
Gözləri göyçək oğlanın toyudu.

Ay dağ başından bar gətir,
Ay demə ahu-zar gətir.

Ay qardaşı gözləyirdim,
Ay bir də gördüm yar gəlir.

Nəqərat
Top qarabirçək oğlanın toyudu,
Gözləri göyçək oğlanın toyudu.

Ay girdim bağa nar üçün,
Ay heyva dərdim yar üçün.
Ay analar qız bəsləmiş
Ay igid oğlanlar üçün.

Nəqərat
Top qarabirçək oğlanın toyudu,
Gözləri göyçək oğlanın toyudu.

Ay göydə ulduz olaydım,
Ay bəxtəvər qız olaydım.
Ay yarı qapıda görəndə
Ay evdə yalqız olaydım.

Nəqərat
Top qarabirçək oğlanın toyudu,
Gözləri göyçək oğlanın toyudu[66].

---

[66] Sonda bu nəqərat üç dəfə təkrarlanır.

## 13. A YORDU-YORDU

*Qızlar iki cərgə düzülür və qarşılıqlı deyişərək oxuyurlar:*

A yordu, yordu, yordu,
Görək kim kimi yordu.
Hay yordu, yordu, yordu,
Görək kim kimi yordu.

O tay, bu tay bir olsun,
A yordu, yordu, yordu.
Aramızda Kür olsun,
A yordu, yordu, yordu.
O tayın qız-gəlini,
A yordu, yordu, yordu.
Bu taya qurban olsun hey,
A yordu, yordu, yordu,
Görək kim kimi yordu.

O tay, bu tay gəlxana,
A yordu, yordu, yordu.
Gəlxana, divanxana,
A yordu, yordu, yordu.
Sizdən məktub yazaram,
A yordu, yordu, yordu.
Mirhəsən, Əsgərxana hey,
A yordu, yordu, yordu,
Görək kim kimi yordu.

Ağac başı şingilə[67],

[67] Qaragiləyə oxşar bitki, qırmızı rəngdə olur.

A yordu, yordu, yordu.
Şingiləni kim bilə,
A yordu, yordu, yordu.
On iki söz qoşaram,
A yordu, yordu, yordu.
Sizin kimi yüngülə hey,
A yordu, yordu, yordu,
Görək kim kimi yordu.

Ağac başı eşərəm,
A yordu, yordu, yordu.
Sizə mahnı qoşaram,
A yordu, yordu, yordu.
Sizin kimi yoldaşı,
A yordu, yordu, yordu.
Ala itə qoşaram hey,
A yordu, yordu, yordu,
Görək kim kimi yordu.

Qabağında qaradır,
A yordu, yordu, yordu.
Son mənzilin haradı?
A yordu, yordu, yordu.
O qədər fors eləmə,
A yordu, yordu, yordu.
Ağız-burnun yaradır,
A yordu, yordu, yordu,
Görək kim kimi yordu.

Sarı baftanın əni[68],
A yordu, yordu, yordu.
Saraltmısan sən məni,
A yordu, yordu, yordu.
Əyər canım sağ olsa,
A yordu, yordu, yordu.
Saraldacağam səni,
A yordu, yordu, yordu,
Görək kim kimi yordu.

Sarı sancaq taxmaram,
A yordu, yordu, yordu.
Mən su kimi axmaram,
A yordu, yordu, yordu.
Könlünü almayınca,
A yordu, yordu, yordu.
Meydandan çıxmaram hey,
A yordu, yordu, yordu,
Görək kim kimi yordu.

Qaşın hilal eylərəm,
A yordu, yordu, yordu.
Min bir xəyal eylərəm,
A yordu, yordu, yordu.
Aramızda olanı,
A yordu, yordu, yordu.
Sizə halal eylərəm hey,
A yordu, yordu, yordu,
Görək kim kimi yordu.

---

[68] əni – önlüyü

# LƏZGİLƏRDƏN TOPLANMIŞ FOLKLOR ÖRNƏKLƏRİ

## 155-159. NOVRUZ BAYRAMI

Novruza iki gün qalmış iki gecə məşəl çıxardırıq. Ona “yaran yiv” deyirik. Günəş dan qırmızı olur, ona “yari-yəzva” deyirik. Səhər doğan günün qızartısına “yar” deyirik. Yari-yəzva – Günəş artıq bizim tərəfə adlayır anlamına gəlir. Əvvəllər qapı-qapı gəzirdilər ki, yaran suvardı[69]. Bir-birini təbrik edirdilər, "yaran suvar” deyirdilər. Əldə tikilmiş xüsusi çantalar var idi, çantanı qapı ağzına qoyurdular, bacadan torba sallıyırdılar. Gəzirdilər, “yaran suvar” – deyirdilər, ev sahibi də nəyi varsa, gətirib onun çantasına qoyurdu.

Novruz günü səhər açılmamış, dan yeri sökülməmiş arxdan su götürürdülər, həmin suya Yaran suyu deyirdik. Novruz gecəsi daha erkən durub bulağa gedib su gətirməyə çalışırdılar. Kim yatıb səhər durub suya gedirdisə, onu saymırdılar ki, sən həmin gecəni səhərə qədər oyaq qalmamısan. Yatıb qalmayasan deyə səhərə qədər oyaq qalırdılar. Kim bulaqdan tez su gətirərsə, onun bəxti açılacaq, arzusuna çatacaq.

Suyu əlinə alanda axmırsa, donub qalırsa, ona *suyun qədirdə qalması* deyərdik. O vaxtı sən hansı arzunu Allahdan istəyirsənsə, o arzu yerinə yetəcək.

Qapı-qapı gəzənlər özləri ilə qrəfinkədə gülab kimi su aparırdılar. Suyun içinə kağızda çəkilmiş gül atırdılar, yeddi rəngdə rənglənirdi, ona *yaran çük*[70] deyirdilər. Gül ləçəkləri kimi kəsirdilər, hərəsini bir rənglə rəngləyirdilər. Onu qrəfin-

---

[69] yaran suvar – Bahar bayramın mübarək
[70] yaran cük – Novruz gülü

kənin üsdünə qoyurdular, yaxud içinə atırdılar. Qapı-qapı gəzəndə hərə bir qurtum ondan içməli idi. Ev yiyəsini çağırırdılar, sudan bir qurtum ona içirdib “yaran yad[71]” deyirik. Adi su olurdu, içinə pesox, qənd, qurumuş qızılgül ləçəkləri, əlavə dadlandırıcılar atırdılar.

Novruz vaxtı əgər yerdə qar var idisə, kişilər qarı qazıb oyuq hazırlayırdılar, ya da torpağı qazıb oyuq düzəldirdilər. Ona “çilə oyuğu”, bizim dildə “şile tüken” deyirdilər. Həmin gün balaca uşağlar, hətta böyüklər çilə oyuğundan keçib o biri tərəfdən çıxırdılar. Bayram xonçası gətirirdilər, həmin xonça çilə oyuğunu qazan şəxslərə çatırdı. Xonçanı onlara verib üç dəfə oyuqdan keçirdilər. Əvvəllər yumurta, xonça, bayram payı gətirirdilər, pul sonralar çıxdı.

Bizim kənddə Pir ağacı vardı, onun yanında bir ağacda oyuğ var idi, çilə deşiyi deyirdik ona. Hamı o gün pirə ziyarətə gedirdi. Həm o piri ziyarət eliyirdilər, həm də uşağları, özləri həmin oyuğdan keçib çilələrini tökürdülər. Çilə oyuğundan keçəndə üç dəfə “ay Allah, mənim canımda nə azar-bezar varsa, burda qalsın” deyib ordan keçirdilər.

**156.**

Çilə quyusunu Novruz günü qazırlar. Bir var Novruz günü, bir də var ondan əvvəlki gün. Bizdə iki gün əsas gündü. Dik yerdə o tərəfdən qazırdılar, bu tərəfdən çıxırdılar. Hər məhlənin özündə çilə oyuqları qazılırdı. Qazana pul verərdilər. Üç dəfə uşağı, böyükləri o deşikdən çıxarırdılar. Deşik böyük olurdu ki, böyüklər də keçə bilsin. İki gün keçirilirdi. Birinci günə *qolar* deyirlər, ikinci günə *suvar*. Birinci gün bayrama

[71] yaran yad – Novruz suyu

hazırlaşırdılar, evdə şirniyyat bişirilirdi, şora bişirilirdi. İkinci gün qəbirstanlığa gedirlər, ölüləri ziyarət eliyirlər. Uşaqların qapı-qapı gəzməsi suvar günü olurdu. Qapını döyürdülər, “suvaru mübarək hoy” deyirdilər, onlar da yumurta, kanfet verirdi. Qolar günü hər evdən uşaqların sayına görə şamlar çıxarırdılar. Köhnə paltarları saxlıyırdıq bayramda şam yandırmaq üçün. Bayramdan qabaq hər məhlə meşəyə gedir, kötükləri yığır, traktornan gətirir. Bayram günü iki gecə onları yandırırdılar. Ocağın başında səhərə kimi bayramı qeyd edirdilər, evdən xonçalar gətirib, orda yeyib-içirdilər. Səhər tezdən bulaq məhləsinə gedib bulaqdan səhəngdə su gətirir-dilər. Həmin suyu həyət-bacaya, qapının ağzına səpir, qalanını da çayda, çörəkdə istifadə edirdilər. Bayram gününün səhəri gedirdilər, həmin günün axşamı da bayram olardı.

**157.**

Novruz bayramını Sovet vaxtında qadağan etmişdilər, amma insanlar gizlincə keçirirdi. Sovet vaxtı Novruzda asılan qazanları dağıdırdılar, yəni bayramı etməsinlər deyə. Elə vaxtlar olub, Sovet hökumətinin təzə gələn vaxtı.

Bizdə Novruz adlandırılmır, Yaran suvar deyilir. Bizdə “yar” bir dan sökülənə deyilir, biri də erkən yaza deyilir. Yaran suvar iyirmi iki marta deyirlər. Novruz bayramında səhərə kimi yatmaq olmazdı. Müxtəlif dəstələr olardı, hər dəstə bir evdə toplaşıb bayramı orda keçirərdi. Sənin bayramını batil etmək üçün od oğurlayardılar. Od oğurlansa, o bayram sayıl-mırdı. Evlərdə bacalar olurdu. Oğlanlar əllərində uzun şax tutarlardı, üstündə də şam[72]. Baş qarışan vaxtı bacadan şaxı

[72] şam – ağac budağının başına dolanmış əski parçası

salıb odu oğurlayardılar. Od oğurlandımı, artıq o bayram sayılmırdı. Şama nöyüt tökürdülər, şam od tutdusa, o öydən[73] od oğurlamaq sayılırdı. Bu dəstə çalışırdı o biri dəstənin odunu oğurlasın. Ona görə ocağın başında adamlar dururdu, odun keşiyini çəkirdilər. Damların üstünə adam qoyurdular, onlar bacanın keşiyini çəkirdilər. Odu oğurladıqdan sonra elan eliyirdilər ki, biz sizin bacadan od çıxartdıq.

Bayramı qeyd etməyənlərin doqqazını oğurlayırdılar. Onları cəzalandırmaq üçün onların doqqazını oğurlayırdılar, nərdivanını oğurlayırdılar. Bayram keçiriləndə hansısa evdən ora adam qatılmırdısa, onları cəzalandırırdılar.

Beş-on gün qabaqcadan hazırlıq görülürdü, kim hansı dəstə ilə oturacağını müəyyənləşdirirdi. Bayramın səhəri bütün dəstələr birləşir, hamı bir yerdə səhər yeməyini yeyirdi. Birinci partiya hansı evdə toplaşırdısa, həmin evin yiyəsi hazırlıq görürdü. Bayramın səhəri lazım olan yeməkləri özümüz hazırlayırdıq – yumurta, qızartma kartof və s. Yaran suvarda mütləq qovurğa qovururdular. İndi icazə yoxdu, o vaxtı qovurğanın içinə çətənə toxumu qatırdılar.

**158.**

Axır çərşənbədə hər ayilədə neçə adam varsa, ayilə üzvlərin sayına görə küçələrdə şamlar yandırırıq. Şamların başına əski-məski sərib, neft töküb, küçədə basdırırlar yerə ki, bu təzələşən yeni ildə ayiləmizə xəstəlik, qada-bəla qismət eləməsin. Şam özü yanıb sönərdi. Bu bayramlarda adamın üstünə su çiləyib “azarın-bezarın getsin” deyərdilər. O sudan evin küncünə, mal-qaraya, küçələrə səpirdik ki, təzə ildə

[73] öy – ev

bərəkət gəlsin. Novruz bayramında evləri təmizləyirdilər, süpürgəni götürüb dama çıxırdılar, həşəratları təmizləməkçün belə deyirdilər.

Xaş-xuş[74] tükülsün,
Azar-bizar tükülsün.
Təmiz hava gəlsin,
Yenilik olsun evdə.
Həşəratlardan qurtaraq.

**159.**

Bütün bu Qımılda mart ayı, üzü yaza çevriləndə səməni halvası bişirirdilər. Onu hər evdə bişirmirdilər, iki ev, üç ev bir yerdə bişirərdi. Evlər vardı o səmənini sadağa kimi paylayırdı. Səmənini göyərdirdik qablarda. O vaxdı taxda olurdu, taxdanın üsdündə dögərdik, sıxardıq iki-üç dəfə, sonra onu qaynadırdılar. Qatılaşanda şirinliyi də olurdu. Onun suyunnan bəzi halvalar düzəldirdilər. Qoz ləpəsi qarışdırırdılar. Biz ləzgicə kuat deyirik. Mart ayı çıxanda nə qədər ki qar var, o vaxdı səməni bişirilirdi. O qazan bişəndən sonra aparıb qarın üsdünə qoyulurdu ki, tez soyusun. Elələri vardı qonşular bir kilo, iki kilo un verirdilər ki, qarışdır, səməni verərsən mənə. Yeddi gün o buğda becərilir. Onun göyərtisi göy olmamalıdı, sarımtıl olmalıdı. O, işıq görməməlidi. Qaranlığ yerdə onu becərirdilər. Onun kökü əl qalınlığında olur. Şirinliyi də, ləzzəti də kökündədi. Yeddi gündən sonra yığır cavan gəlinləri, cavan qızları, başdıyıllar onu döyüllər. Belə toxmaq düzəldir, toxmaqnan döyüllər. Elələri var üç dəfə döyür, elələri var dörd

---

[74] xaş-xuş – hörümçək

dəfə döyür, sığıb suyun çıxardırlar. Həmən suyu da sonra unnan qarışdırır, özləri bilir onun qədərini, nə qədər suya neçə kilo un qarışdırmağ olar, sonra da qaynadırlar taa şakalad rəngi alana kimi. Sonra da hazırdır, çıxardıb qoyullar. Onun üsdünə peyğəmbər əsasının şəklini çizirdilər. Qonum-qonşuya, neçə nəfər un veribsə, onların payını verir, qalanı da ki ayiləsi üçün. Bir həftə, iki həftə qalır, xarab olmur.

Səməni bu əyalətdə çox olur. Onu sadağa kimi də paylıyırlar. Məsəla, övladı olmuyan, övladı xəsdə olan adamlar deyir: "Ya Rəbbim, ya Allahım, sən məni yaratmısan. Mən də övladımın şəfa tapması üçün bu əməli eliyəcəm. Bir qazan səməni bişirib paylıyacam". Belənçik adətlər olub.

*Digər söyləyicinin əlavəsi:* Səməni iki formada bişirilir: bir səməni halvası, bir də səməni sıyığı var. O ağsakqalın dediyi səməni sıyığıdı. Səmənini döyüb suyunu çıxardandan sonra özünü atırlar. Mən gördüyüm, nənələrimiz səmənini döyüb suyunu çıxardıqdan sonra onu meyvə verən ağacın altında basdırırdılar, təmiz yerə atırdılar.

## 160-166. TOY ADƏTLƏRİ

Elçiliyə ən yaxın adamlar gedir. Əvvəl iki-üç nəfər gedir söhbəti tamlaşdırmaq üçün. Sonra çağırırlar, qohumlar gəlir, tanış olmaq üçün böyük kampaniya təşkil edirlər. O gün *pulatdı* da eləyən var. Toy günü o gün təyin olunur. Ondan sonra kənddə elan olunur ki, filankəs filankəsin qızını aldı. On-on beş nəfər gedir, üzük taxır, kiçik nişan olur. Böyük nişanı toy qabağı edirlər. Ondan iki gün sonra toy başlanırdı.

Bir qız, bir oğlan bir çanta götürür, adamları toya çağırmağa gedirdi. Oğlanın əlində çubuq, qızın əlində də yaylıq olurdu. Qapını çubuqla vurub ev yiyəsini toya çağırırdılar. Çağrılan şəxslər də ona pay verirdi, o payı da çantaya qoyurdular. Yığılan pay da çağıran şəxslərə çatırdı. Özü də kəndin hamısını çağırırdılar. Mal kəsilən günə *məsləhət axşamı* deyirlər, həmin gün üçün ayrıca adam çağırırdılar.

Bəyi gizlədirdilər. Ev sahibi bəyi zurna-qavalnan yaxın bir adamın evinə aparırdı. Bəyi oğurlamasınlar deyə bəy iki naiblə o evdə qalırdı. Bu evdə heyvan da kəsilirdi. Onun bütün xərcini ev sahibi öz üzərinə götürürdü. Hətta ona verməyəndə ev sahibi küsürdü. Bəyin onun evində gecələməsini özü üçün qürur sayırdı. Gəlinlə görüşəndən sonra bəy o evə qayıdırdı. O evdə ayrıca mərəkə keçirilir, kəsilən heyvandan xörəklər hazırlanırdı. Orada xan-vəzir oynayırdılar. Xan, xanın vəziri, milislər seçilir. Nəbadə orda normadan artıq güləsən. Xanın yanında *çubuqçular* olurdu, gülən adamı vururdular. Bəyi güldürmək üçündür bunlar hamısı. Bəy toxunulmazdır, naibi, sağdişi, soldişi ilə oturub. Ondan başqa xan var burda. Xandan başqa heç kim danışa bilməz. Kimsə qapını döyüb icazə almadan gəlirdisə, onu elə ordaca döyürdülər. Özləri qapını açıb birbaşa girə bilməzlər, çubuqçular xandan icazə alıb sonra onları içəri buraxırdı. Gələnlər də xandan icazə alıb bəyi təbrik edirdilər. Əgər burda kimsə bir balaca səhv etsə, gülsə, xan çubuqçulara əmr eliyir ki, tutun onu. Onu cərimələyirdi ki, sən gülmüsən, bizə bir araq ver. Həmin adam çox vaxt hazırlıqlı gəlirdi, araq gətirməsə də, onun pulunu verirdi. Bir söz demək istəyən mütləq xandan icazə almalıdı. Əvvəldən biz siyahı tuturduq ki, kimi nə qədər cərimə etmək olar. Onu verirdik

çubuqçulara ki, bu adamlardan həmin pulları yığın. Əgər bəyin yaxın qohumu bəy məclisinə gəlməyibsə, çubuqçular onu çiyinlərinə alıb zornan məclisə gətirirdilər. Xan onları cəzalandırırdı ki, sən əmisən, dayısan, niyə bəyin yanına gəlməmisən? Xəzinədar olurdu, cərimədən yığılan pullar onda toplanırdı. Cərimədən yığılan pul da ev yiyəsinə çatırdı. Bu qrupda hardasa 20-30 adam olurdu. Oturanlar xandan icazə alıb danışır, xanın icazəsi olmadan danışan olduqda cərimə olunurdu. Əvvəllər elə olurdu ki, cəza olaraq adamdan filan həyətdən bir qoyun, bir qoç gətirmələri tələb olunurdu. Bu hadisələr bəyi üzə çıxarmaq məqamına qədər davam edirdi.

Gəlin gətirən günün axşamı bəyi əyləndirmək üçün toyun şirin vaxtında oğlanlar qız paltarı geyinib oynayırlar. Hətta biri qoca, bir qarı paltarı geyinib oynayır. Üzlərini bağlayırlar, camaat da bilmir kimdi. Tirlər qoyulur, üstünə də palaz atılırdı. Yaşlı adamlar otururdular qabaqda. Oynamaq istəyənlər tamadada növbə tuturdu. Amma qadın paltarı geyinənlər növbəsiz girərdilər içəri. İmkan verərdilər ki, onlar rəqs etsin. Axırda paltarlarını çıxardırlar, onda kim olduqları üzə çıxırdı.

Toyun səhəri *tel vurmaq* olurdu. Kəndin ovçuları özləri gəlirdi. Bilirdilər ki, səhər tel vurmaq olacaq, bir on ovçu yığılırdı. Otuz-qırx metr aralıda bir çubuğun üstünə yumurta qoyurdılar. Doqqaz kimi bir ağac qoyurdular, ondan qabağa keçmək olmazdı. Bir nəfər də olurdu, o onlara rəhbərlik edirdi. Zurna-qaval olurdu, musiqinin müşayiəti ilə yumurtanı nişan alırdılar. Oğlan evi böyük bir xonça gətirirdi. Növbə ilə nişan alırdılar, kim yumurtanı vura bilsə, xonça ona çatırdı. Kim vurdusa, xonçanı yaylığa bükdürüb aparırdı. Qalmaqal da olurdu. Qırma yumurtanın qırağına dəyirdi, yumurtanı çubuxdan sala

bilmirdi, onda qalmaqal olurdu. Bəzən olurdu çubux qırılıb düşürdü, o sayılmırdı. Yumurtanın özünü vurub salmalı idi.

Toy olan günün səhəri zurnaçılar səhər tezdən çıxardılar dama, “Səhəri” çalırdılar. İndi toylar həyətlərdə olur. O vaxtı atam deyirdi ki, damaltı yerlər olurdu. Kənddə beş-altı adamda damaltı olardı. Deyirdilər ki, kiminsə damaltısı böyükdü. Qışda toylar damaltında olurdu. Ona dəmlər deyilir. Axşam toyuna bizdə dəm deyilir. Axşamdan başlayan toy səhər mal-qara çıxan vaxta qədər davam edirdi.

**161.**

Bizdə bəyə “can” deyirlər. Onu gizlədirdilər bundan qabağ. Bəyi sağdış, solduşun arasında çalğı çala-çala, – biri də xonça götürür, xonçada da şirniyyat, çörək var, – o evə aparırdılar. Elə vaxt olub bir kilometr uzağa aparırdılar. Bəy qalır orda. Həmin axşam tay-tuş yığılır həmin məclisə, onların arasında ən dilavərini xan seçirlər, ona müavin seçirlər – vəzir, vəkil. Xan ortada nalçanın üstündə oturur, yanında vəzir-vəkili olurdu. Xan burda hökümrannığ eliyir. Xan diyirdi, filankəsi çağırın. O, toyda yiyib-içib, kef çəkib, heç bizi saymır. Çağırın onu. 1954-cü ildə əmim oğlunun toyunda məni də xan çağırtdırmışdı. İçəri girəndə dedi:

– Dayan orda ayağ üsdə!

Dayandım.

– Diz üsdə otur!

Diz üsdə oturdum, dizlərimin altına da tilli ağac qoydurdu, dizim ağrımışdı. Hökümlü xan olanda kimsə onun əmrinə tabe olmur, zarafata salırdısa, ağacnan bir-iki dənə çəkirdi ona. Cürbəcür oyunlar çıxardırdılar. Mənə kömür çeynədib

birinin üzünə tüpürtmüşdü. Bir dəfə xan tanıdığı adamları cərimə eliyir. Deyir, Enerden qoç gətirəcəksiz. Bunlar da olub üç nəfər. Gəliblər Enerə. Öyrəniblər ki, bir tövlədə qoç var. Əllərində tüfəng də olub. Bu olub 1955-60-cı illər arasında. Tövlədən qoçu çıxardanda ev sahibi xəbər tutur, gəlib bunların əlindən tüfəngi alır, əllərin də bağlayıb kənd sovetinə xəbər vermişdi. Daha onları oğru kimi cəzalandırmadılar.

Xan adamların qıçından ip bağlayıb qışın vaxtı körpünün üstündən suya salıb çıxardardı. Helə əziyyətdər verirmiş. Cərimədiyi adamlardan toyuq, araq gətirməsini tələb edirdi. Həmin ərzaqları da orda yeyirdilər.

Həmin məclis üç gün davam edirdi. Toyun dördüncü günü axşam giyovu[75] üzə çıxarırdılar. Yaxın qohum-əqrəba, yaşlı kişilər yığılırdı, bəyi sağdış solduşla onlar olan otağa gətirirdilər. Bəy bir əlində aftafa, bir əlində ləyən, çiynində də dəsmal bir-bir qocaların qabağına gedirdi, onların əllərini yuyurdu. Sonra suyu atıb, sağollaşıb çıxırdı. Ondan sonra yemək-zad verilirdi. Bunnan bəy üzə çıxırdı.

Gəlin gətirəndə tüfəng atılırdı. Gəlin öz kəndinə köçəndə cərimə [76] olmurdu, amma başqa kəndin adamları gəlini aparanda cərimə olunurdu. Yol kəsəndə soğan, çörək qoyulub yol kəsilirdi. Toya gələnlər xonça gətirərdilər. Xonçada metrə yarım parça, kələğayı olardı. Qadınlar toya gələndə bir ağaca parça bağlayıb gələrdilər[77], bəzən ağacı uşağa verib onun arxasınca gələrdilər. Gətirdikləri parça, kələğayı toy evinə çatırdı.

---

[75] giyov – bəy
[76] Yol kəsilən zaman tələb olunan pulu nəzərdə tutur.
[77] Buna "bayraq götürüb gələrdilər" də deyilir .

## 162.

Bizdə üç günlük toy olur. Birinci günə *cirə aparmaq* deyilir. Yaxın qohumları çağırırlar. Qız tərəfə *başqil*[78] verilir. Toydan əvvəl oğlanın valideynləri qız evinə gedirdilər, danışıqlar aparırlar, razılaşırdılar. Həmin günə *pulatdı* deyirlər. Əvvəlcə elçiliyə gedirlər, həəsin alırlar. Sonra deyirlər pulatdıya getmək, yəni aranı açırlar. Filan qədər pul, filan qədər yağ, düyü, qənd, çay – hamısın danışıb razılığa gəlirdilər. İndi filan vaxtı toy başlanır. Toyun birinci günü həmin ərzağı qız tərəfə çatdırmaq lazımdır ki, onlar da öz işlərini görsünlər. Toyun birinci günü oğlan tərəfi öz qohumlarını çağırır, qız tərəfin istədiyi ərzağı aparıb onlara verirlər. Oğlan evində mal kəsilir, hər şey hazırlanır. Səhərisi gün kişilərin günüdür. Həmin gün kişilər gəlir, yeyib içirlər. O birisi gün qadınların günüdür. Üçüncü günü səhər gəlin gətirilir. Qız evində də üç gün keçirilirdi. Birinci gün kişilərin, ikinci gün qadınların günü idi. Üçüncü gün isə həm arvadlar gəlir, həm də kişilər. Köhnədən gəlinin belinə lent bağlamaq, gəlini lampanın başına fırlatmaq adətləri olmayıb. Qab sındırmaq, bərəkətli olsun deyə əlini una batırıb qapının çərçivəsinə qoymaq var. Gəlinin başı üstündə xərək çörəyini dörd yerə bölüb paylayırdılar.

Gəlini gətirəndə oğlan evi bir çörəyə bal sürtüb hamıya tikə-tikə paylayırdı. Yaxud çörəyin üzərinə yağ sürtür, şəkər tozu əlavə edib gəlinin başına fırlayıb hamıya paylayırdılar. Oğlan evi qız evinə gələndə kanfet paylayırdı. Həmin kanfeti cavan qızlar dişləyib yastığın altına qoyurdular, yuxuda istədiyi oğlanı görürdülər.

---

[78] basqil – başlıq

Toyun üçüncü günü bəy gecə gəlinlə görüşəndən sonra qonşunun evinə qayıdardı. Axşamacan qonşunun evində öz dostları ilə olmalıdı. Axşam da zəhmət çəkənlərə, toyda əziyyəti olanlara ev sahibi qonaqlıq verir. Bəyi üzə çıxartmaq üçün ağsakqallar otururdular. Bəy indi gəlməlidi evə. Bəy də əlində dəsmal, aftafa və ləyənlə gəlməlidi bunların qabağına, onların ayaqlarını yumalıdı. Əvvəllər ayaq yuyardılar, sonralar əl, axır zamanlar isə o da yığışıb. Əlavə xərcə görə bu adət yığışdırılıb.

Toyun səhəri gəlin ağsakqalların qabağına xonçayla gəlir. Gəlin özü ilə gətirdiyi əşyaları bəyin atasına, anasına, yaxın qohumlara hədiyyə verirdi, axşam da bəy üzə çıxırdı.

Anığ tərəfdə, Ləzədə *tel vurmaq* adəti var. Əvvəllər bizdə də olub. Mən özüm teldə iştirak eləmişəm. Tel vurmaq üçün kənddən qırağa çıxırlar açıq bir əraziyə. Toy sahibi xonça hazırlıyır. Hədəf kimi də bir yerə yumurta və ya alma qoyurdular, növbə ilə onu vururdular. Kim vursa, xonça onundu. Tel vurmaq gəlin bakirə çıxsa keçirilirdi. Tel vurulana qədər də musiqiçilər çalırdı. Tel gəlin gətirilən günün səhərisi keçirilirdi. Kim istəsə, orada iştirak edə bilərdi. Bəy özü iştirak etməzdi. Bir dəfə məni telə apardılar. Bir qayanın başına əlli metrdən yumurta qoyub vururdular. Mənim də melkaşka silahım var idi, onunla vurdum. Onlar mənimlə razılaşmadılar ki, sən melkaşka ilə vurmusan. Xonçanı mənə vermədilər. Xonçanı da orda açıb yeyirdilər.

Əvvəllər oğlanla gəlin görüşəndən sonra tüfəng atırdılar.

Toydan sonra gəlini bulaq üsdünə aparırlar. Bulaq üsdünə getmək üçün dəqiq vaxt yox idi. Kimi toydan bir həftə sonra, kimi üç gün sonra keçirirdi. Qabaqcadan gəlinin rəfiqələrinə,

yaxın qohum-əqrabaya xəbər verilirdi ki, səni filan gün gəlini bulağa aparmaq mərasiminə çağırırıq. Kəndin qızları, qonşular hamısı bəzənir, nə isə bişirir, əllərində şirniyyat, çiyinlərində səhəng bulağa gedirdilər. Gəlin səhəngi doldurub səhəngdə su gətirməlidir. Bulaq üstündə səhəngləri doldururdular, dövrə vurub "Pərizadə" mahnısını oxuyurdular, şirniyyat paylayırdılar. Hər məclisin öz "Pərizadə"si var. Gəlin köçəndə öz "Pərizadə"si var, oğlan evinə gələndə ayrı bir "Pərizadə" oxunurdu.

**163.**

Qız evindən razılıq alandan sonra elçiliyə gedilirdi, razılıq verilməsə, gedilmirdi. Əvvəllər böyüklər qərar verirdi. Oğlanın xəbəri olmurdu. "Mən bu almanı alıb gətirirəm" – deyəndə oğlan yox demirdi. Atası, anası kimi gətirsə, ona da razı olurdu. Elçiliyə getməzdən əvvəl qadınlar söz çıxardırdı. Kişilər deyirdi, söz çıxardın, birdən-birə kişilər getməsin. Cümə günü elçiliyə getmirlər, qalan günlər gedilir. Elçiliyə axşamlar gedilir.

Elçilikdə kanfet, şoralar aparılır. Oğlanın anası şora (bulka, qoğal) hazırlayırdı, şirniyyat olurdu, gəlin üçün də bir dənə yaylıq çantaya qoyub gedilirdi. Kiçik nişanda qızın barmağına üzük taxılır, başına yaylıq salınır. Elçilikdə bir adət də var idi. Razılaşdıqdan sonra oğlan tərəfi ayağa duranda *pulatdı* eliyirdi süfrəyə ki, bu mənim gəlinimdir, onun adını heş kəs tutmasın. Səttər mənim qızım üçün gələndə süfrəyə 50 manat atmışdı ki, heç kəs bunun adını tutmasın. Hər kəsin gözünü kəsirdi.

Həftənin beşincü günü *cirə* aparılır. Altıncı gün oğlan evində toy olur, bazar günü də gəlin gətirilirdi. Cirədə un, qənd, pesox, yağ, ət aparılır, cöngə, qoyun aparılırdı. Hazırda bizim

kənddə qız toyuna yüz iyirmi kilo ət aparılır, iki-üç baş qoyun aparılır, yüz kilo un aparılır, əlli kilo yağ aparılır. Oğlan evindən dörd-beş nəfər cirəni aparıb qız evinə verirdi, qız evi də onlara cib yaylığı, corab verirdi.

Spisok söhbəti belədir... Həmin günə luqanar[79] deyirik, toydan qabaq olur. Bir gün təyin edilir, həmin günün yemək-içməyini də oğlan tərəfi göndərirdi. Qız tərəfdən, oğlan tərəfdən yaşlılar otururdular, danışırdılar. Qız tərəfə toy keçirmək üçün nə lazımdırsa, siyahısı tutulurdu. Qız tərəf çox istəyərdi, oğlan tərəfi onların miqdarını bir qədər azaldardı. Həftənin beşinci günü, yəni toyun birinci günü həmin cirələr qız evinə gedirdi. Həmin günü oğlan tərəfdə toy, qız tərəfdə də xına olur.

**164.**

Bizdə qabaqlar üç gün toy olub, bir gün də hazırlıq. Demək, bir həftə toy olub. Bizdə elçilik birinci, dördüncü gün olub. Bizdə cümə günü ağır gündür, iş görmürlər. Cümə günü bizim kənddə şirə[80] vermirlər, bitki əkmirlər, balta götürüb meşəyə getmirlər, odun sındırmırlar. Ziyarət günüdü, olmaz yəni. Qız tərəf bilir ki, bu gün elçi gələcək, öz hazırlığın eliyir, bu tərəf də öz hazırlığın eliyir. Elçiliyə axşam gedilir. Bizim kənd qonaxpərvər kənddi, qızı verdin-vermədin, qapı açıqdı. Gəlir, oturur elçilər, gətirib çayın da qoyur, süfrə də açır. Verir, Allah mübarək eləsin, verməyəndə də deyir ki, sənin uşağın da xoşbəxt olsun, mənim uşağım da. Sənin balanın da axırı xeyir olsun, mənimki də. Nətər elçi gəlmisən, qonağ kimi qarşılıyıram səni.

---

[79] lunaqar – danışıq
[80] Evin divarını şirələmək

Birinci dəfə gəlməgnən qızı verməzlər, qız evi deyir, gedün, fikirləşərik. Ondan sonra fikirləşirlər, əgər verməli olsa, söz çıxarırlar ki, verəcöyük qızı, gəlsinlər. Sonra beş nəfərnən gəlirlər elçiliyə – atası, qohum-qardaşı, əmisi, sözü keçən adamlar. Söz almağa gedəndə əvvəl qadınlar gedir, oğlanın anası, bibisi gedir. Qadınlar özləri söhbət eliyir, evin qadını yoldaşına deyir ki, bizim evə elçilər gəlib, belə bir söz var, biz nə deyək ona? Sən razısanmı ki, qızı verək? Kişi nə deyir, o da olur. Söz alandan sonra böyük elçiliyə kişilər gedir.

Köhnədən elə olub ki, oğlan evi pul da verib, onun xərcini də verib ki, biz gələndə bunu hazırlıyarsız. Kiçik nişanda oğlan evi qız evi ilə razılaşırdı ki, böyük nişanın xərcini sən çəkəcək-sən, yoxsa mən? Qız evi desə ki, xərcini sən çəkəcəksən, onda oğlan evi bir qoyun alır göndərir, içkisin-zadın göndərir, ya da pul verir. Əvvəllər bizdə yağ aparırdılar, düyü aparırdılar aş bişirmək üçün, un aparırdılar, qənd aparırdılar, elçiliyin bütün xərcin o formada aparırdılar, məhsul formasında. Böyük elçilik də həmin gün təyin olunur ki, filan gün nişan gətirəceyik. Kiçik nişana bir dəst paltarnan, bir üzüknən gedilirdi.

Gəlini aparmamışdan qabağ bir neçə nəfər yığılır, qıza nə verilirsə, siyahı tərtib eliyirlər. Məsələn, bir ədəd qıravat, bir dənə stol, altı dənə stul və yaxud neçə dənə xalça və yaxud sumax, neçə dənə yorğan-döşək, qab-qacağ – nə var hamısı orda qeyd olunur. Şahidlərin qabağında siyahı tutulur, şahidlər orda qol çəkir. Bir kupyası qız evində qalır, bir kupyası də oğlan evinə qalır. Allah eləməsin, ayrılığ-zad olsa, onda o, oğlan evindən tələb olunur.

Bizdə adət belədir ki, qızı nişanlıyandan sonra toya bir həftə, beş gün qalmış götürüb gəlini aparırıq Qubaya, yaxud

Bakıya, bir-bir gəzdürrük, paltar, ayaqqabı – hansın bəyənir, onu götürür.

Kiçik nişanda ancağ ev sahibləri olur. Oğlan evindən bir dənə nişan üzüyü, bir dəstə paltar aparılır gəlinçün. Böyük nişanda gəlinçün qohum-qardaş hamısı – hərəsi bir dəst paltar alır, biri üzük alır, biri sırğa alır, biri boyunbağı alır. Xonçalar olur, şirniyyat, pal-paltar, qohum-qardaş yığılır, halva-zad aparıllar. Bu olur böyük nişan. Sonra gəlin ki köçməyəcək? Həmin böyük nişanda gəlinin başında on-beş nəfər iştirak eləmir? Həmin adamların adına pay çıxarıllar – dəsmaldı, yaylıqdı. Oğlan evi də qızın dayısıçün, əmisiçün, qardaşı, bacısıçün pay gətirir. Onlar pay gətirəndən sonra qız evi də onlar üçün cehiz çıxarır – nalça, atrez, süfrə. Sandığ dayıya düşür. Sandığı qızın dayısı alır, padarka verir gəlinə. Oğlan evi qızı aparmağa gələndə dayi gedir oturur sandığın üsdündə. Deyir, bu mənim payımdı, mənə dayı donu verin. Oğlan evi çıxarır onun düşərrigin verir, şirnisin, sonra sandığı verir. Sandığın içində də gəlinin cehizi-zadı olur. Nəyi varsa o sandığın içinə yığıb aparıllar oğlan evinə.

Toya hazırrığın birinci günü çörək bişirdi. Həftənin dördüncü günü mal kəsdi olurdu, ona bizdə məsləhət aşı deyirlər. Mal kəsdidə kimlər iştirak eliyirsə, heyvanın ciyərlərindən onlara yemək bişirilirdi. Üç gün toyxana olurdu. Beşinci gün qadınlar gəlirdi toya, altıncı gün kişiləri dəvət eliyirdilər, bazar günü axşam altıda *bəy dayanma*, bir də ki *gəlin gətirmə* olurdu. Gəlini arabaynan aparırdılar. Arabanı bəzəyirdilər, üsdünə də palaz örtürdülər, içində gəlin otururdu. At sürən də qabaxda oturub sürürdü. Çalğıçılar piyada çala-çala gəlirdi. Kəndin

uşaqları yığılıb arabanın dalınca ta oğlan evinə çatana qədər oynuya-oynuya gəlirdilər.

Gəlini evdən çıxaranda beli bağlanılır, başında çörək sındırılır. Həm gəlinin, həm də oğlanın atası hərəsi çörəyin bir tərəfindən tutur, gəlinin başı üsdündə onu bölür. Hər ikisi çalışır ki, onun payına daha çox çörək düşsün. Kiminki çox olsa, onun bəxti yaxşıdı. Bəzən çörək üstündə çəkişmə də gedir, hərə öz tərəfinə dartışdırır. İndi müasirləşib. Çörəyi əvvəlcədən bıçaqla ortadan nişannayıb qoyurlar qızın başına, sonra sındırıllar. Hərə o çörəkdən bir tikə alıb yiyir.

Toya qonaq gəlirdi, tutaq ki, iyirmi nəfər qonağ gəlib, bu iyirmi qonağın on nəfərin biri aparırdı evinə, yəni toy evində qalmırdı qonağlar. Toyda yedi-işdi, axşam oldu, toy qurtardı, getdi qaldı orda. Sonra səhərisi gün yenə durub gəlirdilər toy evinə. İki gün də qalan olurdu, bir gün də qalan olurdu.

*Bəy oturtma* belədi. Bəyi sağduş solduşnan gətirillər mağara. Bazar günü, günorta gəlir bəy dayanır, bəyin qabağında da yaylığ olur. Qohum-qardaş oynuyur, sonra pul salır ora. Orda tüfəng açılır, quş vurulur. Kim quşu vurdusa, tüfəngin kəlləsinə quşu sancır. Bəyin qabağında xonçalar olur. Gəlir bəyin qabağında oynuyur. Gözü hansı xonçanı tutsa, quşu qoyur onun üsdünə, həmin xonçanı özünə götürür. Bəy oturtmada bəy tərifi olur, sonra bəy gedir ya qonşunun, ya da qohumun evində qalır. Bəyin də xınası olur, cavanlar, bəyin dostları yığılır, orda bəy xınasın vurullar, yeyillər, içillər. Xına qıza göndərilən xınadan olur. Oğlan evi gəlin üçün xına alanda, bəy üçün də alır. Biri gəlin üçün, biri bəy üçün. O xınanı isladıb bəyin əlinə-ayağına qoyurlar. Sonra axşam gəlin üçün gedirlər.

## 165.

Bundan əvvəl bizdə adətlər var idi, elçi gedəndə qohum-əqrabadan sözü ötən iki-üç dənə ağsaqqal çağırırdılar, deyirdilər biz filankəsin evinə elçiliyə gedirik. Bir-iki dəfə gedəndən sonra həəsin alırdılar.

Gəlini gətirəndə atın üsdündə sağduş olurdu. Sağduş atı yəhərliyib və yaxud alığlıyıb gedirdi qız evinə. Qız evindən nalça[81] verirdilər buna. Nalçanı sahmannan qoyardı alığın üsdünə, gəzirdi bir beş-on dəəğə. Axı qız çıxartmaq zarafat deyil evdən. Atın üsdünə minib gəzirdi. Gəlini evdən çıxardan vaxdı sağduş düşürdü aşağı, gəlinin ayağının altına ya taburetka qoyardı, ya dizin yerə vurub dayanardı ki, gəlin ayağını onun dizinə qoyub ata minsin. Gəlin ata minəndən sonra atın başını tutub tüfəng ata-ata gəlini gətirirdilər oğlan evinə. Gətirib təhvil verənnən sonra həmən nalça qalırdı sağduşun özünə. O da onu alıb at sahibinə verirdi.

Beşinci gün həmişə toyun birinci günü olurdu. Çalğıçılar həmişə günorta gəlirdi. Kənd camaatı bilirdi ki, toy başlanıb. Birinci gün şirinçaya adam çağırırdılar ki, filankəsin toyudu bu gün. Sonra tikəyə – hərəsinə bir tikə kababa (şişliyə) çağırırdılar, axırıncı gün də ümumi yimək-içməyə çağırırdılar. O vaxtı bəy çıxardanda, bəy oturanda camaat xonçaynan gedirdi. Hər evdən xonça çıxmasa, qınayırdı camaat. Bəyin ardınca əlli-altımış qadın, başında xonçalar. Xonçalarda nə olurdu? Peçennik, kanfet, halva, yumurta, kərə yağı.

Qızı köçürəndə qızın atası oğlanın atasına deyirdi ki, molla kəbini kəs, ondan sonra gəlini apar. Mollanı çağırırlar qız evinə. Oğlan tərəfin, qız tərəfin vəkilləri də qız evinə gəlirdi. Lap

---

[81] nalça – döşəkcə

ata da dayana bilər, qardaş da dayana bilər, yoxdusa kənar bir yaxın adama vəkillik verir ki, get bunun kəbinində dur. Kəbini kəsirdi orda, həmən gəlin kəbin kəsənlərin ətrafında üç dəfə fırlanır, onnan sonra gəlini çıxardırlar evdən. Gəlinnən oğlan ikisi də pərdə arxasında olmalıdı, bu yanda da kəbin kəsən mollaynan şahidlər. Adət-ənənəyə görə, molla kəbini eləməmiş ata evindən gəlini çıxartmazlar, haramdı. Halallıqnan köçürərdilər, ondan sonra qırx gün qırx saxlıyardılar. Gəlinin üsdünə başqa adam gəlmağa qoymazdıq, bəy də bayırdan gələndə, evdəkilər də gələndə mütləq gəlini onların üsdünə çıxardardılar ki, gəlin çiləyə düşməsin, övladı olmazdı deyirdilər. Xəsdəliyi olan, həmzatı olan gəlinin üsdünə gəlsəydi, onun neçə övladı olsa ölürdü, qalmırdı. Ona görə də gəlini bayıra çıxartmırlar qırx gün.

**166.**

Kiçik nişanda baldızmı, eltimi gedirdi, qızın barmağına bir üzük taxırdılar, gəlirdilər. Böyük nişanda oğlan evindən də, qız evindən də adam çağrılırdı. Podnusda halva bişirilərdi, şirniyyat aparardılar. Sonra məsləhətləşirdilər ki, toyu haçan eliyax. Tabakaran deyirlər, aparıb süd pulu verirdilər. İki nəfər ağsakqal aparıb süd pulun verərdi, qız evi həmin pula mebel alırdı. Mən 1991-ci ildə oğluma toy eləmişəm, iki min manat süd pulu vermişəm. Gəlin iynədən tutmuş sapa kimi gətirir, süd pulu da ona kömək məqsədilə verilir. Həfdənin dördüncü günü məsləhət aşı deyirdilər, qonum-qonşunu, ağsakqalları məsləhətə çağırırdılar. Cümə günü qadınlar halva bişirərdi, hərəsinə bir qab lavaş arasında halva çıxarardılar. O halvanı aparan qadın mütləq bəyin dalınca xonça gətirirdi. Mislaçün, arvadlar gedirdi sənin oğlunun toy halvasın bişirərdilər. Gedərdi

bozbaşdan yeyərdi, onun qabağına gətirib boşqabda lavaş arasında halva qoyardılar. Onlar da üçdən, beşdən düşərrik atardı, lavaşı alıb gələrdi. O lavaş aparan adam hükmən bəyin dalınca xonça gətirərdi. Xonçaları qoyardılar mağarın içinə. Sərpayı vardı, sərpayıda siyahı vardı – çayçı kimdi, aşpaz kimdi, ayaqçı kimdi. Xonçaları olara paylıyardı. – Əliəhməd obadan qonaxları kim saxlıyır? – Nəzər kişi. – Neçə nəfərdi? – Beş nəfər. Beş dənə xonçanı verirdi ona ki, ala, bu sənin qonağlarunun. Qalan xonçaları da üsd-üsdə yığıb verirdi toy sahibinə. Sonra da gedib gəlini gətirirdilər.

Bəy gətirəndə bəyin dosdarı çiynində tüfəng patron ata-ata gəlirdi, sərçə vururdular. Baxırdılar hansı xonça yaxşıdı, vurduğu sərçəni onun üsdünə atırdı. Sərpayı deyirdi, bu sərçə kimindi? Bu tərəfdən deyirdi, mənim. Xonçanı verirdi sərçə vurana. Bəygətirmə toyun axırıncı günü – bazar günü olurdu. Şənbə günü paltar aparardığ qız evinə. Xonçalarnan gedirdik, orda oynuyurdular, yeyib-içirdilər, sonra qayıdıb gəlirdilər oğlan evinə. Oğlan evində də səhərə kimi toy çalınırdı.

Həftənin birinci güni üzəçıxdı olurdu. Qonum-qonşunu üzəçıxdıya çağırırdılar. Üzəçıxdıda arvadlar başqa, kişilər başqa yerdə otururdu. Üzəçıxdıda qadınlarnan gəlin görüşərdi, bəy də kişilərnən görüşərdi. Bəy çiynində dəsmal, bir əlində afdafa, bir əlində ləyən, – stul yox idi, hamı yerdən otururdu, – o başdan suyu tökə-tökə gəlirdi.

Gəlin gətirən günün səhərisi gəlin öz həyətlərini, qonşunun həyətin süpürərdi. Bir həftədən sonra gəlini bulağa çıxarırdılar. Qonum-qonşunu çağırırdılar ki, gəlini bulağ üsdünə çıxartmağa dəvət edirik. On beş, iyirmi adam yığışardı, üç-beş kilo kanfet alardılar, qulpundan çıxan, yoldan keçənə o kanfetdən

verərdilər. Gəlin səhəngi alıb çiyninə, yaşmaq da ağzında qızlarnan gedirdi bulağa. Su alıb gəlirdi. Ondan sonra gəlin özbaşına gedib bulağdan su gətirə bilirdi.

Toylar zurna-balaban, saznan keçirilib. Küsnət kəndində Aşıq Mərdan var idi, onu gətirərdilər. Aşıq Şakir gəlib bizim toylara.

Bəy mənim evimdən çıxırsa, mən dəllək aşı verirəm. Bəy öz toyunda görünməzdi. Misalçün, mən bəyin dayısıyam, bəy onun evində otururdu, ora bəyin tay-tuşu çağrılırdı. Oturub yeyib içirdilər. Toyun axırında çalğıçılar gəlirdi bəyi aparmağa. Mənim qapımdan bəy çıxanda evdən də xonça çıxırdı. Çolpası, arağı, gedirdi çala-çala bəyin tay-tuşunnan bir yerdə. Qız evindən də bir xonça. Qonum-qonşu, onların dalınca da xonçalar gəlirdi. Bayaq mən dedim qadınlar toy lavaşı aparır, həmən lavaş aparanlar xonçalarnan gəlirdi. Bəy dayanırdı ortada, onun qabağına həmin xonçalar qoyulurdu, qalanı da aşağı yerə qoyulurdu. Sərpayı aşağı qoyulan xonçaları paylıyırdı, bəyin qabağına qoyulan xonçalar isə bəyin idi. Tay-tuşu genə gedirdi bunun evinə, mənim evimə yox. Yığılırdılar ora, orda yeyib içirdilər. Olar da xonçaya düşərrig atırdılar. Bəyin sağduşu evli olurdu, solduşu subay. Onların çiynində tüfəng olurdu.

Bazar günün səhəri muzukantlar dama çıxıb Segah çalırdı. Gəlin gətirən günün səhərisi həyətdə çalırdı, qonum-qonşu oynuyurdu. Qıznan gələn yengə sandığı açardı, gəlinin gətirdiyi çorabı, yaylığı, dəsmalı paylıyardı, ona sabaş deyərdilər. Muzukantlar ev sahibinnən halallıq isdiyirdilər, olar üçün xonça, gəlinin gətirdiyi sabaşdan – corab, dəsmal, yaylıq verib yola salırdılar. Üzəçıxdı günü isə gəlin qaynatası, qaynanası, aşpaz üçün ayrı-ayrı pay çıxarırdı.

# 167-170. LƏZGİ TƏQVİMİ

Xib – təbiyətin oyanan günüdür, on beş gün çəkir.

Qoğer – təsərrüfat ayıdır, şum vaxtıdır, on beş gün çəkir. Yer onda şumlanırdı.

Uruqun-duruqun – Üç gün çəkir. Hava dəyişkən olur, yağmurlu keçir. Deyirdilər ki, uruqun-duruqunda xəstə heyvanlar ölüb gedəcək, sağlamları sağ qalacaq. Azarı-bezarı olanlar gedəcək, o birilər sağ qalacaq.

Çiş – Qışın axırına düşür. Həmin vaxt hər yerdə rütubət olur, odun yanmır. Çişdə meşədən kəsilən odun sobada yaxşı yanmaz. Qoğerdən əvvəl, ya da sonra gəlir, on beş gün çəkir. "Çiş çıxdı, qış çıxdı", – deyirik.

Çiq – rüb deməkdi. Yazın ortasına yaz çiqi, yayın ortasına yay çiqi, payızın ortasına payız çiqi deyilir. Yay çiqi iyulun 20-dən başlayır avqustun beşinə kimi. On beş gün çəkir. Bu yay çiqidi. Payız çiqi isə oktyabrdan başlayıb noyabrın beşinə qədər davam edir. Yay çiqində ağacların inkişafı dayanır. Bu dövrdə nə isə eləmək olar. Həmin vaxtı tikinti üçün ağac kəsmək olar. Həmin dövrdə kəsilən ağacda qurt-murt olmur, nə qədər saxlansa da, ona cücülər, həşəratlar zərər vura bilmir. Ağacları həm yayda, həm də qış çiqində kəsirdilər. Yay çiqində otu, taxılı tam biçir, ondan sonra yığırdılar.

Baba leta – Payızda havaların isti keçdiyi xüsusi günlər olur, ona "baba leta" deyirlər. Yarpaq tökülən vaxtı olur, payızın ortasına düşür. Bizdə deyirlər ki, payızın istiləri bəzən yayın istiləri ilə höcətləşir. Qışa hazırrıq üçün görülməmiş işlər varsa, deməli, o vaxtı görə bilərsən.

**168.**

Kiçik çilədən sonra alxor-malxor gəlir, elxend gəlir, yar gəlir. Elxenddə bitki əkəndə düşər-düşməzliyi var. Elə olur, o vaxt əkilən bitki bitmir. O vaxt əkilən soğan düz çıxmaq əvəzinə əyilib düyün kimi olur. Ona *dur* deyirik. Dur ləzgicə düyün deməkdi. Bizdə əkin, əsasən, yarda olur. Alxor-malxor iki həftə sürür, onlar nəs günlər hesab olunur. Ondan sonra elxend gelir. Elxendden sonra yeddi gün dur gəlir. Ondan sonra yar gəlir.

**169.**

Qış çiqi beş gün Kiçik çilədən, on gün Böyük çilədən götürür. Qışın oğlan çağı deyirdilər ona. Rəvayətə görə, o mamentdə bir ağac kəssən, yara versən, ağac quruyurmuş və yaxud mal balalasa, o buzav əmələ gəlmir. Yer belliyəndə yerdə heç bir şey bitməzmiş. Novruz bayramında deyirdilər ki, məsələn, bulağlar dayanır, çinarlar baş egir, yerə degir, at guşəy[82] vurur. Belə eşitmişih rəvayətlərdən. Onun hansı vaxtda, hansı saniyədə olmağın bilən yoxdu. Ancax ata-babadan eşitmişih ki, bu on beş gündə olur.

**170.**

*Uruqom-duruqom* ağaclar tumurcuq tutan vaxta deyilir. Uruqom-duruqom gələndə deyərdilər, keçilər yaza çıxdı, day keçilərçin xata yoxdu. Çiş-miş onnan qabağ olur. Elxendin əlamətləri: hava bozarır, soyuq olur, amma soyuqlar o qədər də güclü, sərt keçmir. Deməli, qış fəsli yaz fəslinə təhvil verən günlərdi. Kiçik çilə qurtarırdı, başdıyırdı elxend. Çiş-miş vaxtında bitki əkilməliydi. Dumanlı, çisginli günlərdi, on gün çəkir. Nə günəşli gün degil, nə də yağışdı gün degil. Çiş-mişdən

[82] guşəy – gövşək

sora gəlir uruqom-duruqom. Ağacların tumurcuq tutub inkişaf eliyən vaxdıdı. On gün də bu çəkir. Onnan sora Novruz bayramı gəlir. Novruz bayramı qabağı adam, deyir, gərək yeddi cür nemət yesin. Mal-qaranın quyruğuna qırmızı ip bağlıyırdılar ki, yar vurmasın mal-qaranı, yəni xəta toxunmasın. Bəzi insanların sifətində çilə əlaməti olurdu: qızılcadı, gözdərin altı, yanağları ləkə-ləkə qaralır. Çilə ona deyillər. Birinci yaz yağışı yağanda nənələr diyirdi bizə ki, çıxın üzüvizi yağışın suyunan yuyun, çilə getsin, ləkə getsin, üzüvüz ağ olsun. Novruz bayramı qabağı mollalar dua yazırdılar, o duanın suyun gəzdirirdilər evbəev işməyçün. Qızılca xəsdəliyi olan evə kənar adam gələndə xəsdəlik ona da keçə bilərdi. Onda qapıya qırmızı lent bağlıyırdılar.

## 171. İNANCLAR, YASAQLAR

1. Qadının üsdünə ət gətirəndə, qızıl gətirəndə, ağır adam gələndə o çiləyə düşür. Həmin qadının çiləsini kəsmək üçün mumu əridib suyun içinə tökürdülər, qadını nəyin çiləsi tutubsa, onun şəkli suya çıxırdı. Üç dəfə Qulfallah duasını oxuya-oxuya həmin suyu gəlinin başından tökürdülər, onda onun çiləsi tökülürdü. Həmin şəkilləri üçkünc parçaya tikib qorxan adamın üsdünə tikirdilər, yaxud uşağın beşiyinin altına qoyurdular.

2. Uşağı olanı qırx gün qoruyurdular. Buxov diyilən dəmir var idi, iki başı halğalı dəmir. Onu qapının ağzına atırdılar. Qırağdan gələn adam onu görən kimi bilirdi ki, bu evdə körpə uşağ var. Bir dənə tasın içinə yumurta qoyub qapının arxasına qoyurdular. Bayırdan gələn buxovu görüb ev sahibini çağırırdı ki, bəs mən gəlmişəm. Ev yiyəsi uşağı çıxardardı evdən, o evə keçənnən sora uşağı onun üsdünə gətirərdilər. Çileyə düşən

uşağ da inkişaf eləmir, inkişafdan qalır (çida diyillər), uşağın əyağları pastiyannı çarpaz olur. Bizdə Hacı Usman babada[83] ağacın kökü var, belə əgri, uşağı onun altınnan üç dəfə keçirirdilər, onun çiləsi düşürdü, onun çidarı kəsilirdi. Uşağın çiləsi rəngli iplərnən də kəsilirdi, qurd ağzınnan da çıxarılırdı. Uşağın başının altına qayçı, bıçağ qoyurduğ ki, uşağ qorxmasın.

3. Güclü yağış yağanda, quraqlıq olanda cöngə kəsib ehsan paylayırdılar. Axırıncı dəfə kolxoz dövründə məsciddə heyvan kəsib ehsan paylamışdılar. Kimin imkanı var, öz toğlusunu kəsib ehsan paylayardı. Mən özüm də təzə evə köçəndə bu torpaq mənə halal olsun, burada yaşayan əcdadların razılığını almaq üçün heyvan kəsib ehsan paylamışam. Ehsan kəsilən heyvandan başqasına nə qədər pay vermisənsə, o qədər də özünə saxlayırsan. Hətta mən ciyəri də on beş yerə bölüb paylamışdım.

4. Bizdə həmişə sadağa vermək olub. Bayram olanda – Orucluq, Qurbanlıqda yığışardıq aşağıda pir var ora. Oranın bir tərəfi qəbirstanlıqdı. Kimin nəyi var idisə, gətirirdi: biri çörək gətirirdi, biri kanfet gətirirdi, olmayan pul verirdi. Həmin pul qəbiristannığın abadlıq işlərinə xərclənirdi. Hamı otururdu, çörək yeyirdi, Yasin oxunurdu. Sadağa da o cürdür. Orucluq, Qurban bayramı olanda keçirilirdi. Bizimkilər gedib orda toplaşırdı. Həm ölənləri yad edirlər, həm də orda yığışırdılar. Səhər-səhər gedirdilər, kimin evində nə var idisə – kanfet, şəkərbura onların hamısını bir yerə yığırdı, sonra bir nəfər gəlib bunları qarışdırıb kasıb, imkansız adamlara paylayırdılar.

---

[83] Kənddəki pirin ərazisini nəzərdə tutur.

5. Yağış çox yağanda onun kəsməsi üçün mövhumatçı qadınlar – pirin yanında daş var idi, – həmin daşın üstündə tonqal qalayıb dualar oxuyub onu tərs üzünə çevirərdilər. Oxunan dualar Quran ayələri idi.

6. Bundan əvvəl evlərin damı torpaxdan olurdu. Yağışı kəsmək üçün çubuxdan yeddi dənə kukla – haciyar düzəldib damda torpağa sancırdılar. Bostan oyuğu olmur? Onun kimi kuklalar düzəldib dama, yaxud hasarın başına qoyurdular ki, yağış kəssin. Oyuğun əyninə köhnə paltar geyindirirdilər, başına parça bağlıyırdılar. Heybə düzəldib içinə taxıl, buğda, duz, un, mismar qoyurdular, salırdılar hacıların çiyninə. Onları da damın üsdünə sancardılar.

7. Damların qırağına on iki dənə dəvə karvanına oxşar şəkildə kuklalar basdırırdılar. Sonra həmin qodunun başına bağlayırdılar vedrə, bunu da eliyirlər aprel ayında, isdilər düşməyə başlayanda, yağış lazım olanda. Meşə göyərəndə ağacların çubuqları, budaqları ilə onu bağlayırdılar. Onu gəzdirirlər qapı-qapı, axırda da gətirib arxda uzadırlar ki, arxda su bol olsun. Hər evdən nəzir verilərdi – yumurta, çörək, pul və s.

8. Kənddə[84] bir pir var. Pirin ərazisini bellə qazanda guya yağış yağırdı. Yaxud da ki, pirdəki daşı yerindən tərpədirdilər ki, yağış dayansın.

9. Bular yaxşı bilər, yaşlılar. Babadağda daş vardı, salardılar ocağa, külnən də örtərdilər üsdünü. Yeddi gün çıxartmırdılar, yanı unnan yağış kəsilirdi.

---

[84] Piral kəndindəki piri nəzərdə tutur.

10.Yağış yağdırmaq üçün yuxarı pirə[85] gedirdik, süddü sıyığ bişirirdilər. Əlimizdə qavnan gedirdik ki, ay Allah, yağış yağsın. Orda analarımız süddü sıyığ bişirirdi, biz uşaqlar da əlimizə qaşıq, qab alıb gedirdik. Göy çəmənnikdə otururduq, hazır olanda hərənin qabına tökürdülər, orda da yeyirdik. Sıyığın düyüsü, südü müxtəlif evlərdən yığılırdı. Hərə özüylə bir az süd, düyü gətirirdi, bir yerə qatıb bir-iki qazan bişirirdilər. Vaxd olub elə orda yağış töküb, qaçıb gəlmişik.

11. Sarımsağ əkmağın, samaqon çəkmağın düşər-düşməzi var. Mənim oğlum samaqon çəkmişdi bir dəfə. On iki dənə qoyunum öldü, toyuq-cücə qırıldı. Dedim, bala, bunu ötür. İçəniyəm mən də. Burda övliya torpağları var, bizə düşmür. Qarğış var burda. Biri-birinə qarğış eliyəndə deyir ki, sənin torpağında sarımsağ əkilsin.

12. Yağışı kəsmək üçün baltanı ağzı yuxarı yerə qoyuruq, göyə duz atırıq, torpağa mıx sancırıq.

13. Yağış çox yağanda, hava açılmayanda rəhmətdih Pirzada baba bizi yığıb aparırdı Hacı Usman babanın üsdünə. Orda od eliyirdi, Allaha yalvarırdığ, pirin üstündəki daşı uşaqlar çevirirdi, aş bişirirdik, nəzir paylıyırdığ ki, yağış dayansın, gün çıxsın.

14.Tüfəng əgər hədəfi vura bilmirsə, ona "tüfəng çiləyə düşüb" deyirlər. Tüfəngin çiləsini götürmək üçün arvadın paçasının arasından üş dəfə keçirirsən, onda tüfəng çilədən çıxır.

---

[85] Dağ Qımıldakı piri nəzərdə tutur.

15.Yaz başladı ta yay çiqi qurtaran qədər dooşan vurmağ olmaz. Niyə belə deyirlər? Həm balası böyüsün, həm də hər bir heyvanın ətinin spesifik iyi var. Dooşan ətində də xoşagəlməyən iy olur. Yayı çiqi qurtarandan sonra dooşanın ətindən həmin iy gəlmir. Yay çiqinə qədər dooşan tam yetişməmiş bitkilərnən qidalanır, ona görə onun ətindən iy gəlir. Amma yay çiqindən sonra bitkilər vegetasiya dövrünü başa vurur, tam yetişmiş otu yediyi üçün onun ətindən iy gəlmir. Biz də yay çiqindən sonra dooşan ovluyardığ.

16. Çöldə heyvan qalanda qurd ona toxunmasın deyə molla qurdağzı duası oxuyur. Hansısa əfsunu oxuya-oxuya bir pıçağın ağzın ipnən bağlayır. O vaxdı bizdə qurd ağzı bağlayan molla olub, Molla Fətulla. Biri buna deyib, ay molla, heyvanım qalıb çöldə. Bundan bir-iki maat alıb qurdun ağzını bağlayıb. Amma canavar bunun inəyini yeyər. Gəlib deyər, ay molla, axı canavar inəyi yedi. Molla deyir, o meşədə gölməçə, su yığını vardı? Deyir, meşədi da, meşədə gölməçə olar da. Molla deyir, qurd su gölməçəsinin üsdündən tullananda, onda əfsun kəsərdən düşür, qurdun ağzı açılır. Mənim təqsirim yoxdu.

17. Evdən ölü çıxanda qapının ağzına mıx vururlar.

18. Pis niyyətli adamlar gəlin köçən qızın uşağı olmasın deyə onun dalınca lax yumurta atardı və ya yumurtanı yerə vurub sındırardı.

19. Ölü çıxanda qəbirstana aparıb mıx vurardılar. Buğda tökülür, mıx vurulur.

20. Gəlin köçəndə onun dalınca daş atarlar.

21. Üzərriyin bir toxumu bir evliyadır deyərdilər.

22. Anam gəlinə, qızına deyirdi ki, bala, saçını yudun, o suyu ayrıca qabda qoy, o suyu gecəynən atma. Sabah təmiz yerə at. Yaxud məcbursan, o suyu atmalısansa, o suyu atanda deyirdilər ki, yer yiyəsi gəlir, yerdəkilər qaçın. “Bismillah”, – deyib atırdı.

23. Uşaq təzə diş çıxardanda düyüdən südlü hapa[86] bişirərdilər. Qohum-qonşunu çağırardılar, həmin südlü hapadan onlara da verərdilər.

24. Uşağ diş çıxardanda hədih bişiririh. Ədyalı səririk təmiz yerə, uşağı oturduruğ orda, buğdanı uşağın üstündən tökürük və belə diyirik: “Sağ-salamat çıxartsın dişləri”. Sonra uşağı götürüb, buğdanı təmiz yuyub, bişirib, onu yeddi evə paylıyırıq, hədih aşı diyirik ona. Qarğıdalı, paxla, noxud, kim nə isdiyir, qarışdıra bilər.

25. Körpənin süd dişi düşəndə diyillər ki, atın, dama atın. Dama atanda oxuyardılar ki:

Mənim dişim quzuçun olsun,
Quzunun bərk dişi, yaxşı dişi bizimçün olsun.

26. Göz qaytarmaq üçün qapıdan sınıq çaynik, keçi buynuzu, deşik daş asırığ. Uşağa göz dəyəndə deşik daşı stəkana atıb duasını oxuyub suyunu uşağa içirdirik.

---

[86] hapa – yayma

27. Sarımsağın düşər-düşməzi olur, ona görə sarımsax əkmirlər. Əkəndə də “başqasının sarımsağıdı” – deyib onun adına əkirlər.

28. Heyva ağacı göz qaytarır. Ona görə bizdə hər həyətdə, heç olmasa, bir heyva ağacı olmalıdı. Heyvanın budaqlarından kəsib mal-qaranın buynuzuna bağlayırlar, heyva ağacından düzəldilmiş bəzək əşyasını maşınlardan asırlar ki, göz dəyməsin.

29. Təzə ev tikiləndə evin damını bağlayandan sonra cin olmasın deyə iki gecə orda lampa yandırırlar.

30. Qudini hazırlamaq üçün çörək xərəyi ilə oxlovu bir-birinə bağlayırdılar, onu qırmızı, rəngbərəng parçalarla, kəla-ğayılarla bəziyirdilər. Qara rəngdən başqa əlvan rənglərin hamısı istifadə oluna bilərdi. Qudi gəzdirəndə oxuyurdular:

Qudi, Qudi, gün gərək.
Qudi suva düşüfdü,
Qurutmağa gün gərək.
Amin minarəl,
Kabul ola qusari.

Qudini gəzdirənlərə yumurta, kanfet, şirniyyat, meyvə qurusu və sair pay verirdilər.

31. Mal-qara örüşdən gələn vaxdı toyuğu kürt yatızdırarlar ki, bərəkətli olsun. Toyuğu üçüncü, altıncı gün kürt yatırarlar. Həmin günlər uğurlu gün hesab olunur. Birinci, beşinci günlər isə ağır gün hesab olunur.

32. Cümə günü ağac kəsilməz, ağac kəsmək üçün meşəyə gedilməz. Həmin gün kimsə ağac kəmsək istəyərsə, mütləq ziyanını çəkər.

33. Yaran yad[87] var. Yar bahar bayramıdı bizdə. Onu gəzdirəndə – o vaxt rəngli karandaş yox idi, – kağızın üsdünə ulduz kimi şəkil çəkirdilər, rəngliyirdilər, onu qoyurdular nimçənin ortasına və gəzdirirdilər. O bahar simvoludu. Rəngli kağızı qoyurdular qabın ortasına və üstündən su tökürdülər. Ona yaran yad deyilir, bahar suyu. Bu suyu içirdirdilər, guya onu içən gümrah olacaq.

34. Dişi ağrıyanlar pir ağacına[88] mıx çalardılar.

35. Arzu tutanlar pir ağacına parça bağlıyardılar.

36. Hilnən Yasab arasında Qara baba addı pir var. Uşağı olmayanlar Qara baba pirini ziyarət eliyərdilər.

## 172-175. PİŞAPA

Qudul, Pişapa yağış allahlarıdı. Hava quraq keçəndə insanlar yalvarırdılar ki, ay Pişapa, ay Pişapa, bizə yağış göndər, yağış yağsın. İnsanlar bir nəfərin bədənini yaşıl ağac budağlarıynan örtürdülər. Onun üzü görünmürdü, bütün bədəni ağac budağları ilə örtülürdü, bircə gözləri seçilirdi. Elə bil yaşıl bir ağac gəlir. Bir nəfər onun ortasından kəndirnən bağlayır, kəndirin

---

[87] Bahar suyu

[88] Çinar ağacıdır, kənd camaatı arasında pir ağacı adlanır.

ucundan tutub onu kənd boyu gəzdirirdi. Həmin adam Pişapa adlanırdı. – "Pişapa qeyzua, Pişapa quddu çina[89]", – deyə-deyə onu gəzdirirdilər. Ev yiyələri bu sözləri eşidəndə bilirdi ki, Pişapanı gətiriblər. Əlində pay və su qapıya çıxırdılar. Payı Pişapanı gəzdirənə verirdilər, – onun da üstündə çanta olurdu, – verilən payları çantaya atırdı. Suyu da Pişapanın üstünə tökürdülər.

Yaxud yağış yağmayanda deyirdilər ki, Pişapaya sədəqə vermək lazımdı. Sədəqə vermək üçün məhəllə-məhəllə qoyundan, maldan kəsib paylayırdılar camaata ki, guya Pişapa bizdən ehsan isdiyir. Hətta özüm şahidəm ki, savxozda bir neçə iri cöngəni Pişapaya sədəqə kimi kəsib camaata paylamışdılar ki, yağış yağsın.

**173.**

Quraxlığ olanda bir nəfəri çılpaq soyundururdular, palıd ağacının budağlarından kəsib bağlıyırdılar buna. İki yerdən – bir öndən, bir arxadan bağlıyırdılar ki, çılpaqlığı görünməsin. Gözlərinin görməsi üçün iki yer açırdılar. Biri qabaxdan ipi tutub bunu gəzdirirdi. "Güdül, Güdül, ay Güdül" oxuya-oxuya gətirirdilər, uşaxlar da düşürdü onun dalınca. Birinin də əlində sumka olurdu. Ev sahibi gəlib Güdülün üsdünə bir vedrə su tökürdü, ona yumurta, əlindən nə gəlir verirdi. Bizim kənddə Qumalat, Səfdər olardı, çox vaxt Güdül olar olardı. Yetim uşaxlar idi. Müharibə qutaran illərdə olub bu. 55-dən sonra mən görməmişəm.

**174.**

Quraxlığ olanda, taxıl yetişməyəndə böyüklər deyərdi ki, Beşapa hazırla. Gedib meşələrdən yarpaq gətirərdik. Bir nəfər

---

[89] Tərcüməsi: Pişapanı çıxarmışıq, Pişapa gəlir.

soyunardı, girərdi onun içinə, ipnən bağlıyardılar. Yanında da biri olardı, əlindən tutub gəzdirərdilər. Deyərdilər, marfaqura, ay Allah, marfaqura, ay Allah[90]. Sonra gətirib üsdünə bir az su atardılar, yumurta, kanfet verərdilər. Dalında da uşaqlar vardı, onlar da Allaha yalvarırdı.

**175.**

Yağış yağmıyanda yarpağa bürünür bir nəfər, sicimnən tutub onu qapı-qapı gəzdirirdilər. Gedib pir ağacından – fıstıq ağaclarından budaqlar qırırdılar, öndən, arxadan bir nəfərin bədəninə bağlıyırdılar. Bir nəfər başın tuturdu, bir nəfər də vedrəni, qapı-qapı gəzdirirdilər. Verilən nəzirləri vedrəyə yığırdılar. Rəhmətdik Molla Kərəm çox edirdi. Hər qapıda bir səhəng su tökürdülər bunun üsdünə, hər qapıdan bir-iki dənə yumurta alırdılar, gedirdilər həmən pirə. Orda paltarın dəyişirdi, yumurtaları da götürüb gəlirdi. Qapıya girib dua edirdilər ki, ay Allah, yağış yağsın. Üç dəfə üzüni sirkəliyib başın aşağı əyirdi, gedirdi o biri qapıya. Helə kəndi bütöv gəzirdi. Başının üsdünə podnus qoyurdular ki, dağ yerlərinin suyu soyuq olur, su başından tökülüb onu xəsdələndirməsin. İpnən də bağlıyırdılar, bir nəfər ipin ucunan tutub onu gəzdirirdi. Qapı-qapı gəzirdi, hər qapıda da bir səhəng su tökürdülər bunun üsdünə, gətirib buna kanfet, yumurta verirdilər. Kəndi gəzib qutarandan sonra gedərdi ağac budaqlarının kəsildiyi yerdə üsdündən şaxları atardı, paltarını dəyişərdi. Yığdıxları payı da üç nəfər arasında bölərdilər, qayıdıb gələrdilər.

---

[90] Yagış yağsın, ay Allah.

## 176-179. ALBAB

Albab qırmızı arvad deməkdi. Albab cavan gəlinlərə paxıllığ edən, doğum zamanı onları boğub öldürən ilahədi. Guya hamilə gəlinlərin döşdəri üzərində oturub onu boğur. Gəlin gücənir, gücənir, uşağı dünyaya gətirə bilmir. Onda yanında olan qadınlar deyərdi ki, Albab bunu boğur, Albabı qovmaq lazımdı. O vaxtı deyərdilər: "Al arvad, Al arvad, əl çək bizim gəlindən. Nə isdiyirsən ondan?" Belə sözdəri təkrar eliyirdilər. Deyilənə görə, Al arvad meşədə olur. Bizim kənddə hətta onu görənlər olub. Onlar danışırdılar ki, guya Albab meşədə ağacların budağında oturur, uzun hörükləri yerə çatır. Gözəl görünüşlü qadın idi. Ətrafa baxırmış. Pismillah deyən kimi yoxa çıxıb.

### 177.

Albob su olan yerlərdə, çayın üsdündə olur. Özü də çox gözəl olur. Uzun qara saçları olur. Xəsdələnən adamın gözünə görünür. Adamı aldadır. Ruhi xəstə adamlar ona çox inanır. Görürsən, deyirlər ki, məni kimsə səslədi. O Albobdu. Adamı səsləyib öz dalınca aparır, uçuruma salıb öldürmək isdiyir. Bizim kənddə ruhi xəsdə bir kişi var idi. Onu dalınca aparıb qayadan salmışdı.

### 178.

Sancağı yerə sancanda Alpop dayanır. Alpopu elə tutmaq olur. Alpop uşağa yatan qadınların üstünə gəlir. Özünün uşağı olmadığı üçün uşağı olan qadını görəndə onları dərəyə göndərir, onlardan qisas alır. Bibim uşağa yatanda onun üsdünə gəlib, ondan sonra bibim havalanıb.

## 179.

Nənəm uşaqlı bir Albab gətirmişdi. Bulaq başından onu tutub gətirmişdi. Bu işdiyirdi: öy süpürürdü, su gətirirdi. Biz görmürdük, ancaq nənəm görürdü. O deyirdi, süpürgəynən mənim uşağımı vurma. Bu bulağa su gətirməyə gedəndə kimsə süpürgəynən onun uşağını vurub, Albab gəlib uşağını götürüb gedibdi.

## 180-181. KUARS

Kuars çox vaxt yatmış yaşlı adamların üsdünə gəlir. Onu necə tutmaq olar? Kuarsda, deyilənə görə, qırmızı papaq olur. Papaq nə qədər onun başındadı, o gözə görünmür. Kuars yatan adamın yanına gələndə papağını çıxardıb su dolu səhəngin üstünə qoyur. Kim həmin qırmızı papağı götürə bilsə, kuars ona tabe olar. Nə buyursa, onu yerinə yetirir, ondan asılı vəziyyətə düşür. Papağı başında olanda gözə görünmür. Əgər papağı başından götürə bilsən, o zaman gözə görünür, onda tutmaq mümkün olur.

## 181.

Kuars yatan adamın üsdünə gələndə nə özü danışır, nə də onu görən adam danışa bilir. Onu görən adamın nitqi tutulur, danışmaq isdiyir, amma səsi çıxmır. O gəlməsin deyə balıncın altına pıçaq, qayçı qoyurlar. Evin küncünə balaca süpürgə qoyurlar, çörək qoyan var.

Kuarsın başında qırmızı papağ olur. Evə gələndə papağı su dolu səhəngin üsdünə qoyur. Bir arvad onun papağını götürmüşdü. "Papağı ver" deyə ona o qədər yalvarmışdı ki. Papağı verməsə, o heç nə eliyə bilmir.

## 182-183. KUSKAFTAR

Kuskaftar nalayiq işlər görən adamdı. Məsələn, biri rəhmətə gedir, onu basdırırlar, o dünya sakinlər onu ordan qovur. Həmin adam xortduyub qəbirdən çıxır. Görürsən qəbir açılıb, amma içərisində heç nə yoxdu. Nə evdəkiləri onu evə buraxır, nə başqaları. Hamı onu qovur, getməyə yeri yoxdu. Hər yerdə avaralanır. Ona kuskaftar deyirlər. Yaşlılar dəcəl uşaqları qorxutmaq üçün deyirdilər ki, bu saat Kuskaftar gələcək.

## 183.

Kuskaftar çox eybəcər olur. Beli bükük, əlində əsa olur. O qabağa çıxmasa, yaxşıdı. Qabağa çıxsa, iş düz gətirmir. Pişikdən də pisdi deyirlər. Bir qadın vardı, o qabağıma çıxdı, getdiyim iş düzəlmədi. Sonra qayıtdım səhərisi gün getdim, düzəldi. Həmin qadına kuskaftar deyərdim. O ailələri ayırmaq istəyir, o xeyir istəmir. Niyyəti ağır olan adamdı.

## 184. HARDOV

Yaşlılar balaca uşaqları Hardovla qorxuzardı: Hardov gəlib yeyəcək səni. Allah rəhmət eləsin, burda İsmayıl addı bir kişi olub. O vaxtı qoyun dərisindən tikilən kürklər olub. Bu kişi də həmin kürkü geyib oturubmuş. Hardov gəlib yapışıb bundan, bunu dalına alıb aparıb. Bir xeyləm aparandan sonra bu kişi deyib ki, dayan, əllərimi yaxşı verim sənə. Qolunu yığıb, kürkün qolunu verib buna. Kişi özü sürüşüb kürkün içindən çıxıb, Hardov kürkü alıb gedib. Kişi qayıdıb gəlib evə. Hardov deyilənə görə, insana oxşuyur, iri bədənli, bədəni tüklü olur. Kürkü aparıb, çayın

qırağınan gedəndə "nə yüngülsən, nə ağırsan, İsmayıl" deyə-deyə kürkü okqədər vurub ki, deyilənə görə, kürk tikə-tikə olmuşdu.

Uşaq vaxtı anamgil deyirdi ki, bala, yastığının altına qıyıq qoymuşam, narahat olma. Gecə Hardov gələndə bu qıyığı onun alnına sancdınsa, adama çevriləcək, sənə heç nə eləmiyəcək.

## 185. CİN

Cin adamı aldadıb aparır. Mən başıma gələn əhvalatı danışacam, bəlkə də siz güləcəksiz. Balaəhməd kişi rəmətə gedəndə – qazmalarda olurdu, – Ay işığıdı, cümə axşamıdı. Qəbirstannıxda oxuyub "Yasin"i evə gedirəm. Cümə axşamı özünün evində Quran oxunmalıdı axı. Mən mütləq getməliyəm. Ay yavaş-yavaş tərpənir, çıxır o yannan. Yay günüdü. Kəndin ayağına düşdüm. Bəyverdigilin əkini yoxdu? Əkinin yaxınlığınnan beş-on addım getdim, bir səs gəldi mənim qulağıma. Danışıx səsləridi. Bismillah dedim, "Qul əuzu bin nas"ı oxuyub getdim. Arxdan keşdim, quru arxdan. Orda bir də səs gəldi mənim qulağıma: "A kişi, sən hara gedirsən?" Belə baxıram, deyirəm, ay Allah, bular meşədən gələn insannardı, qoz yığıblar, neyniyiblər? Gördüm, yox, səs hələ də qulağıma gəlir. "Bismillah" deyib getdim. Bir də gördüm, bir çalğı çalınır, seygah, muğamat, Allahıma and olsun. Bu səs mənim qulağımdan getmir. Vallah bu olub[91]. Mıx dayanmışam. Kef burdadır ki, bu səs məni hansı tərəfə yönəltsə, mən o səsə getməliyəm, bular hardadısa, onları tapmalıyam. Yenə də "bismillahi rəhmani rəhim", – deyib düşdüm aşağı. Çayın başına çatanda gördüm körpünün qırağında məclis var. Dedim, mən ilişdim da

[91] Dinləyicilərdən biri bunu qalusinasiya adlandırır, söyləyici ona cavab olaraq bu ifadəni işlədir.

bulara. Yolumu kəsib, körpünün başındayam. “Bismillah”, – deyə-deyə düşürəm aşağı, heş nə yoxdu. Keşdim körpünü, a töbə, heş bir səs yoxdu. O səsə uyan insan olsa, həmən səsnən səni aparır. Bu iş mənim özümün başıma gəlib.

## 186. HƏZRƏ KƏNDİ

Kənddəki nəsillər: qamolar, tağar, kütpayabur, şiələr. Qamo çuxur olan yerə deyilir. Çuxur olan ərazidə olduqları üçün onlara Qamolar deyilib. Tağar ona görə deyilir ki, unu tağarda saxlayıblar. Tağar pendir tuluğuna deyirik, erkək qoyunun dərisindən düzəldilirdi, içində tənbəki, tütün saxlayırdılar. Onların unu tağarda – tuluqda saxlanılırdı. Kütpayabur – itpaylıyan nəsil. Qardaşlar olub, atalarından qalan mirası aralarında bölürlər, axıra it qalır. İti də kəsib onu da bölüşdürürlər. Onların da adı ordan qalır. Şiələr Şeyx Cüneydin məqbərəsinin qoruyan nəsildən qalıb. Şeyx Cüneydin məqbərəsini qorumaq üçün İrandan müəyyən adamlar gətirilib. İndi onlardan qalan nəslə şiələr deyilir.

O vaxtı kənardan gəlmə adamı bizim kəndə qoymurdular. Gəlmə adamlar kənddə dava salırdılar. İki qardaş var burda, nəvələri indi də bu kənddə yaşayır. Dağıstanın Cəbə kəndinnən gəliblər, onların babaları küpçü idi. Bunları vaxtında bir gecəynən furqona yüklüyüb kənddən çıxardırlar. Çünki gəlməni qoymazdılar. Nə vaxtsa sataşıb oğurluğ ediblər, ona görə gəlmə adamları kəndə buraxmayıblar. Sovet hökuməti dövründə kəndə qayıdıblar. Deməzdilər ki, kəndi tərk edin. Yaxud döyməklə, öldürməklə hədələməzdilər. Qapıya və ya pəncərəyə nərdivan dirəyərdilər. Səhər duranda görəndə ki, qapıya nərdivan qoyulub, başa düşərdilər, kənddən çıxardılar.

## 187. QAFQAZ VƏ ŞAHDAĞ

Rəvayətə görə, Qafqaznan Şahdağ qardaş olublar, Samur da onların məhləsində bir qız olub. İkisi də Samuru isdiyib. Qız görüb ki, qardaşlar arasında dava var, heç cürə bunları ayırmaq mümkün deyil. Samur deyib ki, ay qardaşdar, siz olasınız hərəniz bir tərəfdə dağ, mən də olam sizin aranızda çay. Ondan sonra Samur çay olur, bu yanındakı Şahdağ, o yanındakı da Qafqaz dağıdı.

## 188. AYIN ÜZÜNDƏKİ LƏKƏ

Ayın anası təmiz qadın olub. O, divarı şirəynən ağardırmış. Şirənin də yaxşı qohusu olur, dadı da yaxşı olur. Divarı ağardan vaxtı Ay da bu yandan dilinən şirəni yalıya-yalıya gəlirmiş. Kort deyirlər, dəri parçasından olurdu, onunla divarı şirələyirdilər. Ayın bu hərəkətinə anası hirslənir, onunla Ayın sifətinə vurur. O vaxtdan Ayın üzündə ləkə qalıb.

## 189. ŞEYX CÜNEYD

Şeyx Cüneyt Şah İsmayılın babasıdı. Bizim qocalar ona Qızıl Şeyx Cüneyt deyirdilər. Samur çayının sağ sahilində Qıpçağ addı yerdə Şirvanşah Birinci Xəlilullahnan müharibə eliyir. Bu müharibədə Şeyx Cüneyt yaralanır. Şeyx Cüneyt vəsiyyət eliyir ki, məni qoyun dəvənin üsdünə, dəvə harda otursa, ordaca basdırın. Əsgərləri, müridləri müharibə qurtardıqdan sonra onu gizlicə qoyurlar dəvənin üsdünə, çıxardırlar çayın bu tərəfinə, Azərbaycan tərəfinə. Dəvə gəzə-gəzə gəlir, gəlir, oturur türbə tikilən yerdə. Onda burda kənd yoxuymuş, qalın meşəlik idi. Birinci dəfə oturub, durğuzurlar, ikinci dəfə oturub, durğuzurlar, üçüncü dəfə

oturanda orda can verir. Həmin yerdə də onu basdırırlar. Şah İsmayıl taxta çıxdıqdan sonra babasının qəbrini ziyarət eliyir. Sonralar Şeyx Cüneydin sümüklərini çıxardıb Ərdəbilə apardılar, amma Şah İsmayılın oğlu Təhmasib babasının xatirəsini əbədiləşdirmək üçün onun qəbri üsdündə 1544-cü ildə türbə tikdirdi. Piraldan çıxanda Ərəb dərəsi var, məscid üçün qırmızı kərpici orda kəsiblər. Məscid burda tikiləndən sonra – burda bir məhlə var, şiə məhləsi, – onlar məscidin qaroulunu çəkiblər. İndi insanlar niyyət tutub məqbərəni ziyarət eliyir.

## 190. ŞEYX RAMAZAN PİRİ

Yuxarıda – köhnə kənddə[92] Şeyx Ramazan baba piri var. Bunnan qabax uşaxlar göy ösgürəyə tutulanda aparırdılar Şeyx Ramazan babanın üsdünə ziyarətə. Orda Quran oxuyub, Yasin oxuyub tutyə suyunnan içirdən kimi sağalırdı.

## 191. UÇHABİL BABA

Habil baba elm adamı olub. Məclislərdə ona deyiblər ki, uç Habil, uç. Adı o vaxtdan Uçhabil qalıb. Uçhabil baba bir günə Hacc səfərinə gedib gəlib. O kişi, Allah rəhmət eləsin, şum sürən olup. Eşitdiyimə görə, sahədə olup. Gəlinə deyip ki, aman bala, sən bu öküzdərə bax, mən namaz qılım, gəlim. Gəlin öküzdərin yanında dayanıb. O kişi gedib namaz qılıb gəlib. Gəlin görüb ki, yayın güni bunun ayaxqabılarının içində qar var. Deyib, bu hardandı? Deyib, aman bala, aman bala, sən mənim sirrimi bildin ki? Sirri açıldığı üçün ölüb.

---

[92] Küsnət kəndinin yerləşdiyi əvvəlki ərazini nəzərdə tutur.

## 192. SEYİD MİRQƏLƏM BABA[93]

Deməli, Seyid Qələm baba dayim Məkkəyə ziyarətə gedirdi. Məkkədə ziyarətdə olan Nügədidən bir kişi buna rast gəlib. Kişi buna deyib ki, sən allah, pulum qurtarıb, hər şeyim qurtarıb. – İndi bunu buna calıyıblar da. Deyib, necə gedim, kimnən gedim ki, vətənə gedim çıxım? Deyiblər, vallah, hər cümə günü gəlib burda namaz qıla gedən kişi var Seyid Qələm deyilən, o kişini tap, onnan gedə bilərsən. – Yaxınnaşır, bu adamnan görüşür. Deyir, məsələ belədi, mənə kömək. Vətənə qayıtmalıyam, pulum qurtarıb, gedə bilmirəm. Mənə kömək elə, vətənə gedim. Deyib, mən sənə kömək eliyərəm, amma sirrimi açma ha. Sirrimi açsan, dərhal mən öləcəyəm. O kişiyə deyib ki, bismillahi rəhmani rəhim de, gözdərini yum. Bu gözdərini yumub, bir də görüb ki, Nügədidə öz bağındadı. Seyid Qələm baba buna deyib, mənim bu əmanətimi – təsbehlərimi bizim evə apar ver. Aparıb verib gəlib. Öz evinə gəlib, sirri açıb, kişi rəhmətə gedib.

## 193. DƏRVİŞ BABA

Dərviş baba mömin adam olub. Namaz qılarkən xəncərlə vurulub. Elə vəziyyətdə də namazını qılıb. “Allah nəslinizi kəssin” deyib. Öldükdən sonra qəbri ziyarətgah olub.

## 194. GÜLZAR NƏNƏ PİRİ

Əniğ kəndində təpənin üstündə Gülzar nənə piri var. Bu kəndə gətirilən gəlin olubmuş. O heç bəylə görüşmür, elə orda da rəhmətə gedir. Ondan sonra pir kimi ziyarət olunur.

---

[93] Quba rayonunun Xınalıq kəndində yerləşir.

## 195. ASQIRAN GƏLİN

Bir arvadın aman-zaman bir oğlu olur, onun üçün gəlin gətirir. Gəlin qapıdan çıxanda hər bir ana öz övladına öyüd-nəsiyət verən kimi qızın anası da ona öyüd-nəsiyət verir. Gəlinə tapşırır ki, üç gün səsini çıxartmırsan, səndən bir söz xəbər alanda başınan hə, yox eliyirsən. Asqırmırsan, öskürmürsən.

Bəli, ana nəsiyətini qurtarır, gəlini aparırlar. Toyun səhəri günü gəlinin qaynanası xalası qızını götürüb yas yerinə gedir. Gəlinin əri, qaynatası da şuma gedir. Gəlin evdə tək imiş. Belinə şar-şor bağlıyır, ağzını-başını bağlıyıb həyəti süpürürmüş. Toz qalxır, gəlin hündürdən asqırır. Gəlin narahatdı, anası tapşırıb səsin çıxmasın, amma bu asqırıb. İndi bilmək isdiyir, bunun səsini eşidən olub-olmayıb. Bunların bir dənə keçisi var imiş. Həyətdə bir budu, bir də keçi. Gedib keçidən soruşur ki, keçi, səsimi eşitdin? Keçi də ağzınan müəm-müəm eliyir (söyləyici keçinin kövşəməyini təqlid edir). Qız deyir:

– Vallah, eşidib.

Şalını başından açıb bağlıyır keçinin başına. Deyir:

– Qurban olum, ay keçi! Bu şal sənin olsun, heş kimə demə. Deyəcəksən?

Keçi bir də müəm-müəm eliyir. Gəlin belinin şalını da çıxardıb keçinin belinə bağlıyır. Paltarının yarısı keçinin üsdündə, yarısı öz üsdündə, bu vaxt qaynanası qapıdan içəri girir.

– Ay gəlin, nolub?

Deyir:

– Vallah, asqırmışam, səsimi keçi eşidib. Nə qədər and-aman eliyirəm, yola gəlmir ki, gəlmir. Elə hey deyir, deyəcəm hamıya.

Qaynana deyir:

– Bala, vay, biyabır olduq.

Qaçır mollanın yanına. Molla bundan soruşur ki, nolub? Niyə belə qaranəfəs üsdümə gəlmisən? Deyir:

– Molla, gəlinim asqırıb. Kitaba bax, gör bunun bir çarəsi varmı?

Molla kitaba baxıb deyir ki, get gəlindən soruşginən möhkəm asqırıb, yoxsa yavaşcana asqırıb? Gəlib gəlindən soruşur. Gəlin deyir:

– Möhkəm asqırmışam.

Qayıdıb mollaya deyir. Molla deyir:

– Sonu yaxşı olacaq, amma sən bunu heç olmasa musiqinən-zadnan xudmani qeyd eləməlisən.

Qaynana tez qaçır axşam toy çalan usdaların yanına. Gətirir, qaval-nağara, zurnaynan dapbadurub toy çalınır. Camaat səsə yığılır. Gəlinin ərinən qaynatası şumdan qayıdırlar. Görürlər, musiqi səsi gəlir, kimsə toy eliyir. Kəndə çatmağa az qalmış soruşurlar ki, bu nə toydu, kimin toyudu? Deyirlər, elə sizin həyətinizdədi. Şoruşurlar:

– Nədir?

Deyirlər:

– Bəs gəlin asqırıb.

Asqırıb deyəndə bəy hirslənib özündən çıxır:

– Sizə demişdim bu dəlini gətirməyin?

Çantanı atır yerə, kənddən baş götürüb gedir. Axşam çağıdı. – Piralda axsax, çolağ adamlar çox olur. Orda bir tacir var idi. O deyirdi ki, dünyada nə qədər ağıldankəm var, əlac tapmağ üçün bura pirlərə gəlib. Kim ki əlacını tapıb, sağalıb çıxıb gedib, əlacı tapılmayanlar burda qalıb. – Bu oğlan kənddən baş götürüb gedəndə belə ağıldankəmin birinə rast gəlir. Görür, qapıda bir

qarı oturub. Bu qarının da üç qızı varmış. Qarı görür bu oğlan fikirli-fikirli gedir. Deyir:

– A bala, hara gedirsən?

Deyir:

– Üzü belə gedirəm də. Baş götürüb gedirəm.

Deyir:

– Niyə gedirsən?

Oğlan başına gələn hadisəni danışır. Arvad deyir:

– Eh, onlar dəlidirlər, sən qal bizdə, səhər gedərsən. Axşamdı, ətraf da meşəlikdi, çakqal-çukqal yeyər səni.

Bağın yuxarısında hündür bir ağac vardı, onun da altından bulaq çıxırdı. Arvad böyük qızına deyir, get o bulaqdan su gətir. Hamısı da cavan, subay qızlardı. Böyük qız gedir, amma qayıtmır. Bu dəfə ortancılı göndərir ki, get gör o gorbagor bacın harda qaldı. Ortancıl qız gəlib görür ki, bacısı başını-gözünü yolub ağlayır.

– A bacı, niyə ağlayırsan?

Deyir:

– Uşağım öləcək, ona ağlayıram.

Deyir:

– Hansı uşaq?

Deyir:

– Kişi tapıb ərə gedəcəkdimmi? Gedəcəkdim. Uşağım olacaqdımı? Olacaqdı. Nadinc olacaqdımı? Olacaqdı. Nənəsigiə gələcəkdimi? Gələcəkdi. Bu ağaca minəcəkdimi? Minəcəkdi. Ağacdan yıxılıb öləcəkdimi? Öləcəkdi. Bax ona ağlayıram.

Bacısı da buna qoşulub başlıyır ağlamağa. Arvad çox gözləyir, görür ikincidən də xəbər çıxmadı, üçüncü qızı göndərir. Bu da bunlara qoşulub ağlayır. Axırda arvad özü gəlir. O da bun-

lara qoşulur. Oğlan görür gedən gəlmir. Bağın da yuxarısından bir qışqırıq, bir hay-haray səsi gəlir ki, gəl-görəsən. Gəlib deyir:

– Sizə nolub belə?

Qızların anası deyir:

– Qızımın uşağına görə ağlayırıq.

Deyir:

– Hansı uşaq?

Deyir:

– Qızım ərə gedəcək, uşağı olacaq, o böyüyəcək, gələcək nənəsigilə, çıxacaq bu ağaca, ordan yıxılıb öləcək.

Oğlan bunları görüb deyir:

– Bizim dəli bunlardan şükürlü imiş.

Ordan da qayıdır öz kəndinə.

## 196. KAS BABA

Kas babanın birinə on manat burcu varmış. Uzaxdan baxır ki, burc sahibi gəlir. Arvadı külafirəngidə dayanıbmış, Kas baba girir arvadın tumanının altına, orda gizdənir. Burc sahibi deyir ki, Kas baba hardadı? Arvadı deyir ki, qaratikan kolu kəsməyə gedib.

– Qaratikan kolunu neynir?

Deyir:

– Qaratikannardan çəpər düzəldəcək. Burdan Şah yaylağına çoxlu qoyun sürüləri gedir. O qoyun sürülərindən qaratikannara yun ilişəcək. Həmin o yunnardan biz ip əyirəceyik, ondan xalça toxuyacayıx, sonra onnarı satıb sənin burcunu verəceyik.

Burc sahibi qak-qak-qak gülür. Gülləndə Kas baba arvadın tumanının altından başını çıxardır:

–Xeyir ola, aşna, deyəsən, işdərin düzəlir, gülürsən.

## 197. YUYANDA YOX, SIXANDA ÖLDÜ

Bir ləzgi çayda diyanıbmış. Camaat çaydan keçəndə görüb ki, ləzgi pişik yuyur. Deyib, ay ləzgi, neynirsən orda?

Diyir:

– Qardaş, pişiy yua var.

Diyir:

– Çox gözəl! Ruslar da yuyur, nolar, pişik yumağ ayıb şey döyül ki.

Qayıdıb gələndə görüblər ki, pişik ölüb, ləzgi də boynun büküb diyanıb. Deyiblər:

– Ay ləzgi, nooldu?

Deyib:

– Pişik öldi?

– Necə öldi?

Dedi:

– Vallah, yuyanda ölmədi, siğəndə[94] öldi, qardaş.

## 198. HƏYƏTDƏ VURACAQDIM

Ləzgilər, adətən, dağlarda yaşıyırlar, əsasən də, ovçuluğnan məşğul olurlar. Bir məşhur ləzgi olur, bunun da yaxşı azərbaycanlı dosdu olur. Deyir ki, filankəs, Qusarın filan kəndində dəhşətdi ovçu var, gedək onnan xəbər tutağ, görək o deyildiyi qədər varmı? Bunlar gəlib diyirlər ki, salaməleyküm.

– Əleyküm.

Diyirlər:

– Qardaş, eşitmişik belə yaxşı ovçusan?

---

[94] siğəndə – sıxanda

Diyir:

– Hə, yaxşı ovçuyam.

Diyir:

– Bəs hara gedax?

Diyir:

– Bəs ayı ovuna gedax.

Diyir:

– Gedax.

Nə isə, bular iki dost gedillər ayı ovuna, tapıllar ayının yuvasın. Məşhur ovçu gələn qonağa diyir ki, sən çıx yuvanın üsdündə diyan, mən bunu qurdalıyım, çıxsın da yuvadan. Hə, diyir, olsun da. Ləzgi başdıyır buni qurdalamağa. Qurdalıyır ki, ayı yuvadan çıxsın. Ayı yuvadan çıxan kimi, qabağda ləzgi, dalınca ayı. Ləzgi qaçır, dalınca da ayı qovur. Qaçaqaç, qaçaqaç. Azərbaycanlı da qaçır bunnarın dalınca. Görür, ayı ləzgiyə çataçatdı, bir dənə güllə ayıya, ayı yıxılır. Yıxılanda qayıdıb diyir ki, ay ləzgi qardaş, sən nə ovçu oldun, ayının qabağından qaçdın? Diyir:

– Sən onu nöş vurdun? Mən onu aparıb həyətdə vuracağdım. İndi, diyir, nətəhər vurmusan, gəl apar onu.

## 199. SƏNİNLƏ İŞİM YOXDUR

Bir ləzgi Quba kimi bir yerə düşür. Park olur, parkda görür cavannar oturub. Ləzgi də pəzəvəng olur. Bu da bir stolun arxasında oturur. Baxıb görür ki, xırda-xırda adamlardı. Başdıyır stolun üsdündə əliylə çalmağa. Çalanda diyir ki, burda kişi yoxdu, burda kişi yoxdu. Bular da görüllər ki, doğrudan da, bu yekəpərin biridi, səsimizi çıxartsox bizi döyəcəh. Rasim

deyilən böyük, yekə bir kişi var, gedək oni gətirək. Gedib Rasim deyilən kişini gətirdib oturdurlar orda. Bu pəzəvəng də başını aşağı salıb "burda kişi yoxdu, burda kişi yoxdu" diyirmiş. Başını qaldıranda görür, adə, burda özünnən də yekəsi var. Döndərib:

– Sənnən işim yoxdu, sənnən işim yoxdu.

## 200. ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

